# MƏKTƏBƏ HAZIRLAŞIRIQ

# METODİK VƏSAİT

1-ci və 2-ci kitablar üzrə

## I hissə





- TANIYAQ VƏ ÖYRƏNƏK
- DİNLƏYƏK VƏ DANIŞAQ
- OXUYAQ VƏ YAZAQ
- SAYAQ VƏ DÜŞÜNƏK
- YARADAQ VƏ QURAQ

LALƏZAR CƏFƏROVA
KAMRAN SALAYEV
ÜLKƏR NURULLAYEVA
ŞƏHLA QULİYEVA

MƏKTƏBƏ HAZIRLAŞIRIQ

# METODİK VƏSAİT

1-ci və 2-ci kitablar üzrə




TANIYAQ VƏ ÖYRƏNƏK

DİNLƏYƏK VƏ DANIŞAQ

OXUYAQ VƏ YAZAQ

SAYAQ VƏ DÜŞÜNƏK

YARADAQ VƏ QURAQ

Tədris Resursları Mərkəzi

Bakı – 2019

Nəşrlə bağlı irad və təklifləri
artitrm2017@gmail.com
və derslik@edu.gov.az
elektron ünvanlarına
göndərə bilərsiniz.

# MÜNDƏRİCAT


1. Giriş ....................................................................................3
2. Məktəbəhazırlıq qrupu (5-6 yaş) üzrə ümumi təlim nəticələri
və məzmun standartları .........................................................7

MƏŞĞƏLƏLƏR ÜZRƏ TÖVSİYƏLƏR (I KİTAB) ...................................9
Mövzu 1. Ailə .........................................................................9
Mövzu 2. Ev ..........................................................................17
Mövzu 3. Otaqlar ...................................................................25
Mövzu 4. Əşyalar ...................................................................32
Mövzu 5. Gigiyena .................................................................40
Mövzu 6. Daxili üzvlər ............................................................47
Mövzu 7. Duyğu orqanları .......................................................55
Mövzu 8. Emosiyalar ...............................................................62

MƏŞĞƏLƏLƏR ÜZRƏ TÖVSİYƏLƏR (II KİTAB) .................................69

Mövzu 9. Bitkilər ....................................................................69
Mövzu 10. Heyvanlar ..............................................................76
Mövzu 11. Mühitlər .................................................................83
Mövzu 12. Ev heyvanları .........................................................91
Mövzu 13. Günəş və planetlər ..................................................98
Mövzu 14. Zaman ..................................................................107
Mövzu 15. Hava .....................................................................115
Mövzu 16. Fəsillər ..................................................................124

## GİRİŞ

Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Uşaqların məktəbəhazırlığının təşkili məsələləri haqqında” 271 nömrəli, 11 iyul 2016-cı il tarixli qərarı və “Ümumtəhsil məktəbinin nümunəvi nizamnaməsi”ndə dəyişikliklər edilməsi barədə” 272 nömrəli qərarlarına və həmin qərarların icrası barədə təhsil nazirinin (5 avqust 2016-cı il, №548) müvafiq əmrlərinə əsasən ümumtəhsil məktəblərində dövlət büdcəsinin vəsaiti hesabına məktəbəhazırlıq qrupları təşkil edilir.

Azərbaycan Respublikası təhsil nazirinin 16.09.2016-cı il tarixli 614 nömrəli əmrinə 2 nömrəli əlavəyə əsasən məktəbəhazırlıq məşğələləri gün ərzində 3 (üç) məşğələ tədris olunmaqla həftədə 4 (dörd) gün keçirilir. Bir məşğələnin müddəti 30 dəqiqə, məşğələlərarası fasilə 10 dəqiqə müəyyən edilir. Zehni gərginlik tələb edən məşğələlərdə idman dəqiqəsi keçirilir. Məktəbəhazırlıq qruplarında təhsil alan uşaqlara ev tapşırıqları nəzərdə tutulmur. Həftədə 4 gün fəaliyyət göstərən məktəbəhazırlıq qruplarının əsas məqsədi uşaqların tədrisə hazırlıqlı başlaması, dərs prosesinə öncədən alışması və onlarda müəyyən bilik, bacarıq və vərdişlərin formalaşdırılmasıdır.

Təhsil pillələri və səviyyələri arasında varislik prinsipi üzərində qurulmuş dialektik bağlılıq təmin edilməlidir. Bu mənada təsadüfi deyil ki, varislik “Məktəbəqədər təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda təhsil sahəsində dövlət siyasətinin əsas prinsiplərindən biri kimi təsbit olunmuşdur. Məktəbəqədər təhsil sahəsində varisliyin təmin edilməsi, məktəbəhazırlıqda bütün uşaqlar üçün bərabər imkanların yaradılması üçün 11 avqust 2019-cu il tarixində Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən “Azərbaycan Respublikasında məktəbəqədər təhsilin dövlət standartı” təsdiq edilib. Bu sənəddə 1-6 yaşlı uşaqların inkişaf dinamikasını izləməyə imkan verən məktəbəqədər təhsilin məzmunu, idarə olunması, infrastrukturu, maddi-texniki və tədris bazası, məktəbəqədər təhsil pilləsində təhsilverənlərin peşəkarlıq keyfiyyətlərinə dair tələblər, məktəbəqədər təhsilin yaş səviyyələrinə uyğun inkişaf sahələri üzrə ümumi təlimin nəticələri, uşaq inkişafının dəyərləndirilməsi və digər məsələlər öz əksini tapıb.

Təqdim edilən təlim vəsaitləri 5-6 yaşlı uşaqların təhsil müəssisələrinin (məktəbəqədər təhsil müəssisələri, məktəblər, inkişaf mərkəzlərinin) hazırlıq qrupları (sinifləri) üçün nəzərdə tutulmuşdur. Vəsaitlərə məktəbəqədər yaşlı uşaqların təlimi üçün kitablar və müəllim üçün hər bir məşğələyə aid metodik tövsiyələr daxildir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 oktyabr 2016-cı il 404 nömrəli qərarına və Azərbaycan Respublikası təhsil nazirinin 16.09.2016-cı il tarixli 614 nömrəli əmrinə 1 nömrəli əlavəyə əsasən dövlət ümumtəhsil məktəbinin məktəbəhazırlıq qrupu üçün tədris (məşğələ) planı təqdim olunmuşdur. Burada dərs məşğələlərinin həftəlik saatlarının miqdarı və keçiriləcək məşğələlərin adları verilmişdi:

| № | Dərs məşğələləri | Həftəlik məşğələ saatlarının miqdarı | İl ərzində məşğələ saatlarının miqdarı |
|---|---|---|---|
| 1 | Ətraf aləmlə tanışlıq | **1** | 30 |
| 2 | Savad təliminə hazırlıq və nitq inkişafı | **2** | 60 |
| 3 | Bədii təfəkkürün inkişafı | **1** | 30 |
| 4 | Məntiqi və riyazi təfəkkürün inkişafı | **2** | 60 |
| 5 | Təsviri fəaliyyət | **2** | 60 |
| 6 | Musiqi | **2** | 60 |
| 7 | Fiziki mədəniyyət | **2** | 60 |
| | **Cəmi:** | **12** | **360** |

Azərbaycan Respublikası təhsil nazirinin 16.09.2016-cı il tarixli, 614 nömrəli əmrinin 2 nömrəli əlavəsinə əsasən dövlət ümumtəhsil məktəblərinin məktəbəhazırlıq qrupunda məşğələlər həftədə 4 (dörd) gün keçilir. Bir gün ərzində 3 (üç) məşğələ tədris olunur. Müvafiq əmr əsasında dərsin təşkilinə verilən tələblər nəzərə alınmaqla tematik planlaşdırma əsasında hazırlanmış həftəlik təxmini dərs cədvəlini təqdim olunur:

| | |
|---|---|
| **I gün**<br>1. Məntiqi və riyazi təfəkkürün inkişafı<br>2. Fiziki mədəniyyət<br>3. Ətraf aləmlə tanışlıq | **III gün**<br>1. Məntiqi və riyazi təfəkkürün inkişafı<br>2. Fiziki mədəniyyət<br>3. Təsviri fəaliyyət |
| **II gün**<br>1. Savad təliminə hazırlıq və nitq inkişafı<br>2. Musiqi<br>3. Bədii təfəkkürün inkişafı | **IV gün**<br>1. Savad təliminə hazırlıq və nitq inkişafı<br>2. Musiqi<br>3. Təsviri fəaliyyət |

Uşaq vəsaitlərinin məzmunu 8 ayı (30 həftəni) əhatə edir. Hər ayın mövzusu müəyyənləşdirilmişdir. Bir həftədə 12 məşğələ planlaşdırılır. Hər bir həftə üçün məşğələlər üzrə səhifə miqdarı belə bölünür: “Ətraf aləmlə tanışlıq” – 1 səhifə, “Bədii təfəkkürün inkişafı” – 2 səhifə, “Məntiqi və riyazi təfəkkürün inkişafı” – 2 səhifə, “Savad təliminə hazırlıq və nitq inkişafı” – 2 səhifə, “Təsviri fəaliyyət məşğələləri” – 2 səhifə.

Cədvəldə 8 aylıq tədris müddəti üçün müəyyənləşdirilmiş aylıq mövzular təqdim olunur.

| Aylar | Mövzular |
|---|---|
| Oktyabr | Mən |
| Noyabr | İnsan |
| Dekabr | Təbiət |
| Yanvar | Təbiət hadisələri |
| Fevral | Vətən |
| Mart | Cəmiyyət |
| Aprel | Dəyərlər |
| May | Məsuliyyət |

Hər bir aylıq mövzu 4 alt mövzunu əhatə edir. Aşağıdakı cədvəldə isə məşğələlərin növləri, hər həftənin mövzusu və hər məşğələdə keçirilən mövzular təqdim olunur.

| **Məşğələlərin növləri** / **Mövzular** | **Ətraf aləmlə tanışlıq** ***(tanıyaq)*** | **Savad təliminə hazırlıq və nitq inkişafı** ***(yazaq və oxuyaq)*** | **Bədii təfəkkürün inkişafı** ***(dinlə və danış)*** | **Məntiqi və riyazi təfəkkürün inkişafı** ***(sayaq)*** | **Təsviri fəaliyyət** ***(yaradaq)*** | **Musiqi** | **Fiziki mədəniyyət** |
|---|---|---|---|---|---|---|---|
| **I və II KİTAB** | | | | | | | |
| 1. Ailə | Ailəmiz | **A a** səsi və hərfi | “Bala ayı haradadır?” | Sayma | Ailəmiz | “Anacan” | “Ayılar və arılar” |
| 2. Ev | Evlər | **N n** səsi və hərfi | “Toplanın evciyi” | 10 dairəsində sayma | Ev | “Qonaqlıq” | “Ev tikirik” |
| 3. Otaqlar | Otaqlar | **Ə ə** səsi və hərfi | “Məstan yer axtarır” | 10 dairəsində sayma | Otaqlar | “Laylay” | “Sərçələr yuvasına!” |
| 4. Əşyalar | Məişət əşyaları | **T t** səsi və hərfi | “Tutunun gəlinciyi” | Rəqəmləri öyrənirəm (1 və 2 rəqəmləri) | Məişət əşyaları | “Oyuncaqlar” | “İpin üstündən hoppanaq” |
| 5. Gigiyena | Bədən üzvlərimiz və gigiyena | **L l** səsi və hərfi | “Limpo və Lulu” | Rəqəmləri öyrənirəm (3 və 4 rəqəmləri) | Adam düzəldək | “Ağca dovşan və tülkü” | “Göyərçinin uçması” |
| 6. Daxili üzvlər | Daxili üzvlərimiz | **M m** səsi və hərfi | “Hansı vacibdir?” | Rəqəmləri öyrənirəm (5 və 0 rəqəmləri) | “Daxili üzvlər” | “Mənim kuklam” | “Daxili üzvlərimiz” |
| 7. Duyğu orqanları | Duyğu orqanları | **İ i, I ı** səsi və hərfi | “Qırmızı-papaq” nağılı | Rəqəmləri öyrənirəm (6, 7, 8 rəqəmləri) | Qırmızı papaq | “Təmizlik” | Bizim bədənimiz |
| 8. Emosiyalar | Emosiyalar | **B b** səsi və hərfi | Uşaq və buz şeiri | Rəqəmləri öyrənirəm (9 və 10 rəqəmləri) | Müxtəlif emosiyalar | “Pinti kuklam” | “Qatar” |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 9. Bitkilər | İnsan və təbiət | **Y y** səsi və hərfi | "Uçmaq istəyən çiçəklərin əhvalatı" | Az və çox | Ağac | "Bənövşə" | "Güllərin dərilməsi" |
| 10. Heyvan-lar | Zoopark-da | **S s, Ş ş** səsi və hərfi | "Şir və Siçan" | İlk, növbəti, sonuncu | Heyvan-ları çəkək | "Ayı" | "Boz qurd" |
| 11. Mühitlər | Nə harada yaşayır | **F f** səsi və hərfi | "Güzgü" | Sıra sayları | Meşə və dəniz düzəldək | "Canlı guşəmiz" | "Dovşanlar və itlər" |
| 12. Ev heyvanları | Nə harada yaşayır | **O o, Ö ö** səsi və hərfi | "İtlə insan necə dost oldular" | Əvvəl, sonra | Quzu | "Cücələ-rim" | "Toyuqlar bostanda" |
| 13. Günəş və planetlər | Günəş sistemi | **E e** səsi və hərfi | "Ay niyə itir" | 11 və 12 ədədləri, günün vaxtları | Raket və günəşin düzəldil-məsi | "Günəş" | "Kosmosa uçuruq" |
| 14. Zaman | Zamanla tanışlıq | **D d** səsi və hərfi | "Dəqiq olmalıyıq" | Saat | Saat | "Saat" | "Xilasedici-lər" |
| 15. Hava | Təbiət hadisələri | **C c, Ç ç** səsi və hərfi | "Proqnoz nə üçün lazımdır" | Həftənin günləri | Hava işarələri | "Qartopu" | "Şaxta" |
| 16. Fəsillər | İlin fəsilləri | **U u, Ü ü** səsi və hərfi | "İlin fəsilləri" | Fəsillər və aylar | Qar dənəciyi | "Fəsillər" | "Günəş və yağış" |

Təqdim edilən vəsaitdə 7 məşğələ növü üzrə həm məzmun, həm də metodik tövsiyələr hazırlanmışdır.

***Fiziki mədəniyyət*** – uşaqların sağlam, cəld, çevik, möhkəm, şən, nikbin əhvali-ruhiyyədə böyüməlırinə, məktəb təliminə uğurla hazırlaşmalarına xidmət etməlidir. Bu dövrdə uşaq fəal olmalı, başqa uşaqlarla mehriban oynamağı bacarmalıdır. Düzgün təşkil edilmiş idman məşğələləri – yeriş, qaçış, sürünmə, tullanma, dırmanma, tullama və bu kimi müstəqil hərəki fəaliyyətlər ürək-damar, tənəffüs və əsəb sisteminin fəaliyyətini yaxşılaşdırır, dayaq-hərəkət aparatını möhkəmləndirir, maddələr mübadiləsini yaxşılaşdırır. Bu hərəkətlər bədənin xəstəliklərə qarşı müqavimətini artırır, orqanizmin müdafiə gücünü səfərbər edir. Hərəki fəaliyyət vasitəsilə uşaq dünyanı dərk edir, onda psixi proseslər, iradə və müstəqillik kimi keyfiyyətlər formalaşır. Hərəkət vərdişlərinin formalaşdırılması ilə yanaşı, uşaqlarda fiziki keyfiyyətlərin də inkişaf etdirilməsi zəruridir. Uşaqların həmçinin düzgün qamət, hərəkət texnikası, hərəkətli oyunların qaydaları, eləcə də şəxsi və ictimai gigiyena barədə təsəvvürləri olmalıdır. Uşaqlar hərəkətlərin istiqamətlərini (yuxarı, aşağı, qabağa, arxaya, sağa, sola və s.), idman avadanlıqlarının adını və təyinatını, onların qorunması qaydalarını bilməlidirlər. Fiziki tərbiyə məşğələlərinin əsas komponentlərindən biri ümuminkişafetdirici çalışmalardır. Bu hərəkətlərin yerinə yetirilməsi uşaqların orqanizminin inkişafına, möhkəmləndirilməsinə xidmət edir. Ümuminkişafetdirici çalışmalar uşaqlarda güclülük, cəldlik, qıvraqlıq, dözümlülük kimi keyfiyyətlərin inkişafına təkan verir.

***Savad təliminə hazırlıq və nitq inkişafı*** məşğələsinin xüsusi əhəmiyyəti vardır. Məlum olduğu kimi, savad təlimi üç dövrə ayrılır: *əlifba təliminə hazırlıq dövrü, əlifba təlimi dövrü* və *əlifba təlimindən sonrakı dövr*. Birinci dövrdə oxu texnikasının, həmçinin yazı texnikasının mənimsənilməsinə hazırlıq üzrə iş gedir. Məktəbəqədər dövrdə uşaq əlifba təliminə hazırlıq mərhələsini keçməlidir. Əlifba təlimi dövrünə məktəbdə aparılan işlər daxildir.

*"Oxuyaq və yazaq"* başlıqlı materiallar əsasında uşaqlarla hərflərin böyük və kiçik çap formasının öyrədilməsi, öyrənilmiş hərfin və sadə sözlərin oxunması üzrə iş aparılır. Uşaqların əl yazısına (hüsnxət) alışmalarını təmin etmək üçün təsviri fəaliyyət məşğələlərində hərflərin elementlərinin çəkilməsi nəzərdə tutulur.

Məktəbə hazırlıqda əsas məşğələlərdən biri ***məntiqi və riyazi təfəkkürün inkişafıdır.*** Riyaziyyatın unikal inkişaf təsiri var. Onun öyrənilməsi yaddaşın, nitqin, təxəyyülün, emosiyanın inkişafına kömək edir. Həmçinin əzm, səbir və fərdi yaradıcılıq kimi keyfiyyətləri formalaşdırır. 5-6 yaşlı uşaqların psixoloji xüsusiyyətləri ilkin məntiqi və riyazi təfəkkürün inkişafı üzrə məşğələlərin təşkili zamanı bir sıra cəhətlərin nəzərə alınmasını, müxtəlif fəaliyyət növlərinin optimallığını, idman dəqiqələrinin keçirilməsini, oyun metod və vasitələrindən, inteqrasiyadan istifadə edilməsini tələb edir.

*"Sayaq və düşünək"* başlığı ilə təqdim olunan təlim materialları ilə iş zamanı uşaqlarda riyazi anlayışlar haqqında ilkin təsəvvürlər formalaşdırılır. Bu fəaliyyət əyani vasitələr, uşaqlara ətraf aləmdən tanış olan əşyaların tətbiqi ilə praktik şəkildə, uşaqların bilavasitə iştirakı əsasında aparılır. Təlimin məzmunu sırf praktik əsaslar üzərində qurulur və sadə riyazi təsəvvürlər verilir, sonra isə uyğun məşğələlərlə müvafiq təsəvvürlər inkişaf etdirilir. Məzmunun hazırlanması zamanı bütün bu deyilənlər nəzərə alınmışdır.

Riyaziyyatın mühüm sahələrindən olan həndəsi fiqurlarla tanışlıq böyük məktəbəqədər yaşlı uşaqlar üçün xüsusi əhəmiyyət kəsb edir. Həndəsi fiqurlarla tanışlıq fəza təsəvvürlərinin formalaşdırılması və müəyyən məsələlərin həllində istifadəsi, bu biliklərin riyaziyyatın digər sahələrinə tətbiqi və inkişaf sahələri arası inteqrasiya üçün geniş zəmin yaradır. Vəsaitdə dörd həndəsi fiqurla: dairə, üçbucaq, dördbucaq və kvadratla tanışlıq nəzərdə tutulmuşdur. Yeni olaraq dördbucaqlının öyrədilməsi nəzərdə tutulmuşdur. Çünki dördbucaqlı haqqında təsəvvürü olmayan uşağın kvadratı anlaması çətindir. Burada məqsəd uşaqlarda, əşyaya xas olan sadə forma əlamətlərini və fərqləndirici əlamətləri müəyyən etmək bacarıqlarının aşılanmasıdır.

Məktəbəhazırlıq qrupunda uşaqların ***ətraf aləmlə tanışlıq*** məşğələsi üzrə işin əsas məqsədi uşaqlarda onları əhatə edən gerçəklik (təbiət və cəmiyyət) haqqında ilkin real təsəvvürlərin, elmi dünyagörüşün əsaslarının elementlərini formalaşdırmaq, uşağın ümumi inkişafını, nəticə etibarilə məktəbə hazırlığını təmin etməkdən ibarətdir. Uşaq canlı və cansız təbiəti, təbiət hadisələrini müşahidə etməyi sevir. Obyektlər və ya materiallar ilə uşağın birbaşa əlaqəsi elementar təcrübədə onların xassələrini, keyfiyyətini, imkanlarını dərk etməyə imkan verir. *"Tanıyaq və öyrənək"* başlığı ilə verilmiş materiallar vasitəsilə uşaqlara yaş və anlaq səviyyələrinə uyğun olaraq onları əhatə edən ətraf aləmin qanunauyğunluqları arasında sadə əlaqələr izah edilir. Vəsaitdəki tapşırıqları yerinə yetirməklə uşaq yeni biliklərə yiyələnəcək, əqli fəallıq və müstəqilliyi inkişaf edəcək, qazandığı intellektual bacarıq və vərdişlər onun məktəbdə müvəffəqiyyətli təliminə zəmin yaradacaq.

***Təsviri fəaliyyət*** üzrə məşğələnin məzmunu uşaqların sensor inkişafına istiqamətlənib. *"Yaradaq və quraq"* başlığı altında verilən materiallar forma, həcm, rəng, məkana görə yerləşmə, həmçinin uşaqların qrafik fəaliyyətinin inkişafı, rəsm çəkmək də daxil olmaqla bir sıra bacarıqların formalaşmasına istiqamətlənib. Təsviri fəaliyyət üzrə məşğələlər təlim vəzifələrinin yerinə yetirilməsindən əlavə, uşaqların hərtərəfli inkişafı üçün mühüm vasitədir. Rəsmetmə, yapma, kəsib-yapışdırma, quraşdırma üzrə təlim məktəbəqədər yaşlı uşaqların əqli, fiziki, əxlaqi, estetik tərbiyəsinə kömək edir. Əyani-obrazlı təfəkkürün inkişafı təlim prosesində baş verir. Təsvir üsullarının müvəffəqiyyətlə mənimsənilməsi və ifadəli obrazın yaradılması, nəinki ayrı-ayrı əşyalar haqqında aydın təsəvvürlərin olmasını, həmçinin əşyaların xarici görünüşü ilə bir sıra əşya və hadisələrlə onun təyinatı üzrə əlaqələrin yaradılmasını tələb edir. Buna görə də təsvirdən qabaq uşaqlar onlarda formalaşmış anlayışlar əsasında əqli vəzifələri həll edirlər, sonra isə bu vəzifələri həyata keçirmək üsullarını axtarırlar. Həmçinin təsviri fəaliyyət əxlaq tərbiyəsinin vəzifələrinin həlli ilə sıx əlaqədardır. Bu əlaqə uşaq işlərinin məzmunu vasitəsilə həyata keçirilir. Ətraf aləm uşaqlara elə təəssüratlar verir ki, bu da sonra onların rəsmlərində və s. işlərində əks olunur.

***Bədii təfəkkürün inkişafı*** məşğələsi mühüm funksiyanı həyata keçirir. "Dinləyək və danışaq" bölməsi altında təqdim edilən bədii nümunələri dinləyərkən uşaq əsərin məzmununa əsasən həyəcan keçirir, qürurlanır, sevinir. Bədii nümunələrlə tanışlıq zamanı uşaq şəxsiyyətinin formalaşmasına xidmət edən dəyərlər formalaşır. Bədii nümunələrdə uşaqların qarşısında dilin dəqiqliyi və ifadəliliyi, şeirlərin ahəngi, dilimizin ritmi, hekayələrdə sözün lakonikliyi və düzgünlüyü açılır. Uşağın rabitəli nitqi inkişaf edir.

Məktəbəqədər dövrdə bədii nümunələrin qavranılması kifayət qədər mürəkkəbdir. Hər bir uşaq təsvir olunan hadisələrin sadə iştirakçısından bədii ədəbiyyatın estetik qavranılmasının mürəkkəb formalarına qədər uzun bir yol keçir. Bədii ədəbiyyatın estetik qavranılması inkişafın müəyyən mərhələsində məqsədyönlü qavrayışın nəticəsidir. Böyüdükcə uşaqlar bədii ədəbiyyatı təhlil etməyi, müəyyən məzmunu vahid bədii formada ötürməyi öyrənirlər, həmçinin bədii ifadə vasitələrini fəal mənimsəyirlər.

Vəsait üzrə işin ilkin mərhələsində uşaq təqdim edilən şəkillər vasitəsilə bədii mətnin ardıcıllığını gözləməklə məzmunu danışır. Həmçinin mətnə aid tapşırıqlar təqdim edilməklə uşaqların məntiqi və tənqidi təfəkkürünün inkişafına imkan yaranır. Uşaqların düşünüb cavab vermələri üçün suallar verilir.

***Musiqi məşğələlərinin*** məzmunu məktəbdə təşkil edilən hazırlıq qruplarının şəraitinə uyğun olaraq hazırlanıb. Musiqi məşğələləri uşaqlarda ümumi mədəniyyətin və musiqinin əsaslarının formalaşmasını, şəxsi keyfiyyətlərin tərbiyəsini, onlarda bacarıqlarının inkişafını həyata keçirən təlimin təşkilinin əsas formasıdır. Bu məşğələ müəllimlə uşaqların fəal qarşılıqlı fəaliyyətini tələb edir. Bu məşğələdə müəllimlərin qarşısında duran ən mühüm vəzifə uşaqlarda musiqiyə və musiqi fəaliyyətinə maraq yaratmaq, onların hisslərini zənginləşdirməkdir. Bu zaman digər məsələlər də: musiqi bacarığının inkişafı, zövqün formalaşdırılması, uşaqların müstəqil fəaliyyət zamanı istifadə edə bilmələri üçün zəruri bacarıq və vərdişlərin təlimi müvəffəqiyyətlə həll olunur. Uşaqlarda musiqili-ritmik hərəkətlər, ritm hissi inkişaf edir. Hər bir məşğələnin məzmunu həftəlik mövzuya əsasən hazırlanmışdır. Məşğələdə təlim prosesinin təşkilinin təxmini sxemi: yeni materialla tanışlıq, mənimsənilmiş hissənin səsləndirilməsi və alınmış biliklərin möhkəmləndirilməsi kimi aparılır.

Həftədə 2 dəfə keçirilməsi nəzərdə tutulan məşğələnin ikincisində marş musiqisi sədaları altında giriş hissə, yeni mahnının öyrədilməsi saxlanılmaqla həftəlik mövzu əsasında öyrənilmiş bədii nümunənin səhnələşdirilməsi nəzərdə tutulmuşdur. Burada bədii nümunənin komikslərinin xarakterinə uyğun musiqi parçaları səsləndirilir, uşaqlar isə həm mətnə, həm də musiqi parçasının xarakterinə uyğun olaraq həmin hissəni səhnələşdirirlər. Səhnələşdirmə zamanı uşaqlar həm musiqinin xarakterini, tempini, ritmini müəyyənləşdirir, həm də ona uyğun ritmik hərəkətləri yerinə yetirirlər. Musiqi məşğələsi üçün həm nəzərdə tutulan öyrədiləcək, həm də alternativ əlavə musiqi nümunələrini Youtube-dən və digər internet resurslarından əldə etmək olar. Planlaşdırmada birinci bəstəkarın, ikinci mətnin müəllifinin adı, soyadı verilib.

Məktəbəhazırlıq mərhələsi üçün hazırlanmış vəsaitlərin hər biri iki ayı əhatə etməklə, uşaq üçün 4 və müəllim üçün isə 2 kitabdan ibarətdir. Kitablar nömrələnmişdir və hər bir metodik vəsait uşaq üçün nəzərdə tutulmuş 2 kitabı əhatə edir.

Uşaq üçün vəsaitdə məktəbəhazırlıq mərhələsi üçün nəzərdə tutulan və kurikulumda təsbit olunmuş müvafiq məzmun standartlarını reallaşdıran təlim materialları əks olunur.

**Məktəbəhazırlıq qrupu (5-6 yaş) üzrə ümumi təlim nəticələri və məzmun standartları:**

- fiziki inkişafla bağlı müəyyən olunmuş müxtəlif hərəkətləri yerinə yetirir;
- gigiyena qaydalarını özünənəzarət əsasında nümayiş etdirir;
- masa arxasında süfrə mədəniyyətinə yiyələndiyini nümayiş etdirir;
- həyatına və sağlamlığına təhlükə yarada biləcək hadisələrdən qorunma qaydalarını izah edir;
- özü, ailəsi və Vətəni haqqında kiçik təqdimatlar edir;
- verilmiş mövzu ətrafında danışır;
- ətraf aləmdə baş verən hadisələrə münasibət bildirir;
- hərf və səsləri fərqləndirir;
- hecalar, hecalardan sözlər, sözlərdən cümlələr, cümlələrdən şifahi mətnlər qurur;
- kəsmə əlifba vasitəsilə sözlər düzür;
- əşyalarla 10 dairəsində riyazi əməliyyatlar yerinə yetirir;
- hadisələri məkan və zamana görə müqayisə edir;
- həndəsi fiqurları (dairə, üçbucaq, kvadrat) tətbiq edir;
- sadə kompozisiyalar qurur;
- təsvir prosesində rəng çalarlarından istifadə edir;
- ifaçılıq bacarıqları nümayiş etdirir;
- ünsiyyətini sosial normalara əsasən tənzimləyir;
- birgə fəaliyyət bacarıqları nümayiş etdirir.

**I. Fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik**

**1.1. Fiziki hərəkətləri yerinə yetirir.**

1.1.1. Fiziki inkişafla bağlı müəyyən olunmuş müxtəlif hərəkətləri (qaməti düz saxlamaqla istiqaməti və tempi dəyişərək yeriş və qaçış; müxtəlif əşyaların üstü, altı və arası ilə sürünmə; məhdudlaşmış sədd üzərində müvazinəti saxlamaqla yeriş və qaçış; gimnastika nərdivanına pillə-pillə dırmanma; kürəciyi diyirlətmə; qum kisəciyini atma, topu hədəfə atma) yerinə yetirir.

1.1.2. Yerində, uzununa, müxtəlif istiqamətlərə doğru və ip üzərindən tullanır.

1.1.3. Topu yerə vuraraq irəliləyir.

1.1.4. Kiçik motor hərəkətlərini (şəkil çəkir, konturdan kənara çıxmayaraq rəngləyir, verilmiş materialı və ya əşyanı hissələrə ayırır və birləşdirir, kontur üzrə kəsir, yapışdırır, quraşdırır, düzür və s.) koordinasiya edir.

**1.2. Masa arxasında davranış və gigiyena qaydalarına əməl edir.**

1.2.1. Gigiyena qaydalarını özünənəzarət (ehtiyac olduqda əllərini sabunla yumaq və qurulamaq, öz şəxsi əşyalarından – daraq, burun dəsmalı və salfetdən istifadə etmək) əsasında nümayiş etdirir;

1.2.2. Masa arxasında süfrə mədəniyyətinə yiyələndiyini nümayiş etdirir;

1.2.3. Sərbəst şəkildə özünəxidmət vərdişləri (paltarlarını səliqə ilə yığır; müstəqil şəkildə xarici görkəmində olan səliqəsizliyi aşkar edir və onu aradan qaldırır və s.) nümayiş etdirir.

**1.3. Təhlükəsizlik qaydalarına əməl edir.**

1.3.1. Həyatına və sağlamlığına təhlükə yarada biləcək hadisələrdən qorunma qaydalarını izah edir.

1.3.2. Təhlükəsizlik qaydalarına (həşərat, bitki və əşyalar, fövqəladə hadisələr və təbii fəlakətlər (yanğınlar, zəlzələlər, daşqınlar, sel və sürüşmələr, yol hərəkəti) zamanı situasiyaya uyğun davranmaq, müvafiq qurumları: yanğınsöndürən, təcili yardım və polisə çağırışlar edərək köməyə çağırmaq; məişətdə ehtiyatlı davranmaq) əməl edir.

**II. İdrakın inkişafı**

**2.1. Əşya və hadisələr haqqında ilkin təsəvvürə malik olduğunu nümayiş etdirir.**

2.1.1. Özü, ailəsi və Vətəni haqqında (dövlət rəmzləri, milli ordu, milli qəhrəmanlar, milli sərvətlər, tarixi günlər və abidələr, milli bayramlar) kiçik təqdimatlar edir.

2.1.2. Verilmiş mövzu ətrafında danışır və səbəb-nəticə əlaqələrini müəyyənləşdirir.

2.1.3. Ətraf aləmdə baş verən hadisələrə münasibət bildirir.

2.1.4. Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) qruplaşdırır və düzgün davranış (qorumaq, mühafizə etmək, qiymətləndirmək) bacarığı nümayiş etdirir.
2.1.5. Tədqiqat zamanı yaranan problemlərin həlli yollarını müəyyən edir.
2.1.6. Səma cisimlərində, gündəlik havada və ilin fəsillərində, bir neçə gün/gecə, həftə ərzində olan dəyişikliklərdə fərqli və oxşar cəhətləri müəyyən edir, səbəb-nəticə əlaqələrini izah edir.

**2.2. Nitqi dinləyib-anlayır, rabitəli danışır və nitq etiketlərindən istifadə edir.**
2.2.1. Dinləyib-anladığı fikirləri şərh edir.
2.2.2. Bədii nümunə, müşahidə və şəkillər əsasında fikrini sadə şəkildə şərh edir.
2.2.3. Nitq etiketlərindən ("buyurun", "xahiş edirəm", "xoş gəlmisiniz", "yaxşı yol"), jest və mimikalardan istifadə edir.
2.2.4. Hərf və səsləri (səs təhlili üzrə iş aparır, kəsmə əlifba vasitəsilə sözlər düzür və oxuyur) fərqləndirir.
2.2.5. Verilən səs üzrə sözləri seçir; səslərdən hecalar, hecalardan sözlər, sözlərdən cümlələr, cümlələrdən şifahi mətnlər qurur.
2.2.6. Nitqində əlamət, keyfiyyət, hiss bildirən, əks və eyni mənalı sözlərdən (şeir, hekayə və nağılın məzmununa uyğun və s.) istifadə edir.

**2.3. Sadə riyazi əməliyyatları yerinə yetirir.**
2.3.1. Əşyalarla 10 dairəsində riyazi əməliyyatlar yerinə yetirir.
2.3.2. Əşyaları forma, ölçüsünə və sayına görə qruplaşdırır.
2.3.3. Həndəsi fiqurları (dairəni, üçbucağı, kvadratı) tətbiq edir.
2.3.4. Məkan (sağdan sola, yuxarıdan aşağıya, ortaya, küncə) və zamana görə (ilin fəsilləri, aylar, həftənin günləri, günün hissələri, saat) anlayışları tətbiq edir.
2.3.5. Oyun və tədqiqatlar zamanı obyekt və hadisələri öyrənmək üçün elementar ölçü alətlərindən (tərəzi, böyüdücü şüşə, maqnit, xətkeş və s.) istifadə edir.

**III. Estetik və yaradıcı inkişaf**

**3.1. Sadə bədii yaradıcılıq bacarıqları nümayiş etdirir.**
3.1.1. Niyyət və süjet üzrə sadə kompozisiyalar (rəsmetmənin müxtəlif üsullarından istifadə edir; savad təliminə hazırlıq üçün zəruri olan elementar qrafik bacarıqlardan istifadə edir) qurur.
3.1.2. Təsvir prosesində fərqli rəng çalarlarını yaradır.
3.1.3. Müxtəlif kəsmə üsullarından istifadə edərək mövzular və təsəvvürləri əsasında kompozisiyalar qurur.
3.1.4. Yapma (mövzular, bədii əsərlər, təsəvvürləri əsasında sadə obrazlar yaratmaq) bacarıqları nümayiş etdirir.
3.1.5. Verilmiş nümunə və sxemlər əsasında (konstruktor, tikinti, tullantı, təbiət materiallarından və kağızdan istifadə edərək fərdi və kollektiv şəkildə müxtəlif fiqurlar və kompozisiyalar düzəltmək) planlaşdırır və sadə quraşdırma bacarıqları nümayiş etdirir.
3.1.6. Musiqi alətlərini (piano, qarmon, tütək, dəf, nağara, tar, kamança, metallofon) müqayisə edir.
3.1.7. İfaçılıq bacarıqları (solo və xorla rahat, təbii səslə oxumaq; musiqili-ritmik hərəkətləri yerinə yetirmək; uşaq musiqi alətlərində tək və ansamblda sadə ifa etmək) nümayiş etdirir.
3.1.8. Müstəqil yaradıcılıq (təsviri, musiqi və konstruktiv fəaliyyət, rolların ifası) qabiliyyətlər nümayiş etdirir.
3.1.9. Müxtəlif janrda olan bədii əsərlərin məzmununa münasibət bildirir.

**3.2. Sadə əmək bacarıqları nümayiş etdirir.**
3.2.1. Fərdi və kollektiv əməyin növləri üzrə (özünəxidmət, təbiətdə əmək, əl əməyi, təsərrüfat-məişət əməyi) müstəqil bacarıqlar nümayiş etdirir.
3.2.2. Əmək prosesində istifadə edilən alətləri adlandırır, parça və iynə-sapla sadə bacarıqlar nümayiş etdirir.
3.2.3. Növbətçilik zamanı öz üzərinə düşən vəzifənin mahiyyətini anlayır və yerinə yetirir.

**IV. Sosial-emosional inkişaf**

**4.1. Ünsiyyət bacarıqları nümayiş etdirir.**
4.1.1.Həmyaşıdları ilə ünsiyyət zamanı həmrəylik, emosional bağlılıq, inam nümayiş etdirir.
4.1.2. Birgə fəaliyyət zamanı tərəfdaşlarının maraq və fikirlərini nəzərə alaraq onların emosional vəziyyətinə diqqət nümayiş etdirir.

**4.2. Sosial həyatla bağlı bilik, bacarıq və vərdişlərini özünəməxsus tərzdə nümayiş etdirir.**
4.2.1. Digərlərinin arzu və istəklərini dəyərləndirir.
4.2.2. Fəaliyyətini qrupun qaydalarına uyğun tənzimləyir.
4.2.3. Məsələnin həllini axtararkən özünəinam və müstəqillik nümayiş etdirir.

**4.3. Hörmət (münasibət) və dözüm (tolerantlıq) nümayiş etdirir.**
4.3.1. Ətrafdakı insanlar arasındakı fərqlərə (fiziki, irqi, milli, dini, cinsi, sosial) dözümlülük nümayiş etdirir.
4.3.2. İnsanlara qarşı qayğıkeş münasibət bəsləyir, çətinlik zamanı kömək edir.

# MƏŞĞƏLƏLƏR ÜZRƏ TÖVSİYƏLƏR (I KİTAB)

| | |
|---|---|
| **Məşğələ 1. ƏTRAF ALƏMLƏ TANIŞLIQ**<br>**Mövzu:** AİLƏMİZ | **1-ci həftə \| AİLƏ**<br>**Standart:** 2.1.1.<br>**İnteqrasiya:** 2.2.2; 1.1.4. |
| **Məqsəd:** | • Ailəsi haqqında danışır.<br>• Yaxın qohumları adlandırır.<br>• Ailə haqqında məlumat əsasında suallara cavab verir. |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Ailə tablosu, iş dəftəri və rəngli  karandaşlar. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** — Uşaqlar, kitabın yuxarısındakı şəkillərə baxaq. Tülkü nə edir? *(Uşaqların cavabları)* Bəli, tülkü ailə albomunda şəkillərə baxır. Albomda kimlər təsvir olunub? Sizin də ailə albomunuz var? Əgər yoxdursa, siz öz ailə albomunuza şəkil yığsaydınız, kimlərin şəklini qoyardınız? *(Uşaqların cavabları)*

**Dərketmə**

**M:** "Uşaqlar, sizin də evdə albomunuz varmı? Həmin albomda kimlərin şəkilləri var?" *(Uşaqların cavabları)*

**I. M:** "Aralarında qohumluq münasibəti olan insanlar ailə adlanır. İnsan ailədə dünyaya gəlir, ailədə uşaqların tərbiyə edilməsi başlayır. Ailə — ata, ana, bacı, qardaşdır. Ata və ananız sizin valideynlərinizdir. Onların valideyni isə sizin nənə və babanızdır. Onlar da ailə üzvləridir. Bunlardan başqa, ailənin digər yaxın üzvləri bibi, xala, əmi, dayıdır. Atanın bacısı bibi, qardaşı əmi adlanır. Ananın qardaşı dayı, bacısı isə xala adlanır. Kimin əmisi və ya dayısı var? Kimin bibisi və ya xalası var?"

**M:** "Birinci tapşırığa nəzər yetirək. Şəkildə ailə təsvir olunub. Bu şəkildə uşaqlar varmı? Ən balaca uşaq nə edir? *(məsələn, divanda babanın yanında oturub, qucağında oyuncaq ayını tutub)*. Bəs böyük qardaş nə edir? *(məsələn, pişiklə oynayır).* Bəs bacı nə edir? *(kitaba baxır).* Onlar bacı-qardaşdırlar. İndi isə tapın görək, onların valideynləri harada dayanıblar? *(divanın arxasında).* Bəs divanda əyləşib yun saplardan şərf toxuyan kimdir? *(nənə)* Gözündə eynək, divanda oturub kitab oxuyan kimdir?" *(baba). (Uşaqların cavabları)*

**II.** Müəllim uşaqlara suallarla müraciət edir:

— Sənin ailəndə kimlər var? (*yardımçı suallar: "Sənin bacın və ya qardaşın varmı? Onlar səndən böyükdür, yoxsa kiçikdir? Adları nədir?" və s.)* — Ailə üzvləri bir-birinə necə qayğı göstərir? (*yardımçı suallar: "Ağır bir şeyi qaldırmaq lazım olanda kimi köməyə çağırırsınız? Bəs nənə iynəni saplaya bilməyəndə kömək üçün kimə müraciət edir?" və s.)* — Sən ailəyə necə kömək edirsən? *(məsələn, evin səliqəli olması üçün sən nə edə bilərsən? və s.) (Uşaqların cavabları)*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III.** M: "Şəkildə 4 adam təsvir olunub. Onların fərqli yaşları var. Ən kiçik qardaşı tapın və onun altındakı dairəni yaşıl karandaşla işarə edin. Sonra isə böyük qardaşı tapın və onun altındakı dairəni sarı karandaşla işarə edin. Uşaqların atasını tapıb onun altındakı dairəni qırmızı karandaşla işarə edin. Yaşca ən böyük kimdir? *(baba).* Onun altındakı dairəni isə göy rəngli karandaşla işarə edin". (Bu qayda ilə təsvir olunmuş 4 şəkil əhatə olunur.)

**IV.** M: "Ailə üzvlərini adlandırın. Göy köynək geyinən kimdir? Bəs qəhvəyi canlıq geyinən kimdir? Mavi və yaşıl rəngdə köynək geyinənlər kimdir? İndi isə hər ailə üzvünün əlindəki şarını tapın və həmin adamın köynəyinin rənginə uyğun rəngləyin".

(*Bu qayda ilə 4 şəklin hamısı əhatə olunur.)*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| **Məşğələ 2. BƏDİİ TƏFƏKKÜRÜN İNKİŞAFI**<br>**Mövzu:** BALA AYI HARADADIR? | **1-ci həftə \| AİLƏ**<br>**Standart:** 2.2.2; 2.2.1.<br>**İnteqrasiya:** 3.1.9. |
| **Məqsəd:** | • Bədii nümunə əsasında danışır.<br>• Dinlədiyi fikirləri anladığını nümayiş etdirir.<br>• Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir. |
| **İş üsulları:** | Müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Hekayənin mətni, şəkillər, rəngli karandaşlar. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** “Uşaqlar, şəkillərə diqqətlə baxın. Şəkildə hansı heyvanlar təsvir olunub? Onları adlandırın. Sizcə, burada nə baş verir?” *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** “Mən indi sizə şəkildə təsvir olunan personajlarla bağlı “Bala ayı haradadır?” hekayəsini söyləyəcəyəm. Şəkillərə baxa-baxa hekayəni dinləyin. Hər şəkil mətnin bir hissəsini təsvir edir. Mən deyəndə dinlədiyiniz hissəyə uyğun şəkli tapıb altındakı dairəni rəngləyin”.

1

“Ana ayı yuxudan oyandı. Gözlərini ovuşdurub ətrafa nəzər saldı. Yemək yeməsi üçün balasını oyatmaq istədi. Sağa baxdı, sola baxdı, amma balasını görmədi. Ana ayı yaman narahat oldu: “*Görəsən, balam hara getmiş olar?”,* Ana ayı balasını axtarmağa başladı”.

**M:** “Uşaqlar, sizcə bala ayı hara getmiş olar? *(Uşaqların cavabları)* Dinlədiyiniz hissəni əks etdirən şəkli qeyd edin”. Müəllim oxumağa davam edir.

2

“Ana ayı az getdi, çox getdi, bir kirpi ilə rastlaşdı. Kirpi ağacın altına tökülmüş almaları tikanlarına keçirirdi. Ayı kirpini görcək dedi:

– *Kirpi, mənim balamı görməmisən?*

Kirpi tikanlarını qabardıb dedi:

– Xeyr, mən *sənin* balanı görməmişəm. Səhərdən bala kirpilər üçün alma yığıram. Başım alma yığmağa qarışıb. İstəyirsən, sənə də verim?

Ana ayı *kədərli* halda dedi:

– Xeyr. Mən balamı tapmaq istəyirəm.

Ana ayı kirpi ilə sağollaşıb balasını axtarmağa davam etdi”.

**M:** “Uşaqlar, mənim indi oxuduğum hissəni müəyyənləşdirib işarə edin”.

Müəllim oxumağa davam edir.

3

“Bir az getmişdi ki, qarşısına dovşan çıxdı. Dovşan bostanda işləyirdi. Ayı dovşanı görcək dedi:

– *Dovşan, mənim balamı görməmisən?*

Dovşan uzun qulaqlarını qaldırıb dedi:

– Mən sənin balanı görməmişəm. Başım kökləri yığmağa qarışıb. Bala dovşanlar üçün kök yığmışam. İstəyirsən, sənə də verim?

Ana ayı astadan dedi:

– Xeyr. Mən balamı tapmaq istəyirəm.

Ana ayı dovşan ilə sağollaşıb balasını axtarmağa davam etdi.”

**M:** “Uşaqlar, şəkillərə diqqətlə baxın və dinlədiyiniz hissəyə uyğun şəkli tapıb, işarə edin”.

Müəllim oxumağa davam edir.

4

“Bir az getmişdi ki, budaqdan-budağa tullanan sincabı gördü. Ayı sincabı görcək dedi:

– *Sincab, mənim balamı görməmisən?*

Sincab uzun quyruğunu yellədib dedi:

– Xeyr, mən sənin balanı görməmişəm. Başım bala sincablar üçün qoza yığmağa qarışıb. İstəyirsən, sənə də verim?

Ana ayı qəmgin-qəmgin dedi:

– Xeyr. Mən balamı tapmaq istəyirəm.

Ana ayı sincab ilə sağollaşıb balasını axtarmağa davam etdi”.

**M:** “Uşaqlar, dinlədiyiniz hissəyə uyğun şəkli tapıb işarə edin”.

—İdman dəqiqəsi—

Müəllim oxumağa davam edir.

5

“Ana ayı həyəcanla ətrafa boylanırdı. Axı balasını kimdən soruşsun? Görəsən, onun balasını kim görüb?

Birdən ana ayının qulağına vızıltı səsi gəldi. Ətrafda çoxlu arı uçuşurdu. Ana ayı soruşdu:

– Ay arılar, bəlkə, mənim balamı görmüsünüz? Onu tapa bilmirəm. Çox narahatam.

Arılar cavab verdilər:

– Bəli, bəli, görmüşük. *Bax, orada bizim balımızı yeyir.*

Ana ayı, nəhayət ki, üz-gözü bala bulaşmış, şipşirin balasını tapdı”.

**II.** Müəllim suallarla uşaqlara müraciət edir:

– Ana ayı niyə narahat oldu? (*yardımçı sual: "Meşədə tək qalan bala ayının başına nə gələ bilərdi?"*) – Bala ayının harada olduğunu kim dedi? (*yardımçı sual: "Ana ayı bala ayının harada olduğunu ən sonuncu kimdən soruşdu?"*) – Sizcə, anası balasını tapanda ona nə dedi? (*yardımçı sual: "Balacalar icazə almadan nəsə edəndə böyüklər nə etməlidirlər?") (Uşaqların cavabları)*

**Tətbiqetmə mərhələsi**

**III. M:** "Şəkildə hansı heyvanları görürsünüz? Ana ayı birinci hansı heyvana rast gəldi? Ondan sonra kiminlə rastlaşdı? Sonuncu kimi gördü? Görüşdüyü personajları adlandırın və ardıcıllıqla xətlə birləşdirin".

**IV. M:** "Ana ayı şəkildə təsvir olunmuş heyvanlardan hansına rast gəlmədi? Əgər rast gəlsə idi, ona nə deyərdi?"

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | **1-ci həftə \| AİLƏ** |
|---|---|
| **Məşğələ 3-4. SAVAD TƏLİMİNƏ HAZIRLIQ VƏ NİTQ İNKİŞAFI**<br>**Mövzu: A (a) SƏSİ VƏ HƏRFİ** | **Standart:** 2.2.4.<br>**İnteqrasiya:** 1.1.4. |

| | |
|---|---|
| **Məqsəd:** | • A (a) səsini və hərfi fərqləndirir.<br>• A səsinin işləndiyi sözlər söyləyir.<br>• Xətt üzrə A (a) hərfini yazır. |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Şəkillər, karandaşlar, marker, lövhə və A hərfi. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** "Səhifənin yuxarısındakı şəklə baxaq. Şəkildə nə təsvir olunub? Tülkünün əlində nə var? Tülkü nə edir? *(Uşaqların cavabları)* "Alma" sözü hansı səslə başlayır? Söylədiyiniz hər bir sözü yazarkən hərflərdən istifadə edilir".

**Dərketmə**

**M:** "**A** hərfindən də digər hərflər kimi sözləri yazanda istifadə olunur. Uşaqlar, sarı çərçivəyə diqqətlə baxaq. Burada böyük və kiçik **A** hərfləri təsvir olunub".

*"A ilə Ana deyə*
*Aləmə səs salırıq.*
*Azərbaycan sözünə*
*A ilə başlayırıq".*

**M:** "Mənim söylədiyim şeirdə *Ana, Azərbaycan* sözləri hansı səslə başlayır? Gəlin birlikdə *Ana, Azərbaycan* sözlərini tələffüz edək. Sözün əvvəlində hansı səsi eşitdiniz? Bəli, uşaqlar, **A** səsini eşitdiniz**.** Uşaqlar, **A** səsi olduğu kimi, **A** hərfi də var**.** Biz sizinlə sözü söylədik və eşitdik. Eşitdiyimiz səs adlanır. **A**-nı yazarkən biz onu görürük. Bu isə hərf adlanır". *(Müəllim bunu başqa nümunələrlə izah edir)*

**I. M:** "Burada **A** hərfi təsvir olunub. Hərfin kənarında şəkillər təsvir olunub. Sol tərəfdə yuxarıdakı şəkildə nə təsvir olunduğunu söyləyin və bu sözün hansı səslə başlandığına diqqət edin. Bəs sağ tərəfdə aşağıdakı şəkildə nə təsvir olunub? *(Uşaqların cavabları)* (Şəkillərin hər biri üzrə bu qayda ilə iş aparılır.) Sözlərdən hansı **A** səsi ilə başlayır?*" (Uşaqların cavabları)*

**A** hərfinin rənglənməsi.

**II.** Müəllim lövhədə **A** hərfini izah edə-edə yazır. 1–2 uşaq da lövhədə tapşırığı yerinə yetirir. Digər uşaqlar öz kitablarında xətt üzrə **A** hərfini çəkir.

**M:** "Uşaqlar, **A** hərfinin ətrafında şəkillər təsvir olunub. Hərfin sol tərəfində hansı şəkillər təsvir olunub? Onları adlandırın. **A** səsi ilə başlayanları **A** hərfi ilə birləşdirin. Hərfin sağ tərəfində hansı şəkillər təsvir olunduğunu söyləyin. Söz **A** səsi ilə başlayırsa, həmin şəkli **A** hərfi ilə birləşdirin.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**M:** "Uşaqlar, bizim çoxlu hərflərimiz var. Onların içərisindən öyrəndiyiniz **A** hərfini seçin". *(Uşaqlar yerinə yetirir).*Müəllimin təklifi ilə kəsmə əlifbanın və ya maqnit hərflərin içərisindən deyilən hərfi seçib götürür və

lövhəyə yapışdırırlar.

**III. M:** "Uşaqlar, kitabın yuxarısında şəkillər var. Onları adlandırın. Baxın, hər bir şəklin yanında söz yazılıb. Diqqətlə baxıb həmin hərflərin içərisindən **A-**nı tapın və həmin pazlı nümunədəki kimi sarı karandaşla rəngləyin".

**IV. M: A** hərfi xətt üzrə verilib. Hərfləri kənara çıxmadan xətt üzrə çəkin".

**V. M:** "Şəkillər təsvir olunub. Onları adlandırın. Şəklin aşağısında isə hər biri bir hərfi bildirən muncuqlar verilib. Muncuqların sayı şəkildə təsvir olunan canlının adındakı hərflərin sayı qədərdir. Sapa düzülmüş muncuqlar həmin sözlərin səslərini əvəz edir. İndi isə diqqətlə baxaq və sözü bir daha söyləyək. Sarı muncuq hansı səsi əvəz edir?" *(Uşaqların cavabları)*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

Lövhədə böyük **A** ilə bərabər, kiçik **a** hərfi də ya asılır, yaxud proyektorla ekrana salınır. Verilmiş əlifbanın hərflərinin arasından **A** hərfi götürülərək lövhəyə qoyulur. **A** səsinin birlikdə və tək-tək tələffüz edilməsi üzrə iş aparılır. Müəllim uşaqların diqqətini kiçik **a** hərfinə yönəldərək deyir:

– Uşaqlar, hər bir hərfin həm böyük, həm də kiçik yazılış forması var.

**Dərketmə**

**I. M:** "Uşaqlar, şəklə diqqətlə baxın. Şəkildə nə təsvir olunub? Hərfin ətrafında nə təsvir olunub?" *(Uşaqların cavabları)* Bu, kiçik **a** hərfidir. Biz sizinlə böyük **A** hərfini öyrənmişik. Havada əlinizlə böyük **A** hərfini cızın. Şəkildə kiçik **a** hərfi təsvir olunub. **A** səsi ilə sözlər söyləyin. Uşaqlar, baxın, kitabınızda hərfin yarısı rənglənib. İndi siz eyni qayda ilə nümunəyə əsasən **a** hərfinin qalan hissələrini rəngləyin".

**II. M:** "Burada hansı hərflər təsvir olunub? Bəli, böyük **A** və kiçik **a** təsvir olunub. Hansı xanada böyük **A** və hansında kiçik **a** olduğunu tapın. Hərflərin yerləşdiyi xanaları nümunəyə uyğun rəngləyin".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** "Kitabınızda xətt üzrə hərflər verilib. Yuxarı hissədə olan hansı hərfdir? Bəs aşağı sətirdə çəkilən hansı hərfdir? Xətt üzrə böyük **A** və kiçik **a** hərfini çəkin. Çəkərkən ox istiqamətlərinə diqqət edin". *(Nümunələr üzrə hərfin möhkəmləndirilməsi)*

**M:** "Havada əlinizlə kiçik **a** hərfini cızın".

Lövhədə hərfin möhkəmləndirilməsi üzrə iş aparılır. Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**1-ci həftə | AİLƏ**

| | |
|---|---|
| **Məşğələ 5-6. RİYAZİ VƏ MƏNTİQİ TƏFƏKKÜRÜN İNKİŞAFI**<br>**Mövzu:** SAYMA | **Standart:** 2.3.2. |
| | **İnteqrasiya:** 2.2.2; 1.1.4. |
| **Məqsəd:** | • 10 dairəsində say bacarıqları nümayiş etdirir.<br>• Əşyaları sayına görə müəyyənləşdirir. |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Şəkillər, plastilin, rəngli karandaşlar. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Uşaqlar, kitabınızın yuxarısındakı şəklə diqqət yetirin. Orada nə təsvir olunub? *(Uşaqların cavabları)* Bəli, əl şəklidir və hər barmaqda tülkü təsvir olunub. Sizcə, şəkildə tülkünün ailə üzvlərindən kimlər təsvir olunub? Kim tülküləri saya bilər? *(Uşaqların cavabları)*

**M:** – Bəs sizin əlinizdə neçə barmaq var? Gəlin sayaq. Əlimizdə neçə barmaq oldu? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Birinci tapşırığa diqqət yetirin. Çərçivədə şəkillər və onların altında dairələr təqdim olunur.

Birinci çərçivədə sol tərəfdə nə təsvir olunub? Həmin çərçivədəki meyvələri sayın və sonra altında eyni sayda dairəni rəngləyin. İndi isə sağ tərəfdə ikinci çərçivədəki meyvələri sayın. Meyvələrin sayı qədər dairə rəngləyin".

Altı çərçivənin hamısı üzrə bu qayda ilə iş aparılır.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "İkinci tapşırığa baxaq. Burada nə təsvir olunub? Bəli, sol tərəfdə alma şəkilləri, sağ tərəfdə isə hissələri rənglənmiş çərçivələr təsvir olunub. Ən üstdəki almanı sayın və uyğun sayda hissəsi rənglənmiş çərçivə ilə birləşdirin. Ən aşağıdakı almaları sayın. Neçə alma oldu? (5) Hansı çərçivənin 5 hissəsi rənglənib? Almalarla uyğun çərçivəni birləşdirin. Fikrinizi izah edin". *(Uşaqların cavabları) (Bütün çərçivələr üzrə iş aparılır və meyvələr təsvir olunmuş çərçivələrin sayına əsasən müqayisə edilir.)*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

Müəllim "Kim sevirsə idmanı" (*musiqisi: Oqtay Zülfüqarovun, sözləri: Səttar Zərdablının)* mahnısını səsləndirir (və ya uşaqlar birlikdə ifa edirlər).

*Kim sevirsə idmanı – 1, 2, 3, 4; Poladdan olar canı – 1, 2, 3, 4.*

*İdmanı sevirik biz – 1, 2, 3, 4; Bərkiyir bədənimiz – 1, 2, 3, 4.*

**M:** – Uşaqlar, mahnıda neçəyə qədər sayılır? Gəlin əllərimizi açaq. Hər əlimizdə neçə barmaq var? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Kitabda müxtəlif sayda şəkillər təsvir edilib. Təsvir olunanları adlandırın. Sağda və solda təsvir olunanları sayın və sayı eyni olanları birləşdirin. Əvvəlcə qırmızı şarları tapıb sayaq. Neçə oldu? *(Uşaqların cavabları)* Gəlin sayı iki olan daha nə təsvir olunduğunu tapaq. İndi isə onları birləşdirin. Sayı dörd olanları tapın. Qarşı tərəfdəki şəkillərin arasında sayı dörd olanı tapıb onları birləşdirin".

Bu qayda ilə bütün təsvirlərlə işləyin. Tapşırıqları yerinə yetirərkən uşaqların fikirlərini əsaslandırmalarına nail olmaq lazımdır.

**II. M:** "Çərçivənin damaları və şarların sayı eynidir. Əvvəlcə bənövşəyi rəngli hissələri sayın, sonra həmin saya uyğun şarı rəngləyin. Sonra isə sarı rəngli qutuları sayıb, şarları sarı rəngli xanaların sayına uyğun rəngləyin".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** "Xanaları qırmızı və mavi rəngli şarların ümumi sayına uyğun rəngləyin". *Əgər uşaqlara çətin gələrsə:* "Gəlin əvvəl qırmızı şarları sayaq. Eyni sayda çərçivəni qırmızı karandaşla rəngləyək. İndi isə özünüz davam edin".

**IV. M:** "Sol tərəfdəki şarların rənginə diqqətlə baxıb hər sıradakı qırmızı şarları sayın və eyni sayda qırmızı xanası olan çərçivə ilə birləşdirin". *Əgər uşaqlara çətin gələrsə*: "Gəlin əvvəlcə qırmızı şarları sayaq. Eyni sayda çərçivəni qırmızı karandaşla rəngləyək. İndi isə özünüz davam edin".

**V. M:** "Şəkillərin hər birində çatışmayan hissələr var. Həmin hissəni müəyyənləşdirin və şəkli tamamlayın".

*Əgər uşaqlara çətin gələrsə:* "Gəlin əvvəlcə velosipedin çatışmayan hissəsini müəyyənləşdirin. Hansı hissəsi çatışmır? İndi həmin hissəni tamamlayın. Digərlərini müəyyənləşdirməyə özünüz davam edin".

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| | **1-ci həftə \| AİLƏ** |
| **Məşğələ 7-8. TƏSVİRİ FƏALİYYƏT**<br>**Mövzu: AİLƏMİZ** | **Standart:** 3.1.4.<br>**İnteqrasiya:** 1.1.4; 2.2.6. |

| | |
|---|---|
| **Məqsəd:** | • Yapma bacarıqları nümayiş etdirir.<br>• Ailə üzvlərinin obrazlarını yaradır. |
| **İş üsulları:** | Əqli hücum, suallar, söz assosiasiyası, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Şəkillər, plastilin, rəngli karandaşlar. |

**1-ci məşğələ**

**Motivasiya**

**M: –** Uşaqlar, ailə ağacı bilirsiniz nədir? *(Uşaqların fikirləri dinlənilir)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, gəlin ailə üzvlərimizi bir daha sadalayaq. (*Yerinə yetirilir)* Kitabınızda nəsil ağacı təsvir olunub. Ağacda boş çərçivələr verilib. Hər biriniz həmin çərçivələrə öz ailə üzvlərinizi çəkin".

**M:** "Siz əvvəlcə kimi çəkəcəksiniz? Nə üçün belə düşünürsünüz? Atanızı (və ya ailənin digər üzvlərini) necə çəkəcəksiniz? Nəyə görə belə çəkmək istəyirsiniz? Bəs kiçik qardaşınızı (və ya bacınızı) necə çəkəcəksiniz?"

Sualları cavablandırdıqdan sonra işə başlayırlar.

–İdman dəqiqəsi–

**Tətbiqetmə**

**II. M:** "Uşaqlar, biz sizinlə **A** hərfini öyrənmişik. Onu karandaşla yaza bilirsiniz. Havada əlinizlə **A** hərfini cızın. İndi isə **A** hərfini plastilindən düzəldin. A hərfini düzəltmək üçün neçə hissədən istifadə etdiniz? İndi isə **A** hərfi ilə başlayan sözlər söyləyək".

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M: –** Vəsaitin yuxarısındakı şəklə baxın. Orada plastilindən nə düzəldilib? *(Uşaqların cavabları)*

Bəli, ailə təsvir olunub. Ailə nədir? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, siz də plastilindən ailə üzvlərinizin fiqurlarını düzəldin". *(Müəllim bir nümunəni uşaqlara izah edə-edə göstərir və sonra uşaqlara yerinə yetirməyi təklif edir.)* Bitirdikdən sonra hər bir uşaq öz işi əsasında məlumat verir.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "Vəsaitdə xətt üzrə çəkilmiş dairələrdə şəkillər verilib. Onlar ailə üzvləridir. Həmin şəkillərin çərçivələri yoxdur. Siz həmin şəkillər üçün çərçivə düzəltməlisiniz. Bunun üçün xətt üzrə çəkərək, şəkilləri çərçivəyə alın".

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| | **1-ci həftə \| AİLƏ** |
| **Məşğələ 9-10. FİZİKİ MƏDƏNİYYƏT**<br>**Mövzu:** AYILAR VƏ ARILAR | **Standart:** 1.1.1. |
| | **İnteqrasiya:** 4.2.2. |

| | |
|---|---|
| **Məqsəd:** | • Sərbəst hərəkətlər göstərir.<br>• Hərəki fəallıq nümayiş etdirir. |
| **İş üsulları:** | Müzakirə, süjetli-rollu oyunlar. |
| **İş forması:** | Kollektiv, qruplarla və fərdi iş. |
| **Resurslar:** | Toplar, 1 ədəd ip, stullar, dəf (II məşğələ üçün uşaqların sayı qədər yarpaqlar). |

**1 və 2-ci məşğələlər**

**I. İsinmə hərəkətləri** (5 dəq.)
– bir-birinin ardınca yeriş və qaçış;
– qollar yuxarıda, barmaqları açıb-bükmək və pəncə üstə yeriş;
– qollar yanlarda, barmaqları açıb-bükmək və daban üstə yeriş;
– əllər beldə sağ və sol tərəfə əyilmək;
– əlləri yuxarı qaldıraraq nəfəs almaq və nəfəsi buraxmaq (4–5 dəfə).

**II. Ümuminkişafetdirici hərəkətlər** (20 dəq.)

**1. "Topla oynayaq"**
*ç.v.* – Qaməti düz saxlamaqla ayaqlar bir yerdə, əlləri toplarla aşağıda saxlamaq.
*1–2 sayında* müəllimin "topları göstərək" işarəsi ilə pəncə üstə qalxaraq topu yuxarı qaldırıb ona baxmaq;
*3–4 sayında* topları aşağı salaraq çıxış vəziyyətinə qayıtmaq (4–5 dəfə).

**2. "Topu atıb-tutaq"**
*ç.v.* – qaməti düz saxlamaqla ayaqlar çiyin bərabərində aralı, əllər toplarla aşağıda.
*1 sayında* topu iki əllə irəli uzatmaq;
*2 sayında* müəllimin "topu ataq" sözü ilə topu yuxarı atmaq;
*3 sayında* "topu tutaq" işarəsi ilə topu iki əllə tutmaq;
*4 sayında* ç.v.-nə qayıtmaq. (4–5 dəfə).

**3. "Topu ayağa çatdıraq"**
*ç.v.* – qaməti düz saxlamaqla ayaqlar çiyin bərabərində aralı, əllər toplarla aşağıda.
*1 sayında* topu iki əllə qabağa uzatmaqla başı dik tutub irəli baxmaq;
*2 sayında* müəllimin "topu ayağa çatdıraq" sözü ilə əyilərək, topu ayaq barmaqlarına toxundurmaq.
*3 sayında* qaməti düzəldərək topu iki əllə irəli uzatmaq;

*4 sayında* ç.v.-nə qayıtmaq (4–5 dəfə).

**4. "Topu diyirlədək"**

*ç.v.* – qaməti düz saxlamaqla ayaqlar bir yerdə. Çömələrək əlləri topla irəli uzatmaq.

*1–2 sayında* müəllimin "topu diyirlədək" işarəsi ilə topu ayağın üzəri ilə pəncəyə qədər diyirlətmək;

*3–4 sayında* topu iki əllə geri diyirlətmək (4–5 dəfə).

**5. "Topu biri-birimizə ötürək"**

*ç.v.* – qaməti düz saxlamaqla ayaqlar çiyin bərabərində aralı, qollar yanlarda. Topu bir-birinə ötürməklə, dairə üzrə qaçış. Qaçışı yerişlə növbələşdirmək (3 dəfə).

**Əsas hərəkətlər.**

**Hərəkətli oyun. "Ayılar və arılar"**

Uşaqların bir hissəsi "ayıları", qalanları isə "arıları" təmsil edirlər. "Ayıları" təmsil edən uşaqların sayı "arıları" təmsil edən uşaqların sayından artıq olmamalıdır. Otağın bir tərəfinə nərdivan qoyulur, "arıların yuvası – pətək" yaradılır. Nərdivandan 3–4 *m* aralı məsafədə "meşə", 8–10 *m* məsafədə "çəmənlik" təyin olunur. "Arılar" nərdivanın pillələrində – "pətəkdə" otururlar. Müəllimin işarəsi ilə "arılar" "çəmənlikdə" vızıldayaraq uçuşurlar. "Arılar" uçan kimi "ayılar" bal yemək üçün nərdivana – "arı pətəyinə" tərəf uçur və vaxtında "meşəyə" qaçıb gedə bilməyən "ayıları" sancırlar (əl ilə toxunurlar). "Arı" sancmış "ayı" artıq pətəyə tərəf getməməlidir.

**III. Sakitləşdirici hərəkətlər** (5 dəq.)

***"Ev tikirik", "Kərpicləri qaldırırıq"***

ç.v.: – ayaqlar aralı, əllər yanlarda.

1. *Nəfəs alma* – nəfəs alaraq əlləri yuxarı qaldırmaq.
2. *Nəfəs vermə* – gövdəni irəli əyib, qolları sərbəst sallayaraq yırğalamaq.
3. *Nəfəs alma* – nəfəs alaraq əlləri yuxarı qaldırmaq.
4. *Nəfəs vermə* – ç.v.-nə qayıtmaq.

**1-ci həftə | AİLƏ**

**Məşğələ 11-12. MUSİQİ**
**Mövzu: ANACAN**

**Standart:** 3.1.7; 3.1.8.
**İnteqrasiya:** 4.1.2.; 4.2.2.

| | |
|---|---|
| **Məqsəd:** | • Musiqinin xarakterini müəyyən edir.<br>• Xorda oxumaq bacarıqları nümayiş etdirir.<br>• Musiqinin xarakterinə uyğun ritmik hərəkətləri yerinə yetirir. |
| **İş üsulları**: | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Kompüter, disk, şəkillər, oyuncaq ayı balası. |
| **Musiqi materialı:** | "Sülh haqqında mahnı" (Q.Qarayev), "Beşik nəğməsi" (Azərbaycan xalq mahnısı), "Anacan" (R. Rüstəmov / R.Zəka), "Ayı" (M.Əhmədov / C.Məmmədov)<br>Simfoniya №5, I hissə (L.Bethoven) |
| **Alternativ material:** | **Dinləmə:** "Nənə rəqs edir" Pyes. O. Zülfüqarov<br>**Mahnı:** "Ana" (mus. E. Dadaşova, söz. S.Tağıyeva), "Ay ana, ay nənə" (mus. R.Şəfəq, söz. Ə.Ağayev), "Anam" (mus. N.Məmmədəliyev, söz. N.Hüseyn), "Babam" (mus. O.Zülfüqarov, söz. M.Namaz) |

**1-ci məşğələ**

**1. Marş.** "Sülh haqqında mahnı" (Q.Qarayev).

Marşlar, marş musiqisi haqqında qısa məlumat verilir. Uşaqlar bir-birinin ardınca düzülür, marşın sədaları altında qaməti düz saxlamaqla yerlərində addımlayırlar və musiqinin dəyişməsi ilə ritmlə yüngül qaçış edirlər. Sonda yenidən ritmik yerişlə yerlərində addımlayır və dayanırlar.

**2. Dinləmə.** Beşik nəğmələri, laylalar haqqında qısa məlumat verilir. "Beşik nəğməsi" Azərbaycan xalq mahnısı səsləndirilir. Əsəri dinlədikdən sonra müəllim uşaqlara suallarla müraciət edir:

– Dinlədiyiniz musiqinin xarakteri necə idi?
– Bu musiqidə nədən bəhs edilir?
– Beşik nəğmələri nə zaman ifa olunur? *(Uşaqların cavabları)*

**3. Mahnı.** "Anacan" (mus. R.Rüstəmov / söz. R.Zəka) mahnı
sı şifahi yolla öyrədilir. Müəllim əvvəl xorda oxu qaydalarını (düzgün nəfəsalma, müəllimin göstərişlərinin yerinə yetirilməsi, dirijorluq jestlərinin mənasını) qısa və aydın şəkildə izah edir. Sonra "Anacan" mahnısı, onun

məzmunu haqqında qısa məlumat verir. Mahnı təqdim olunur (müəllimin ifasında və ya hər hansı bir texniki vasitələrdən istifadə etməklə səsləndirilir). Uşaqlar dinlədikdən sonra mahnı hissə-hissə, frazalarla öyrədilir. Tələffüzü çətin olan sözlər və melodiya üzərində iş aparılır.

Sonda "Anacan" mahnısının öyrənilmiş hissəsi xorla ifa edilir, məzmunu və xarakteri müzakirə olunur.

**4. Musiqili-ritmik hərəkətlər:** Azərbaycan xalq rəqslərindən kiçik musiqi parçaları səsləndirilir.

Uşaqlarla musiqinin ritminə uyğun əl və bədən hərəkəti elementlərinin öyrədilməsi üzrə iş aparılır.

Məşğələ ümumiləşdirilərək yekunlaşdırılır.

**Musiqi materialı.**

**Anacan**

Gün çıxdı, güldü göylər,
Nur yayıldı aləmə,
Çünki biz şənlənirdik,
Dilimizdə bu nəğmə

Quş uçdu yuvasından,
Səsi düşdü aləmə.
Çünki biz şənlənirdik,
Dilimizdə bu nəğmə.

Sel axdı, çaylar daşdı,
Bahar güldü aləmə.
Çünki biz şənlənirdik,
Dilimizdə bu nəğmə.

Nəqərat: Deyirik hamımız: Anacan.
Sevimli mahnımız Anacan.

**2-ci məşğələ**

**Marş.** "Sülh haqqında mahnı" (Q.Qarayev).

**Mahnı.** "Anacan" mahnısı (R.Rüstəmov / R.Zəka).

**Səhnələşdirmə.** "Bala ayı haradadır?" (resurs: oyuncaq ayı balası).

"Bədii təfəkkürün inkişafı" məşğələsindən uşaqlara tanış olan "Bala ayı haradadır?" mövzusunun daha yaxşı qavranılması və yadda qalması üçün həmin mövzunun məzmununun uşaqlar tərəfindən səhnələşdirilməsi məqsədəuyğundur. Bunun üçün vəsaitdə verilmiş həmin mövzunun (komikslərin) illüstrasiya və şəkillərindən, həmçinin müəllimin izahı və göstərişlərindən istifadə edilməlidir. Şəkillərin (komikslərin) hər biri bir səhnə kimi qəbul oluna bilər. Hər bir səhnə, yəni şəkildə verilmiş məzmun və onun xarakterinə uyğun musiqi sədaları altında uşaqlar həmin səhnəni hərəkət və emosiyaları ilə canlandırmağa, ritmik hərəkətlərdən istifadə etməklə səhnələşdirməyə çalışırlar.

| № | Musiqi materialı | Fəaliyyət |
|---|---|---|
| 1 | Simfoniya №5, I hissə. Giriş | Ana ayı həyəcanlıdır və itmiş balasını axtarır. |
| 2 | "–" | Maralın təsviri (yerişi, buynuzları və s.) |
| 3 | "–" | Dovşan (qulaqları, hoppanması və s.) və kirpinin (tikanları, yerişi və s.) |
| 4, 5 | "– – –" | Arı (vızıldamağını) və bala ayının bal yeməsini təsvir edirlər. |
| 6 | "Ayı" | Bütün uşaqlar bala ayını dairəyə alaraq sevinclərini təsvir edirlər. |

| **Məşğələ 1. ƏTRAF ALƏMLƏ TANIŞLIQ**<br>**Mövzu:** **EVLƏR** | **Standart:** 2.1.5.<br>**İnteqrasiya:** 2.2.1; 1.1.4. |
|---|---|

| | |
|---|---|
| **Məqsəd:** | • Evlər haqqında danışır.<br>• Evlərin nədən hazırlandığını söyləyir.<br>• Evin hissələrini sadalayır.<br>• Öz evlərini təsvir edir. |
| **İş üsulları**: | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Müxtəlif evlər təsvir olunmuş tablo, iş dəftəri və rəngli karandaşlar. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, vəsaitin yuxarısındakı şəkillərə baxaq. Tülkü nə edir? Tülkü üst-üstə neçə kərpic qoyub? Bəli, tülkü kərpicləri üst-üstə qoyaraq nə isə tikir. Sizcə, o nə tikir? *(Uşaqların cavabları)*

**Dərketmə**

**M:** "Uşaqlar, insanlar harada yaşayır?" *(Uşaqların cavabları)*

**I. M:** "Ev – insanların yaşamaq və istirahət yeridir. Ev bir şəxs və ya ailənin yaşaması üçündür. Evlər müxtəlif cür olur. Bir və ya bir neçə mərtəbəli evlər olur. Kitabınızdakı şəkildə təsvir olunmuş belə evlərin *həyətyanı* sahəsi olur. Bu cür evlərin *damları* və damda sobanın tüstüsü çıxması üçün *baca* olur. Damın altı *çardaq* adlanır. Evin altı isə *zirzəmi* adlanır. Bir çox həyətlərdə *qaraj*, itlər üçün *dam*, toyuqlar üçün *hin*, heyvanlar üçün isə *tövlə* olur. Bu evlərin ətrafına *hasar* çəkilir. Evlər həm də çoxmərtəbəli inşa edilir. Bütün evlərin mənzillərinin *döşəməsi* və *tavanı* olur. Ətraf yan hissələr isə *divar* adlanır. Evlərin *eyvanı* olur. Yaşadığı ölkədən və iqlimdən asılı olaraq evlər müxtəlif cür olur: məsələn, eskimoslar "iqlular" adlanan buzdan hazırlanmış evlərdən istifadə edirlər. "İqlu" daimi yaşamaq üçün nəzərdə tutulmamışdır".

Əsasən, ov və ya bir neçə günlük gəzinti zamanı gecələmək üçün nəzərdə tutulan iqlular qardan hazırlanır. Bəzi ölkələrdə isə çadırlarda yaşayırlar. Sibirdə taxtadan evlər tikilir. Taxta evlər qışda isti, yayda sərin olur. Bunlardan başqa, evlər daş və kərpicdən də tikilir".

"Birinci tapşırığa nəzər yetirək. Şəkildə nə təsvir olunub? Təsvir olunanları adlandırın və şəkil üzrə danışın".

**M:** "Tap görək, bu nədir?" Qarajı təsvir edin: "O, evin yanındadır və evdən kiçikdir. İçərisindən maşın çıxır. O nədir?", "Bəs ikimərtəbəli, qırmızı örtüklü damında bacası olan nədir?" *(ev)* "Bəs evin ətrafına nə çəkilib?" və s. *(Uşaqların cavabları)*

**II. M:** Müəllim uşaqlara suallarla müraciət edir:

– Ev nə üçün lazımdır? – Evin hansı hissələri olur? – Sən nə cür ev tikərdin? *(Uşaqların cavabları)*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** "Şəkildə müxtəlif cür evlər təsvir olunub. Kitabın sağ tərəfində yuxarıda təsvir olunmuş evlə sol tərəfdə yuxarıda təsvir olunmuş evlərin fərqini söylə". (Bu qayda ilə təsvir olunmuş 5 şəkil əhatə olunur).

**IV. M:** "Şəkildə sol tərəfdə evlər təsvir olunub. Sağ tərəfdə isə evlərin hazırlanmasında lazım olan materiallar göstərilir. Bu materialları adlandırın. Təsvir olunmuş evlərin tikildiyi materialı müəyyənləşdirin və xətlə birləşdirin". *(yardımçı suallar: "Buz kərpiclə daş kərpicin fərqi nədir? Bizim ölkədə də buzdan evlər tikmək olarmı? Olmazsa, nə üçün?")*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | 2-ci həftə \| EV |
|---|---|
| **Məşğələ 2. BƏDİİ TƏFƏKKÜRÜN İNKİŞAFI**<br>**Mövzu: TOPLANIN EVCİYİ** | **Standart:** 2.2.2; 2.2.1. |
| | **İnteqrasiya:** 2.1.3; 1.1.4. |

| | |
|---|---|
| **Məqsəd:** | • Bədii nümunə əsasında danışır.<br>• Dinlədiyi fikirləri anladığını nümayiş etdirir.<br>• Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir. |
| **İş üsulları:** | Nağıletmə, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Hekayənin mətni, şəkillər, rəngli karandaşlar. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, şəkillərə diqqətlə baxın. Şəkildə nə təsvir olunduğuna diqqət yetirin. Şəkildə təsvir olunanları adlandırın. Sizcə, burada nə baş verir? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Mən indi sizə şəkildə təsvir olunan personajlarla bağlı "Toplanın evciyi" hekayəsini söyləyəcəyəm. Şəkillərə baxa-baxa hekayəni dinləyin. Hər şəkil mətnin bir hissəsini təsvir edir. Mən deyəndə dinlədiyiniz hissəyə uyğun şəkli tapın və altındakı dairəni rəngləyin".

1

Hava soyuq və küləkli idi. Üstəlik güclü yağış da yağırdı. Nuru yağışın səsini eşidən kimi pəncərəyə yaxınlaşdı. Bir xeyli yağışa tamaşa etdi. Öz-özünə düşündü: "Yaxşı ki evimiz var. Evin damı bizi yağışdan, divarları isə küləkdən qoruyur". Nuru yağışın altında büzüşüb dayanmış bir it gördü. O, soyuqdan tir-tir əsirdi.

**M:** "Uşaqlar, siz necə hərəkət edərdiniz? Dinlədiyiniz hissəyə uyğun şəkli tapıb işarə edin".

Müəllim oxumağa davam edir.

2

Nuru itə yemək verdi. İslanmış tüklərini sığallayıb dedi:

– Gərək sənə bir ad tapaq. Qoy adın Toplan olsun.

Toplan adını eşidən kimi sevinclə hürdü. Sanki adını bəyəndiyini bildirirdi.

**M:** "Uşaqlar, siz nə ad qoyardınız? İndi isə oxuduğum hissəni müəyyənləşdirib işarə edin."

Müəllim oxumağa davam edir.

3

Nuru Toplana baxıb astadan pıçıldadı:

– Sənə evcik düzəltmək lazımdır.

Nuru zirzəmidən taxta, çəkic və mismar götürdü. O, əvvəlcə evciyin divarların hazırladı. Nuru sevinclə dedi:

– Bax belə, divarlar artıq hazırdır. Həm də möhkəmdir. Küləyə davam gətirər.

**M:** "Uşaqlar, siz evi nədən hazırlayardınız? İndi isə dinlədiyiniz hissəyə uyğun şəkli tapıb işarə edin".

Müəllim oxumağa davam edir.

4

Daha sonra o, yastı taxtalardan evciyin damını düzəltdi. Nuru evciyin damına baxıb dedi:

– Toplan, bu səni yağışdan, qardan qoruyacaq.

**M:** – Uşaqlar, Nurunun hərəkətini bəyəndiniz? Uşaqlar, şəkildə dinlədiyiniz hissəyə uyğun şəkli tapıb işarə edin".

Müəllim oxumağa davam edir.

5

Artıq Toplanın evciyi hazır idi. Nuru nə isə fikirləşib evə qaçdı. Əlində balaca döşəkcə geri qayıtdı. Döşəkcəni evciyə qoyub dedi:

– Toplan, bax, bunun üstünə yat. Qoy yerin isti olsun.

**M:** "Uşaqlar, şəkillərə diqqətlə baxın və dinlədiyiniz hissəyə uyğun şəkli tapıb işarə edin".

Müəllim oxumağa davam edir.

6

Toplan sevincindən atılıb-düşürdü. O, quyruğunu bulaya-bulaya evciyinə girib yumşaq döşəkcənin üstündə oturdu. Toplan çox sevinirdi. Nuru pəncərədən ona tamaşa edirdi. Artıq yağış nə Nurunu, nə də Toplanı narahat etmirdi.

**M:** "Uşaqlar, dinlədiyiniz bu hissəyə uyğun şəkli də tapıb işarə edin".

—İdman dəqiqəsi—

**II.** Müəllim uşaqlara suallarla müraciət edir:

– Nuru niyə Toplan üçün evcik tikmək istədi? (*yardımçı suallar: "Nuru Toplan üçün niyə narahat oldu? Nəyə görə ev tikmək qərarına gəldi?" – "Nuru evciyi necə tikdi?" – "Sən Toplana necə kömək edərdin?")*

**Tətbiqetmə**

**III.** Müəllim uşaqlara suallarla müraciət edir:

– Nuru evciyi nədən tikdi? *(yardımçı sual: "Nuru evciyi tikərkən nədən istifadə etdi?") – Nə üçün o, evciyi samandan və ya buzdan tikmədi? – Toplan üçün evciyi daha hansı materialdan tikmək olardı?"*

**IV. M:** – Şəkillərə diqqətlə baxın, ardıcıllığı gözləməklə hekayəni danışın. *(yardımçı suallar: "Nuru yağışın altında dayanıb islanan hansı heyvanı gördü?" – "Nurunun hərəkətini bəyəndinizmi?" "Nə üçün?")* Müəllim uşaqlar hekayəni danışarkən ardını davam etdirməyi digər uşaqlara təklif edir.

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| | **2-ci həftə \| EV** |
| **Məşğələ 3–4. SAVAD TƏLİMİNƏ HAZIRLIQ VƏ NİTQ İNKİŞAFI**<br>**Mövzu: N (n) SƏSİ VƏ HƏRFİ** | **Standart:** 2.2.4.<br>**İnteqrasiya:** 1.1.4. |

| | |
|---|---|
| **Məqsəd:** | • **N** (**n**) səsini və hərfi fərqləndirir.<br>• **N** səsinin işləndiyi sözlər söyləyir.<br>• Xətt üzrə **N** (**n**) hərfini çəkir. |
| **İş üsulları**: | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi. |
| **Resurslar:** | Şəkillər, karandaşlar, marker, **N** hərfi. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** "Səhifənin yuxarısındakı şəklə baxaq. Şəkildə nə təsvir olunub? Tülkü nə edir? Narı dərmək üçün nədən istifadə edir? *(Uşaqların cavabları)* Düzdür, ***nərdivan***a çıxaraq nar dərir. **Nar, nərdivan** sözləri hansı səslə başlayır?

– Bilirsiniz ki, söylədiyimiz hər bir söz yazılarkən hərflərdən istifadə edilir. Dinləyin:

*N, nənəmin ninnisi, N, nənəmin nehrəsi, N, nənəmin şipşirin, Noğul kimi nəvəsi".*

**Dərketmə**

**M:** "N hərfindən də digər hərflər kimi sözləri yazanda istifadə olunur. Uşaqlar, sarı qutuya diqqətlə baxaq. Burada **N** hərfi təsvir olunub".

**M:** "Gəlin bir daha xatırlayaq: "Hərfi yazırıq və görürük. Səsi isə tələffüz edirik və eşidirik; məsələn, biz sizinlə **A** səsini və hərfini öyrənmişik. Mən indi deyirəm **A**, siz eşidirsiniz. Bu, **A** səsi olur. İndi isə lövhədə yazıram. Bu hansı hərfdir? Bəli, bu, **A** hərfidir. Hərfi yazırıq, görürük və oxuyuruq". *(Müəllim bunu nümunələr üzərində izah edir)*

**I. M:** "Burada böyük **N** hərfi təsvir olunub. Hərfin kənarında şəkillər təsvir olunub. Sol tərəfdə yuxarıda nə təsvir olunub? *(Uşaqların cavabları) Nərdivan* sözü hansı səslə başlayır? *(Uşaqların cavabları)* Bəs hərfin sağında yuxarıda nə təsvir olunub? *Narıngi* sözü hansı səslə başlayır?" *(*Bu qayda ilə hər şəkildə nə təsvir olunduğunu söyləyin və bu sözün hansı səslə başlandığına diqqət yetirin."

**N** hərfinin rənglənməsi.

**II.** Müəllim lövhədə **N** hərfini izah edə-edə yazır. Bir neçə uşaq da lövhədə tapşırığı yerinə yetirir. **M:** "Kənara çıxmadan **N** hərfini xətt üzrə çəkin. Oxun istiqamətinə diqqət edin".

Uşaqlar vəsaitdə xətt üzrə **N** hərfini çəkirlər.

**M:** "Uşaqlar, **N** hərfinin ətrafında şəkillər təsvir olunub. **N**-in hər tərəfində neçə şəkil təsvir olunub? Sol tərəfdəki şəkildə təsvir olunanları söyləyin. Sağ tərəfdə nə təsvir olunduğunu bir-bir söyləyin. Söz **N** səsi ilə başlayırsa, həmin şəkli **N** hərfi ilə birləşdirin".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**M:** "Uşaqlar, biz keçən məşğələmizdə hansı hərfi öyrənmişdik? *(Uşaqların cavabları)* Hərflərin içərisindən **A** və **N** hərflərini götürüb lövhəyə qoyun". *(Uşaqlar yerinə yetirir)*

**III. M:** "Uşaqlar, kitabınızın yuxarısında sözlər yazılıb. Yazılan sözlər nədən ibarət olur? *(Hərflərdən)* Diqqətlə baxıb həmin hərflərin içərisindən **A** və **N** hərflərini tapıb həmin hissələri nümunədəki kimi rəngləyin".

**IV. M:** "Kənara çıxmadan xətt üzrə hərfləri çəkin. Oxun istiqamətinə diqqət edin". *(Bitirdikdən sonra sözlərin*

*oxunması)*

**V. M:** "Şəkildə nə təsvir olunduğunu söyləyin. Sapa düzülmüş muncuqlar həmin sözün səslərini əvəz edir. Muncuqların sayı təsvirdəki sözün hərflərinin sayı qədərdir. İndi isə diqqətlə baxaq və sözü söyləyək. Yaşıl və sarı muncuqların hansı səsi əvəz etdiyini söyləyin". *(Uşaqların cavabları)*

**VI. M:** "Hər şəkildə nə təsvir olunduğunu bir-bir söyləyin. Birinci şəkildə nə təsvir olunub? *(Uşaqların cavabları)* **Nar** sözü hansı hərflə başlayır? *(Uşaqların cavabları)* Həmin şəkli hansı hərflə birləşdirmək lazımdır? *(Uşaqların cavabları) (Bu qayda ilə dörd şəkil üzrə iş aparılır)*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

Lövhədə böyük **N** ilə bərabər, kiçik **n** hərfi də ya asılır, ya da proyektorla ekrana salınır. Verilmiş əlifbanın hərflərinin arasından **n** hərfi götürülərək lövhəyə qoyulur. **N** səsinin birlikdə və tək-tək tələffüz edilməsi.

Müəllim uşaqların diqqətini kiçik **n** hərfinə yönəldərək deyir:

– Uşaqlar, bilirsiniz ki, hər bir hərfin həm böyük, həm də kiçik forması var. Biz sizinlə **A** hərfinin də həm böyük, həm də kiçik formasını öyrənmişik. **N** hərfinin böyük çap formasını da öyrənmişik.

**Dərketmə**

**I. M:** "Uşaqlar, şəklə diqqətlə baxın. Şəkildə nə təsvir olunub?" *(Uşaqların cavabları)*

"Bu, kiçik **n** hərfidir. İndi oxun istiqamətini gözləməklə nümunəyə əsasən **n** hərfini xətt üzrə çəkin."

—İdman dəqiqəsi—

**II. M:** "Şəkildə nə təsvir olunub? *(Uşaqların cavabları)* Şəkillərin ətrafında böyük **N, A** və kiçik **n, a** hərfləri yazılıb. Hansı dairədə böyük **A**, **N** və hansında kiçik **a, n** olduğunu tapın. Şəkildə təsvir olunan sözün "**N**" və ya "**A**" səsi ilə başlandığını söyləyin və həmin şəkli uyğun həm böyük, həm də kiçik hərflə birləşdirin". *(Uşaqların cavabları)*

**III. M:** "Şəkildə nə təsvir olunduğunu söyləyin. *(Uşaqların cavabları)* Sapa düzülmüş muncuqlar həmin sözün səslərini əvəz edir. Muncuqların sayı təsvirdəki sözün hərflərinin sayı qədərdir. İndi isə diqqətlə baxaq və sözü söyləyək. *Nal* sözündə birinci hansı səsi eşitdik? **(N)** Sapda birinci yaşıl muncuqdur. Yaşıl muncuq hansı səsi əvəz edir? (**N** səsini) Bəs ikinci hansı səsi eşidirik? **(A)** Sapda ikinci sarı muncuqdur. Sarı muncuq hansı səsi əvəz edir?" (**A** səsini) *(Uşaqların cavabları)*

**Tətbiqetmə**

**IV. M:** "Tapşırığı yerinə yetirərkən I tapşırıqdakı oxun istiqamətinə diqqət edin. Xətt üzrə böyük **N** və kiçik **n** hərfini çəkin. Hansı hərfi çəkdiniz?" *(Uşaqların cavabları)*

**M:** "Burada öyrəndiyiniz hərflərdən söz yazılıb. Sözlər həm böyük, həm də kiçik hərflərlə yazılıb. Yazılışından asılı olmayaraq sözün mənası dəyişmir. İndi xətt üzrə sözü yazın. Yazdığınız hərfləri bir-bir göstərib, adlandırın və sözü oxuyun".

*N, iyirminci hərfdir,*
*Düşüb qabağa amma.*
*Çünki, onu bilməsək,*
*Yaza bilmərik **Ana.***

Müəllim **N** səsi ilə başlayan sözlər söyləməyi uşaqlara təklif edir. *(Uşaqların cavabları)* Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | | |
|---|---|---|
| | | **2-ci həftə \| EV** |
| **Məşğələ 5-6. RİYAZİ VƏ MƏNTİQİ TƏFƏKKÜRÜN İNKİŞAFI**<br>**Mövzu: 10 DAİRƏSİNDƏ SAYMA** | | **Standart:** 2.3.2; 2.3.4.<br>**İnteqrasiya:** 2.2.2; 1.1.4. |
| **Məqsəd:** | • 10 dairəsində say bacarıqları nümayiş etdirir.<br>• Sağ və sol tərəfləri müəyyən edir.<br>• Əşyaları sayına görə müəyyənləşdirir. | |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. | |
| **İş forması:** | Kollektiv və fərdi. | |
| **Resurslar:** | Şəkillər, rəngli karandaşlar. | |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Səhifənin yuxarısındakı şəklə baxaq. Orada nə təsvir olunub? Tülkü nə edir? Orada neçə ədəd keqli təsvir

olunub? Bəs sağ tərəfdə hansı rəqəmlər yazılıb? 10-a qədər sayın. Gəlin hər bir əlimizdəki barmaqları sayaq. İki əlimizdə neçə barmaq var? *(Uşaqların cavabları)*

*Eşitdim, öyrənmisən, İndi daha saymağı.*
*Adamın bir əlində, Neçə olur barmağı? (Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Birinci tapşırığa diqqət yetirin. Kitabda çərçivədə şəkillər və onların altında xanalar təqdim olunur. Birinci çərçivədə hansı meyvə təsvir olunub? *(Uşaqların cavabları)* Birinci çərçivədəki meyvələri sayın və sonra meyvənin altında eyni sayda xananı rəngləyin. İkinci çərçivədə hansı meyvə təsvir olunub? (Banan) – Bananların sayı neçədir? *(Uşaqların cavabları)* – Neçə xananı rəngləmək lazımdır? *(Sonra isə sağ tərəfdəki və aşağıdakı tapşırıqlar eyni qayda ilə yerinə yetirilir).* Bütün çərçivələr üzrə bu qayda ilə işləyin. Hər sütunda rənglənməmiş neçə qutu qaldı?

**Qeyd:** *Əgər tapşırıqların yerinə yetirilməsində çətinlik çəkən uşaqlar olarsa, o zaman belə uşaqlarla tapşırıqların sayı azaldılır.*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "Bu tapşırığımızda isə xanalar rənglənib. Rənglənmiş xanaları sayın. Neçə xana rənglənib? Rənglənmiş xanaların sayı qədər alma rəngləyin. Neçə xana rənglənməyib?"

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

## 2-ci məşğələ

**Motivasiya**

Müəllim uşaqlara sanamanı söyləməyi təklif edir:

*1-2 Bizimki,*
*3-4 Qapını ört.*
*5-6 Daşaltı,*
*7-8 Firəngiz.*
*9-10 Qırmızı don.*

**M:** – Uşaqlar, sanamada neçəyə qədər sayılır? Gəlin 10-a qədər sayaq. *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Birinci tapşırıqda sağ və sol tərəfdə müxtəlif sayda şəkillər təsvir edilib. Orta hissədə isə əl barmaqları ilə say göstərilir. Əvvəlcə narları sayın. Neçə nar təsvir olunub? (**7**) İndi isə orta hissədə təsvir olunan açılmış barmaqları sayın. Narları sayına uyğun barmaqlarla birləşdirin. İndi isə çiyələkləri sayın. Neçə çiyələk oldu? (**9**) İndi isə orta hissədə təsvir olunan açılmış barmaqları sayın. Çiyələkləri sayına uyğun barmaqlarla birləşdirin.

*Cavabını kim verər,*
*Belə asan sualın;*
*Dörd ayağı, 2 qulağı,*
*Neçə edər ulağın?*

– Bəs bu tapmacanın cavabı neçə edər?

Digər tapşırıqlar da bu qayda ilə yerinə yetirilir.

*İki əldə bir yerdə*
*On dənədir barmağım.*
*Bax, birini qatladım,*
*Neçə qaldı, qoçağım?*

Tapşırıqları yerinə yetirərkən uşaqların fikirlərini əsaslandırmalarına nail olmaq lazımdır.

Bu şəkildə bütün tapşırıqlar işlənilir.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "Aşağıdakı rəngli xanalar böyük çərçivədən kəsilib. Yuxarıdakı çərçivədə onların hər birinin yeri var. Çərçivədə onların yeri boş olduğu üçün ağ verilib. Sarı rəngli xanaların sayı neçədir? (6) Çərçivəyə diqqətlə baxın. Sayı 6 olan boş yeri müəyyənləşdirin. Həmin çərçivəni sarı karandaşla rəngləyin. Çərçivədə digər rəngli xanaların yerini müəyyən edin və boş xanaları uyğun karandaşla rəngləyin".

**III. M:** "Əvvəlcə sol tərəfdəki birinci fiqurları sayın. Sayı neçə oldu? (**7**) Sağ tərəfdəki fiqurları sayın. Sayı yeddi olan fiqurları tapın və birləşdirin". Bütün tapşırıqlar bu şəkildə işlənilir.

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | 2-ci həftə \| EV |
|---|---|
| **Məşğələ 7-8. TƏSVİRİ FƏALİYYƏT**<br>**Mövzu:** EV | **Standart:** 3.1.4; 3.1.5. |
| | **İnteqrasiya:** 1.1.4; 2.2.6. |

| | |
|---|---|
| **Məqsəd:** | • Yapma bacarıqları nümayiş etdirir.<br>• Qatlama yolu ilə koma düzəldir. |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi. |
| **Resurslar:** | Rəngli kağızlar, plastilin, qayçı, yapışqan, karandaşlar. |

### 1-ci məşğələ

**Motivasiya**

**M:** – Uşaqlar, bilirsiniz, koma, çadır nədir? Çadırda kimlər yaşayır? *(Uşaqların fikirləri dinlənilir)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, biz sizinlə evlər haqqında danışmışıq. Gəlin bildiklərimizi bir daha yada salaq. (*Yerinə yetirilir)* Kitabınızda çadır təsvir olunub. Çadırın hazırlanması üçün lazım olan materiallar da verilib. Onlar hansılardır?" *(Uşaqların cavabları*) Müəllim uşaqlara hazır nümunəni göstərir, ardınca izah edə-edə çadırı düzəldir. Sonra isə uşaqlara nümunəyə əsasən çadır düzəltməyi təklif edir.

Müəllim məşğələ prosesində uşaqlara fərdi yanaşmalı, zərurət yaranarsa, istiqamətləndirməlidir.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "Uşaqlar, biz sizinlə **N** hərfini öyrənmişik. Onu karandaşla yaza bilirsiniz. Havada əlinizlə **N** hərfini cızın. **N** hərfi neçə hissədən ibarətdir? *(Uşaqların cavabları*) İndi isə **N** hərfini plastilindən düzəldin". Müəllim uşaqlara **N** səsi ilə sözlər söyləməyi təklif edir.

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

### 2-ci məşğələ

**Motivasiya**

**M:** – Uşaqlar, sizin stolunuzun üstündə boş şirə qutusu, qayçı, yapışqan var. Sizcə, biz nə düzəldəcəyik? *(Uşaqların cavabları dinlənilir.)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, biz sizinlə müxtəlif cür evlər haqqında danışmışıq. Evlər necə olur? *(Uşaqların cavabları)* Bəli, evlər həm çoxmərtəbəli, həm də kiçik olur. Niyə çoxmərtəbəli deyilir? *(Uşaqların cavabları*) İndi biz sizinlə birlikdə stolunuzun üstündə olan materiallardan istifadə edərək çoxmərtəbəli ev düzəldəcəyik". *Müəllim hazır nümunəni göstərir. Sonra isə izah edə-edə ev fiqurunu düzəldir. Düzəldərkən, uşaqlara suallarla müraciət edir. Bütün uşaqların əhatə olunmasını təmin etməlidir. İzahdan sonra nümunəyə əsasən işə başlamağı uşaqlara təklif edir.*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** – Kitabınızda ev və hasar təsvir olunub. Evin hasarı yarımçıqdır. Hasarın taxtalarını xətt üzrə birləşdirərək tamamlayın və rəngləyin.

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | 2-ci həftə \| EV |
|---|---|
| **Məşğələ 9-10. FİZİKİ MƏDƏNİYYƏT**<br>**Mövzu:** EV TİKİRİK | **Standart:** 1.1.1; 1.1.2. |
| | **İnteqrasiya:** 4.2.2. |

| | |
|---|---|
| **Məqsəd:** | • Yerində, uzununa doğru tullanır.<br>• Topu yerə vuraraq irəliləyir.<br>• Hərəkətlərin koordinasiyasını nümayiş etdirir. |
| **İş üsulları:** | Müzakirə, süjetli-rollu oyunlar. |
| **İş forması:** | Kollektiv, qruplarla və fərdi iş. |
| **Resurslar:** | Toplar, 1 ədəd ip, dəf, uşaqların sayı qədər çubuqlar. |

**1 və 2-ci məşğələ**

**I. İsinmə** hərəkətləri (5 dəq.)
– bir-birinin ardınca yeriş;
– qollarını quşların qanadı kimi təsvir etməklə qaçış;
– qolları yanlara açaraq ayaqlar aralı, yanlara doğru növbə ilə yırğalanmaq;
– bir sıradan iki sıraya düzülmək;
– əlləri yuxarı qaldıraraq nəfəs almaq və nəfəsi buraxmaq. (4–5 dəfə).
**II. Ümuminkişafetdirici hərəkətlər** (20 dəq.)
***Top ilə ümuminkişafetdirici hərəkətlər.***
**1. "Topu qaldırırıq".** 5–7 dəfə təkrar etmək.
*ç.v.* – ayaqlar çiyin bərabəri aralı, topu 2 əllə tutaraq, əllər aşağıda.
*1–2 sayında* topu yuxarı qaldırmaq, sağ ayağı geri qoymaq;
*3–4 sayında* ç.v.-nə qayıtmaq.
*5-6 sayında* həmin hərəkəti sol ayaqla təkrar edərək növbə ilə yerinə yetirmək;
*7–8 sayında* ç.v.-nə qayıtmaq.
**2. "Topu yoldaşlarımıza ötürək".** 8 dəfə təkrar etmək (hər tərəfə 4 dəfə).
*ç.v.* – ayaqlar çiyin bərabəri aralı, topu 2 əllə tutaraq əllər aşağıda.
*1–2 sayında* topu 2 əllə tutaraq sağa dönmək;
*3–4 sayında* ç.v.-nə qayıtmaq.
*5-6 sayında* həmin hərəkəti sol tərəfə edərək növbə ilə yerinə yetirmək;
*7–8 sayında* ç.v.-nə qayıtmaq.
**3. "Topu yerdə diyirlədək".** 5-6 dəfə təkrar etmək.
*ç.v.* – ayaqlar çiyin bərabərində aralı, əllər döşəmədə topun üzərində.
*1–2 sayında* döşəməyə paralel şəkildə əyilərək topu irəliyə doğru diyirlətmək;
*3–4 sayında* ç.v.-nə qayıtmaq.
***Tullanma hərəkətləri.***
**4. "Tullanırıq".** Hər dəfə 8 tullanma olmaqla 2–3 dəfə təkrar etmək.
*ç.v.* – ayaqlar bir yerdə, çubuğu 2 əllə tutmaqla əllər aşağıda.
*1 sayında* irəli tullanmaqla ayaqlar aralı, əllər çubuqla yuxarıda.
*2 sayında* ç.v.-nə qayıtmaq.
*3 sayında* geri tullanmaqla ayaqlar aralı, əllər çubuqla yuxarıda.
*4 sayında* ç.v.-nə qayıtmaq.
**5. "Tullan və yana dön!"**
*ç.v.* – ayaqlar bir yerdə, əllər aşağıda.
*1 sayında* əllər beldə cüt ayaqla irəliyə doğru tullanmaq;
*2 sayında* ç.v.-nə qayıtmaq.
*3 sayında* əllər beldə tullanaraq öz ətraflarında kəskin dönmələr etmək;
*4 sayında* ç.v.-nə qayıtmaq.
**Əsas hərəkətlər.**
**1. *"Topla oyna" oyunu***
Uşaqlar dairədə dayanır. Müəllim topu bir uşağa tərəf atır və oxuyur:
*– Sən bu qəşəng topu tut, sonra da qaytar mənə.*
Uşaq topu tutur və müəllimə atır. Oyunda bütün uşaqlar əhatə olunur. 1–2 dəfə təkrar olunur. Sonra müəllim topu döşəməyə vurub deyir:
*– Oynaq topum, oynaq topum,*
*Əlvan rəngli, qıvraq topum.*
*Atdım-tutdum, düşdün yerə,*
*Qaçdın getdin birdən-birə.*
Uşaqlar topun hərəkətinə uyğun atılıb-düşür, ətrafa səpələnirlər, sonra yenidən dairəyə düzülürlər. Oyun bütün 2–3 dəfə təkrar edilir.
**2. *"Çayın üzərindən tullan" oyunu***
İpdən istifadə etməklə, müxtəlif ölçüdə (məs., 30–50 *sm*) "çay" düzəldilir. "Uşaqlara "çayın" üzərindən tullanma təklif olunur. Əvvəlcə "çay"ın ensiz hissəsindən, sonra isə ən enli yerindən tullanmaq lazımdır. Müəllim kimin daha enli tərəfdən tullanmağına diqqət yetirməlidir. Tullanarkən güclü təkan verərək qolları yana açmaqla iki ayaq üstə düşmək.
**III. Sakitləşdirici hərəkətlər** (5 dəq.)
***"Ev tikirik". "Tavanı rəngləyək"***
ç.v. – *ayaqlar aralı, əllər yanlarda aşağı salınmış vəziyyətdə.*
1. Nəfəsalma – sağ əli yuxarı qaldırıb "tavanı ağartmaq", əli qabağa-arxaya hərəkət etdirmək.

2. Nəfəsvermə – ç.v.-nə qayıtmaq.
3. Nəfəsalma – sol əli yuxarı qaldırıb "*tavanı ağartmaq*", əli qabağa-arxaya hərəkət etdirmək.
4. Nəfəsvermə – ç.v.-nə qayıtmaq. Müəllimin ardınca bir cərgədə sakit yeriş.

| | |
|---|---|
| | **2-ci həftə \| EV** |
| **Məşğələ 11-12. MUSİQİ**<br>**Mövzu:** QONAQLIQ | **Standart:** 3.1.7.; 3.1.8.<br>**İnteqrasiya:** 2.2.1. |

| | |
|---|---|
| **Məqsəd:** | • Musiqinin xarakterini müəyyən edir.<br>• Xorda oxumaq bacarıqları nümayiş etdirir.<br>• Musiqinin məzmununa uyğun ritmik hərəkətləri yerinə yetirir. |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Kompüter, disk, şəkillər, it kuklası. |
| **Musiqi materialı:** | "Sülh haqqında mahnı" (Q.Qarayev), "Mişar" mahnısı (A.Rzayevanın/C.Məmmədzadə), "Qonaqlıq" mahnısı (O.Zülfüqarov/X.Əlibəyli), "Qızıl payız" (S.Rüstəmov/ M.Seyidzadə), "Bərəkət" (O.Rəcəbov/Q.İsabəyli), "Mişar" (A.Rzayeva/T.Mütəllibov), "Çəkicim vur" (A.Sultanova/T.Elçin), "Brilyant" (Azərbaycan xalq rəqsi) |
| **Alternativ material:** | **Dinləmə:** Azərbaycan xalq rəqsləri; "Qızıl payız" (S.Rüstəmov / M.Seyidzadə), "Çəkicim, vur" (A.Sultanova / T.Elçin) və "Bərəkət" (O. Rəcəbov / Q.İsabəyli) mahnıları |

**1-ci məşğələ**

**1. Marş.** "Sülh haqqında mahnı" (Q.Qarayev)

**2. Dinləmə.** Müəllim ev əşyaları (iynə, sap), əmək alətləri (mişar, çəkic) və s. əşyalarını sadalayır, onların musiqidə tərənnümü haqqında sadə məlumat verir. "Mişar" mahnısı (A.Rzayeva/X.Əlibəyli) səsləndirilir. Mahnını dinlədikdən sonra müəllim uşaqlara suallarla müraciət edir:

– Dinlədiyiniz musiqinin xarakteri necə idi? – Bu musiqidə nədən bəhs edilir?

– Nə üçün başqa canlılara da ev lazımdır? *(Uşaqların cavabları)*

**3. Mahnı.** "Qonaqlıq" mahnısı (O. Zülfüqarov/X. Əlibəyli) şifahi yolla öyrədilir. Müəllim mahnı, onun müəllifi və məzmunu haqqında qısa məlumat verir, sonra mahnı səsləndirilir. Uşaqlar dinlədikdən sonra mahnı hissə-hissə, frazalarla öyrədilir. Tələffüzü çətin olan sözlər və melodiya üzərində iş aparılır. Sonda "Qonaqlıq" mahnısının öyrənilmiş hissəsi xorla ifa edilir, məzmunu və xarakteri müzakirə olunur.

**4. Musiqili-ritmik hərəkətlər.** "Mişar" mahnısı təkrar səsləndirilir. Uşaqlar musiqinin ritminə uyğun mahnının məzmununda olan hadisələri hərəkətləri ilə təsvir etməyə çalışırlar.

Məşğələ ümumiləşdirilərək yekunlaşdırılır.

**Musiqi materialı.**

**"Qonaqlıq"**

| | | |
|---|---|---|
| Yığışdı bizim evə<br>Dovşan, keçi, qaz, dələ.<br>Qızıl xoruz çaldı saz,<br>Nəğmə oxudu Naznaz. | Gətirdim iki tava<br>Şəkərbura, paxlava.<br>Yeyin, oyuncaqlarım,<br>Ay əziz qonaqlarım. | Axşamacan qaldılar,<br>Oynadılar-çaldılar.<br>Çox sevinə-sevinə<br>Hərə getdi evinə. |

**2-ci məşğələ**

**Marş.** "Sülh haqqında mahnı" (Q. Qarayev)

**Mahnı.** "Qonaqlıq" mahnısı (O.Zülfüqarov / X.Əlibəylinindir)

**Səhnələşdirmə.** "Toplanın evciyi" (resurs: oyuncaq it, çətir, əmək alətləri: mişar, çəkic və s.)

| № | Musiqi materialı | Fəaliyyət |
|---|---|---|
| 1 | "Qızıl payız" (S.Rüstəmov / M.Seyidzad | Uşaqlar yağışdan qorunmaq üçün çətirlər açır. |
| 2 | "Bərəkət" (O.Rəcəbov / Q.İsabəyli) | Oyuncaq itə yemək verirlər. |
| 3 | "Mişar" (A. Rzayeva / T.Mütəllibov) | İtə evcik tikməyi təsvir edir (mişarla kəsir) |
| 4 | "Çəkicim, vur" (A.Sultanova / T.Elçin) | İtə evcik tikməyi təsvir edir (çəkiclə vurur) |
| 5, 6 | "Brilyant" (Azərbaycan xalq rəqsi) | Bütün uşaqlar evin ətrafında rəqs edir. |

| | 3-cü həftə \| OTAQLAR |
|---|---|
| **Məşğələ 1. ƏTRAF ALƏMLƏ TANIŞLIQ**<br>**Mövzu:** OTAQLAR | **Standart:** 2.1.2; 2.1.5.<br>**İnteqrasiya:**. 2.2.2; 4.2.3. |

| | |
|---|---|
| **Məqsəd:** | • Ev və otaqlar haqqında danışır.<br>• Evlərindəki otaqların adını söyləyir.<br>• Otaqlar haqqında məlumat əsasında suallara cavab verir. |
| **İş üsulları**: | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması**: | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Otaqlar təsvir olunmuş şəkil, iş dəftəri və rəngli karandaşlar. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, vəsaitin yuxarısındakı şəkillərə baxaq. Tülkü nə edir? *(Uşaqların cavabları)* Tülkü hansı otağa getməli olduğunu unudub. O hara getməlidir? Nədən bildiniz? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, düz müəyyənləşdirdiniz. Tülkü əlində diş fırçası ilə dişlərini yumaq istəyir. O, vanna otağına getməlidir. O, otaqları səhv salıb. Uşaqlar, bilirsiniz ki, **ev** – insanların yaşamaq və istirahət yeridir. Hər bir ailənin öz evi var.

Evlərdə müxtəlif otaqlar olur. Evlərdə *qonaq otağı, yataq otağı, uşaq otağı* olur. Bunlardan başqa, hər bir evdə *mətbəx, dəhliz, hamam və tualet* olur. Bəzi evlərdə valideynlərin işləməsi üçün iş otağı da olur. Bəs bu otaqlar nə üçündür? *Uşaq otağı* ailənin uşaqları üçündür. Uşaqlar öz otaqlarında oynayır, məşğul olurlar. *Yataq otağında* ailə üzvləri yatır. *Qonaq otağında* qonaq qəbul edilir, yemək yeyilir, televizora baxılır. İş otağında valideynlər çalışır. *Mətbəxdə* isə yemək hazırlanır. *Vanna otağında* yuyunur, dişlərimizi fırçalayırıq. *Dəhlizdə* isə bayır ayaqqabılarını çıxarıb ev ayaqqabısı geyinir, üst geyimlərimizi soyunub, asılqandan asırıq".

**M:** "Uşaqlar, sizin qarşınızdakı kitabda müxtəlif otaqlar təsvir olunub. Mən danışdıqca siz şəkildə həmin otağı tapın". – "Tap görək, birinci hansı otaqdır?" *(Uşaqların cavabları)* – "Nədən bildiniz?" –"Vanna otağını təsvir edin" (məsələn, duş və kran vardır, üz silmək üçün dəsmal asılmışdır. O hansı otaqdır?) " – "Oyuncaqlar və uşaq çarpayısı təsvir olunmuş otaq hansıdır?" – "Bəs xörək bişirilən otaq hansıdır?" və s. *(Uşaqların cavabları)*

**II.** Müəllim uşaqlara suallarla müraciət edir: "Şəkildə hansı otaqlar təsvir olunub? – Otaqların fərqi nədir? Ən çox sevdiyin otaq hansıdır və nə üçün?" *(Uşaqların cavabları)*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** "Şəkildə evin 5 hissəsi təsvir olunub. Birinci otaq hansı otaqdır? *(Uşaqların cavabları)* Nədən bildiniz? Otaqda olan əşyaları adlandırın. Bəs əlində diş fırçası tutmuş oğlan hansı otaqdadır? Nədən bildiniz?" *(Uşaqların cavabları)*

Təsvir olunmuş hər bir otaqla tanışlığı bu qayda ilə aparın.

**IV. M:** "Şəkildə müxtəlif fəaliyyətlə məşğul olan 4 şəkil təsvir olunub. Birinci uşaq əlində nə tutub? O hansı otağa getməlidir? *(Uşaqların cavabları)* Bəs ikinci uşaq əlində nə tutub? O, nə etmək istəyir? Uşaq hansı otağa getməlidir? *(Uşaqların cavabları)* Bəs hamama hansı uşaq getməlidir? Bu qayda ilə onların hər birinin nə etdiyini söyləyin, sonra karandaşla uyğun otaqla birləşdirin".

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | 3-cü həftə \| OTAQLAR |
|---|---|
| **Məşğələ 2. BƏDİİ TƏFƏKKÜRÜN İNKİŞAFI**<br>**Mövzu:** MƏSTAN YER AXTARIR | **Standart:** 2.2.2; 2.2.1.<br>**İnteqrasiya:** 3.1.9. |

| | |
|---|---|
| **Məqsəd:** | • Bədii nümunə əsasında danışır.<br>• Dinlədiyi fikirləri anladığını nümayiş etdirir.<br>• Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir. |
| **İş üsulları**: | Müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Hekayənin mətni, şəkillər, rəngli karandaşlar. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, vəsaitdəki şəkillərə diqqətlə baxın. Şəkillərdə hansı heyvan təsvir olunub? Sizcə, burada nə baş verir? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Mən indi sizə şəkillərlə bağlı hekayə söyləyəcəyəm. Hekayənin adı "**Məstan yer axtarır"** adlanır. Şəkillərə baxa-baxa hekayəni dinləyin. Hər şəkil mətnin bir hissəsini təsvir edir. Mən deyəndə, dinlədiyiniz hissəyə uyğun şəkli tapın və altındakı dairəni rəngləyin".

1

"Payız idi. Əsmərgilin ailəsi bağdan şəhərdəki evlərinə köçürdülər. Əsmər bağdan tapdığı ağ-qara zolaqlı pişiyini də özü ilə götürdü. Çünki tezliklə havalar soyuyacaqdı. Məstanı bağda tək qoya bilməzdi.

Evdə hər kəsin öz otağı var idi. Məstan da özünə rahat bir yer axtarırdı".

**M:** "Uşaqlar, Əsmər niyə pişiyi bağda qoyub gəlmək istəmədi? Şəkillərə baxıb, dinlədiyiniz hissəyə uyğun şəkli tapıb altındakı dairəni işarə edin".

Müəllim oxumağa davam edir.

2

"O, əvvəlcə dəhlizə baxdı. Qapının yanına sərilmiş balaca döşəkcənin üzərində oturdu. Əlbəttə, döşəkcə çox yumşaq idi. Məstan da evə girib-çıxan hər kəsi görürdü. Darıxdırıcı olmayacaqdı. Amma hər dəfə qapı açılanda qar-külək onun üstünə əsirdi. Məstan isə soyuğu heç sevmirdi".

**M:** "Uşaqlar, mənim indi oxuduğum hissəni müəyyənləşdirib, işarə edin."

Müəllim oxumağa davam edir.

3

"Məstan gəzə-gəzə qonaq otağına getdi. "Əcəb gözəl otaqdır. Həm də işıqlıdır. Divan da var. Lap yaxşı oldu. Yumşaq yerdə uzanmaqdan xoşum gəlir. Doyunca yataram", – deyə sevindi. Amma bir azdan Əsmər televizoru işə saldı. Televizorun səsi Məstanı şirin yuxudan oyatdı. Xeyr, bu otaq çox səs-küylüdür. Məstan isə yatmağı xoşlayırdı."

**M: "**Uşaqlar, dinlədiyiniz hissəyə uyğun hissəni tapıb, işarə edin."

Müəllim oxumağa davam edir.

4

"Sonra Məstan hamam otağına keçdi. "Hamam isti olar. İsti döşəmədə uzanmağın da ayrı ləzzəti var" – deyə Məstan düşündü. Amma hamam otağına daxil olan kimi fikrini dəyişdi. Burada hər tərəf su idi. Məstan isə islanmağı heç xoşlamırdı".

**M:** "Uşaqlar, Məstan niyə səs-küyü xoşlamır? *(Uşaqların cavabları)* Dinlədiyiniz hissəyə uyğun şəkli tapıb işarə edin."

Müəllim oxumağa davam edir.

5

"Nəhayət, Məstan mətbəxə çatdı. "Bəh-bəh! Buradan necə ləzzətli ətir gəlir. Yaqin, dadlı yeməklər var. Mətbəx həm işıqlı, həm də istidir. Üstəlik, sakitlikdir də! Əsl mən istəyən yerdir. Yaxşıca yeyərəm, sonra da doyunca yataram", – deyə Məstan şad oldu".

**M:** "Uşaqlar, məzmuna uyğun şəkli tapıb, işarə edin".

**M:** "Bəli, uşaqlar! Məstan istədiyi yeri tapdı".

—İdman dəqiqəsi—

**II.** Müəllim suallarla uşaqlara müraciət edir:– Məstan niyə mətbəxi seçdi?– Səncə, Əsmərin evdə ən sevdiyi otaq hansıdır? – Bəs, sizin necə, evinizdə sevdiyiniz yer varmı? *(Uşaqların cavabları)*

**Tətbiqetmə**

**III. M:** "Şəkildə Məstan 4 cür təsvir olunub. Məstanın vəziyyətinə baxaraq onun evin hansı hissəsində olduğunu müəyyən edin. Sizcə, ikinci şəkildəki Məstan evin hansı hissəsindədir? Bəs dördüncü şəkildəki pişik evin hansı hissəsindədir? *(Uşaqların cavabları)* Fikrinizi əsaslandırın". Digər şəkillər də bu qayda ilə müzakirə edilir.

**IV. M:** "Məstan hansı otaqdadır? Otaqda nələr var? Sizcə, Məstan bu otağı bəyənərmi? Nə üçün?" *(Uşaqların cavabları)*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | 3-cü həftə \| OTAQLAR |
|---|---|
| **Məşğələ 3-4. SAVAD TƏLİMİNƏ HAZIRLIQ VƏ NİTQ İNKİŞAFI**<br>**Mövzu: Ə (ə) SƏSİ VƏ HƏRFİ** | **Standart:** 2.2.4; 2.2.5.<br>**İnteqrasiya:** 1.1.4. |

| | |
|---|---|
| **Məqsəd:** | • **Ə** (ə) səsini və hərfi fərqləndirir.<br>• **Ə** səsinin işləndiyi sözlər söyləyir.<br>• Xətt üzrə **Ə** (ə) hərfini yazır. |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Şəkillər, karandaşlar, marker, **A, N, Ə** hərfləri. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** "Səhifənin yuxarısındakı şəklə baxaq. Şəkildə nə təsvir olunub? Tülkünün əlində nə var? Əlcəklər nə rəngdədir? *(Uşaqların cavabları) Əlcək* sözü hansı səslə başlayır? Bilirsiniz ki, söylənilən hər bir söz yazılarkən hərflərdən istifadə edilir".

**Dərketmə**

**M:** "**Ə** hərfindən də digər hərflər kimi sözləri yazanda istifadə olunur. Uşaqlar, sarı qutuya diqqətlə baxaq. Burada **Ə** hərfi təsvir olunub. **Ə** böyük hərfdir.

*Əlifbam əlimdədir, Ə hərfi də tanışdır. Gözümün önündəki Əlim* ***Ə****-ylə başlayır*".

**M:** "Gəlin bir daha xatırlayaq: hərfi yazırıq və görürük, səsi isə tələffüz edirik və eşidirik; məsələn, biz sizinlə **A, N** səsini və hərfini öyrənmişik. Mən indi deyirəm **A** və ya **N**, siz eşidirsiniz. Bu, **A, N** səsləri olur. İndi isə lövhədə yazıram. Bu, hansı hərflərdir? Bəli, bunlar **A** və **N** hərfləridir. Hərfləri yazırıq, görürük və oxuyuruq". *(Müəllim bunu nümunələr üzərində izah edir)*

**I. M:** "Uşaqlar, burada böyük **Ə** hərfi təsvir olunub. Hərfin ətrafında isə şəkillər təsvir olunub. Sol tərəfdə yuxarıda nə təsvir olunub? *Əncir* sözü hansı səslə başlayır? *(Uşaqların cavabları)* Bəs hərfin sağında yuxarıda nə təsvir olunub? *(Uşaqların cavabları) Ərik* sözü hansı səslə başlayır? " *(*Bu qayda ilə hər şəkildə nə təsvir olunduğunu adlandırın və bu sözün hansı səslə başlandığına diqqət edin". **Ə** hərfinin rənglənməsi.

**II.** Müəllim lövhədə **Ə** hərfini izah edə-edə yazır. Bir neçə uşaq da lövhədə tapşırığı yerinə yetirir.

**M:** "Kənara çıxmadan **Ə** hərfini xətt üzrə çəkin. Oxun istiqamətinə diqqət edin".

Uşaqlar kitablarında xətt üzrə **Ə** hərfini çəkirlər.

**M:** "Uşaqlar, **Ə** hərfinin ətrafında şəkillər təsvir olunub. **Ə** hərfinin hər tərəfində neçə şəkil təsvir olunub. Sol tərəfdəki şəkillərdə nə təsvir olunduğunu söyləyin. Sağ tərəfdə təsvir olunanları bir-bir sadalayın. Söz **Ə** səsi ilə başlayırsa, həmin şəkli **Ə** hərfi ilə birləşdirin".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**M:** "Uşaqlar, biz keçən məşğələmizdə hansı hərfləri öyrənmişdik? *(Uşaqların cavabları)* Hərflərin içərisindən **A** və **N** hərfini götürüb, lövhəyə qoyun. İndi hansı hərfi öyrəndik?" *(****Ə*** *hərfini)* Müəllim uşaqlara kəsmə əlifbada olan hərflərin içərisindən **Ə** hərfini çıxarıb, lövhəyə qoymağı təklif edir. *(Uşaqlar yerinə yetirir)*

**III. M:** "Uşaqlar, kitabınızın yuxarısında pazllarda sözlər yazılıb. Yazılan sözlər nədən ibarət olur? *(Hərflərdən)* Diqqətlə baxıb həmin hərflərin içərisindən **Ə, N** və **T**-ni tapıb həmin pazlı nümunədəki kimi rəngləyin".

**IV. M:** "Uşaqlar, bilirsiniz ki, hər bir hərfin həm böyük, həm də kiçik forması var. **A** və **N** hərfində olduğu kimi, **Ə** hərfinin də kiçik forması var. Böyük və kiçik **ə** hərfinin yazılışı eynidir. Kiçik **ə** böyük hərfdən bir qədər kiçik yazılır. *(Müəllim lövhədə yazır. Uşaqlardan bir neçəsi lövhədə yerinə yetirir)* İndi isə oxun istiqamətini nəzərə alaraq kənara çıxmadan xətt üzrə hərfləri çəkin".

**V. M:** "Şəkildə nə təsvir olunduğunu söyləyin. Şəkildə sapa düzülmüş muncuqlar həmin sözün səslərini əvəz edir. Muncuqların sayı təsvirdəki hərflərin sayı qədərdir. İndi isə diqqətlə baxaq və sözü söyləyək. Sarı muncuqlar hansı səsi əvəz edir?" *(Uşaqların cavabları)*

**VI. M:** "Hər şəkildə nə təsvir olunduğunu bir-bir söyləyin. Birinci şəkildə nə təsvir olunub? *(Uşaqların cavabları)* **Nar** sözü hansı hərflə başlayır? *(Uşaqların cavabları)* Sözün "Ə", "N" və ya "A" səsi ilə başlandığını müəyyən edin. Həmin şəkli hansı hərflə birləşdirmək lazımdır? *(Uşaqların cavabları) (Bu qayda ilə bütün şəkillər üzrə iş aparılır)*

Məşğələ boyu uşaqlar rəğbətləndirilir. Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M:** – Səhifənin yuxarısındakı şəklə baxaq. Şəkildə bir neçə hərf təsvir olunub? Tülkü orada nə yazıldığını bilmir. Siz tülküyə kömək edin. Sol tərəfdəki xanada hansı hərf yazılıb? Bəs ortadakı xanada hansı hərf yazılıb? Sağ tərəfdəki xanada hansı hərf yazılıb? Sizcə, orada hansı söz yazılıb? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, yuxarıda **A** və **N** hərfləri yanaşı yazılıb. Gəlin bu hərfləri birlikdə tələffüz edək. Nə alındı? *(Uşaqların cavabları)* Düzdür, **NA** alındı. **NA** bir yerdə heca adlanır. Sözlər hecalardan ibarətdir. İndi isə növbəti hərfləri oxuyaq. **A** və **N, A** nə oldu? Gəlin **ANA** sözünü heca ilə tələffüz edək. Bəs hecasız oxusaq, necə olar? *(Uşaqların cavabları)* Uşaqlar, növbəti sözü oxuyaq. Bu hansı hərfdir? *(N)* Bəs növbəti hansı hərfdir? (**Ə**) Gəlin bu iki hərfi birlikdə tələffüz edək. Nə oldu? ***(NƏ)***

Bu iki hərf birlikdə bir hecadır. Sonrakı hecanı da oxuyaq. Nə oldu? ***(NƏ)*** Gəlin bu iki hecanı birlikdə tələffüz edək. Nə oldu?" ***(NƏNƏ)*** *(Uşaqların cavabları)*

**II. M:** "Tülkü **ANA** sözünü tapmaq istəyir. Amma bacarmır. Gəlin ona kömək edək. Burada bir neçə hərf təsvir olunub. Tülküyə yolu elə göstərin ki, nəticədə **ANA** sözü alınsın".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** "Siz artıq **A, N, Ə** hərflərinin həm kiçik, həm də böyük formasını yaza bilirsiniz. Cızıqlı xətlərin istiqamətini nəzərə alaraq xətt üzrə həm böyük, həm də kiçik hərfləri yazın və sözləri oxuyun. Sözləri hecalara ayırın. Birinci hecanın hərflərini qırmızı, ikinci hecanın hərflərini isə göy karandaşla çəkin. Böyük hərflə yazılan ANA və NƏNƏ sözü kiçik hərflə yazıldıqda mənası dəyişirmi?"

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| | **3-cü həftə \| OTAQLAR** |
| **Məşğələ 5-6. RİYAZİ VƏ MƏNTİQİ TƏFƏKKÜRÜN İNKİŞAFI**<br>**Mövzu:** **10 DAİRƏSİNDƏ SAYMA** | **Standart:** 2.3.1; 2.3.2.<br>**İnteqrasiya:**. 2.2.6; 1.1.4. |

| | |
|---|---|
| **Məqsəd:** | • 10 dairəsində say bacarıqları nümayiş etdirir.<br>• Əşyaları rəng və saya görə qruplaşdırır. |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi. |
| **Resurslar:** | Şəkillər, rəngli karandaşlar. |

**1-ci məşğələ**

**Motivasiya**

Müəllim uşaqlara say ifadə olunmuş şeir parçası söyləyir:

– *At yanında balası, Gəzirdi otlaqları. İkisinin bir yerdə Neçədir ayaqları?*

– Bu şeirdə nə ifadə olunub? *(Uşaqların cavabları)* Uşaqlar, indi isə tapmacanın cavabını söyləyin. (Uşaqların cavabları) – Nəyə əsasən bu cavabı verdiniz? İzah edin.

**Dərketmə**

**I. M:** "Bəli, say ifadə olunub. Dörd çərçivədə şəkillər və onların altında sayı müəyyən edən dairələr təqdim olunur. Birinci çərçivədə hansı meyvələr (*nar* və *alma*) təsvir olunub? Onların birlikdə sayı neçədir? (**3**) *(Uşaqların cavabları)* İndi isə onlarla eyni sayda dairələri rəngləyin. *(Hər çərçivə üzrə tapşırıq bu qayda ilə davam etdirilir).* Tapşırığı aşağıdakı kimi də vermək olar. Məsələn, narı soldan birinci, almaları sağdan 1-ci və 2-ci dairədə qeyd eləyin".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "İkinci tapşırığa baxaq. Uşaqları sayın. Uşaqların ümumi sayı nə qədərdir? *(10)* Gəlin, oğlanları ayrı, qızları da ayrı sayaq. Oğlanların sayı neçə oldu? *(6)* Oğlanların sayı qədər dairəni göy karandaşla rəngləyin. İndi isə qızları sayaq. Qızların sayı neçə oldu? *(4)* Qızların sayı qədər dairəni isə sarı karandaşla rəngləyin. İndi isə qırmızı köynəkli uşaqları sayaq. Neçə oldu? *(7)* Kitabınızın aşağısındakı dairələri qırmızı köynəkli uşaqların sayına uyğun qırmızı karandaşlarla rəngləyin. Yaşıl köynəkli uşaqları sayaq. Neçə oldu? *(3)* Yaşıl köynəkli uşaqların sayı qədər dairəni uyğun karandaşlarla rəngləyin".

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

## 2-ci məşğələ

**Motivasiya**

Müəllim şeir-tapmaca söyləyir:

*– İnan ki, çətin deyil, Düşünsən, asan olar. Bir əldə, bir ayaqda, Cəmi neçə barmaq var?*

**M:** "Uşaqlar, cavabı söyləyin. Gəlin hər iki əllərimizi açaq. Bəs əllərinizdə neçə barmaq var? Hər ayaqda neçə barmaq var?" *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Birinci tapşırıqda 6 çərçivədə müxtəlif sayda meyvə şəkilləri və onların altında sayı müəyyən edən dairələr təqdim olunur. Birinci narları sayaq. Neçə oldu? *(4)* Nar nə rəngdədir? *(qırmızı)* İndi isə narın rənginə və sayına uyğun dairəni rəngləyin. Bəs almaların sayı neçədir? *(4)* Almalar nə rəngdədir? *(yaşıl)* İndi isə almaların rənginə və sayına uyğun dairəni rəngləyin". (*Digər şəkillər üzrə də bu qayda ilə iş aparılır)*

Müəllim uşaqlara suallar verir: – *Hansı meyvələr təsvir olunub? Neçə dairəni rənglədiniz? Neçə dairə qaldı? Meyvələrin neçəsi alma, neçəsi nardır? Hər çərçivədə ümumi say nə qədərdir?*

Tapşırıqları yerinə yetirərkən uşaqların fikirlərini əsaslandırmalarına nail olmaq lazımdır.

**II. M:** "Burada hansı meyvələr təsvir olunub? Meyvələrin ümumi sayı nə qədərdir? *(Uşaqların cavabları)* Hər meyvəni ayrılıqda sayın. Meyvələrin sayı qədər dairəni onların rənginə uyğun karandaşla rəngləyin. ***(10)*** Cəmi neçə dairə rənglədiniz? Bəs neçə dairə rənglənmədi?"

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** "Budaqda müxtəlif quşlar təsvir olunub**.** Quşları sayın. Neçə oldu? ***(10)*** Onların sayı qədər xanaları rəngləyin. Neçə xananı rənglədiniz? Neçə xana rənglənməmiş qaldı? *(Uşaqların cavabları)*

**IV. M:** "Çərçivədə balıqlar təsvir olunub. Əvvəlcə birinci çərçivədəki balıqları sayaq. Neçə oldu? *(3)* İndi həmin saya uyğun xananı rəngləyin. Neçə xananı rənglədiniz? *(3)* (*Bu qayda ilə digər xanalar üzrə iş aparılır)(Uşaqların cavabları)*

**V. M:** – Tülkü pitsaların hərəsinin bir neçə dilimini yeyib. Taxta altlıqlarda qalan hissələri sayın. Sonra qonşu qablarda pitsa dilimlərinin sayı qədər hissələri rəngləyin. Hər altlıqda neçə hissə rənglədiniz? Cəmi neçə hissə rənglədiniz? *(Uşaqların cavabları)*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | | |
|---|---|---|
| | | **3-cü həftə \| OTAQLAR** |
| **Məşğələ 7-8. TƏSVİRİ FƏALİYYƏT**<br>**Mövzu: OTAQLAR** | | **Standart:** 3.1.4; 3.1.5.<br>**İnteqrasiya:** 1.1.4; 2.2.6; 3.1.8. |
| **Məqsəd:** | • Yapma bacarıqları nümayiş etdirir.<br>• Sadə quraşdırma bacarıqları nümayiş etdirir.<br>• Kağızdan otaq qurur. | |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. | |
| **İş forması:** | Kollektiv və fərdi. | |
| **Resurslar:** | Şəkillər, kağızlar, plastilin, rəngli karandaşlar. | |

## 1-ci məşğələ

**Motivasiya**

**M:** – Uşaqlar, ev nədir? Ev hansı hissələrdən ibarətdir? *(Uşaqların fikirləri dinlənilir)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, düz dediniz, evlər otaqlardan ibarətdir. Evdə hansı otaqlar olur? Otaqların hansı hissələri olur? *(Uşaqların cavabları)* İndi isə biz sizinlə otaq quraşdıracağıq."

Uşaqlar işə başlamazdan əvvəl müəllim uşaqlara əvvəlcə hazır nümunəni göstərir, sonra isə onların gözü qarşısında izah edə-edə kağızdan quraşdırma vasitəsilə otaq düzəldir. Hissələrə qatlamaq üzrə iş üzərində dayanılır. Sonra isə uşaqlara işə başlamağı təklif edir. Axırda evin damı uşaqların istəyinə görə rənglənir. Məşğələ prosesində uşaqların əməkdaşlıq etmələrinə imkan yaradılır.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "Uşaqlar, biz sizinlə **Ə** hərfini öyrənmişik. Onu karandaşla çəkə bilirsiniz. Gəlin birlikdə əlimizlə havada **Ə** hərfini cızaq. İndi isə böyük **Ə** hərfini plastilindən düzəldin. Neçə hissədən istifadə etdiniz?" Uşaqlara **Ə** hərfi ilə sözlər söyləmək təklif olunur. Uşaqlar yerinə yetirdikdən sonra, müəllim onlara kiçik şeir söyləyir:

*"Nənədə iki **Ə** var, İki **Ə** də nəvədə.*
*Babam **Ə**-dən küsəndə, Ona deyirəm Dədə".*
Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M:** – Uşaqlar, sizin otaqlar haqqında yaxşı məlumatınız var. Hansı otaqlar olur? Otaqların hissələrini sayın. Bəs otaqlarda nə olur?*(Uşaqların cavabları)* Bəli, hər otağın özünəməxsus mebeli olur. Deyə bilərsinizmi, qonaq otağında hansı mebellər olur? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, şəkillərə diqqətlə baxın. Orada mebellər düzəltmək göstərilir. İndi isə işə başlayıb otaq üçün mebellər hazırlayaq". Müəllim uşaqlara qabaqcadan hazırladığı nümunəni göstərir. Sonra uşaqlar işə başlamazdan əvvəl plastilini yumşaltmağı, ovuclar arasında yumrulayaraq ona forma verməyi bir daha göstərir, sonra isə izah edə-edə stulu (və ya digər əşyanı) düzəldir. Sonda hər bir uşaq düzəltdiyi mebel haqqında məlumat verir və onun nə üçün istifadə edildiyini söyləyir.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "Uşaqlar, krandan suyun damcıladığını görmüsünüzmü? Forması necə olur? *(Uşaqların cavabları)* Vəsaitinizdə krandan axan su damcıları təsvir olunub. Onları xətt üzrə çəkin. Sonra uyğun karandaşla rəngləyin".

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | | |
|---|---|---|
| | | **3-cü həftə \| OTAQLAR** |
| **Məşğələ 9-10. FİZİKİ MƏDƏNİYYƏT**<br>**Mövzu: SƏRÇƏLƏR YUVASINA!** | | **Standart:** 1.1.1.<br>**İnteqrasiya:** 4.1.2.; 4.2.2. |
| **Məqsəd:** | • Yeriş və dağınıq halda yürüş yerinə yetirir.<br>• Hoppanma, tullanma (1 və 2 ayaqla) bacarığı nümayiş etdirir.<br>• Yeriyərkən müvazinətini saxlayır. | |
| **İş üsulları:** | Müzakirə, süjetli-rollu oyunlar. | |
| **İş forması:** | Kollektiv, qruplarla və fərdi iş. | |
| **Resurslar:** | Uşaqların sayı qədər ağaclar, 1 ədəd gimnastika skamyası, 2 halqa. | |

**1 və 2-ci məşğələlər**

**I. İsinmə hərəkətləri** (5 dəq.)
– bir-birinin ardınca yeriş və qaçış;
– qollar yuxarıda, barmaqları açıb-bükmək və pəncə üstə yeriş;
– qollar yanlarda, barmaqları açıb-bükmək və daban üstə yeriş;
– bir sıradan iki sıraya düzülmək;
– əlləri yuxarı qaldıraraq nəfəs almaq və nəfəsi buraxmaq (4–5 dəfə).
**II. Ümuminkişafetdirici hərəkətlər** (20 dəq., ağaclarla)
***1. "Hoppanaq"*** (5-6 dəfə).
*ç.v.*– ayaqlar bir yerdə, ağacı iki əllə aşağıda saxlamaq.
*1 sayında* hoppanaraq ayaqları çiyin bərabərində aralı qoymaq, ağacı 2 əllə irəli uzatmaq;
*2 sayında* ç.v.-ni almaq;
*3 sayında* hoppanaraq ayaqları çiyin bərabərində aralı qoymaq, ağacı 2 əllə yuxarı qaldırmaq;
*4 sayında* ç.v.-ni almaq.
***2. "Sağa və sola dönək"*** (5-6 dəfə).
*ç.v.* – ayaqlar bir yerdə, ağacı iki əllə aşağıda saxlamaq.
*1 sayında* ağacı 2 əllə qabağa uzatmaqla gövdəni sağ tərəfə döndərmək;
*2 sayında* ç.v.-ni almaq;
*3 sayında* ağacı 2 əllə qabağa uzatmaqla gövdəni sol tərəfə döndərmək;
*4 sayında* ç.v-ni almaq.
***3. "Ağacı barmaqlarımıza çatdıraq!"*** (5-6 dəfə)
*ç.v.* – ayaqlar bir yerdə, ağacı iki əllə aşağıda saxlamaq.
*1 sayında* sallağı oturub ağacı irəli uzatmaq;
*2 sayında* ç.v.-ni almaq;

*3 sayında* dizləri bükmədən ağacı ayaq barmaqlarına toxundurmaq;
*4 sayında* ç.v.-ni almaq.
***4. "Çaydan tullanaq"*** (2–3 dəfə).
*ç.v.* – ayaqlar bir yerdə, əllər beldə. Ağacı qarşıda yerə qoymaq.
*1 sayında* əllər beldə ağacın üstündən sağ ayaqla irəli hoppanmaq;
*2 sayında* ç.v.-ni almaq;
*3 sayında* hoppanmanı sol ayaqla təkrar etmək;
*4 sayında* ç.v.-ni almaq.
**Əsas hərəkətlər.**
**1.** Gimnastika skamyası (hündürlüyü 25 sm) üzərindən tullanma ("paraşütdən tullanırıq"). Müəllim əvvəlcədən tullanma texnikasını başa salaraq hərəkətin icrasını göstərir *(hərəkətdən çıxış vəziyyəti almaq: ayaqlar bir qədər aralı, dizlər azca qatlanmış vəziyyətdə, əlləri bir qədər arxaya doğru çəkmək. Təkan verərək, mümkün qədər uzağa tullanmaq və yerə enmək).* Uşaqlar növbə ilə hərəkəti yerinə yetirirlər, müəllim onlara kömək edir.
**2.** *Cütlərlə tapşırıqlar:* "Paraşütdən cüt-cüt tullanmaq".
**3.** *Hərəkətli oyun:* "Sərçələr yuvasına".
Müəllimin işarəsi ilə yeriş və dağınıq qaçış. Uşaqlar "sərçələri" təmsil edərək "ağacın budaqlarında" gəzirlər. Müəllimin "sərçələr qanadlanıb uçurlar!" sözündən sonra uşaqlar – "sərçələr" qanadlanaraq, yəni qollarını yanlara açaraq otaqda dağınıq halda "uçurlar". Müəllimin "Tez yuvanıza uçun!" sözü ilə "sərçələr" qaçaraq "ağacın budaqlarına" qonurlar (yəni öz yerlərində otururlar.)
**III. Sakitləşdirici hərəkətlər** (5 dəq.)
***"Şamı söndürürük"***
*ç.v.* – ayaqlar aralı, əllər yanlarda aşağı salınmış vəziyyətdə.
*1.* Nəfəsalma – əlləri tədricən yuxarı qaldırmaq.
*2.* Nəfəsvermə – qolları sərbəst sallamaqla irəliyə doğru əyilmək və üfürmək (şamı söndürmək).
*3.* Nəfəsalma – qolları yanlara açaraq başını yuxarı qaldırmaqla pəncələri üstə qalxmaq.
*4.* Nəfəsvermə – ç.v.-nə qayıtmaq. Müəllimin ardınca bir cərgədə sakit yeriş.

| | |
|---|---|
| | **3-cü həftə \| OTAQLAR** |
| **Məşğələ 11–12. MUSİQİ**<br>**Mövzu: LAYLAY** | **Standart:** 3.1.7; 3.1.8.<br>**İnteqrasiya:** 2.1.3; 2.2.1. |

| | |
|---|---|
| **Məqsəd:** | • Musiqinin xarakterini müəyyən edir.<br>• Xorda oxumaq bacarıqları nümayiş etdirir.<br>• Musiqinin ritminə uyğun rəqs elementlərini yerinə yetirir. |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Kompüter, disk, şəkillər, fortepiano musiqi aləti, bəstəkarların şəkilləri. |
| **Musiqi materialları:** | "Sülh haqqında mahnı" (Q. Qarayev), "Laylay" ("Uşaq lövhələri" fortepiano pyesləri silsiləsindən, F.Əmirov), "Laylay" mahnısı (R.Şəfəq / H.Ziya), "Brilyant" (Azərbaycan xalq rəqsi), "Payız" (O.Zülfüqarov/T.Elçin), "Yağdı yağışlar" (M.Nəsirbəyov/A.Şaiq), "Pişiyim" (M.Nəsirbəyov/ M.Seyidzadə), "Gəzinti" (F.Əmirov), "Mazurka №47" (F. Şopen) |
| **Alternativ material:** | **Dinləmə:** "Nağıl", "Gəzinti" – F.Əmirov, müxtəlif xarakterli Azərbaycan xalq rəqsləri, "Mazurka №47" (F. Şopen)<br>**Mahnı:** "Payız" (O.Zülfüqarov/ T.Elçin), "Yağdı yağışlar" (M.Nəsirbəyov/A.Şaiq), "Pişiyim" (M.Nəsirbəyov/M.Seyidzadə) |

**1-ci məşğələ**

**1. Marş.** "Sülh haqqında mahnı" (Q.Qarayev).
**2. Dinləmə.** Müəllim əvvəl musiqi alətləri və fortepiano musiqi aləti haqqında (görünüşü, tembri, ifa tərzi və s.) qısa məlumat verir. Pyes, instrumental musiqi və musiqinin sürəti haqqında sadə izah verir. Əsərin müəllifinin adını söyləyir, şəklini uşaqlara göstərir. Sonra "Laylay" fortepiano pyesini (musiqi: F.Əmirov) səsləndirir. Əsəri dinlədikdən sonra müəllim uşaqlara suallarla müraciət edir: – Dinlədiyiniz musiqinin xarakteri necə idi?– Bu musiqidə nədən bəhs edilir? Nə üçün "Laylay" kimi musiqilər sakit və asta sürətlə ifa olunur ? *(Uşaqların cavabları)*

**3. Mahnı.** “Laylay” mahnısı (musiqisi R.Şəfəqin, sözləri H.Ziyanın) şifahi yolla öyrədilir.

Müəllim bəstəkar, mahnı, onun məzmunu haqqında qısa məlumat verir, sonra mahnını səsləndirir. Uşaqlar dinlədikdən sonra mahnı hissə-hissə, frazalarla öyrədilir. Tələffüzü çətin olan sözlər (“C” və “Ç” samitlərinin dəqiq tələffüzü) və melodiya üzərində iş aparılır. Sonda “Laylay” mahnısının öyrənilmiş hissəsi xorla ifa edilir, məzmunu, xarakteri və tempi müzakirə olunur.

**4. Musiqili-ritmik hərəkətlər.** “Brilyant” Azərbaycan xalq rəqsi səsləndirilir. Musiqinin xarakteri və tempi (sürəti) haqqında məlumat verilir. Müəllimin göstərişi və izahı ilə əvvəl qızlar rəqs elementlərini yerinə yetirirlər, oğlanlar isə bu zaman əl çalmaqla ritm tuturlar. Sonra oğlanlar rəqs elementlərini yerinə yetirirlər, qızlar isə əl çalırlar. Məşğələ ümumiləşdirilərək yekunlaşdırılır.

**Musiqi materialı: “Laylay”**

| | | |
|---|---|---|
| Şirin laylay<br>Çallam sənə.<br>Oyuncaqlar<br>Allam sənə. | Yum gözünü,<br>Şirincə yat.<br>Qızılgülə,<br>Çiçəyə bat. | *Nəqərat*<br>Laylay mənim<br>Gəlinciyim,<br>Körpəciyim,<br>Bircəciyim. |

**2-ci məşğələ**

**Marş.** “Sülh haqqında mahnı” (Q.Qarayev).
**Mahnı.** “Laylay” mahnısı (R.Şəfəq / H.Ziya).
**Səhnələşdirmə. “Məstan yer axtarır”** (resurs: oyuncaq pişik).

| № | Musiqi materialı | Fəaliyyət |
|---|---|---|
| 1 | “Gəzinti” və ya Mazurka | Uşaqlar ətrafa baxa-baxa otaqda gəzişirlər. |
| 2 | “Payız” | “Üşümək”, “soyuq olmaq “ kimi hərəkətləri təsvir edirlər. |
| 3 | Hər hansı bir operadan ariya | Başlarını yelləyir və qulaqlarını tuturlar. |
| 4 | “Yağdı yağışlar“ | Yer su imiş kimi gölməçələrdən hoppanırlar. |
| 5 | “Pişiyim” | Əllərində pişiyi tutub tumarlayırlar. |

**4-cü həftə | ƏŞYALAR**

| Məşğələ 1. ƏTRAF ALƏMLƏ TANIŞLIQ<br>Mövzu: MƏİŞƏT ƏŞYALARI | Standart: 2.1.2; 2.1.5.<br>İnteqrasiya:. 2.2.2; 2.2.1. |
|---|---|
| **Məqsəd:** | • Məişət əşyalarını sadalayır.<br>• Əşyaların təyinatını izah edir.<br>• Əşyaları qruplaşdırır. |
| **İş üsulları**: | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması**: | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Müxtəlif əşyalar təsvir olunmuş şəkil, iş dəftəri və rəngli karandaşlar. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, vəsaitin yuxarısındakı şəkillərə baxaq. Tülkü nə edir? Tülkü düzmü hərəkət edir? Bəs Tülkü kitabları hara yığmalıdır? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** “Uşaqlar, düz deyirsiniz. Tülkü kitabları və qab-qacağı paltar dolabına qoymamalıdır. Bəs qab-qacaq nədir? *Qab-qacaq* – məişətdə, əsasən də mətbəxdə yemək hazırlığı və ərzağın saxlanılması üçün işlədilən əşyaların ümumi adıdır. Qab-qacaqlar müxtəlif cür olur. Yemək süfrəsinə boşqab, çəngəl, qaşıq, stəkan, nəlbəki və s. düzülür. Yeməyin hazırlanması üçün qazan və tavadan istifadə edilir. Qab-qacaqdan başqa, evdə başqa əşyalardan da istifadə olunur. Qab-qacağı mətbəxdə dolaba qoymaq lazımdır. Hər birinizin evində *məişət texnikalarından* istifadə olunur. Ütü, tozsoran, televizor, paltaryuyan maşın bunlara aiddir. Daha hansı məişət texnikasını deyə bilərsiniz? *(Uşaqların cavabları)* Evdə masa, stullar, şkaf, çarpayı olur. Bunlar birlikdə *mebel* adlanır. Bu əşyalar evdə hər gün istifadə olunur. Paltarlarımızı paltar dolabından asırıq. Paltarlarımızı qab-qacaq dolabına qoya bilərik? Nə üçün? Siz oyuncaqlarınızı hara qoyursunuz? *(Uşaqların cavabları)* Bəli, oyuncaqlarınızı qoymaq üçün dolabınız olur”.

**M:** “Uşaqlar, sizin qarşınızdakı vəsaitdə əşyalar olan otaq təsvir olunub. Güldan nəyin üstünə qoyulub? Bəs

oyuncaq ayı haradadır? Otaqda daha hansı əşyalar təsvir olunub? Həmin əşyalar nə üçün istifadə olunur? və s. *(Uşaqların cavabları)*

**II.** Müəllim uşaqlara suallarla müraciət edir: "Otaqlarda hansı əşyalar olur? İnsanlara bu əşyalar nə üçün lazımdır? Sizin ən sevdiyiniz və istifadə etdiyiniz əşyalar hansıdır? *(Uşaqların cavabları)*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** "Şəkildə müxtəlif əşyalar təsvir olunub. Mən sizə təsvir olunmuş əşyaların adını çəkəcəyəm. Siz isə həmin əşyanı qeyd edəcəksiniz. Mebelləri – sarı, geyimləri – qırmızı, məişət texnikasını – mavi, qab-qacağı isə yaşıl rəngli karandaşla haşiyəyə alın. Haşiyəyə alınmış hər qrup əşya haqqında danışın".

**IV. M:** "Şəkildə dolablar və dolaba qoyulmalı əşyalar təsvir olunub. Şəkildəki əşyaların adını söyləyin. Paltarlar hansı dolaba qoyulmalıdır? Bəs qab-qacaq hansı dolaba qoyulmalıdır? *(Uşaqların cavabları)* Hər əşyanı uyğun dolabla birləşdirin".

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**4-cü həftə | ƏŞYALAR**

| **Məşğələ 2. BƏDİİ TƏFƏKKÜRÜN İNKİŞAFI**<br>**Mövzu: TUTUNUN GƏLİNCİYİ** | **Standart:** 2.2.1; 2.2.6.<br>**İnteqrasiya:** 3.1.5; 3.1.8. |
|---|---|
| **Məqsəd:** | • Mövzu əsasında danışır.<br>• Dinlədiyi fikirləri anladığını nümayiş etdirir.<br>• Müstəqil yaradıcılıq qabiliyyətləri nümayiş etdirir. |
| **İş üsulları**: | Müzakirə, suallar, nağıletmə. |
| **İş forması**: | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Hekayənin mətni, şəkillər. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M: –** Uşaqlar, vəsaitinizdə şəkillərə diqqətlə baxın. Şəkillərdə nə təsvir olunub? Sizcə, burada nə baş verir? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, mən sizə şəkildə təsvir olunanlara aid "Tutunun gəlinciyi" adlı hekayə söyləyəcəyəm. Mətni dinləyin. Kitabınızdakı hər şəkil mətnin bir hissəsini təsvir edir. Mən deyəndə, dinlədiyiniz hissəyə uyğun şəkli tapın və altındakı dairəni rəngləyin".

1

"Tutu kənddə nənəsi ilə yaşayırdı. Nənəsi ona çoxlu kitab alırdı. Bu dəfə də ona rəngli şəkilləri olan maraqlı bir kitab almışdı. Tutu kitabı vərəqləyəndə qəşəng bir gəlincik şəklinə rast gəldi. Qaça-qaça nənəsinin yanına gəlib dedi:

– Nənə, ay nənə, bax mən də bu gəlincikdən istəyirəm. Gör nə qəşəngdir".

**M:** "Uşaqlar, dinlədiyiniz hissəyə uyğun şəkli tapıb, altındakı dairəni işarə edin".

Müəllim oxumağa davam edir.

**2**

"Nənəsi gülümsəyib dedi:

– Bəli, doğrudan da, gözəldir. Lap sənin kimi. İstəyirsən, bu gəlincikdən sənin üçün düzəldək? Sən də mənə kömək etsən, birlikdə düzəldə bilərik.

– Əlbəttə, nənəcan, mən sənə kömək edərəm.

– Onda gedək köhnə əşyalar yığdığımız sandığa baxaq. Görək, gəlincik düzəltmək üçün nəyimiz var?

Nənə bəzəkli sandığı açdı. Burada müxtəlif maraqlı əşyalar – tay corab, rəngli iplər, düymə, sap, məxmər parça, köhnə süfrə var idi."

**M:** "Uşaqlar, sizcə, köhnə əşyalar olan qutunu nənə niyə istədi? *(Uşaqların cavabları)* İndi isə dinlədiyiniz hissəni müəyyənləşdirib, işarə edin".

Müəllim oxumağa davam edir.

3

"Nənə dedi:

– Tutu, gəl əvvəlcə gəlinciyimizin bədənini tikək. O sandıqdan mənə bir tay corab ver. İndi isə corabın içinə pambıq və yun dolduraq. Əgər corabın başını iplə bağlasaq yumru görünər. Bu da olar gəlinciyimizin başı. Hə, indi isə qollarını və ayaqlarını düzəldək."

**M:** "Uşaqlar, dinlədiyiniz hissəyə uyğun hissəni tapıb, işarə edin."
Müəllim oxumağa davam edir.

4

"Nənəsi Tutunun uzun şabalıdı saçlarını sığallayıb gülümsündü:
– İstəyirsən, gəlinciyinin də saçları şabalıdı rəngdə olsun? Lap səninki kimi.
– Bəli, nənəcan, istəyirəm.
Tutu sandıqdan rəngli sapları çıxardı. Nənəsi bu saplardan gəlinciyə saç düzəltdi. Tutu mavi düymələri nənəsinə uzatdı:
– Nənəcan, qoy gözləri də mavi olsun. Lap dəniz kimi".
**M: "**Uşaqlar, şəkildə dinlədiyiniz hissəyə uyğun şəkli tapıb, işarə edin".
Müəllim oxumağa davam edir.

5

"Gəlincik yavaş-yavaş hazır olurdu. Amma Tutu nədənsə narazı idi. Nənəsi soruşdu:
– Canım-gözüm, nə olub? Niyə kefin yoxdur? Yoxsa gəlinciyimiz xoşuna gəlmir?
– Xeyr, nənəcan, xoşuma gəlir. Amma gəlinciyimizin paltarı yoxdur. Bəs o, soyuqdan üşüməz? Gəl, ona qəşəng bir don da tikək.
– Tikək, ağıllı balam, tikək.
Tutu sandıqdan qırmızı məxmər parçanı çıxarıb nənəsinə verdi. Nənə gəlinciyin əyninə yaraşıqlı bir paltar tikdi".
**M:** "Uşaqlar, məzmuna uyğun hissəni tapıb, işarə edin". Müəllim oxumağa davam edir.

6

"Tutu nənəsini qucaqlayıb dedi:
– Çox sağ ol, nənəcan. Bizim gəlinciyimiz çox gözəldir. Çünki onu biz özümüz hazırlamışıq. Nəvəsinin gülən üzünü görən nənə də çox sevinirdi".

—İdman dəqiqəsi—

**II.** Müəllim uşaqlara suallarla müraciət edir:
– Nənə nə üçün gəlinciyi özləri düzəltməyi təklif etdi?
– Köhnə əşyalardan təkrar istifadə etməyin faydası nədir?
– Siz köhnə əşyalarınızın hansından təkrar istifadə edə bilərsiniz? *(Uşaqların cavabları)*

**Tətbiqetmə**
**III. M:** "Şəkildə müxtəlif əşyalar təsvir olunub. Siz orada hansı əşyaları görürsünüz? Onlardan hansından istifadə olunub? Tutunun gəlincik hazırlaması üçün istifadə etdiyi əşyaları ardıcıllıqla söylə". *(Uşaqların cavabları)*
**IV. M:** "Şəklə diqqətlə baxın. Bəs bu əşyalardan nə düzəldilib? *(Uşaqların cavabları)* Şəkildə verilmiş qatar hansı köhnə əşyalardan hazırlanmışdır? Siz yeni bir vaqonu başqa nədən düzəldə bilərsiniz?" *(Uşaqların cavabları)*
Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**4-cü həftə | ƏŞYALAR**

| | |
|---|---|
| **Məşğələ 3–4. SAVAD TƏLİMİNƏ HAZIRQLIQ VƏ NİTQ İNKİŞAFI**<br>**Mövzu: T (t) SƏSİ VƏ HƏRFİ** | **Standart:** 2.2.4; 2.2.5.<br>**İnteqrasiya:** 1.1.4. |
| **Məqsəd:** | • **T (t)** səsini və hərfi fərqləndirir.<br>• **T** səsinin işləndiyi sözləri söyləyir.<br>• Xətt üzrə **T (t)** hərfini yazır. |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Şəkillər, karandaşlar, marker, **A, N, Ə, T** hərfləri. |

**1-ci məşğələ**

**Motivasiya**
**M:** – Səhifənin yuxarısındakı şəklə baxaq. Şəkildə nə təsvir olunub? Bunlar nə adlanır? *(musiqi alətləri)*. Tülkünün əlində nə var? *(Tar) Tar* sözü hansı səslə başlayır? *(Uşaqların cavabları)*
– Söylədiyiniz hər bir söz yazılarkən hərflərdən istifadə edilir.
**Dərketmə**
**M:** "**T** hərfindən də digər hərflər kimi sözləri yazanda istifadə olunur. Uşaqlar sarı qutuya diqqətlə baxaq. Burada **T** hərfi təsvir olunub".
*Tuncay topu tulladı, Tutu, topu tut görək! Top-top mənə yaraşmaz, Mən tankçı olum gərək!*

**M:** "Eşitdiyiniz şeirdə uşaqların adı – *Tuncay, Tutu* və *top, tank* sözləri **T** səsi ilə başlayır. **T** səsi ilə daha hansı sözü deyə biləsiniz?" *(Uşaqların cavabları)*

**I. M:** "Burada böyük **T** hərfi təsvir olunub. Hərfin kənarında şəkillər təsvir olunub. Sol tərəfdə yuxarıda nə təsvir olunub? *(Uşaqların cavabları) Turp* sözü hansı səslə başlayır? *(Uşaqların cavabları)* Bəs hərfin sağında yuxarıda nə təsvir olunub? *Tort* sözü hansı səslə başlayır? Bu qayda ilə hər şəkildə nə təsvir olunduğunu söyləyin və bu sözün hansı səslə başlandığına diqqət edin".

**T** hərfinin rənglənməsi.

**II.** Müəllim lövhədə **T** hərfini izah edə-edə yazır. Bir neçə uşaq da lövhədə tapşırığı yerinə yetirir. **M:** "Kitabınızda kənara çıxmadan **T** hərfini xətt üzrə çəkin. Oxun istiqamətinə diqqət edin".

Uşaqlar vəsaitdə xətt üzrə **T** hərfini çəkirlər.

**M:** "Uşaqlar, **T** hərfinin ətrafında şəkillər təsvir olunub. **T** hərfinin hər tərəfində neçə şəkil təsvir olunub? Sol tərəfdəki şəkildə nə təsvir olunduğunu söyləyin. Sağ tərəfdə təsvir olunanları bir-bir sadalayın. Söz **T** səsi ilə başlayırsa, həmin şəkli **T** hərfi ilə birləşdirin".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

Müəllim uşaqlara kəsmə əlifbada olan hərflərin içərisindən **T** hərfini götürüb lövhəyə qoymağı təklif edir. *(Uşaqlar yerinə yetirir)*

**III. M:** "Uşaqlar, vəsaitin yuxarısında xanalarda sözlər yazılıb. Diqqətlə baxıb həmin hərflərin içərisindən **T, Ə** və **A**-nı tapın, həmin xananı nümunəyə uyğun rəngləyin. Sözü oxuyun".

**IV. M:** "Kənara çıxmadan xətt üzrə hərfləri, sözü yazın və oxuyun. Yazarkən oxun istiqamətinə diqqət yetirin".

**V. M:** "Şəkildə bir neçə hərf yazılıb. Tülkü **ATA** sözünü tapmaq istəyir. Tülküyə elə yolu göstərin ki, o yolla getsin və nəticədə **ATA** sözü alınsın".

**VI. M:** "Kitabınızda şəkillər təsvir olunub. Hər şəkildə nə təsvir olunduğunu bir-bir söyləyin. **T** səsinin sözün əvvəlində və ya sonunda gəldiyinə diqqət edin, həmin şəkli uyğun çərçivə ilə birləşdirin.

Məşğələ boyu uşaqlar rəğbətləndirilir. Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

Müəllim uşaq mahnısından bir hissə oxuyur:

*Qatar gəlir uzaqdan, Tak-tak, tak-tak, tak-tak-tak!*
*Gözləyirəm bayaqdan, Tak-tak, tak-tak, tak-tak-tak!*

**M:** "Uşaqlar, qatar gedərkən necə səs çıxardır? (Uşaqların cavabları) – *Tak-tak* sözü hansı hərflə başlayır?"

Verilmiş əlifbanın hərflərinin arasından **T** hərfi götürülərək lövhəyə qoyulur. **T** səsinin birlikdə və tək-tək tələffüz edilməsi üzrə iş aparılır.

Müəllim uşaqların diqqətini kiçik **t** hərfinə yönəldərək, deyir:

– Uşaqlar, bəs bu hansı hərfdir? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, şəklə diqqətlə baxın. Şəkildə nə təsvir olunub? *(Uşaqların cavabları)*

– Uşaqlar, bilirsiniz ki, hər bir hərfin həm böyük, həm də kiçik forması var".

Müəllim lövhədə **t** hərfini izah edə-edə yazır. Bir neçə uşaq da lövhədə tapşırığı yerinə yetirir.

– Bu, kiçik **t** hərfidir. İndi ardıcıllığı gözləməklə, nümunəyə əsasən **t** hərfini xətt üzrə çəkin. Çəkərkən, oxun istiqamətinə diqqət yetirin".

**M:** "Uşaqlar, indi isə **T** səsi ilə başlayan sözlər söyləyin. **T** səsi ilə bitən sözlər söyləyin". *(Uşaqlar yerinə yetirirlər).*

**M:** "Əvvəlki məşğələlərimizdə hansı hərfləri öyrənmişik? ***(A, N, T)***

Müəllim həmin hərflərin lövhədə yazılmasını (və ya kəsmə əlifba arasından çıxarılaraq, lövhəyə qoyulmasını) təklif edir.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "Kitabınızda səhifənin sağ və sol hissəsində şəkillər təsvir olunub. Hər şəkildə nə təsvir olunduğunu söyləyin**.** Şəkillərin arasında öyrəndiyiniz hərflərin həm böyük, həm də kiçik forması verilib. Birinci şəkildə nə təsvir olunub? *(Uşaqların cavabları)* (***alma***) – *Alma* sözü hansı hərflə başlayır? *(Uşaqların cavabları)* – Onu **T** hərfi ilə birləşdirmək olar? Nə üçün? *(Uşaqların cavabları)* – Bəs hansı hərflə birləşdirməliyik? *(Uşaqların cavabları)* – Sağ tərəfdə ikinci şəkildə nə təsvir olunub? (***Tort***) – *Tort* sözü hansı hərflə başlayır? *(Uşaqların cavabları)* – Tort şəklini hansı hərflə birləşdirməliyik? *(Uşaqların cavabları) (Bu qayda ilə dörd şəkil üzrə iş aparılır)*

**III. M:** "Şəkildə nə təsvir olunduğunu söyləyin. Sapa düzülmüş muncuqlar həmin sözün səslərini əvəz edir. Sarı və yaşıl muncuqlar hansı səsləri əvəz edir?

**M: –** *Tapançamı götürdüm,*

*Tüfəngi də ver mənə.*
*Tankı, topu sazlayım,*
*Hücum edim düşmənə!*

**M:** *Tapança, tüfəng, tank, top* sözləri hansı hərflə başlayır?" *(Uşaqların cavabları)*
Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | | 4-cü həftə \| ƏŞYALAR |
|---|---|---|
| **Məşğələ 5-6. RİYAZİ VƏ MƏNTİQİ TƏFƏKKÜRÜN İNKİŞAFI**<br>**Mövzu: RƏQƏMLƏRİ ÖYRƏNİRƏM** | | **Standart:** 2.3.1.<br>**İnteqrasiya:**. 2.2.6; 1.1.4. |
| **Məqsəd:** | • 1 və 2 rəqəmini adlandırır.<br>• Rəqəmə əsasən sayı müəyyənləşdirir. | |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. | |
| **İş forması:** | Kollektiv və fərdi. | |
| **Resurslar:** | Şəkillər, rəngli karandaşlar, plastilin. | |

**1-ci məşğələ**

**Motivasiya**
**M:** "Uşaqlar, vəsaitin yuxarısında nə təsvir olunub? Tülkü, barmağı ilə neçə göstərir? Sarı qutuya baxaq. Rəqəmin altında neçə dairə var?" *(Uşaqların cavabları)*

**Dərketmə**
**I. M:** "Bəli, say ifadə olunub. Tapşırığa baxın. Hansı rəqəm təsvir olunub? "**1**" yazılmış hissələri sarı karandaşla rənglə. Neçə dənə 1 rəqəmi alındı? *(Uşaqların cavabları)* Otağımızda sayı **1** olan əşyaları sadalayın. *(Uşaqların cavabları)* İndi isə gəlin "**1**" rəqəmini plastilindən düzəldək.
**II. M:** "Şəkildə gül təsvir olunub. Gülün ləçəkləri rəngsizdir. Bugünkü məşğələmizdə gülün bir ləçəyini rəngləyəcəyik. İndi işə bağlayıb, gülün **1** ləçəyini rəngləyin".
**III. M:** "Vəsaitinizdə xətt üzrə **1** rəqəmi yazılıb. Biz də sizinlə, 1 rəqəmini yazmağı öyrənəcəyik. *(Müəllim əvvəlcə lövhədə izah edə-edə **1** rəqəmini yazır. Sonra isə bir-neçə uşaq lövhədə tapşırığı yerinə yetirir.)* Ardıcıllığa əməl etməklə rəqəmləri xətt üzrə çəkin."

—İdman dəqiqəsi—

**Tətbiqetmə**
Müəllim uşaqlara say ifadə olunmuş şeir parçası söyləyir:
– *Asan bir sual verim, İnan, yoxdur beləsi. Üçdən iki çıxanda, Söylə, qalır neçəsi?*
Bu şeirdə nə ifadə olunub? *(Uşaqların cavabları)* Uşaqlar, indi isə tapmacanın cavabını söyləyin. Nəyə əsasən bu cavabı verdiniz? İzah edin. Barmağınızla "**1**" ədədini göstərin.
Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**
Müəllim uşaqların diqqətini vəsaitin yuxarısındakı şəklə cəlb edir və nə təsvir olunduğunu soruşur. Tülkü neçə barmağını göstərir? Günəşin neçə gözü var? *(Uşaqların cavabları)*

**Dərketmə**
**I. M:** "Tapşırığa baxın. Hansı rəqəmlər təsvir olunub? *(Uşaqların cavabları)* "2" yazılmış hissələri sarı, "1" yazılmış hissələri isə yaşıl karandaşla rəngləyin. 1 rəqəmi neçə dənə oldu? Bəs 2 rəqəmi neçə dənə oldu? Sayı 2 olan əşyaları sadalayın". *(Uşaqların cavabları)*
**II. M:** "Şəkildə gül təsvir olunub. Gülün ləçəkləri rəngsizdir. Bu gün gülün 2 ləçəyini rəngləyəcəksiniz".
**III. M:** "İndi isə 2 rəqəmini yazmağı öyrənəcəyik. (*Əvvəlcə müəllim lövhədə izah edə-edə 2 rəqəmini yazır, sonra isə bir neçə uşaq lövhədə tapşırığı yerinə yetirir.)* Vəsaitinizdə xətt üzrə 2 rəqəmi yazılıb. Nöqtədən başlayaraq ardıcıllığa əməl etməklə rəqəmləri çəkin".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**
**IV. M:** "Şəkildə 2 çərçivədə nar təsvir olunub. Birinci çərçivədə neçə nar təsvir olunub? ***(1).*** Onun altında neçə dairə çəkmək lazımdır? Bəs ikinci çərçivədə neçə nar təsvir olunub? Onun altında neçə dairə çəkmək lazımdır?" *(Uşaqların cavabları)*
**V. M:** "Şəkillərə baxın. Çərçivələrdə üzün müxtəlif hissələri təsvir olunub. Hər çərçivədə təsvir olunmuş üzvlərin sayını söyləyin və altında uyğun rəqəmi yazın. Məsələn, neçə burun təsvir olunub? ***(1)***. Altındakı damada 1 rəqəmini yazın". Digər tapşırıqlar da bu qayda ilə yerinə yetirilir.

**VI. M:** "Şəkildə açılmış barmaqlar təsvir olunub. Birinci şəkildə neçə barmaq açılıb? ***(1)*** Neçə dairə rəngləmək lazımdır? Bəs o biri şəkildə neçə barmaq açılıb? ***(2)*** Neçə dairə rəngləmək lazımdır? *(Uşaqların cavabları)* – İndi isə sağ tərəfdə verilən rəqəmləri xətt üzrə çəkin. Açılmış barmaqların sayı qədər uyğun rəqəmlə birləşdirin".

**M: –** *Hansı qoçaq tez deyər, Söyləyin, ay uşaqlar:*

*Xor-xor yatan pişiyin Neçə dənə gözü var? (Uşaqların cavabları)*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | | **4-cü həftə \| ƏŞYALAR** |
|---|---|---|
| **Məşğələ 7–8. TƏSVİRİ FƏALİYYƏT**<br>**Mövzu: MƏİŞƏT ƏŞYALARI** | | **Standart:** 3.1.4; 3.1.5.<br>**İnteqrasiya:**. 1.1.4; 2.2.6; 4.1.2. |
| **Məqsəd:** | • Kəsib-yapışdırma bacarıqları nümayiş etdirir.<br>• Sadə quraşdırma bacarıqları nümayiş etdirir.<br>• Yapma bacarıqları nümayiş etdirir. | |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. | |
| **İş forması:** | Kollektiv və fərdi. | |
| **Resurslar:** | Şəkillər, kağızlar, plastilin, rəngli karandaşlar, qayçı, yapışqan, rəngli kağız, fırça və s.) | |

### 1-ci məşğələ

**Motivasiya**

**M: –** Uşaqlar, əşya nədir? Hansı əşyaları sadalaya bilərsiniz? *(Uşaqların fikirləri dinlənilir)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, düz dediniz, əşyalar müxtəlifdir. Evdə işlətdiyimiz əşyalar məişət əşyaları adlanır. Biz evdə nahar zamanı hansı əşyalardan istifadə edirik? Digər işləri yerinə yetirərkən hansı əşyalardan istifadə edirik? *(Uşaqların cavabları)* İndi isə biz sizinlə kəsib-yapışdırma üsulu ilə stəkan düzəldəcəyik". Müəllim uşaqlara əvvəldən düzəltdiyi nümunəni göstərir, sonra onların gözü qarşısında izah edə-edə stəkan düzəldir. Daha sonra isə rəngli kağızlardan istifadə edərək, naxışlar əlavə edir. Uşaqlara işləməyi təklif edir. Məşğələ prosesində onlara istiqamət verir, uşaqların əməkdaşlıq etmələrinə imkan yaradır.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "Uşaqlar, biz sizinlə **T** hərfini öyrənmişik. Onu karandaşla çəkə bilirsiniz. Əvvəlcə, gəlin **T** hərfini havada əlimizlə cızaq. İndi isə böyük **T** hərfini plastilindən düzəldin. **T** hərfini düzəltmək üçün neçə hissə lazımdır?" Uşaqlar yerinə yetirdikdən sonra müəllim onlara kiçik şeir söyləyir:

– *Tuncay topu tulladı, Tutu, topu tut görək!*
*Top-top mənə yaraşmaz, Mən tankçı olum gərək!*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

### 2-ci məşğələ

**Motivasiya**

Müəllim uşaqlara içərisində akvarium təsvir olunmuş şəkil göstərir:

– Uşaqlar, akvariuma baxın. İçərisində bəzəkli, qəşəng balıqlar var. Bizim otağımızda akvariumda balıqlar yoxdur. Gəlin biz sizinlə balıqlar düzəldək. Balıqlar hansı formada olur? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, şəkillərə diqqətlə baxın. Orada tullantı materiallarından balıq düzəltmək göstərilir. Biz də işlənmiş qapaqlardan və kağızdan istifadə edərək balıqları düzəldəcəyik".

Uşaqlar işə başlamazdan əvvəl müəllim əvvəlcədən hazırladığı nümunəni göstərir, sonra isə uşaqların gözü qarşısında izah edə-edə yerinə yetirir. Materiallardan (qapaq, plastilin, qayçı, yapışqan, rəngli kağız, fırça və s.) istifadə qaydasını göstərir.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**M:** "Uşaqlar, indi isə düzəltdiyiniz balıqları "akvariuma" yerləşdirək". *(Düzəldilmiş "balıqlar" plastilin vasitəsilə akvariumu təsvir edən kağıza yapışdırılır.)*

**II. M:** "Uşaqlar, bizim çoxlu çətirimiz var. Amma onlar həm yarımçıq, həm də rəngsizdir. Xətlər üzrə çəkməklə çətirlərin şəkillərini tamamlayın və onları fərqli rəngləyin".

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| Məşğələ 9–10. FİZİKİ MƏDƏNİYYƏT<br>Mövzu: İPİN ÜSTÜNDƏN HOPPANAQ | Standart: 1.1.1.<br>İnteqrasiya:. 4.2.1; 4.2.2. |
|---|---|
| **Məqsəd:** | • Adi, pəncələr və daban üstə yeriş nümayiş etdirir.<br>• Hərəkətlərini koordinasiya edir.<br>• Hərəkətlərində çəldlik və çeviklik nümayiş etdirir. |
| **İş üsulları**: | Müzakirə, süjetli-rollu oyunlar. |
| **İş forması**: | Kollektiv, qruplarla və fərdi iş. |
| **Resurslar:** | İplər, stullar, uşaqların sayı qədər yaylıq. |

**1 və 2-ci məşğələlər**

**I. İsinmə hərəkətləri** (5 dəq.)
– adi, əllər yuxarıda pəncələr üstə və əllər arxada dabanlar üzərində yeriş;
– qolları dirsəkdən bükmək, irəli-geri hərəkət etdirərək, dizləri hündürə qaldırmaqla yeriş;
– siqnala uyğun yeriş və yürüşün əvəzlənməsi;
– bir sıradan iki sıraya düzülmək;
– əlləri yanlardan yuxarı qaldıraraq, nəfəs almaq və nəfəsi ağızdan buraxmaq. (4–5 dəfə)

**II. Ümuminkişafetdirici hərəkətlər** (20 dəq.) **Yaylıqlarla**

**1. "Yaylıqları yellədək"** (5-6 dəfə).
*ç.v.* – qaməti düz saxlamaqla, ayaqlar çiyin bərabəri aralı, əlləri yaylıqlarla aşağıda tutmaq.
*1 sayında* yaylıqları qabağa uzatmaq və yelləmək;
*2 sayında* ç.v.-ni almaq;
*3 sayında* "yaylıqları yellədək" işarəsi ilə yaylıqları yuxarı qaldırıb, yelləmək;
*4 sayında* ç.v.-ni almaq.

**2. "Yaylıqları ipdən asaq".** (8 dəfə təkrar etmək – hər tərəfə 4 dəfə).
*ç.v.* – qaməti düz saxlamaqla, ayaqlar çiyin bərabəri aralı, əlləri yaylıqlarla aşağıda tutmaq.
*1 sayında* "yaylıqları ipdən asaq" işarəsi ilə qolları irəli uzatmaqla, qabağa baxmaq;
*2 sayında* gövdəni sol tərəfə döndərib, qolları irəli uzatmaq;
*3 sayında* gövdəni sağ tərəfə döndərib hərəkəti eynilə təkrar etmək;
*4 sayında* ç.v.-ni almaq.

**3. "Yaylıqları gizlədək"** (4 dəfə).
*ç.v.* – qaməti düz saxlamaqla, ayaqlar çiyin bərabəri aralı, əlləri yaylıqlarla aşağıda tutmaq.
*1 sayında* ayaqları dizdən bükərək, çöməlmək. Müəllimin "yaylıqları gizlədək" işarəsilə gövdəni sol tərəfə döndərib, yaylığı arxada döşəməyə qoymaq;
*2 sayında* ç.v.-ni almaq.
*3 sayında* gövdəni sağ tərəfə döndərib, hərəkəti eynilə təkrar etmək;
*4 sayında* ç.v.-ni almaq.

**4. "Yaylıqlarla fırlanaq**" (4 dəfə).
*ç.v.* – qaməti düz saxlamaqla, ayaqlar bir qədər aralı, əlləri yaylıqlarla aşağıda tutmaq.
*1 sayında* müəllimin "yaylıqlarla fırlanaq" işarəsilə sol əli belə qoyub, sağ əli yaylıqla birlikdə yuxarı qaldırmaq və yerində sol tərəfə fırlanmaq;
*2 sayında* ç.v.-ni almaq.
*3 sayında* həmin hərəkəti digər tərəfə eynilə təkrar etmək;
*4 sayında* ç.v.-ni almaq.

**5. "Yaylıqlarla hoppanaq**" (4 dəfə).
*ç.v.* – qaməti düz saxlamaqla, ayaqlar bir yerdə, əlləri yaylıqlarla aşağıda.
*1 sayında* müəllimin "yaylıqlarla hoppanaq" işarəsi ilə sol əli belə qoyub, sağ əli yaylıqla birlikdə yuxarı qaldırmaq və yerində sol ayaq üstə hoppanmaq;
*2 sayında* ç.v.-ni almaq.
*3 sayında* həmin hərəkəti digər tərəfə eynilə təkrar etmək;
*4 sayında* ç.v.-ni almaq.

**Əsas hərəkətlər.**

**Hərəkətli oyun: "İpin üstündən hoppanaq"**

Uşaqlar otağın bir tərəfində sıra ilə dayanırlar. Otağın sağ tərəfində bir-birindən bir qədər aralı məsafədə qoyulmuş iki stula 2 ip bağlanır. Bunlardan bir qədər kənarda 20-30 sm. aralı yerə 2 ip bərkidilir. Müəllimin işarəsi ilə sırada dayanmış uşaqlardan bir neçəsi birinci ipə yaxınlaşıb, onun üstündən hoppanırlar. Kim hoppana bilirsə,

o zaman bir-birindən geniş məsafədə qoyulmuş ikinci iplərə yaxınlaşıb, onların üstündən hoppanır. Kim yerə qoyulmuş ipə toxunursa, təkrar həmin məsafədən hoppanmalıdır.

**III. Sakitləşdirici hərəkətlər** (5 dəq.)

***"Döşəməni rəngləyirik"***

*ç.v.* – diz üstə dayanıb qolları dirsəkdən bükmək, fırçanı yumruqlarda sıxmaq.

1. Nəfəsalma – sağ əli irəli uzadıb ***"döşəməni rəngləyirik"***, əli irəli-geri hərəkət etdirmək;
2. Nəfəsvermə – gövdəni qabağa əymək, qolları irəli uzatmaq.
3. Nəfəsalma – sol əli irəli uzadıb ***"döşəməni rəngləyirik"***, əli irəli-geri hərəkət etdirmək;
4. Nəfəsvermə – ç.v-nə qayıtmaq. Müəllimin ardınca bir cərgədə sakit yeriş.

**4-cü həftə | ƏŞYALAR**

**Məşğələ 11–12. MUSİQİ**
**Mövzu: OYUNCAQLAR**

**Standart:** 3.1.7; 3.1.8.
**İnteqrasiya:** 2.2.2; 4.2.2.

| | |
|---|---|
| **Məqsəd:** | • Musiqinin xarakterini müəyyən edir.<br>• Xorda oxumaq bacarıqları nümayiş etdirir.<br>• Musiqinin ritminə uyğun zərb musiqi alətlərində müşayiət yaradır. |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Kompüter, disk, şəkillər, toplar, zərb alətləri (dəf, nağara, metallofon), kukla. |
| **Musiqi materialları:** | "Sülh haqqında mahnı" (Q.Qarayev), "Kuklaların yürüşü" pyesi ("Uşaq süitası" fortepiano silsiləsindən, A.Zeynallı), "Oyuncaqlar" mahnısı (S.Rüstəmov/ M.Seyidzadə), "Oynaq topum" mahnısı (S.Hacıbəyov/M. Seyidzadə), "Gəlincik" (T.Quliyev / M.Əlizadə), "Kukla" (A.Rzayeva/ C.Məmmədov), "Hədiyyə" (Ş.Axundova/ X.Əlibəyli) |
| **Alternativ material:** | **Dinləmə:** "Nəlbəki" Azərbaycan xalq rəqsi<br>**Mahnı:** "Kukla" (A.Rzayeva / C.Məmmədov), "Kitablar" (O Zülfüqarov/ H.Ziya), "Oynaq topum" (S.Hacıbəyov/ M. Seyidzadə), "Telefon" (O.Zülfüqarov, M. Seyidzadə), "Hədiyyə" (Ş. Axundova/ X. Əlibəyli), "Gəlincik" (T. Quliyev/M. Əlizadə) |

**1-ci məşğələ**

**1. Marş.** "Sülh haqqında mahnı" (Q.Qarayev).

**2. Dinləmə.** Müəllim instrumental musiqi (pyes) haqqında sadə izah verir. Zərb musiqi alətləri (dəf, nağara və metallofon) nümayiş olunur və onlar haqqında qısa məlumat verir. Müəllimin izahı zamanı dinlənilən əsərə aid şəkil və illüstrasiyalar da göstərilir. Sonra "Kuklaların yürüşü" fortepiano pyesi (musiqisi A.Zeynallının) səsləndirilir. Əsəri dinlədikdən sonra müəllim uşaqlara suallarla müraciət edir:

– Dinlədiyiniz musiqinin xarakteri necə idi?

– Marş musiqisi ilə necə addımlamaq olar? *(Uşaqların cavabları)*

**3. Mahnı.** "Oyuncaqlar" mahnısı (musiqisi S.Rüstəmovun, sözləri M.Seyidzadənin) şifahi yolla öyrədilir.

Müəllim bəstəkar, mahnı, onun məzmunu haqqında qısa məlumat verir, sonra mahnı səsləndirilir. Uşaqlar dinlədikdən sonra mahnı hissə-hissə, frazalarla öyrədilir. Tələffüzü çətin olan sözlər və melodiya üzərində iş aparılır.

Sonda "Oyuncaqlar" mahnısının öyrənilmiş hissəsi xorla ifa edilir, məzmunu və xarakteri müzakirə olunur.

**4. Musiqili-ritmik hərəkətlər.** "Oynaq topum" (mus. S.Hacıbəyov, söz. M.Seyidzadə) mahnısı səsləndirilir. Uşaqlar iki qrupa bölünürlər. Bir qrupa zərb alətləri (taxta qaşıq, metallofon, dəf, nağara və s.), o biri qrupa isə toplar paylanır. Mahnının sədaları altında uşaqların bir qismi ritmə uyğun topları yerə vururlar, zərb musiqi alətləri paylanılan uşaqlar isə həmin zərb alətlərində ritmik müşayiət yaradırlar.

Məşğələ ümumiləşdirilərək yekunlaşdırılır.

**Musiqi materialı:**

**"Oyuncaqlar"**

Kuklam, atım, dovşanım var,
Mənim bir də Məstanım var.
Əyləndirir hər gün məni
Bu sevimli oyuncaqlar.

Çəpgöz dovşan çox zirəkdi,
Məstan pişik bir pələngdir.
At bənzəyir lap ceyrana,
Gözəllikdə kuklam təkdi.

**2-ci məşğələ**

**Marş.** "Sülh haqqında mahnı" (Q. Qarayev)
**Mahnı.** "Oyuncaqlar" mahnısı (S.Rüstəmov / M.Seyidzadə)
**Səhnələşdirmə.** "Tutunun gəlinciyi" (resurs: kuklalar, kitablar, jurnallar, tikiş ləvazimatları və s.)

| № | Musiqi materialı | Fəaliyyət |
|---|---|---|
| **1** | "Kukla" | Uşaqlar kitabda kuklaların təsvirinə baxırlar. |
| **2, 3** | "Hədiyyə" | Parça kəsmək, tikiş tikmək və bu kimi hərəkətləri təsvir edirlər. |
| **4, 5, 6** | "Gəlincik" | Hərə öz kuklasını oynadır, saçlarını sığallayır, paltarını geyindirir və s. hərəkətləri təsvir edir. |

**5-ci həftə | GİGİYENA**

**Məşğələ 1. ƏTRAF ALƏMLƏ TANIŞLIQ**
**Mövzu: BƏDƏN ÜZVLƏRİMİZ VƏ GİGİYENA**

**Standart:** 2.1.4; 2.1.5.
**İnteqrasiya:** 1.2.1; 2.2.6.

| | |
|---|---|
| **Məqsəd:** | • Bədən üzvlərinin adını söyləyir.<br>• Hər bir bədən üzvünün funksiyasını və əhəmiyyətli olduğunu söyləyir.<br>• Bədənə qulluq haqqında danışır. |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Bədən üzvləri təsvir olunmuş şəkil, oğlan portreti, iş dəftəri və karandaşlar |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, gəlin bir-birimizə gülümsünək. Görək biz bu gün məşğələyə hansı əhvalla gəlmişik?
– Gözlərimiz, baxmağa hazırsınız? *(uşaqlar göz qapaqlarını tumarlayırlar)* Bəli! *(əllərini binokl kimi tutaraq, baxırlar)* – Qulaqlarımız, eşitməyə hazırsınız? Bəli! *(ovucları ilə qulaqlarını sığallayırlar)* – Əllərimiz, alqışlamağa hazırsınız? Bəli! *(əl çalırlar)* – Ayaqlarımız, getməyə hazırsınız? Bəli! *(ayaqlarını tumarlayır, yerində addımlayırlar)* – Siz hazırsınız? Bəli! *(uşaqlar qollarını yanlara açaraq özlərini qucaqlayırlar)*

**Dərketmə**

**I. M.** – "Uşaqlar, gəlin bir-birimizə baxaq. Nə görürük? (*Uşaqların cavabları*) – *Baş, bədən, qollar, əllər, ayaqlar* – bunlar bizim bədən üzvlərimizdir. Bədən üzvlərinin hər biri müxtəlif funksiyaları yerinə yetirir. Deməli, müxtəlif vəzifələri yerinə yetirən orqanlar insan orqanizminin ümumi quruluşunu təşkil edir. Bu orqanlar sayəsində yaşayır, nəfəs alır, düşünür, gəzir və yemək yeyirik. Baxın, bütün uşaqlar müxtəlifdir, amma bədən hissələrinin hamıda eyni olmasına görə oxşardırlar.
– *Baş* düşünür, baxır, nəfəs alır, ətir və iyləri fərqləndirir, bunları isə başda yerləşən bədən hissələri vasitəsilə edir. Saçımızın kənarından qaşlarımıza qədər olan hissə alın adlanır. Alnımızın aşağısında nə yerləşir? *(Gözlər)* İndi biz öyrənəcəyik ki, gözlər nəyə lazımdır.
– Gözlərinizi yumun. Mən deyənə qədər açmayın. (*müəllim əlini irəli uzadır*) – *Mən nə edirəm?* Bəs indi? *(əlinə kitab götürür)* İndi isə gözlərinizi açın! *(həmin hərəkətləri təkrar edir) (Uşaqların cavabları)* –Baxın, siz indi cavab verdiniz. Deməli, göz insana görmək üçün lazımdır. Gözləri nədən qorumaq lazımdır? *(Uşaqların cavabları)* – Bəs qaşlar nə üçündür? *(Alından axan tərin qarşısını almaq üçün)* – Bəs kirpiklər nə üçündür? *(Gözə yad cisimlərin düşməsinin qarşısının alınması üçün)*

**M: –** "Bəs bir qədər aşağıdakı nədir? *(Burun)* Yoxlayaq görək burun nə üçün lazımdır. Bir əlinizlə burnunuzu, digər əlinizlə ağzınızı tutun. Nə oldu? *(Uşaqların cavabları)* Deməli, burun nəfəs almaq üçün lazımdır. Burun bir başqa vəzifəni də yerinə yetirir. *(Bir uşağa gözünü qapamağı təklif edir. Əvvəlcə ətir çilənmiş pambığı, sonra isə sarımsağı uşağa yaxınlaşdırır)* – Sən nə hiss etdin? *(Ətir və sarımsaq iyini)* – Deməli, burun həm də qoxunu hiss etmək üçün lazımdır.
– Bəs bunlar nədir? *(qulaqlarını göstərir)* Gəlin yoxlayaq görək, *qulaqlar* nə üçündür. Ovuclarınızla qulaqlarınızı möhkəm sıxın. *(müəllim 2–3 sözü asta səslə elə söyləyir ki, uşaqlar eşitməsin)* İndi isə qulaqlarınızı açın. *(sözü yenidən təkrar edir)* Deməli, qulaqlar eşitmək üçündür. Başımız boynumuzun üstündə yerləşir. Boynumuz olmasa, baş müxtəlif tərəflərə dönə bilməz. Bədənimizə isə *əllər* və *ayaqlar* birləşib. İnsanın əlləri çox vacibdir, onlar müxtəlif işlər görür. Deyə bilərsinizmi, hansını? (*Uşaqların cavabları*) Əllərimiz qolumuza *bilək* vasitəsilə birləşib. Biləklər əllərimizə müxtəlif tərəflərə dönməyə imkan verir. Ayaqlarımız isə gəzməyə, qaçmağa, tullanmağa,

oturmağa imkan verir. Ayaqlarımızın tam sərbəst hərəkət etməsinə *dizlərimiz* kömək edir. Pəncələrimiz isə ayaqlara *topuqdan* birləşib. Bu da ayaq pəncələrimizin sərbəst hərəkət etməsinə imkan verir. Deməli, bütün orqanlarımız çox vacibdir. – Biz bu orqanların sağlamlığı qayğısına qalaraq onlara qulluq etməliyik.

—İdman dəqiqəsi—

**M:** "Uşaqlar, insana əllər nə üçün lazımdır? (*Uşaqların cavabları*) Əlləri qorumaq lazımdırmı və necə? (*Uşaqların cavabları*) İnsana ayaqlar nə üçün lazımdır? Ayaqları qorumaq lazımdırmı və necə? (*Uşaqların cavabları*) Baş nə üçün lazımdır? Biz başımızı necə qoruya bilərik? Bədən hansı hissələrdən ibarətdir?" (*Uşaqların cavabları*)

**Tətbiqetmə**

**II. M:** "Bədənimizdə hansı üzvləri tanıyırsınız? Hərəkət üçün hansı üzvlər lazımdır? Hansı üzvlərin xüsusi qayğıya ehtiyacı var?" *(Uşaqların cavabları)*

**III. M:** "Şəkildə müxtəlif fəaliyyətləri icra edən 6 şəkil təsvir olunub. Birinci şəkildə nə təsvir olunub? Yuyunmaq nəyə lazımdır? *(Uşaqların cavabları)* Şəkildəki digər təsvir olunanların faydaları haqqında məlumat verin".

**IV. M:** "Şəkildəki birinci təsvir olunan nə üçün istifadə edilir? Dırnaqları nə üçün təmiz saxlamaq, kəsmək lazımdır? *(Uşaqların cavabları)* Təsvir olunmuş əşyaların hər birinin hansı məqsədlə istifadə edilməsinin nəzərdə tutulduğunu söyləyin və müvafiq şəkillə birləşdirin. Şəkildə gördüklərinizə əsasən hər gün etdiklərinizi qeyd edin".

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| | **5-ci həftə \| GİGİYENA** |
| **Məşğələ 2. BƏDİİ TƏFƏKKÜRÜN İNKİŞAFI**<br>**Mövzu: LİMPO VƏ LULU** | **Standart:** 2.2.2; 2.2.6.<br>**İnteqrasiya:** 2.1.2; 2.1.4. |

| | |
|---|---|
| **Məqsəd:** | • Mövzu əsasında danışır.<br>• Şəkil əsasında fikrini sadə şəkildə ifadə edir.<br>• Nitqində əlamət bildirən sözlərdən istifadə edir. |
| **İş üsulları:** | Müzakirə, suallar, nağıletmə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Nağılın mətni, şəkillər. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M: –** Uşaqlar, vəsaitinizdə şəkillərə diqqətlə baxın. Şəkildə nə təsvir olunub? Sizcə, burada söhbət nədən gedə bilər? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, mən sizə şəkildə təsvir olunanlara aid **"Limpo və Lulu**" nağılını söyləyəcəyəm. Siz isə şəkillərə baxaraq mətni dinləyin. Hər şəkil mətnin bir hissəsini əks etdirir. Mən deyəndə dairəni rəngləməklə, dinlədiyiniz məlumatları əks etdirən şəkli qeyd edin".

1

"Begemot Limpo çox böyük idi. Onun bədəni lap böyük idi".

**M: –** Eşitdiyinizə əsasən şəkildə uyğun hissəni qeyd edin.

2

"Lakin Limponun ayaqları çox qısa idi. Limpo öz belini təmizləyə bilmirdi".

**M:** – Bu məlumata əsasən şəkildə uyğun hissəni qeyd edin.

3

"Belindəki lilin içində müxtəlif böcəklər var idi. Onlar Limponu incidirdi.
Balaca quş Lulu bunu görüb Limpoya kömək etməyi təklif etdi".

**M:** – Məzmuna uyğun hissəni qeyd edin. ".

4

"O, Limponun belinə qonub böcəkləri bir-bir dimdiklədi".

**M:** – Uyğun hissəni qeyd edin.

5

"Limpo və Lulu dost oldular".

**II.** Müəllim uşaqlara suallarla müraciət edir: "Limponun nə üçün Lulunun köməyinə ehtiyacı var idi? Bir-birinə kömək edən hansı heyvanları tanıyırsınız? Siz öz dostlarına necə kömək edirsiniz?" *(Uşaqların cavabları)*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** "Lulu hansı heyvana kömək etdi? Şəklə diqqətlə baxın və şəkillər üzrə danışın.

– Lulunun daha hansı heyvanlara kömək edə bilərdi?" *(Uşaqların cavabları)*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | | **5-ci həftə \| GİGİYENA** |
|---|---|---|
| **Məşğələ 3–4. SAVAD TƏLİMİNƏ HAZIRLIQ VƏ NİTQ İNKİŞAFI**<br>**Mövzu: L (l) SƏSİ VƏ HƏRFİ** | | **Standart:** 2.2.4; 2.2.5.<br>**İnteqrasiya:** 1.1.4; 2.1.2. |
| **Məqsəd:** | • Mövzu əsasında danışır.<br>• Şəkil əsasında fikrini sadə şəkildə ifadə edir.<br>• Nitqində əlamət bildirən sözlərdən istifadə edir. | |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. | |
| **İş forması:** | Kollektiv və fərdi iş. | |
| **Resurslar:** | Şəkillər, karandaşlar, marker, **A, N, Ə, T, L** hərfləri. | |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Səhifənin yuxarısındakı şəklə baxaq. Şəkildə nə təsvir olunub? Tülkünün əlində nə var? *(Uşaqların cavabları)* **Limon** sözü hansı səslə başlayır?

– Bilirsiniz ki, söylədiyiniz hər bir söz yazılarkən hərflərdən istifadə edilir.

**Dərketmə**

**I. M:** "**L** hərfindən də digər hərflər kimi sözləri yazanda istifadə olunur. Uşaqlar, sarı qutuya diqqətlə baxaq. Burada həm böyük **L, həm də kiçik l** hərfi təsvir olunub. **L** böyük hərfdir.

*Lalə dostların yenə*
*Topladı ətrafina:*
*– Axı mən nənəmgilə*
*Getmişdim Lənkərana!?*

*Orda bir ağac vardı,*
*Meyvələri sapsarı.*
*Leyla dadına baxdı,*
*Büzüşdü dodaqları.*

**M:** – Uşaqlar, sizcə, Leyla hansı meyvənin dadına baxmışdı? *(Uşaqların cavabları)* Eşitdiyiniz şeirdə qızın adı – *Lalədir, Leyla, Lənkəran, limon* sözləri **L** səsi ilə başlayır.

**M: –** "Uşaqlar, **L** hərfi ilə tanış olaq. Baxın, burada böyük **L** hərfi təsvir olunub. Hərfin ətrafında isə şəkillər var. Sol tərəfdə yuxarıda nə təsvir olunub? *(Uşaqların cavabları) Lampa* sözü hansı səslə başlayır? *(Uşaqların cavabları)* Bəs hərfin sağında yuxarıda nə təsvir olunub? *Limon* sözü hansı səslə başlayır? Hər şəkildə nə təsvir olunduğunu söyləyin və bu sözün hansı səslə başlandığına diqqət edin. *(Uşaqların cavabları)* Sözlərdən hansı **L** səsi ilə başlayır?" *(Uşaqların cavabları)*

"**L**" hərfini rəngləyin.

**II.** Müəllim lövhədə **L** hərfini izah edə-edə yazır. Sonra bir neçə uşaq lövhədə tapşırığı yerinə yetirir. Digər uşaqlar vəsaitdə xətt üzrə **L** hərfini çəkirlər.

**M:** – "Kənara çıxmadan **L** hərfini xətt üzrə çəkin. Oxun istiqamətinə diqqət edin".

**M: –** "Uşaqlar, **L** hərfinin ətrafında şəkillər təsvir olunub. **L** hərfinin hər tərəfində neçə şəkil təsvir olunub? Sol tərəfdəki şəkildə təsvir olunanları adlandırın. Onu L hərfi ilə birləşdirmək olar? *(Uşaqların cavabları)* Sağ tərəfdə təsvir olunanları bir-bir adlandırın. Söz **L** səsi ilə başlayırsa, həmin şəkli **L** hərfi ilə birləşdirin".

Digər şəkillər də bu qayda ilə işlənilir.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

Müəllim uşaqlara kəsmə əlifbada olan hərflərin içərisindən **L** hərfini götürüb lövhəyə qoymağı təklif edir. *(Uşaqlar yerinə yetirir).*

**III. M:** "Uşaqlar, vəsaitin yuxarısında xanalarda sizin öyrəndiyiniz hərflərdən sözlər yazılıb. **L, N, Ə** və **A** hərflərini nümunəyə uyğun rəngləyin. Sonra sözü oxuyun."

**IV. M:** "Kənara çıxmadan xətt üzrə hərfləri çəkin. Oxun istiqamətinə diqqət edin".

**V. M:** "Kitabınızda xətlər üzrə sözlər yazılıb. Sözlərdəki birinci hecanın hərflərini qırmızı, ikincini isə göy karandaşla çəkin". *(Bitirdikdən sonra sözlərin oxunması.)*

**VI. M:** "Vəsaitdə şəkillər təsvir olunub. Birinci şəkildə nə təsvir olunub? (**Əl**) Söz hansı hərflə başlayır? Şəkli hansı hərflə birləşdirmək lazımdır? *(Uşaqların cavabları)* Hər şəkildə nə təsvir olunduğunu bir-bir söyləyin. Sözün **L** və ya **N** səsi ilə başlandığını, yaxud bitdiyini müəyyən edin, həmin şəkli uyğun çərçivə ilə birləşdirin".

Məşğələ boyu uşaqlar rəğbətləndirilir. Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M:** – *Laləyəm, al-qırmızı, Özüm baharın qızı.*

*Dörd ləçəkli güləm mən, Baharda açıram mən.*

**Lalə** sözü *hansı səslə başlayır? (Uşaqların cavabları)*

Hərflərin arasından **L** hərfi götürülərək lövhəyə qoyulur. **L** səsinin birlikdə və tək-tək tələffüz edilməsi üzrə iş aparılır. Müəllim uşaqların diqqətini kiçik **l** hərfinə yönəldərək deyir:

– Uşaqlar, bilirsiniz ki, hər bir hərfin həm böyük, həm də kiçik forması var.

**Dərketmə**

**I. M:** "Uşaqlar, şəklə diqqətlə baxın. Şəkildə nə təsvir olunub? *(Uşaqların cavabları)*

– Bu, kiçik **l** hərfidir. İndi oxun istiqamətini gözləməklə nümunəyə əsasən həm böyük **L** hərfini, həm də kiçik **l** hərfini xətt üzrə çəkin". Müəllim lövhədə kiçik **l** hərfini izah edə-edə yazır. Sonra bir neçə uşaq lövhədə tapşırığı yerinə yetirir. Digər uşaqlar vəsaitdə xətt üzrə hərfin həm böyük, həm də kiçik formasını yazırlar. Müəllim uşaqların sözləri heca üzrə tələffüz etməsi üzrə iş aparır.

**M:** "**L** səsi ilə başlayan sözlər söyləyin. **L** səsi ilə bitən sözlər söyləyin". *(Uşaqların cavabları)*

**M:** "Kitabınızda sözlər yazılıb. Həmin sözlər həm böyük hərflərlə, həm də kiçik hərflərlə yazılıb. Burada əvvəlki məşğələlərimizdə öyrəndiyiniz daha hansı hərflər verilib? İndi xətt üzrə həmin sözləri yazın və oxuyun. Nə oldu? *(lalə)* Həm böyük, həm də kiçik hərflə yazılarkən sözün mənası dəyişmir".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "Burada şəkillər və muncuqlar təsvir olunub. Hərflərin rənginə əsasən həmin rəngdə olan muncuqlara hərfləri yazın. Sonra həmin sözü oxuyun. Nə oldu?" *(At)* Digər sözlər də bu qayda ilə müəyyən olunur.

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| | **5-ci həftə \| GİGİYENA** |
| **Məşğələ 5-6. RİYAZİ VƏ MƏNTİQİ TƏFƏKKÜRÜN İNKİŞAFI**<br>**Mövzu: RƏQƏMLƏRİ ÖYRƏNİRƏM** | **Standart:** 2.3.1.<br>**İnteqrasiya:** 2.2.6.; 3.1.8. |

| | |
|---|---|
| **Məqsəd:** | • 3 və 4 rəqəmlərinin adını söyləyir.<br>• Rəqəmə əsasən sayı müəyyənləşdirir. |
| **İş üsulları**: | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi. |
| **Resurslar:** | Şəkillər, dovşan, kök şəkilləri, rəngli karandaşlar. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Uşaqlar, vəsaitin yuxarısında nə təsvir olunub? Tülkü, barmağı ilə neçə göstərir? Sarı qutuya baxaq. Rəqəmin altında neçə dairə var? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Bəli, say ifadə olunub. Tapşırığa baxın. Hansı rəqəmlər təsvir olunub? *(Uşaqların cavabları)* "3" yazılmış hissələri sarı, "1" yazılmış hissələri yaşıl, "2" yazılmış hissələri isə qırmızı karandaşla rəngləyin. Otağımızda sayı 3 olan əşyaları sadalayın." *(Uşaqların cavabları)"*

**II. M:** "Şəkildə güllər və güllərin üstündə də dairələr təsvir olunub. Birinci gülün üzərində neçə dairə təsvir olunub? İkinci gülün üzərində neçə dairə təsvir olunub? Üçüncü gülün üzərində neçə dairə təsvir olunub? *(Uşaqların cavabları)* Dairələrin sayına uyğun gülün həmin sayda ləçəyini rəngləyin".

**M:** "Uşaqlar, dovşanlar bizə qonaq gəlib. *(Lövhəyə 3 dovşan fiquru qoyur)* Onları nəyəsə qonaq etmək lazımdır. Gəlin onları kökə qonaq edək. Əvvəlcə dovşanları sayaq. Neçə dovşan var? *(Uşaqların cavabları)* Bizim isə 2 kökümüz var. Əlavə neçə kök lazımdır ki, dovşanların hamısına çatsın. *(Uşaqların cavabları)* O zaman daha 1 kök lazımdır. Biz onu bostanımızdan çıxarıb, dovşana verərik. (*Sonra hər dovşanın yanına 1 kök qoyulur.)* Cəmi neçə kök lazım oldu?" *(Uşaqların cavabları)*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M: "**Nöqtədən başlayaraq ardıcıllığı gözləməklə xətt üzrə "3" rəqəmini yazın. Barmaqlarınızla "3" rəqəminin sayını göstərin". *(Lövhədə müəllim izah edə-edə 3 rəqəmini yazır. Sonra isə bir neçə uşaq lövhədə tapşırığı yerinəyetirir.)*

Müəllim şeir söyləyir:

*Bütün günü sönən-yanan üç sehrli işığım var,*
*Gözləri ilə danışan üç sehrli çırağım var.*
**M:** "Uşaqlar, söhbət nədən gedir? (*İşıqfordan*) İşıqforun neçə gözü var? *(Uşaqların cavabları)*
Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**
Müəllim uşaqların diqqətini kitabın yuxarısındakı şəklə cəlb edir və nə təsvir olunduğunu soruşur: "Şəkildə neçə barmaq göstərilir? Stolun neçə ayağı var? *(Uşaqların cavabları)* Sarı qutuya baxaq. Rəqəmin altında neçə dairə var?" *(Uşaqların cavabları)*
**Dərketmə**
**I. M:** "Tapşırığa baxın. Hansı rəqəmlər təsvir olunub? *(Uşaqların cavabları)* "4" yazılmış hissələri sarı, "1" yazılmış hissələri yaşıl, "3" yazılmış hissələri qırmızı karandaşla rəngləyin. Otağımızda sayı 4 olan əşyaları sadalayın". *(Uşaqların cavabları)*
**II. M:** "Şəkildə toplar təsvir olunub. Siz sayı bilirsiniz. Topları rənglər üzrə dörd-dörd sayaraq ayırın və haşiyəyə alın. Neçə qrup alındı?"
**III. M:** "Vəsaitdə xətt üzrə 4 rəqəmi yazılıb. Biz də sizinlə 4 rəqəmini yazmağı öyrənəcəyik. Əlimizlə havada 4 rəqəmini cızaq. *(Lövhədə müəllim əvvəlcə izah edə-edə 4 rəqəmini yazır. Sonra isə bir-neçə uşaq lövhədə, qalanları iş dəftərlərində tapşırığı yerinə yetirir.)* Nöqtədən başlayaraq və ardıcıllığa əməl etməklə rəqəmləri çəkin.
**IV. M:** "Kitabınızın sol və sağ tərəfində sayı göstərən açılmış barmaqlar təsvir olunub. Açılmış barmaqların qarşısında barmaqların işarə etdiyi sayda dairə çəkin. Ümumi çəkilmiş dairələri sayın".
—İdman dəqiqəsi—
**Tətbiqetmə**
**V. M:** "Vəsaitin sol tərəfində barmaqlarla sayı bildirən əl şəkli, sağ tərəfdə isə xətt üzrə rəqəmlər yazılıb. Barmaqlarla rəqəmlərin arasında rəngsiz dairələr çəkilib. Rəqəmləri xətt üzrə çəkin. Barmaqların sayını söyləyin. Saya uyğun qarşısında dairələri rəngləyin və onu müvafiq ədədlə birləşdirin".
**M:** – *Dünyanın dörd tərəfi,*
*Damın dörd dayağı var.*
*Ən böyük, nəhəng filin*
*De, neçə ayağı var? (Uşaqların cavabları)*
Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**5-ci həftə | GİGİYENA**

**Məşğələ 7–8. TƏSVİRİ FƏALİYYƏT**
**Mövzu: ADAM DÜZƏLDƏK**

**Standart:** 3.1.3; 3.1.5.
**İnteqrasiya:** 1.1.4; 2.2.6; 4.2.3.

| | |
|---|---|
| **Məqsəd:** | • Kəsmə üsulu ilə yaradıcılıq bacarıqları nümayiş etdirir.<br>• Sadə yapma bacarıqları nümayiş etdirir. |
| **İş üsulları**: | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi. |
| **Resurslar:** | Şəkillər, kağızlar, plastilin, rəngli karandaşlar, qayçı, yapışqan, rəngli kağız, fırça və s.) |

**1-ci məşğələ**

**Motivasiya**
**M:** – Uşaqlar, şəkillərə diqqət edin. Nə təsvir olunub? İnsan bədəninin hansı hissələri var? Sağlamlığımızı qorumaq üçün nə etməliyik? *(Uşaqların fikirləri dinlənilir)*
**Dərketmə**
**I. M:** "İnsanın bədən üzvlərini sadaladınız. Şəkildə həm qız, həm də oğlan fiquru verilib. *(Müəllim uşaqlara qız və oğlan fiqurunu fərqləndirən cəhətləri söyləmələrini təklif edir.)* Biz nümunəyə əsasən insan fiqurunu düzəldəcəyik. Bunun üçün rəngli kağızlardan istifadə edəcəyik". *(Əvvəlcə müəllim nümunəni göstərir, uşaqların gözü qarşısında izah edə-edə işi yerinə yetirir. Sonra uşaqlara işə başlamağı təklif edir.)*
—İdman dəqiqəsi—
**Tətbiqetmə**
**II. M:** – Uşaqlar, siz **L** hərfini yazmağı və oxumağı öyrənmisiniz. İndi isə plastilindən böyük **L** hərfini düzəldin. Hərfin düzəldilməsində neçə hissədən istifadə edilir?

Məşğələ prosesində müəllim uşaqlara istiqamət verir, uşaqların əməkdaşlıq etmələrinə imkan yaradır. Uşaqlar yerinə yetirdikdən sonra, müəllim onlara kiçik şeir söyləyir:

*"Bağda bir ağac vardı,*
*Meyvələri sapsarı.*
*Leyla dadına baxdı,*
*Büzüşdü dodaqları".*

**L** hərfinin möhkəmləndirilməsi üçün sözlər söylənilir.

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M: –** Uşaqlar, sizin bədən üzvləri, onlara qulluq haqqında məlumatınız var. Deyə bilərsinizmi ki, başda hansı üzvlər yerləşir? Onlar nə üçündür? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, biz dairənin içərisində plastilindən istifadə edərək insan üzünü təsvir edəcəyik". *(Müəllim əvvəlcədən hazırladığı nümunəni göstərir, sonra onların gözü qarşısında izah edə-edə işi yerinə yetirir və sonra uşaqlara işə başlamağı təklif edir.)* Rəngli plastilindən istifadə qaydasını göstərir. Başda yerləşən üzvləri ayrı-ayrı düzəldərək rəngli kağızda çəkilmiş dairədə uyğun yerə yapışdırır.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**M:** "Uşaqlar, dişlərə necə qulluq etmək lazımdır? *(Uşaqların cavabları)* İndi isə diş fırçalarını tamamlayın və rəngləyin".

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| | **5-ci həftə \| GİGİYENA** |
| **Məşğələ 9–10. FİZİKİ MƏDƏNİYYƏT**<br>**Mövzu: GÖYƏRÇİNİN UÇMASI** | **Standart:** 1.1.1.<br>**İnteqrasiya:** 4.2.1; 4.2.2. |

| | |
|---|---|
| **Məqsəd:** | • Dizləri yuxarı qaldırmaqla yeriş nümayiş etdirir.<br>• Hərəkətlərini koordinasiya edir.<br>• Hərəkətlərində cəldlik və çeviklik nümayiş etdirir. |
| **İş üsulları:** | Müzakirə, süjetli-rollu oyunlar. |
| **İş forması:** | Kollektiv, qruplarla və fərdi iş. |
| **Resurslar:** | Uşaqların sayı qədər yaylıq. |

**1 və 2-ci məşğələlər**

**I. İsinmə hərəkətləri** (5 dəq.)
– əlləri sərbəst hərəkət etdirərək ayaqları dizdən yuxarı qaldırmaqla yerində addımlamaq;
– qolları dirsəkdən bükmək, irəli-geri hərəkət etdirərək, dizləri hündürə qaldırmaqla yeriş;
– əllər beldə dairə boyunca qaçış;
– bir sıradan iki sıraya düzülmək;
– əlləri yanlardan yuxarı qaldıraraq nəfəs almaq və nəfəsi ağızdan buraxmaq (4–5 dəfə).

**II. Ümuminkişafetdirici hərəkətlər** (20 dəq.)

**1. "Göyərçin qanadlarını yelləyir"**
*ç.v.–* qaməti düz saxlamaqla ayaqlar çiyin bərabəri aralı, yaylıqlarla əllər aşağıda.
*1 sayında* sol qolu yana açaraq yelləmək;
*2 sayında* sağ qolu yana açaraq yelləmək.
*3 sayında* "qollarımızı yelləyək" işarəsi ilə sağ və sol qolu yuxarı-aşağı yelləmək;
*4 sayında* ç.v.-ni almaq (4–5 dəfə).

**2. "Göyərçin qanadlarını açır"**
*ç.v. –* qaməti düz saxlamaqla ayaqlar çiyin bərabəri aralı, yaylıqlarla əllər aşağıda.
*1 sayında* qolları arxaya uzatmaq;
*2–3 sayında* "qollarımızı açaq" işarəsilə qolları qabağa-arxaya hərəkət etdirmək;
*4 sayında* ç.v.-ni almaq (4–5 dəfə).

**3. "Göyərçin ətrafa baxır"**
*ç.v. –* qaməti düz saxlamaqla ayaqlar çiyin bərabəri aralı, yaylıqlarla əllər beldə.
*1 sayında* "ətrafa baxaq" sözü ilə əlləri belə qoyaraq gövdəni sağ tərəfə döndərmək;

*2 sayında* ç.v.-ni almaq.
*3 sayında* əlləri belə qoyaraq gövdəni sol tərəfə döndərmək;
*4 sayında* ç.v.-ni almaq (4–5 dəfə).
**4. "Göyərçin yem axtarır"**
*ç.v.* – qaməti düz saxlamaqla ayaqlar çiyin bərabəri aralı, yaylıqlarla əllər beldə.
*1 sayında* "yem axtaraq" işarəsi ilə başı aşağı əyərək yerə çöməlmək;
*2–3 sayında* çömələrək əlləri dizlərə toxundurmaq;
*4 sayında* ç.v.-ni almaq (4–5 dəfə).
**5. "Göyərçin yerə qonur"**
*ç.v.* – qaməti düz saxlamaqla ayaqlar azca aralı, yaylıqlarla əllər beldə.
*1 sayında* "yerə qonur" sözü ilə qolları sərbəst aşağı endirməklə yerə çöməlmək (3 dəfə).
*2 sayında* ç.v.-ni almaq.
**Əsas hərəkətlər.**
**Hərəkətli oyun: "Biz şən uşaqlarıq"**
Uşaqlar otağın və ya meydançanın bir tərəfində dayanırlar. Onların qarşısında, otağın və ya meydançanın o biri tərəfində xətt çəkilir. Hər iki xəttin arasında yan tərəfdə bir uşaq dayanır. Bütün uşaqlar birlikdə aşağıdakı sözləri deyirlər:

*Biz şən uşaqlarıq,*
*Qaçmağı çox sevirik.*
*Qovanda qaçırıq bərk,*
*Gəl bizi sən tut görək.*

**"Tut"** sözündən sonra uşaqların hamısı otağın və ya meydançanın o biri tərəfinə qaçırlar. İki xəttin arasında dayanan uşaq qaçan uşaqları meydançanın o biri tərəfində çəkilən xəttə qədər tutmağa çalışır. 2–3 dəfə o tərəf - bu tərəfə qaçdıqdan sonra tutulan uşaqlar sayılır və tutmaq üçün yeni uşaq seçilir.
Əgər tutan uşaq 2–3 dəfə qaçdıqdan sonra heç kimi tutmasa, yenidən tutan uşaq seçilməlidir.
**III. Sakitləşdirici hərəkətlər** (5 dəq.)
***"Delfin üzür"***
*ç.v.* – ayaqlar aralı, qollar aşağı salınmış vəziyyətdə.
*1.* Nəfəsalma.
*2.* Nəfəsvermə – qabağa əyilmək, sağ əli sol dizə toxundurmaq;
*3.* Nəfəsalma – ç.v.-nə qayıtmaq.
*4.* Nəfə vermə – qabağa əyilmək, sol əli sağ dizə toxundurmaq.
Müəllimin ardınca bir cərgədə sakit yeriş.

**5-ci həftə | GİGİYENA**

**Məşğələ 11–12. MUSİQİ**
**Mövzu: AĞCA DOVŞAN VƏ TÜLKÜ**

**Standart:** 3.1.7; 3.1.8.
**İnteqrasiya:** 2.2.1; 4.1.2.

| | |
|---|---|
| **Məqsəd:** | • Musiqinin xarakterini müəyyən edir.<br>• Xorda oxumaq bacarıqları nümayiş etdirir.<br>• Musiqinin ritminə uyğun rəqs elementləri yerinə yetirir.<br>• Musiqinin ritminə uyğun sadə müşayiət yaradır. |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Kompüter, disk, şəkillər. |
| **Musiqi materialı:** | "Marş" (R.Rüstəmov), "Gəlinciyim xəstədir" pyesi (O.Zülfüqarov), "Ağca dovşan və tülkü" mahnısı (Azərbaycan uşaq xalq mahnısı; iş: R.Şəfəq / H.Ziya), "Turacı" (Azərbaycan xalq rəqsi), "Təmizlik" (M.Əhmədov / M.Seyidzadə), "Ağacdələn" (Ə.Cavanşirov / T.Şahdağlı), "Fil və Alabaş" (Q.Qarayev) |
| **Alternativ material:** | **Dinləmə:** "Rəqs" ("Uşaq lövhələri" fortepiano silsiləsindən, F.Əmirov), "Tərəkəmə" Azərbaycan xalq rəqsi<br>**Mahnı:** "Çəpişim" (O.Zülfüqarov/C.Cavadlı), "Kuklam" (O.Zülfüqarov /R. Zəka) |

**1-ci məşğələ**

**1. Marş.** "Marş" (R.Rüstəmov). Uşaqlar musiqinin sədaları altında yerlərində addımlayırlar. Əvvəl ritmik yerişlə yeriyir, sonra yüngül qaçış hərəkətləri (və ya yüngül gimnastik hərəkətlər) edirlər. Sonda yenidən ritmik yerimə̈klə yerlərində addımlayır və dayanırlar.
**2. Dinləmə.** Müəllim bəstəkar O.Zülfüqarov və onun uşaqlar üçün bəstələdiyi əsərlər haqqında qısa məlumat

verir. O, O.Zülfüqarovun “24 pyes” silsiləsindən “Gəlinciyim xəstədir” pyesini (adını söyləmədən) səsləndirir. Əsərin səsləndirilməsi zamanı ona aid şəkil və illüstrasiyalar da nümayiş etdirir. Əsəri dinlədikdən sonra müəllim uşaqlara suallarla müraciət edir: – Uşaqlar, əsərin xarakteri necə idi? – Sizcə, dinlədiyiniz musiqi nədən bəhs edə bilər? – Bəs musiqi kuklanın xəstəliyindən bəhs edə bilər? *(Uşaqların cavabları)* Müəllim uşaqların fikirlərini aldıqdan sonra pyesin adını açıqlayır.

**3. Mahnı.** “Ağca dovşan və tülkü” Azərbaycan uşaq xalq mahnısı (işləyəni: R.Şəfəq, sözləri H.Ziyanın) şifahi yolla öyrədilir. Müəllim uşaq xalq mahnısı, onun məzmunu haqqında qısa məlumat verir, sonra mahnını səsləndirir. Uşaqlar dinlədikdən sonra mahnı hissə-hissə, frazalarla öyrədilir. Tələffüzü çətin olan sözlər və melodiya üzərində iş aparılır.

Sonda “Ağca dovşan və tülkü” mahnısının öyrənilmiş hissəsi xorla ifa edilir, məzmunu və xarakteri müzakirə olunur.

**4. Musiqili-ritmik hərəkətlər.** “Turacı” Azərbaycan xalq rəqsi səsləndirilir. Uşaqlar iki qrupa bölünürlər. Qızlar müəllimin göstərişi ilə rəqs elementlərini yerinə yetirirlər. Bu zaman oğlanlar rəqsin musiqisinə çırtma çalmaqla ritm tuturlar.

Məşğələ ümumiləşdirilərək yekunlaşdırılır.

**Musiqi materialı:**

**“Ağca dovşan və tülkü”**

| | | |
|---|---|---|
| Ağca dovşana bax bir,<br>Qulağını tərpədir.<br>Bax belə, bax belə<br>Qulağını tərpədir. | Ağca dovşan oturmuş<br>Əllərini isidir.<br>Bax belə, bax belə<br>Əllərini isidir. | Tülkü çox fağır-fağır<br>Dovşanları axtarır.<br>Bax belə, bax belə<br>Dovşanları axtarır. |

**2-ci məşğələ**

**Marş.** “Marş” (R. Rüstəmov)
**Mahnı.** “Ağca dovşan və tülkü” mahnısı (Azərbaycan uşaq xalq mahnısı iş: R.Şəfəq /H.Ziya)
**Səhnələşdirmə.** “Limpo və Lulu”

| № | Musiqi materialı | Fəaliyyət |
|---|---|---|
| 1, 2 | “Fil və Alabaş” | begemotu təsvir edirlər. |
| 3, 4 | “Ağacdələn” | Quşlar kimi uçur, hoppanır və begemotun ətrafında fırlanırlar, begemota toxunub onu “təmizləməyə” çalışırlar. |
| 5, 6 | “Təmizlik” | Mahnının məzmununu əl hərəkətləri ilə və mimikalarla göstərirlər. |

**6-cı həftə | DAXİLİ ÜZVLƏR**

**Məşğələ 1. ƏTRAF ALƏMLƏ TANIŞLIQ**
**Mövzu: DAXİLİ ÜZVLƏR**

**Standart:** 2.1.4; 2.1.5.
**İnteqrasiya:** 1.2.1; 2.2.6.

| | |
|---|---|
| **Məqsəd:** | • Daxili orqanların adını söyləyir.<br>• Hər bir daxili orqanın əhəmiyyətli olduğunu söyləyir.<br>• Sağlamlığın qorunması haqqında danışır. |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Daxili orqanlar təsvir olunmuş şəkil, skelet, uşaqların sayı qədər şarlar, iş dəftəri və karandaşlar. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, vəsaitin yuxarısındakı şəkildə nə təsvir olunub? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** “Uşaqlar, bu qəribə şəklə baxın. *(Daxili orqanlar təsvir olunmuş şəkli göstərir)* Sizcə, bu nədir? *(Uşaqların cavabları)* Siz həkimə gedəndə həkim sizə qulaq asır, boğazınıza baxır. Həkim sizin daxili orqanlarınızın necə işləməsini yoxlayır. Bu isə sizin sağlamlığınız üçündür. İnsan bədəninə formanı *skelet* verir. Skelet hər birinin öz funksiyası olan çoxlu sümüklərdən ibarətdir. Bütün sümüklər onurğaya birləşir *(göstərir)*. Onurğa qabırğalarla əhatə olunub. Qabırğalar daxili orqanları – ürəyi, ağciyəri qoruyur. Çanaq sümüyü isə bağırsaqları zədələrdən qoruyur. Əlinizi sol

tərəfdən sinənizə qoyun. Nə hiss edirsiniz? *(Uşaqların cavabları)* Bu işləyən bədənin ən başlıca orqanı ürəkdir. Ürək də maşının motoru kimidir. Motor maşını aparır. Ürək isə bədənin hər tərəfinə qan vurur. İnsanın yaşaması üçün nəfəs almalıdır. İnsan ağciyərləri vasitəsilə nəfəs alır. Nəfəs alın, bir-birinizin nəfəs almasını dinləyin. Şarı götürün, dərindən nəfəs alın və şarı üfürün. Nə oldu? Bəli, şar şişdi. Deməli, biz nəfəs alanda hava ciyərlərimizə dolur və bu şar kimi şişir. İndi şardan havanı buraxın. Gördünüz, boşaldı. Biz də nəfəs verəndə ciyərlərimiz boşalır. İndi əlinizi sinənizə qoyun.*(özündə göstərir).* Biz nəfəs alanda köksümüz qalxır. Nə üçün belə olur? Nəfəs verəndə bəs?.. *(Uşaqların cavabları)* İnsan qidalanmasa, yaşaya bilməz. Biz qidanı ağzımız vasitəsilə yeyirik, dişlərimizlə çeynəyirik. Yeməyi çox çeynəmək lazımdır. Sonra həmin qida mədəyə düşür. Qolunuzu dirsəkdən bükün, əlinizi bədəninizə yapışdırın. Bura mədədir *(göstərir).* Mədədə həmin yemək həzm olunur. *(Müəllim şəkildə göstərir)* Böyrəklər – qanı süzür və sidiklə bədəndən zərərli maddələri, duzları, artıq suları çıxarır. Gündə çox su içmək məsləhət görülür. Hər insanda iki böyrək vardır. Onlar onurğanın hər iki tərəfində bel səviyyəsində yerləşir. Böyrəklər hər bir adamın yumruğu boydadır. Yumruqlarınızı göstərin! Baxın, sizin böyrəkləriniz təxminən bu boydadır. Əgər böyrəklər işləməsə, insan orqanızmi zəhərlənər. Odur ki, biz qidalanmağımıza fikir verməliyik. Hər bədəndə qaraciyər adlanan orqan var. Bu isə bizim qanımızı zərərli maddələrdən təmizləyir. Baxın, uşaqlar. Bütün orqanlar sağlamlığımız üçün çox lazımlıdır. İndi isə düşünün. Bizim orqanizmimizin sağlam olması üçün nə etməliyik? *(Uşaqların cavabları)* Düzdür, idmanla məşğul olmaq lazımdır. Ona görə də biz indi sizinlə idman dəqiqəsi keçirəcəyik".

—İdman dəqiqəsi—

**II.** Müəllim uşaqlara suallarla müraciət edir:
– Bədəninizdə hansı daxili üzvlərini tanıyırsınız?
– Daxili üzvlər nə üçün lazımdır?
– Onların sağlamlığı üçün nə etmək lazımdır?

**Tətbiqetmə**

**III. M:** "Şəkildə müxtəlif məzmunlu təsvirlər verilib. Hər təsvirin hansı orqan olduğunu söyləyin. Hər bir daxili üzvün kölgəsini tapın və onunla birləşdirin".
**IV. M:** "Şəklə baxın və daxili üzvləri bədəndə öz yerinə qoyun (xətlə birləşdirin)".
Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**6-cı həftə | DAXİLİ ÜZVLƏR**

| Məşğələ 2. BƏDİİ TƏFƏKKÜRÜN İNKİŞAFI<br>Mövzu: HANSI VACİBDİR? | **Standart:** 2.2.2; 2.2.6.<br>**İnteqrasiya:** 2.1.2; 2.1.4. |
|---|---|

| | |
|---|---|
| **Məqsəd:** | • Daxili orqanları sadalayır.<br>• Onların funksiyalarını sadə şəkildə izah edir.<br>• Nitqində əlamət bildirən sözlərdən istifadə edir. |
| **İş üsulları:** | Müzakirə, suallar, nağıletmə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Nağılın mətni, şəkillər. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, şəkillərə diqqətlə baxın. Şəkildə nə təsvir olunub? Sizcə, burada nədən söhbət gedir? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, mən sizə şəkildə təsvir olunanlara aid **"Hansı vacibdir?"** adlı nağıl söyləyəcəyəm. Şəkillərə baxaraq mətni dinləyin. Hər şəkil mətnin bir hissəsini əks etdirir. Mən deyəndə dairəni rəngləməklə dinlədiyiniz məlumatları əks etdirən şəkli qeyd edin".

1

"Günlərin bir günü daxili orqanlar mübahisə etdilər. Qərara gəldilər ki, daha bir-birinə kömək etməsinlər. Ürək dedi:

– Niyə axı mən dayanmadan işləməliyəm? Niyə axı başqaları yaşasın deyə mən döyünməliyəm? Xeyr, artıq yorulmuşam. Daha işləmək istəmirəm".

**M:** "Uşaqlar, dinlədiyiniz hissəyə uyğun şəkli tapın və altındakı dairəni işarə edin".
Müəllim oxumağa davam edir.

2

"Mədə tez dilləndi:

– Bəs mən? Siz elə bilirsiniz mən az işləyirəm? Bütün günü yeməkləri həzm edirəm. Mən yeməkləri həzm

etməsəm, heç biriniz qidalana bilməzsiniz. Onda mən də işləməyəcəyəm".

**M:** "Uşaqlar, dinlədiyiniz hissəni müəyyənləşdirib işarə edin".

Müəllim oxumağa davam edir.

3

"Ağciyər əsəbiləşdi:

– Mən bütün günü dincəlmədən hava uduram. Mən havanı təmizləyib sizə ötürürəm ki, hamınız sağlam olasınız. Amma, yox, daha bəsdir".

**M:** "Uşaqlar, dinlədiyiniz hissəyə uyğun hissəni tapıb, işarə edin".

Müəllim oxumağa davam edir.

4

'Beyin bu mübahisədən narahat oldu. O, yaxşı anlayırdı ki, bədən üzvləri bir-birinə kömək etməsələr, onların vəziyyəti pisləşəcək. Axı bədən üzvləri işləməsə, bütün bədən zəifləyəcək. Beyin onların mübahisəsinə son qoymaq qərarına gəldi".

**M:** "Uşaqlar, dinlədiyiniz hissəyə uyğun şəkli tapıb işarə edin".

Müəllim oxumağa davam edir.

5

"Beyin üzünü bədən üzvlərinə tutub dedi:

– Ay dostlar, dalaşmayın. Bizim hər birimizin öz vəzifəsi, öz işi var. Hər birimiz bədən üçün qiymətliyik. Biz birlikdə güclüyük. Əgər hər kəs öz işini görməsə, hamımız gücdən düşəcəyik. Güclü, sağlam, gümrah olmaq üçün mehriban olmalı, birlikdə çalışmalıyıq. Bəs siz bilmirsiniz ki, güc birlikdədir?"

**M:** "Uşaqlar, məzmuna uyğun hissəni tapıb işarə edin".

6

"Beyinin bu sözlərindən sonra hər kəs öz səhvini anladı. Onlar bir-birindən üzr istəyib barışdılar. Birlikdə, mehriban yaşamağa qərar verdilər."

—İdman dəqiqəsi—

**II.** Müəllim uşaqlara suallarla müraciət edir: – Dostlar niyə mübahisə etdilər?– Sizcə, onlardan ən vacibi hansı üzvdür?– Siz sağlam olmaq üçün nə edirsiniz?

**Tətbiqetmə**

**III. M: "**Siz nağılı dinlədiniz. Ardıcıllığı gözləməklə, hər bir daxili üzvün nə dediyini söyləyin. Hansı orqan mübahisədə iştirak etməyib?"

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| | **6-cı həftə \| DAXİLİ ÜZVLƏR** |
| **Məşğələ 3–4. SAVAD TƏLİMİNƏ HAZIRLIQ VƏ NİTQ İNKİŞAFI**<br>**Mövzu: M (m) SƏSİ VƏ HƏRFİ** | **Standart:** 2.2.4; 2.2.5.<br>**İnteqrasiya:** 1.1.4; 2.1.2. |

| | |
|---|---|
| **Məqsəd:** | • **M (m)** səsini və hərfi fərqləndirir.<br>• **M** səsinin işləndiyi sözlər söyləyir.<br>• Xətt üzrə **M (m)** hərfini yazır. |
| **İş üsulları**: | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması**: | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Şəkillər, karandaşlar, marker, flaneloqraf və **A, N, Ə, T, L, M** hərfləri. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Səhifənin yuxarısındakı şəklə baxaq. Şəkildə nə təsvir olunub? Tülkü nə edir? *(Uşaqların cavabları)* Maşın sözü hansı səslə başlayır?

**Dərketmə**

**M:** "**M** hərfindən də digər hərflər kimi sözləri yazanda istifadə olunur. Uşaqlar, sarı qutuya diqqətlə baxaq. Burada həm böyük, həm də kiçik **M** hərfi təsvir olunub. **M** böyük hərfdir.

*Malik məktəbə Bu ildən gedir. Müəllim ona Ancaq beş verir.*

**M**. "Uşaqlar, dinlədiyiniz şeir parçasında oğlanın adı – *Malik* və *müəllim* sözləri hansı səslə başlayır. (**M** səsi ilə)"

**I. M:** "Uşaqlar, **M** hərfi ilə tanış olaq. Baxın, burada böyük **M** hərfi təsvir olunub. Hərfin ətrafında isə şəkillər təsvir olunub. Hərfin sol tərəfində yuxarıda nə təsvir olunub? *(Uşaqların cavabları) Mismar* sözü hansı səslə başlayır? *(Uşaqların cavabları)* Bəs hərfin sağında yuxarıda nə təsvir olunub? *Maşın* sözü hansı səslə başlayır? Bu qayda hər

bir şəkildə nə təsvir olunduğunu söyləyin və bu sözün hansı səslə başlandığına diqqət edin. *(Uşaqların cavabları)* Sözlərdən hansı **M** səsi ilə başlayır?" *(Uşaqların cavabları)*

**M** hərfinin rənglənməsi.

**II.** Müəllim lövhədə **M** hərfini izah edə-edə yazır. Sonra bir neçə uşaq lövhədə tapşırığı yerinə yetirir. Digər uşaqlar vəsaitdə xətt üzrə **M** hərfini yazırlar.

**M:** "**M** hərfinin ətrafında şəkillər təsvir olunub. Hər şəkildə nə təsvir olunduğunu bir-bir söyləyin.

Söz **M** səsi ilə başlayırsa, həmin şəkli **M** hərfi ilə birləşdirin".

**III. M:** "Uşaqlar, vəsaitin yuxarısında pazllarda sözlər yazılıb. Diqqətlə baxıb həmin hərflərin içərisindən **M, L** və **A**-nı tapın və sözlərdə hərfləri nümunəyə uyğun rəngləyin. Sözü oxuyun".

—İdman dəqiqəsi—

**IV. M:** "Kənara çıxmadan xətt üzrə hərfləri, sonra isə sözləri yazın. **Alma və mala** sözlərindəki birinci hecanın hərflərini qırmızı, ikincini isə göy karandaşla çəkin".

**Tətbiqetmə**

**V. M:** "Şəkildə təsvir olunan əşyanı adlandırın. Sapa düzülmüş muncuqlar həmin sözün səslərini əvəz edir. Sarı və yaşıl muncuqlar hansı səsləri əvəz edir? Muncuqlarla hansı söz ifadə olunmuşdu?"

**VI. M:** "Hər şəkildə nə təsvir olunduğunu bir-bir söyləyin. **M** səsinin sözün əvvəlində, ortasında və ya sonunda işləndiyini müəyyən edin, həmin şəkli uyğun çərçivə ilə birləşdirin".

Müəllim uşaqlara kəsmə əlifbada olan hərflərin içərisindən **M** hərfini götürüb, lövhəyə qoymağı təklif edir. *(Uşaqlar yerinə yetirir).*

Məşğələ boyu uşaqlar rəğbətləndirilir. Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M:** *– Malik məktəbə Bu ildən gedir. Müəllim ona, Ancaq "beş" verir.*

**M:** – Uşaqlar, oğlanın adı nədir? O hara gedir? ***Məktəb, müəllim, Malik*** sözləri hansı səslə başlayır? *(Uşaqların cavabları)*

**M** səsi ilə başlayan daha hansı sözləri deyə bilərsiniz?

**Dərketmə**

Verilmiş əlifbanın hərflərinin arasından **M** hərfi götürülərək lövhəyə qoyulur. **M** səsinin birlikdə və tək-tək tələffüz edilməsi üzrə iş aparılır. Müəllim uşaqların diqqətini kiçik **m** hərfinə yönəldərək deyir:

– Uşaqlar, bilirsiniz ki, hər bir hərfin həm böyük, həm də kiçik forması var.

**I. M:** "Bu, kiçik **m** hərfidir". *Müəllim əvvəlcə lövhədə izah edə-edə kiçik **m** hərfini yazır. Sonra uşaqlardan 2-3 nəfər lövhədə xətt üzrə hərfi çəkirlər.*

**M:** "İndi ardıcıllığı gözləməklə nümunəyə əsasən kiçik **m** hərfini xətt üzrə çəkin. **M** səsi ilə başlayan sözlər söyləyin. **M** səsi ilə bitən sözlər söyləyin. **M** səsi sözün ortasında olan sözlər söyləyin.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "Vəsaitdə dairə boyunca xətt üzrə öyrəndiyiniz hərflərin böyük və kiçik forması yazılıb. Istənilən bir hərfi rəngli karandaşla xətt üzrə çəkin. Sonra onun *(böyük və ya kiçik*) tayını tapıb eyni rəngli karandaşla çəkin. Sonra onları xətlə birləşdirin. Növbəti hərf üçün başqa rəngli karandaşdan istifadə edin".

**III. M:** "Şəkildə təsvir verilib. Şəklin yanında sapa düzülmüş muncuqlar var. Sapa düzülmüş muncuqlar həmin sözün səslərini əvəz edir. Şəkildə nə təsvir olunub? (***maşın)*** *Maşın* sözündə birinci hansı səsi eşitdik? ***(M)*** Bəs ikinci hansı səsi eşidirik? ***(A)*** Sapda ikinci sarı muncuqdur. Sarı muncuq hansı səsi əvəz edir?" *(**A** səsini)* Sapda birinci yaşıl muncuqdur. Sonuncu hansı səsi eşidirsiniz? *(N)* Yaşıl, sarı və göy muncuqların hansı səsi əvəz etdiyini söyləyin".

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | 6-cı həftə \| DAXİLİ ÜZVLƏR |
|---|---|
| **Məşğələ 5-6. RİYAZİ VƏ MƏNTİQİ TƏFƏKKÜRÜN İNKİŞAFI** | **Standart:** 2.3.1. |
| **Mövzu:** RƏQƏMLƏRİ ÖYRƏNİRƏM | **İnteqrasiya:** 2.1.5; 4.2.3 |

| | |
|---|---|
| **Məqsəd:** | • 5 və 0 ədədini adlandırır.<br>• Ədədə əsasən sayı müəyyən edir. |
| **İş üsulları**: | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması**: | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Şəkillər, rəngli karandaşlar. Rüxsarə İbadova. "Rəqəmləri dinləyək, biz saymağı öyrənək" kitabı. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Uşaqlar, vəsaitin yuxarısında nə təsvir olunub? Tülkü, barmağı ilə neçə göstərir? Ulduzun neçə ucu var? Sarı qutuya baxaq. Rəqəmin altında neçə dairə var? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Bəli, rəqəmin altında beş dairə var. Sayı düz müəyyənləşdirdiniz. Tapşırığa baxın. Hansı ədəd təsvir olunub? *(Uşaqların cavabları)* **"5"** yazılmış hissələri sarı, **"3"** yazılmış hissələri yaşıl, **"2"** yazılmış hissələri isə qırmızı karandaşla rəngləyin. İndi rənglənmiş hissələri adlandırın. Otağımızda sayı **5** olan əşyaları sadalayın". *(Uşaqların cavabları)*

**II. M:** "Şəkildə çoxlu dairələr təsvir olunub. Hansı rəngdə dairələr təsvir olunub? *(Uşaqların cavabları)* Dairələri beş-beş sayıb, ayıraraq haşiyəyə alın".

**M:** "Maqnit rəqəmlərin içərisindən "5" ədədini ayırıb lövhəyə qoyun". *(Müəllim müxtəlif paylayıcı vəsaitlərdən istifadə edərək, "5" ədədinin möhkəmləndirilməsi üzrə iş aparır)*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** "Kitabınızda 5 rəqəmi yazılıb. (*Lövhədə əvvəlcə müəllim izah edə-edə* ***"5"*** *rəqəmini yazır. Sonra isə bir neçə uşaq lövhədə, digərləri yerlərində tapşırığı yerinə yetirir.)* İndi isə siz nöqtədən başlayaraq oxun istiqamətini gözləməklə xətt üzrə **5** rəqəmini çəkin. Barmaqlarınızla "**5**" ədədinin sayını göstərin."

Müəllim şeir söyləyir:

**M:** – *Bir əldə beş barmaq var, Sayın, düzdür uşaqlar!?*

*O biri əlinizdə görün neçə barmaq var? (Uşaqların cavabları)*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

Müəllim uşaqların diqqətini vəsaitin yuxarısındakı şəklə cəlb edir və nə təsvir olunduğunu soruşur. Şəkildə Tülkü neçə barmağını göstərir? Bu nəyi bildirir? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, toyuğun neçə ayağı var? İnsanın neçə qolu var? Stolun neçə ayağı var? Siz dediyiniz sayı rəqəmlə yaza bilərsiniz? *(Uşaqların cavabları)* Bəs itin neçə qanadı var? *(Uşaqların cavabları)* –Bəli, itin qanadı yoxdur. Bəs onu necə yazaq? *(Lövhədə əvvəlcə müəllim izah edə-edə* ***"0"*** *rəqəmini yazır. Sonra isə bir neçə uşaq lövhədə tapşırığı yerinə yetirir.)* İndi isə havada əlimizlə **"0"** rəqəmini cızaq. Vəsaitinizdə **"0"** yazılmış hissələri sarı, **"2"** yazılmış hissələri yaşıl, **"3"** yazılmış hissələri isə qırmızı karandaşla rəngləyin".

**II. M:** "Şəkildə içərisində yumurta olan səbətlər təsvir olunub. Səbətin alt tərəfində isə xətt üzrə müvafiq rəqəmlər yazılıb. Rəqəmləri xətt üzrə çəkin. Sonra isə hər səbətdəki yumurtaları sayın və uyğun rəqəmlə birləşdirin. Birinci səbətdə neçə yumurta var? ***(5)*** Həmin səbəti hansı rəqəmlə birləşdirmək lazımdır? *(Uşaqların cavabları)* Üçüncü səbətdə neçə yumurta var? ***(0)*** Bu səbəti hansı rəqəmlə birləşdirmək lazımdır?" *(Uşaqların cavabları)* *(Digər səbətlər üzrə iş bu qayda ilə davam etdirilir.)*

**III. M:** "Şəkillərə baxın. Barmaqla işarə olunan sayı adlandırın və açılmış barmaqların sayı qədər xananı rəngləyin. Birinci şəkildə neçə barmaq göstərilir? ***(5)*** Bu saya uyğun neçə xana rəngləmək lazımdır? Bəs ikinci şəkildə neçə barmaq göstərilir? ***(0)*** Bu saya uyğun neçə xana rəngləmək lazımdır? Nə üçün?" *(Uşaqların cavabları)* *(Digər tapşırıqlar üzrə iş bu qayda ilə davam etdirilir.)*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**IV. M:** "Kitabınızda xətt üzrə rəqəmlər təsvir olunub. Onları adlandırın. *(Lövhədə əvvəlcə, müəllim izah edə-edə* ***"5"*** *rəqəmini yazır. Sonra isə bir neçə uşaq lövhədə, digərləri yerlərində tapşırığı yerinə yetirir.)* Sonra rəqəmləri xətt üzrə çəkin. Aşağıda təsvir olunmuş şəkilləri adlandırın. Birinci şəkildə neçə kəpənək təsvir olunub? ***(5)*** Kəpənəkləri hansı rəqəmlə birləşdirmək lazımdır? Bəs sıfırı hansı təsvirlə birləşdirmək lazımdır? Nə üçün? *(Uşaqların cavabları)* Bu qayda ilə rəqəmləri eyni sayda şəkillərlə birləşdirin".

Müəllim 0-ın möhkəmləndirilməsi üzrə iş aparır.

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| 6-cı həftə \| DAXİLİ ÜZVLƏR | |
|---|---|
| **Məşğələ 7–8. TƏSVİRİ FƏALİYYƏT**<br>**Mövzu: DAXİLİ ÜZVLƏR** | **Standart:** 3.1.3.; 3.1.4.<br>**İnteqrasiya:** 1.1.4.; 2.2.6. |

| | |
|---|---|
| **Məqsəd:** | • Kəsib-yapışdırma üsulu ilə yaradıcılıq bacarıqları nümayiş etdirir.<br>• Sadə yapma bacarıqları nümayiş etdirir. |
| **İş forması:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Şəkillər, kağızlar, plastilin, rəngli karandaşlar, qayçı, yapışqan, rəngli kağız, fırça və s. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Uşaqlar, şəkillərə diqqət edin. Nə təsvir olunub? İnsan fiqurunun hansı hissələrini sadalaya bilərsiniz? *(Uşaqların fikirləri dinlənilir).*

**Dərketmə**

**I. M:** "Uşaqlar, şəkildə insan skeleti verilib. Onun bədən üzvlərini sadaladınız. Skeletin hansı hissələri olur? Onlar nə üçündür? *(Uşaqların cavabları)* İndi isə biz sizinlə plastilindən skelet düzəldəcəyik. *(Əvvəlcə müəllim nümunəni göstərir, sonra uşaqların gözü qarşısında izah edə-edə işi yerinə yetirir, uşaqlara işə başlamağı təklif edir.)* İş zamanı müəllim uşaqların vərəqdə məkana görə skeleti yerləşdirmələrinə nəzarət edir.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II.** Müəllim plastilindən **M** hərfini düzəltməyi təklif edir. Hərfin düzəldilməsində neçə hissədən istifadə edildiyi dəqiqləşdirilir.

**M:** "Hansı daxili üzv **M** səsi ilə başlayır? *(mədə)* Orqanizmdə mədənin rolu nədir?" *(Uşaqların cavabları)*

Məşğələ prosesində onlara istiqamət verir, uşaqların əməkdaşlıq etmələrinə imkan yaradır.

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M:**– Uşaqlar, daxili orqanları sadalayın. Onlar nə üçündür? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, nümunəyə baxın. Hansı daxili üzv təsvir edilib? Onun vəzifəsi nədir? *(Uşaqların cavabları)* Biz bu gün sizinlə kağız və plastilindən ürək düzəldəcəyik. *(Müəllim qabaqcadan hazırladığı nümunəni uşaqlara göstərir.)* Ürəyi kağızdan kəsəcəyik. Ürəyin "gözünü", "ağzını" isə plastilindən düzəldəcəyik". *(Uşaqlar işə başlamazdan əvvəl müəllim onların gözü qarşısında izah edə-edə kağızdan ürək kəsib-yapışdırır. Materiallardan (qayçı, yapışqan, rəngli kağız, fırça və s.) istifadə qaydasını göstərir.)*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "Uşaqlar, şəkildə mişar şəkli təqdim olunur. Mişarın dişləri nöqtələrlə verilib. Siz xətt üzrə gedərək, mişarın şəklini tamamlayın və onu rəngləyin".

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| 6-cı həftə \| DAXİLİ ÜZVLƏR | |
|---|---|
| **Məşğələ 9–10. FİZİKİ MƏDƏNİYYƏT**<br>**Mövzu: DAXİLİ ÜZVLƏRİMİZ** | **Standart:** 1.1.1.<br>**İnteqrasiya:** 4.2.1; 4.2.2. |

| | |
|---|---|
| **Məqsəd:** | • İlanvari yeriş nümayiş etdirir.<br>• Hərəkətlərini koordinasiya edir.<br>• Hərəkətlərində cəldlik və çeviklik nümayiş etdirir. |
| **İş üsulları:** | Müzakirə, süjetli-rollu oyunlar. |
| **İş forması:** | Kollektiv, qruplarla və fərdi iş. |
| **Resurslar:** | Skamya, ürək və qan damarları təsvir olunmuş plakat. 40 *sm* hündürlükdə kub, 50 *sm* hündürlükdə qövs. |

**1-ci və 2-ci məşğələlər**

**I. İsinmə hərəkətləri** (5 dəq.)
– adi, əllər yuxarıda pəncələr üstə və əllər arxada dabanlar üzərində yeriş;
– qolları dirsəkdən bükmək, irəli-geri hərəkət etdirərək dizləri hündürə qaldırmaqla yeriş;
– yumruqları açıb-bükərək, "ürək döyünür" imitasiya etməklə pəncə və daban üstə yeriş;
– əlləri asta-asta açıb-bükməklə sakit yeriş (4– 5 dəfə).

**II. Ümuminkişafetdirici hərəkətlər** (20 dəq.)

**1. "Bizim bədənimiz**" (5-6 dəfə təkrar etmək).

**M:** "Uşaqlar, əl-ələ tutaraq, dairədə dayanaq. Biz indi sizinlə birlikdə böyük bədənik. Bu bədən yatır, istirahət edir, nəfəs alır. İndi bir addım geri çəkilirik *(dairə genişləndi)* – nəfəs alırıq... İndi nəfəsi veririk *(bir addım irəli gəlirlər).* Yenə nəfəsalma... Nəfəsvermə.... *(tapşırıq sakit tempdə yerinə yetirilir)* İndi bədənimizi oyatmamaq üçün sakitcə öz yerimizə keçək."

**2. "Ürəyimiz işləyir".**
*ç.v.* – düz dayanmaq, əllər aşağıda.
*1 sayında* qollar yanlara;
*2 sayında* qollar yuxarı.
*3 sayında* qollar irəli;
*4 sayında* ç.v.-nə qayıtmaq.

**3. "Bir-birimizə baxaq, başımızı döndərək".**
*ç.v.* – Düz dayanmaq, əllər aşağıda.
*1 sayında* başı sola döndərmək;
*2 sayında* ç.v.-ni almaq.
*3 sayında* başı sağa döndərmək;
*4 sayında* ç.v.-nə qayıtmaq.

**4. "Qollarımızı işlədərək ürəyimizə kömək edək"**
*ç.v.* – düz dayanmaq, əllər sinə qarşısında.
*1 sayında* qolları irəli-geri hərəkət etdirməklə sola tərəf dönmək və qolları yanlara tərəf açmaq;
*2 sayında* ç.v.-ni almaq.
*3 sayında* qolları irəli-geri hərəkət etdirməklə sağa tərəf dönmək və qolları yanlara tərəf açmaq;
*4 sayında* ç.v.-nə qayıtmaq.

**5. "Biləklərimizi fırladaq"**
*ç.v.* – Dizlər üstə dayanmaq, qollar yanlara.
*1 sayında* biləkləri irəliyə doğru fırlamaq;
*2 sayında* ç.v.-ni almaq.
*3 sayında* biləkləri irəliyə doğru fırlamaq;
*4 sayında* ç.v.-nə qayıtmaq.

**6. "Ürəkdən qan damarlarına səyahət"**
*ç.v.* – düz dayanmaq, əllər yanlarda.
*1 sayında* qaçaraq 40 *sm* hündürlükdə kubun üzərindən tullanmaq;
*2 sayında* ç.v.-ni almaq.
*3 sayında* qollar yanlarda skamyanın üzəri ilə yerimək;
*4 sayında* ç.v.-nə qayıtmaq.

**Əsas hərəkətlər.**

**Hərəkətli oyun: "Qan damarları"**

**M:** "Bizim ürəyimiz nasosa oxşayır. O da çay kimidir. Çünki qan həm ürəkdən çıxır, həm də ürəyə tökülür. Biz hərəkət etdikcə, ürək daha bərkdən döyünür".

Uşaqlar 2 komandaya bölünürlər. Komandaların qarşısında qövsdən "tunel" düzəldilir. Onun qarşısında da içərisində kiçik şarlar olan qutular qoyulur: qırmızı şarlar – orqanizm üçün faydalı olan maddələr, göy rəngli şarlar isə zərərli maddələrdir. Siqnal üzrə komanda üzvləri növbə ilə uyğun rəngli bir şar götürüb komanda yoldaşlarının yanına qaçırlar. Oyunu tez qurtaran komanda qalib gəlir.

**III. Sakitləşdirici hərəkətlər** (5 dəq.)

***"Nəbzi tap"***
*ç.v.* – düz dayanmaq, əllər yanlarda.
*1.* Nəfəsalma – sağ əllə sol əldə nəbzi tutmaq.
*2.* Nəfəsvermə– ç.v.-nə qayıtmaq.
*3.* Nəfəsalma – sol əli ilə sağ əldə nəbzi tutmaq.
*4.* Nəfəsvermə – ç.v.-nə qayıtmaq.
Müəllimin ardınca bir cərgədə sakit yeriş.

**Məşğələ 11–12. MUSİQİ**
**Mövzu: MƏNİM KUKLAM**

**Standart:** 3.1.6; 3.1.7; 3.1.8.
**İnteqrasiya:** : 2.2.1; 4.2.2.

| | |
|---|---|
| **Məqsəd:** | • Musiqinin xarakterini müəyyən edir.<br>• Xorda oxumaq bacarıqları nümayiş etdirir.<br>• Musiqi alətlərini (zərb və simli) müqayisə edir.<br>• Oyuncaq musiqi alətlərində (simli və zərb) müşayiət yaradır. |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Kompüter, disk, şəkillər, milli musiqi alətləri (tar, kamança, saz). |
| **Musiqi materialları:** | “Marş” (R.Rüstəmov), “Aşıqsayağı” pyesi (“Uşaq lövhələri” fortepiano əsərləri silsiləsindən, F.Əmirov), “Mənim kuklam” mahnısı (O.Zülfüqarov / H.Abbas), “Uvertüra,” Toreodorun” xoru, “Xabanera” (“Karmen” operasından, C.Bize). |
| **Alternativ material:** | **Dinləmə:** Azərbaycan xalq musiqisi nümunələri (tarda, kamançada, sazda)<br>**Mahnı:** “Gəlincik” (T.Quliyev/ M.Əlizadə) “İdman” (O.Zülfüqarov/ S.Zərdablı). |

### 1-ci məşğələ

**1. Marş.** “Marş” (R.Rüstəmov).

**2. Dinləmə.** Müəllim milli musiqi alətlərimiz: tar, saz və kamança haqqında qısa məlumat verir. Bu zaman həmin alətlərin görünüşünü, tembrini, onlarda ifa üsullarını göstərir. Bəstəkar F.Əmirov, onun uşaqlar üçün yazdığı əsərlərdən bəhs edir. “Aşıqsayağı” pyesinin adını aşıqlayır və onun fortepiano musiqi aləti üçün yazıldığını qeyd edir. Pyes səsləndirilir. Əsəri dinlədikdən sonra müəllim uşaqlara suallarla müraciət edir:

– Dinlədiyiniz musiqinin xarakteri necə idi?
– Aşıqların çaldığı musiqi aləti necə adlanır?
– Dinlədiyiniz əsəri daha hansı musiqi alətlərində çalmaq olar? *(Uşaqların cavabları)*

**3. Mahnı.** “Mənim kuklam” mahnısı (musiqisi O.Zülfüqarovun, sözləri H.Abbasın) şifahi yolla öyrədilir.

Müəllim bəstəkar, mahnı, onun məzmunu haqqında qısa məlumat verir, sonra mahnı səsləndirilir. Uşaqlar dinlədikdən sonra mahnı hissə-hissə, frazalarla öyrədilir. Tələffüzü çətin olan sözlər və melodiya üzərində iş aparılır.

Sonda “Mənim kuklam” mahnısının öyrənilmiş hissəsi xorla ifa edilir, məzmunu və xarakteri müzakirə olunur.

**4. Musiqili-ritmik hərəkətlər.** “Aşıqsayağı” (musiqisi F.Əmirovun) pyesi təkrar səsləndirilir. Uşaqlar iki qrupa bölünürlər. Bir qrupa zərb alətləri (üçbucaq, taxta qaşıq, dəf, nağara, metallofon və s.), o biri qrupa simli oyuncaq musiqi alətləri paylanır (burada səssiz musiqi alətləri, yəni musiqi alətlərinin oyuncaq maketləri də ola bilər). Musiqinin sədaları altında uşaqların bir qismi zərb musiqi alətlərində, digərləri isə simli oyuncaq musiqi alətlərində ritmik müşayiət yaradırlar. Məşğələ ümumiləşdirilərək yekunlaşdırılır.

**Musiqi materialı:**

**“Mənim kuklam”**

Qar kimidir dişləri
Al yanaqlı kuklamın
İki əli, bir burnu,
Var qulağı kuklamın.

Bir yaxşıca baxın siz,
Gözləri mavi dəniz.
Yaraşıqlı, tər-təmiz
Əl-ayağı kuklamın.

### 2-ci məşğələ

**Marş.** “Marş” (R.Rüstəmov)
**Mahnı.** “Mənim kuklam” mahnısı (O.Zülfüqarov / H.Abbas)
**Səhnələşdirmə. “Hansı vacibdir?”** (resurs: insan bədəninin maketi və daxili üzvlərin şəkilləri, ağ xalat)

| № | Musiqi materialı | Fəaliyyət |
|---|---|---|
| 1 | “Uvertüra” | Uşaqların boynundan daxili orqanların şəkilləri asılır və uşaqlar insan bədəninin (maketin) ətrafında addımlayırlar. |
| 2 | “Toreador”un xoru | “Mədə” xörək bişirir, yemək yeyir və bu kimi hərəkətləri təsvir edirlər. |
| 3, 4 | “Xabanera” | Uşaqların bir qismi (“Ağciyər”) yüngül idman hərəkətləri edir (oturub-durmaq, hoppanmaq, qaçmaq, gimnastik hərəkətlər və s.), bir qismi də (“Qaraciyər”) ağ xalat geyinərək laboratoriyada “işləyir” (kolbaya baxıb yazı yazır, mikroskopa baxır və s.) yerinə yetirirlər. |
| 5 | “Uvertüra” | Sonda uşaqlar yenə bədənin ətrafında fırlanaraq hərə öz boynundakı şəkli (orqanı) bədəndə müvafiq yerlərinə asırlar. |

| 7-ci həftə | DUYĞU ORQANLARI | |
|---|---|
| **Məşğələ 1. ƏTRAF ALƏMLƏ TANIŞLIQ**<br>**Mövzu: DUYĞU ORQANLARI** | **Standart:** 2.1.4; 2.1.5.<br>**İnteqrasiya:** 1.2.1; 2.2.6. |

| | |
|---|---|
| **Məqsəd:** | • Duyğu orqanlarını adlandırır.<br>• Hər bir duyğu orqanının əhəmiyyətini izah edir.<br>• Nitqində əlamət bildirən sözlərdən istifadə edir. |
| **İş üsulları**: | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması**: | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Duyğu orqanları təsvir olunmuş şəkil; alma, soğan, sarımsaq, xiyar və limon təsvir olunmuş kartlar; içərisində alma, soğan, sarımsaq, xiyar və limon olan 5 ədəd kiçik qutu; müxtəlif meyvə və tərəvəzlər, karandaşlar. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, vəsaitin yuxarısındakı şəkildə nə təsvir olunub? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar! Gözlər, burun, qulaqlarımız, ağız hiss üzvləri adlanır. İndi mənə deyin: göz insanlara nə üçün lazımdır? Göz üçün nə zərərlidir? Gözlərə necə qulluq etmək lazımdır? *(Uşaqların cavabları)* Düzdür, bizim ətrafımızda olan hər əşyanı, hadisəni biz gözlərimiz vasitəsilə görürük. İndi gözlərinizi bağlayın. Mən nə edirəm? *(müəllim hər hansı bir hərəkəti edir).* İndi isə açın. *(Həmin hərəkəti təkrar edir).* Baxın, indi gördünüz. Deməli, göz ən vacib orqanlardan biridir. Mən sizə bir tapmaca söyləyəcəyəm, diqqətlə qulaq asın və cavabını söyləyin:

*Ailəmi, dostlarımı görməyə, Hər tərəfi, təbiəti görməyə,*
*Dərs oxuyub, şəkillərə baxmağa, Kömək edir bizə ... (gözlərimiz)"*

Müəllim stolun üstünə qabaqcadan içərisində *alma, soğan, sarımsaq, xiyar* və *limon* qoyduğu 5 dənə kiçik qutunu iyləməyi uşaqlara təklif edir. Uşaq iylədikdən sonra alma, soğan, sarımsaq, xiyar və limon təsvirli kartlardan uyğun gələni qutunun yanına qoyur. Tapşırıq yerinə yetirildikdən sonra qutu açılır və cavabın doğruluğu yoxlanılır.

**M:** – Burun nə üçündür? *(Uşaqların cavabları)*

*Çörəyin ətrini, meyvə ətrini, Soğanın iyini, gülün ətrini. Duyur, fərqləndirir bizim…(burnumuz)*

**M:** – Burun üçün zərərli nədir? Buruna necə düzgün qulluq etmək lazımdır? *(Uşaqların cavabları)*

Müəllim müxtəlif heyvanların səsini, musiqi səsləndirir. Səsi müəyyən etmələrini təklif edir.

**M:** – Uşaqlar, bizim eşitməyimizə nə kömək edir? *(Qulaqlar)* Qulaq üçün zərərli nədir? Qulağa necə qulluq etmək lazımdır? *(Uşaqların cavabları)*

*Bütün heyvanlarda var, Həm də insanlarda var. Eşitməkçün insana Kömək edir ... (qulaqlar)*

Müəllim qabaqcadan hazırladığı üstü örtülü qaba doğranmış meyvə və tərəvəzlər qoyur.

Uşaqlar gözü bağlı halda yeyərək, meyvə və tərəvəzin dadını müəyyən edirlər.

**M:** – Ağız nə üçündür? *(Uşaqların cavabları)* Ağız üçün zərərli nədir? Ağıza necə qulluq etmək lazımdır? *(Uşaqların cavabları)*

*Yemək yeyib su içəndə, Dad-tamını bilmək üçün İnsanda vardır (ağız)*

Müəllim "Qəribə torba" oyununu keçirir. Uşaqlar əllərini kisəyə salaraq toxunmaqla götürdüklərini tapırlar.

—İdman dəqiqəsi—

**II.** Müəllim uşaqlara suallarla müraciət edir: – İnsanda hansı duyğu orqanları var? Gözbağlıca oynayanda hansı duyğu orqanından istifadə etmirsiniz? Bəs hansından daha çox istifadə etməlisiz? Evdə olan zaman ananızın nə bişirdiyini nədən bilirsiniz? Ən vacib duyğu orqanı varmı? *(Uşaqların cavabları)*

**Tətbiqetmə**

**III. M:** "Kitabınızda müxtəlif şəkillər təsvir edilib. Birinci şəklə baxaq. Nələr təsvir olunub? *(Uşaqların cavabları)* Uşaq dilini konfetə toxundursa, necə olar? Bəs acı bibərə toxundursa, necə olar? *(Uşaqların cavabları)* Digər şəkillərə baxın. Duyğu orqanları üçün xoş və narahatedici şeyləri göstərin. Xoş olanları haşiyəyə alın".

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | 7-ci həftə | DUYĞU ORQANLARI |
|---|---|
| **Məşğələ 2. BƏDİİ TƏFƏKKÜRÜN İNKİŞAFI**<br>**Mövzu: "QIRMIZIPAPAQ" NAĞILI** | **Standart:** 2.2.2; 2.2.6.<br>**İnteqrasiya:** 2.1.2; 2.1.4. |

| | |
|---|---|
| **Məqsəd:** | • Eşitdiyini anladığını nümayiş etdirir.<br>• Nağılın məzmununu sadə şəkildə nağıl edir.<br>• Nitqində əlamət bildirən sözlərdən istifadə edir. |
| **İş üsulları**: | Müzakirə, suallar, nağıletmə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Nağılın mətni, şəkillər. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, vəsaitinizdə şəkillərə diqqətlə baxın. Şəkildə nə təsvir olunub? Sizcə, burada nədən söhbət gedir? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, mən sizə "Qırmızıpapaq" nağılını söyləyəcəyəm. Mətni dinlədikcə, şəkillərə baxın. Hər şəkil mətnin bir hissəsini əks etdirir. Mən deyəndə dairəni rəngləməklə, dinlədiyin məlumatları əks etdirən şəkli qeyd edin".

1

"Biri var idi, biri yox idi. Balaca bir qız var idi. Nənəsi ona qırmızı papaq toxumuşdu. O vaxtdan hamı onu Qırmızıpapaq çağırırdı. Bir gün Qırmızıpapağın nənəsi xəstələndi. O, nənəsinə qutab aparmaq istədi. Nənənin evinə gedən yol meşədən keçirdi. Qırmızıpapaq meşədən keçərkən acgöz Qurd onu gördü. Qurd onu qabaqlayıb nənənin evinə getdi. O, nənənin çarpayısına uzanıb Qırmızıpapağın gəlməsini gözlədi. Çox keçmədi ki, Qırmızıpapaq gəlib çıxdı".

**M:** – "Uşaqlar, şəkillərə baxıb, dinlədiyiniz hissəyə uyğun şəkli tapır və altındakı dairəni işarə edin."

Müəllim oxumağa davam edir.

2

Qırmızıpapaq içəri girəndə Qurd yorğanı başına çəkib dedi:

– Qızım, gəl yanımda əyləş. Yəqin uzaq yol gəlib yorulmusan.

Qırmızıpapaq Qurdun böyük kobud əllərini görüb soruşdu:

– Nənəcan, əllərin niyə belə böyükdür?

– Səni yaxşı-yaxşı qucaqlamaq üçün, əziz balam.

**M:** – Uşaqlar, Qırmızıpapaq niyə elə soruşdu? Dinlədiyiniz hissəni müəyyənləşdirib işarə edin".

Müəllim oxumağa davam edir.

3

"Qırmızıpapaq Qurdun iri qulaqlarını görüb təəccüblə soruşdu:

– Nənəcan, sənin qulaqların niyə belə böyükdür?

– Sənin gözəl səsini aydın eşitmək üçün, mənim balam".

**M:** – Uşaqlar, dinlədiyiniz hissəyə uyğun hissəni tapıb işarə edin.

Müəllim oxumağa davam edir.

4

"– Ay nənə, bəs gözlərin niyə belə böyükdür?

– Səni yaxşı– yaxşı görmək üçün, ağıllı balam".

**M:** – "Uşaqlar, şəkildə dinlədiyiniz hissəyə uyğun şəkli tapıb işarə edin."

Müəllim oxumağa davam edir.

5

"– Bəs burnun niyə belə böyükdür?

– Sənin ətrini yaxşı-yaxşı hiss etmək üçün, mənim gül balam".

**M:** – Uşaqlar, məzmuna uyğun hissəni tapıb işarə edin.

Müəllim oxumağa davam edir.

6

"Qırmızıpapaq Qurdun böyük ağzını və iri dişlərini göstərib soruşdu:

– Bəs ağzın niyə belə böyük, dişlərin də iridir?

Qurd yerindən sıçrayıb acıqla dedi:

– Səni yemək üçün.

Elə bu vaxt ovçular içəri girdilər. Qırmızıpapağı Qurdun əlindən xilas etdilər".

—İdman dəqiqəsi—

**II.** Müəllim uşaqlara suallarla müraciət edir: – Qurd Qırmızıpapağı necə aldatmağa çalışırdı?

– Qırmızıpapaq Qurdun onun nənəsi olmadığını nədən bildi? *(yönəldici sual:Qırmızıpapaq canavarı hansı əlamətinə görə tanıdı?)* – Siz Qırmızıpapağın yerində olsanız, nə edərdin? *(yönəldici sual: Sən Qırmızıpapağın yerinə olsaydın, Qurdu hansı əlamətinə görə tanıyardın?)*

**Tətbiqetmə**

**III. M:** – "Qırmızıpapaq hansı sualları verərək, Qurdun yalan dediyini bildi?"

**M:** – "Qurdla nənənin başqa hansı fərqlərini tapa bilərsiniz? – Daha hansı cəhətinə görə onun Qurd olduğunu bilərdiniz? – Bunun üçün siz ona hansı əlavə suallar verərdiniz?" *(Uşaqların cavabları)*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| **Məşğələ 3–4. SAVAD TƏLİMİNƏ HAZIQLIQ VƏ NİTQ İNKİŞAFI**<br>**Mövzu: İ (i), I (ı) SƏSİ VƏ HƏRFİ** | **Standart:** 2.2.4; 2.2.5<br>**İnteqrasiya:** 1.1.4; 2.1.2. |
|---|---|

| | |
|---|---|
| **Məqsəd:** | • **İ (i)** və **I (ı)** səsini və hərfi fərqləndirir.<br>• **İ** və **I** səsinin işləndiyi sözlər söyləyir.<br>• Xətt üzrə **İ (i)** və **I (ı)** hərfini yazır. |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Şəkillər, karandaşlar, marker, **A, N, Ə, T, L, M, İ, I** hərfləri. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Səhifənin yuxarısındakı şəklə baxaq. Şəkildə nə təsvir olunub? Tülkü nə edir? *(Uşaqların cavabları)* **İlan** sözü hansı səslə başlayır?

**Dərketmə**

**I. M:** "**İ** hərfindən də digər hərflər kimi sözləri yazanda istifadə olunur. Uşaqlar, sarı qutuya diqqətlə baxaq. Burada həm böyük, həm də kiçik **İ** hərfi təsvir olunub. Həm böyük, həm də kiçik **İ** hərfi eyni cür yazılır. Böyük **İ** bir qədər böyük yazılır".

*İlqar sevir idmanı, Hey hoppanır ip üstdən,*
*İz axtarır bağçada, O, tez tapır itindən".*

**M:** "Uşaqlar, dinlədiyiniz şeir parçasında *İlqar, ip,iz* və *idman* sözlərini tələffüz edərkən birinci hansı səsi eşitdiniz? ***(İ)*** Bəli, bu sözlər **İ** səsi ilə başlayır".

**M:** "Uşaqlar, indi isə **İ** hərfi ilə tanış olaq. Baxın, burada böyük **İ** hərfi təsvir olunub. Hərfin ətrafında isə şəkillər təsvir olunub. Hərfin sol tərəfində yuxarıda nə təsvir olunub? *(Uşaqların cavabları)* ***İynə*** sözü hansı səslə başlayır? *(Uşaqların cavabları)* Bəs hərfin sağında yuxarıda nə təsvir olunub? ***İşıqfor*** sözü hansı səslə başlayır?" *(*Bu qayda ilə hər şəkildə nə təsvir olunduğunu adlandırın və bu sözün hansı səslə başlandığına diqqət edin. Hər bir şəkildə nə təsvir olunduğunu söyləyin və bu sözün hansı səslə başlandığına diqqət edin. *(Uşaqların cavabları)* Sözlərdən hansı **İ** səsi ilə başlayır?" *(Uşaqların cavabları) (Digər şəkillər üzrə də bu qayda ilə iş aparılır).*

**İ** hərfinin rənglənməsi.

**II.** Müəllim lövhədə həm böyük **İ** hərfini, həm də kiçik **i** hərfini izah edə-edə yazır. Sonra bir neçə uşaq lövhədə tapşırığı yerinə yetirir. Digər uşaqlar vəsaitdə xətt üzrə **İ** hərfini çəkirlər.

**M:** "**İ** hərfinin ətrafında şəkillər təsvir olunub. Hər şəkildə nə təsvir olunduğunu bir-bir söyləyin. Söz **İ** səsi ilə başlayırsa, həmin şəkli **İ** hərfi ilə birləşdirin".

**III. M:** "Uşaqlar, vəsaitin yuxarısında xanalarda sözlər yazılıb. Siz həmin hərfləri öyrənmisiniz. Verilmiş **İ, L, T, N** və **A** hərflərini nümunəyə uyğun rəngləyin. Sonra sözləri oxuyun".

**IV. M: –** Uşaqlar, söylədiyim kimi, həm böyük, həm də kiçik **İ** hərfinin yazılışı eynidir. Böyük hərf bir qədər böyük yazılır. Kənara çıxmadan xətt üzrə gedərək, hərfləri çəkin. İndi isə kiçik hərfi çəkin.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**V. M:** – "Şəkildə nə təsvir olunduğunu söyləyin. Sapa düzülmüş muncuqlar həmin sözün səslərini əvəz edir. Hər muncuğun hansı səsi əvəz etdiyini söyləyin."

**VI. M: –** "Şəkildə nə təsvir olunduğunu söyləyin. **İ** səsinin sözün əvvəlində, ortasında və sonunda işləndiyini müəyyən edin və həmin şəkli çərçivə ilə birləşdirin".

Müəllim uşaqlara kəsmə əlifbada olan hərflərin içərisindən **İ** hərfini götürüb lövhəyə qoymağı təklif edir. *(Uşaqlar yerinə yetirir)*

Məşğələ boyu uşaqlar rəğbətləndirilir. Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M:** – Səhifənin yuxarısındakı şəklə baxaq. Şəkildə nə təsvir olunub? *(Uşaqların cavabları) Qağayı* sözü hansı səslə qurtarır? *Bığ* və *qayıq* sözlərində **ı** səsi sözün hansı hissəsində eşidilir? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "**I** hərfindən də digər hərflər kimi sözləri yazanda istifadə olunur. Uşaqlar, sarı qutuya diqqətlə baxaq. Burada həm böyük **I** hərfi, həm də kiçik **ı** hərfi təsvir olunub. Hər ikisi düz xətt kimi yazılır. **I** hərfi **İ** hərfinə oxşayır. Amma **I** hərfinin üstündə nöqtə olmur".

Verilmiş əlifbanın hərflərinin arasından **I** hərfi götürülərək, lövhəyə qoyulur. **I** səsinin birlikdə və tək-tək tələffüz edilməsi üzrə iş aparılır. Müəllim uşaqların diqqətini kiçik **ı** hərfinə yönəldərək, deyir:

"Uşaqlar, bilirsiniz ki, hər bir hərfin həm böyük, həm də kiçik forması var. Uşaqlar, şəklə diqqətlə baxın. Şəkildə nə təsvir olunub? *(Uşaqların cavabları)* – Bu, kiçik **ı** hərfidir".

Müəllim əvvəlcə lövhədə izah edə-edə həm böyük, həm də kiçik **ı** hərfini yazır. Sonra uşaqlardan 2– 3 nəfər lövhədə xətt üzrə hərfi çəkir.

**M:** "İndi ardıcıllığı gözləməklə və nümunəyə əsasən vəsaitinizdə həm böyük, həm də kiçik **ı** hərfini xətt üzrə çəkin".

**II. M:** "Kitabınızda şəkillər və şəkillərin alt hissəsində isə hərflər verilib. Əvvəlcə hərfləri xətt üzrə çəkin. Sonra yuxarı hissədəki şəkilləri adlandırın. Birinci şəkildə nə təsvir olunduğunu söyləyin. ***(it)*** Bu sözdə **I** səsi varmı? *(Uşaqların cavabları)* Bəs sonuncu şəkildə nə təsvir olunub? *(qağayı)* Bu sözdə **I** səsi varmı? *(Uşaqların cavabları)* Digər şəkillərə baxıb, bu sözlərdə istifadə edilən səsin **i,** yaxud **ı** olduğunu müəyyənləşdirin və uyğun hərflə birləşdirin.

**M:** "Tərkibində **I** səsi olan sözlər söyləyin. **I** səsi ilə bitən sözlər söyləyin. **I** səsi sözün ortasında olan sözlər söyləyin.

***I****-nı yazmaq asandır,*
*Asan da yadda qalır.*
*Kim tanımır, tanısın*
*Lap çomağa oxşayır.*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** "Vəsaitdə 5 rəngli dairə verilib. Rəngləri adlandırın. Sözün sonundakı səsin **i**, yaxud **ı** olduğunu müəyyənləşdirib altındakı çərçivədə uyğun hərflə birləşdirin".

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**7-ci həftə | DUYĞU ORQANLARI**

**Məşğələ 5-6. RİYAZİ VƏ MƏNTİQİ TƏFƏKKÜRÜN İNKİŞAFI**
**Mövzu: RƏQƏMLƏR ÖYRƏNİRƏM**

**Standart:** 2.3.1.
**İnteqrasiya:** 2.2.6; 1.1.4.

| | |
|---|---|
| **Məqsəd:** | • 6, 7 və 8 ədədini adlandırır.<br>• Ədədə əsasən sayı müəyyənləşdirir. |
| **İş üsulları**: | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması**: | Kollektiv və fərdi. |
| **Resurslar:** | Şəkillər, rəngli karandaşlar. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Uşaqlar, vəsaitin yuxarısında nə təsvir olunub? Tülkü barmağı ilə neçə göstərir? Parabüzənin neçə ayağı var? Sarı qutuya baxaq. Rəqəmin yanında neçə dairə var? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Bəli, rəqəmin yanında altı dairə var. Sayı düz müəyyənləşdirdiniz. Tapşırığa baxın. Hansı ədəd təsvir olunub? *(Uşaqların cavabları)* **"6"** yazılmış hissələri sarı, **"3"** yazılmış hissələri yaşıl, **"5"** yazılmış hissələri isə qırmızı karandaşla rəngləyin. Otağımızda sayı **6** olan əşyaları sadalayın". *(Uşaqların cavabları)"*

**II. M:** "Şəkildə çoxlu rəqəmlər təsvir olunub. Rəqəmlərin arasında **6** rəqəmini seçib, haşiyəyə alın. Neçə dənə **"6"** var? Daha hansı rəqəmləri öyrənmisiniz? Maqnit rəqəmlərin içərisindən ***"6"*** ədədini ayırıb, lövhəyə qoyun". *Uşaqların cavabları) (Müəllim müxtəlif paylayıcı vəsaitlərdən istifadə edərək,* ***"6"*** *ədədinin möhkəmləndirilməsi üzrə iş aparır).* —İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M: –** "İstiqaməti gözləməklə və nöqtədən başlayaraq xətt üzrə gedib, **"6"** ədədini çəkin (*Lövhədə əvvəlcə, müəllim izah edə-edə 6 rəqəmini yazır. Sonra isə bir neçə uşaq lövhədə, digərləri yerlərində tapşırığı yerinə yetirir).* Barmaqlarınızla "**6**" ədədinin sayını göstərin."

Müəllim şeir söyləyir:

*"Cavabını kim verər, Belə asan sualın; Dörd ayağı, 2 qulağı, Neçə edər ulağın?"*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

Müəllim uşaqların diqqətini vəsaitin yuxarısındakı şəklə cəlb edir və nə təsvir olunduğunu soruşur. *(Uşaqların*

*cavabları) "*Şəkildə neçə barmaq göstərilir?" *(Uşaqların cavabları) (Müəllim 7-yə qədər saymağı təklif edir)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, **"7"** yazılmış hissələri sarı, **"1"** yazılmış hissələri yaşıl, **"4"** yazılmış hissələri isə qırmızı karandaşla rəngləyin. İndi rənglənmiş hissələri adlandırın. Otağımızda sayı **7** olan əşyaları sadalayın". *(Uşaqların cavabları)*

**II. M:** "Vəsaitinizdə göyqurşağı və rənglər verilib. Siz göy qurşağı görmüsünüz? Göyqurşağında hansı rənglər olur? Neçə rəng oldu? *(Uşaqların cavabları)* Siz dediyiniz sayı rəqəmlə yaza bilərsiniz?

Siz **7** rəngli karandaş seçərək, göyqurşağının nömrələnmiş zolaqlarını rəqəmlərə uyğun karandaşla rəngləyin. İndi isə rəngləri adlandırın və sayın. Neçə rəngdən istifadə etdiniz? *(Uşaqların cavabları)*

**III. M:** "Oxun istiqaməti üzrə xətlərdən istifadə edərək **"7"** rəqəmini çəkin".

**IV. M:** "Şəklə baxın. **"8"** yazılmış hissələri sarı, **"5"** yazılmış hissələri yaşıl, **"6"** yazılmış hissələri isə qırmızı karandaşla rəngləyin". İndi rənglənmiş hissələri adlandırın. Sayı **8** olan əşyaları sadalayın." *(Uşaqların cavabları)*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**V. M:** "Şəkildə səkkizayaqlı osminoqlar təsvir olunub. Onları sayın. Səkkiz ədəd səkkizayaqlı osminoqu ayıraraq haşiyəyə alın.

**VI. M: –** Oxun istiqaməti üzrə xətlərdən istifadə edərək **"8"** rəqəmini çəkin".

Müəllim şeir söyləyir:

*Bazar günü gələndə*
*Çox sevinir uşaqlar.*
*Bəs kim indi tez deyər,*
*Həftədə neçə gün var?*

*At yanında balası,*
*Gəzirdi otlaqları.*
*İkisinin bir yerdə*
*Neçədir ayaqları?*

*Müəllim 7 və 8 rəqəmlərinin möhkəmləndirilməsi üzrə iş aparır.*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| Məşğələ 7–8. TƏSVİRİ FƏALİYYƏT<br>Mövzu: QIRMIZIPAPAQ | 7-ci həftə \| DUYĞU ORQANLARI<br>Standart: 3.1.3; 3.1.5.<br>İnteqrasiya: 1.1.4; 2.2.6. |
|---|---|
| **Məqsəd:** | • Kəsib-yapışdırma ilə sadə yaradıcılıq bacarıqları nümayiş etdirir.<br>• Sadə yapma bacarıqları nümayiş etdirərək kompozisiya qurur. |
| **İş üsulları**: | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması**: | Kollektiv və fərdi. |
| **Resurslar:** | Şəkillər, plastilin, rəngli karandaşlar. |

### 1-ci məşğələ

**Motivasiya**

**M:** – Uşaqlar, mən sizə nağıldan bir hissə danışacağam. Siz həmin hissənin hansı nağıldan olduğunu müəyyənləşdirəcəksiniz: "O, təəccüblə nənəsinə baxıb dedi: – *Nənəcan, sənin qulaqların niyə belə böyükdür? – Səni yaxşı-yaxşı eşitmək üçün, mənim balam"*. Bu, hansı nağıldandır?

**Dərketmə**

**I. M:** "Bəli, uşaqlar, düz tapdınız. Bu, "Qırmızıpapaq" nağılındandır. Sizcə, Qırmızıpapaq nənəyə necə baxırdı? *(təəccüblə).* Bəli, biz sizinlə Qırmızıpapağın üz emosiyalarını təsvir edəcəyik. *(Müəllim nümunəni uşaqlara göstərir. Daha sonra onların gözü qarşısında düzəldir. Daha sonra isə uşaqlara işə başlamağı təklif edir).* Qırmızıpapağın obrazını applikasiya üsulu ilə düzəldin və onun iki əhvalını təsvir edin." Bitirdikdən sonra uşaqlar öz işlərində təsvir etdikləri əhval haqqında danışırlar.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II.** Müəllim plastilindən **I** hərfini düzəltməyi təklif edir. Hərfin düzəldilməsində neçə hissədən istifadə edildiyi dəqiqləşdirilir. **M:** "Hansı daxili üzvün adında **I** səsi var?"

Müəllim məşğələ prosesində onlara istiqamət verir, uşaqların əməkdaşlıq etmələrinə imkan yaradır.

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

### 2-ci məşğələ

**Motivasiya**

**M: –** Uşaqlar, insanlar sevinəndə üz ifadəsi necə olur? Bəs acıqlı olanda necə olur? Hansı emosiyalar olur? Əhvalın necə olduğunu nədən bilərik? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, siz "Qırmızıpapaq" nağılını bilirsiniz. Qurd necə heyvandır? *(Uşaqların cavabları)* Biz bu gün sizinlə qurd düzəldəcəyik. *(Müəllim nümunəni uşaqlara göstərir. Sonra onların gözü qarşısında qurdu düzəldir və uşaqlara işə başlamağı təklif edir)*. Qurdu kağızdan istifadə edərək kəsib-yapışdırma üsulu ilə düzəldəcəyik".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "Nənəyə paltar tikmək üçün iynəni saplamaq lazımdır. Nənənin isə gözü zəif gördüyü üçün iynəni saplaya bilmir. Gəlin nənəyə kömək edək. İndi isə xətt üzrə çəkərək sapı iynənin gözündən keçirin".

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| | **7-ci həftə \| DUYĞU ORQANLARI** |
| **Məşğələ 9-10. FİZİKİ MƏDƏNİYYƏT**<br>**Mövzu:** **ÖZ BƏDƏNİNİ TANI** | **Standart:** 1.1.1.<br>**İnteqrasiya:** 4.2.1.; 4.2.2. |

| | |
|---|---|
| **Məqsəd:** | • İlanvari yeriş nümayiş etdirir.<br>• Hərəkətlərini koordinasiya edir.<br>• Hərəkətlərində cəldlik və çeviklik nümayiş etdirir. |
| **İş üsulları:** | Müzakirə, süjetli-rollu oyunlar. |
| **İş forması:** | Kollektiv, qruplarla və fərdi iş. |
| **Resurslar:** | Skamya, qalın ip. |

**1-ci və 2-ci məşğələlər**

**I. İsinmə hərəkətləri** (5 dəq.)

– əlləri biləkdən dairəvi hərəkət etdirməklə, biri-birinin ardınca yeriş.
– barmaqları açıb-bükməklə, qolları yuxarı doğru dirsəkdən açıb-bükməklə yeriş.
– adi və iri addımlarla yeriş.
– qan damarlarımız-ilanvari yeriş və adi yerişə qayıtmaq (4–5 dəfə).

**II. Ümuminkişafetdirici hərəkətlər** (20 dəq.)

**"Əzələlərimiz"**. 5-6 dəfə təkrar etmək.

**M:** – Uşaqlar, bilirsiniz ki, insan bədəni skeletdən ibarətdir. Bədənimizi hərəkət etdirmək üçün əzələlər çox vacibdir. Əzələlər sümüklərimizə bağlıdır. Biz öz bədənimizi möhkəmləndirmək üçün əzələlərimizi də məşq etdirməliyik.

**1. "Əzələlərimizi məşq etdirək"** (4–5 dəfə).
*ç.v.* – düz dayanmaq, əllər başın arxasında.
*1 sayında* sağ ayağı irəli uzatmaq, bədəni sağ ayağa tərəf əymək.
*2 sayında* ç.v.-nə qayıtmaq.
*3 sayında* sol ayağı irəli uzatmaq, bədəni sol ayağa tərəf əymək.
*4 sayında* ç.v.-nə qayıtmaq.

**2. "Bir-birimizə baxaq, başımızı döndərək".**
*ç.v.* – düz dayanmaq, əllər aşağıda.
*1 sayında* başı sola döndərmək;
*2 sayında* ç.v.-ni almaq.
*3 sayında* başı sağa döndərmək
*4 sayında* ç.v.-nə qayıtmaq.

**3. "Qollarımızı işlədərək ürəyimizə kömək edək".**
*ç.v.* – düz dayanmaq, əllər sinə qarşısında.
*1 sayında* qolları irəli-geri hərəkət etdirməklə sola tərəf dönmək və qolları yanlara tərəf açmaq.
*2 sayında* ç.v.-ni almaq.
*3 sayında* qolları irəli-geri hərəkət etdirməklə sağa tərəf dönmək və qolları yanlara tərəf açmaq.
*4 sayında* ç.v.-nə qayıtmaq.

**4. "Aşağı əyil"**
*ç.v.* – Ayaqlar çiyin bərabərində aralı, əllər beldə.
*1 sayında* dizləri bükmədən əyilərək sağ əli sol ayağın barmaqlarına çatdırmaq.
*2 sayında* ç.v.-ni almaq.
*3 sayında* hərəkəti sol əllə icra etmək.
*4 sayında* ç.v.-nə qayıtmaq (5-6 dəfə).

**5. "Ətrafa dön".**
*ç.v.* – ayaqlar çiyin bərabərində aralı, əllər yanlarda.
*1 sayında* əllər boyun arxasında sağ tərəfə dönmək.

*2 sayında* ç.v.-ni almaq.
*3 sayında* həmin hərəkəti sol tərəfə icra etmək.
*4 sayında* ç.v.-nə qayıtmaq (5-6 dəfə).

**Əsas hərəkətlər.**

**Hərəkətli oyun: "İpdən hoppanaq"**

Oyunun qaydasına görə, uşaqlar meydançanın bir tərəfində sıra ilə dayanırlar. Onlardan bir qədər aralı iki uşaq qalın ipin uclarından: biri bir ucundan, digəri isə o biri ucundan tutur. Onlar ipi asta-asta və eyni vaxtda kənarda dayanmış uşaqlara tərəf hərləyirlər.

Uşaqlar növbə ilə həmin ipin üstündən hoppanırlar. Bu zaman onlar çalışırlar ki, ipə toxunmasınlar.

Kim ipə toxunarsa, o zaman o, ipi hərləyənlərdən birini əvəz edəcəkdir.

**III. Sakitləşdirici hərəkətlər** (5 dəq.)

***"Nəbzi tap"***

*ç.v.* – düz dayanmaq, əllər yanlarda.
*1.* Nəfəsalma – sağ əllə sol əldə nəbzi tutmaq;
*2.* Nəfəsvermə – ç.v.-nə qayıtmaq.
*3.* Nəfəsalma – sol əllə sağ əldə nəbzi tutmaq;
*4.* Nəfəsvermə – ç.v.-nə qayıtmaq.
*5.* Müəllimin ardınca bir cərgədə sakit yeriş.

| | |
|---|---|
| | **7-ci həftə \| DUYĞU ORQANLARI** |
| **Məşğələ 11–12. MUSIQİ**<br>**Mövzu: TƏMIZLİK** | **Standart**: 3.1.7; 3.1.8.<br>**İnteqrasiya:** 2.2.1; 2.2.2. |

| | |
|---|---|
| **Məqsəd:** | • Musiqinin xarakterini və tempini müəyyən edir.<br>• Xorda oxumaq bacarıqları nümayiş etdirir.<br>• Musiqinin məzmununa uyğun hərəkətlər yerinə yetirir. |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Kompüter, disk, şəkillər |
| **Musiqi materialları:** | "Marş" (R.Rüstəmov), "Rəqs" pyesi ("Uşaq lövhələri" fortepiano əsərləri silsiləsindən, F.Əmirov), "Təmizlik" mahnısı (N.Məlikməmmədov / C.Cavadlı), "Günəş olaram mən də" (H.Nəcəfova/ X.Əlibəyli), "Petya və Canavar" cizgi filmindən musiqi (bir parça), "Qırmızıpapağın mahnısı", ("Qırmızıpapaq" filmindən). |
| **Alternativ material:** | **Dinləmə:** "Yaxşı otur, yaxşı dur" (A.Rzayeva / İ.Soltan)<br>**Mahnı:** "Təmizlik" (M.Əhmədov/ M.Seyidzadə) |

**1-ci məşğələ**

**1. Marş.** "Marş" (R.Rüstəmov).

**2. Dinləmə.** Müəllim əsərin sürətini – "temp" anlayışını izah edir. Asta, orta və cəld templər haqqında məlumat verir, nümunələrdə əyani olaraq göstərir. Sonra bəstəkar F.Əmirovu və onun uşaqlar üçün yazdığı əsərlərini yada salır. "Rəqs" pyesi haqqında qısa izahat verir və pyesi səsləndirir. Əsəri dinlədikdən sonra müəllim uşaqlara suallarla müraciət edir: –- Dinlədiyiniz musiqinin xarakteri necə idi? – Bəs musiqi hansı tempdə idi? – Bu musiqi ilə rəqs eləmək olar? *(Uşaqların cavabları)*

**3. Mahnı.** "Təmizlik" mahnısı (musiqisi N.Məlikməmmədovun, sözləri C.Cavadlının) şifahi yolla öyrədilir.

Müəllim bəstəkar, mahnı, onun məzmunu haqqında qısa məlumat verir, sonra mahnı səsləndirilir. Uşaqlar dinlədikdən sonra mahnı hissə-hissə, frazalarla öyrədilir. Tələffüzü çətin olan sözlər və melodiya üzərində iş aparılır. Sonda "Təmizlik" mahnısının öyrənilmiş hissəsi xorla ifa edilir, məzmunu və xarakteri müzakirə olunur.

**4. Musiqili-ritmik hərəkətlər.** "Günəş olaram mən də" (musiqisi H.Nəcəfovanın, sözləri X.Əlibəylinn) mahnısı səsləndirilir. Uşaqlar müəllimin köməyi və göstərişi ilə mahnının məzmununu hərəkətləri ilə göstərərək səhləşdirməyə çalışırlar. Məşğələ ümumiləşdirilərək yekunlaşdırılır.

**Musiqi materialı:**

| **"Təmizlik"** | |
|---|---|
| Yuyuram mən özüm,<br>Çirkli olmayır üzüm.<br>Çəkməmə yağ çəkirəm,<br>Düyməmi də tikirəm. | Stolu bax mən silirəm<br>Qab yumaq da bilirəm.<br>Güllərə verirəm su,<br>Hamıya xoş gəlir bu. |
| Nəqərat:<br>Görən deyir: Qoçaqdır,<br>Səliqəli uşaqdır. | |

**2-ci məşğələ**

**Marş.** "Marş" (R.Rüstəmov)

**Mahnı.** "Təmizlik" mahnısı (N. Məlikməmmədov / C.Cavadlı).

**Səhnələşdirmə. "Qırmızıpapaq"** (resurs: qırmızı papaqlar və "canavar" maskası).

| № | Musiqi materialı | Fəaliyyət |
|---|---|---|
| 1, 2,3,4 | "Petya və Canavar" cizgi filmindən musiqi | Qızlar Qırmızıpapaq, oğlanlar isə canavar rolunda. Oğlanlar oturub gözləyir, qızlar otaqda gəzişib yavaşca qapını döyürlər. Nənə (Canavarla) ilə görüşür, burnunu göstərir. Canavar Qırmızıpapağı iyləyir. Qırmızıpapaq canavarın qulağını, gözlərini göstərir. Canavar da əvvəl qulağını, sonra gözlərini mimika və emosiyaya ilə göstərir. |
| 5, 6 | "Qırmızıpapağın mahnısı" | Qırmızıpapaq Canavarın dişlərini göstərir, canavar ona dişlərini nümayiş etdirir. Əllərini göstərəndə Canavar onu qucaqlayır. |

| | |
|---|---|
| | **8-ci həftə \| EMOSİYALAR** |
| **Məşğələ 1. ƏTRAF ALƏMLƏ TANIŞLIQ** | **Standart:** 2.1.3; 2.1.4. |
| **Mövzu:** EMOSİYALAR | **İnteqrasiya:**. 4.1.2; 4.1.1. |

| | |
|---|---|
| **Məqsəd:** | • Emosiyanı düzgün müəyyənləşdirir.<br>• Hər bir emosiyanın əlamətini izah edir.<br>• Nitqində əlamət bildirən sözlərdən istifadə edir. |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Emosiyalar təsvir olunmuş şəkil, karandaşlar. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, görürəm ki, sizin əhvalınız yaxşıdır. Sizcə, mən bunu necə müəyyən etdim? *(Uşaqların cavabları)* Amma nədənsə, Əli qaşqabaqlıdır. Onun əhvalı necədir? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Biz bu gün sizinlə insanların müxtəlif emosiyaları, əhvalları haqqında danışacağıq. Bizim əhvalımız hərəkətlərimizdən, nə etdiyimizdən asılıdır. Eyni zamanda bizim əhvalımız ətrafımızda olanlara da təsir edir və onlar müxtəlif emosiyalar yaşayırlar. Uşaqlar, siz bilirsiniz emosiya nədir? *(Uşaqların cavabları)* Emosiyalar insanın nəyəsə və ya kiməsə münasibətilə əlaqədar keçirdiyi əhval kimi anlaşılır". Müəllim uşaqların diqqətlərini vəsaitdəki şəkillərə cəlb edir. Müəllim şəkillərin hər birindəki emosiyanı adlandırır və uşaqlara bu emosiyanı öz sifətlərində təsvir edərək, sözlə adlandırmalarını təklif edir. Müəllim müəyyən emosiyanı sözlə ifadə edir və uşaq onu öz simasında əks etdirir. Məsələn, "Mən dalaşanda acıqlı oluram" və s.

Vizual qavrayışın inkişafı və müxtəlif emosiyaların ifadəsi üzrə iş aparılır.

**II.** Müəllim uşaqlara – "Uşaqlar hansı emosiyaları yaşayırlar və nə üçün? Üz çizgiləri əhval haqqında necə məlumat verir? Sizin əhvalınız dəyişəndə onu necə göstərirsiniz?" kimi suallarla müraciət edir.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** "Şəkildə dörd cür emosiya verilib. Həmin emosiyaları adlandırın və öz üzünüzdə göstərin".

**IV. M:** "Aşağıdakı şəkillərdə təsvir olunanlar hansı emosiyalara səbəb ola bilər? Onları uyğun üz ifadələri ilə birləşdirin".

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| | **8-ci həftə \| EMOSİYALAR** |
| **Məşğələ 2. BƏDİİ TƏFƏKKÜRÜN İNKİŞAFI** | **Standart:** 2.2.2; 2.2.6. |
| **Mövzu:** "UŞAQ VƏ BUZ" ŞEİRİ | **İnteqrasiya:** 2.1.2; 2.1.4. |

| | |
|---|---|
| **Məqsəd:** | • Eşitdiyini anladığını nümayiş etdirir.<br>• Şeirin məzmununu sadə şəkildə izah edir.<br>• Nitqində emosiya bildirən sözlərdən istifadə edir. |
| **İş üsulları:** | Müzakirə, suallar, nağıletmə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Şeirin mətni, şəkillər. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, vəsaitinizdə şəkillərə diqqətlə baxın. Şəkildə nə təsvir olunub? Sizcə, burada nədən söhbət gedir? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** – Uşaqlar, mən sizə "Uşaq və buz" şeirini söyləyəcəyəm. Vəsaitdə şəkillər verilir. Hər şəkil mətnin bir hissəsini təsvir edir. Mən deyəndə dinlədiyiniz hissəyə uyğun şəkli tapın və altındakı dairəni rəngləyin.

1

*Dərsə gedən bir uşaq*

**M:** – Uşaqlar, şəkillərə baxın, dinlədiyiniz hissəyə uyğun hissəni tapıb altındakı dairəni işarə edin.

Müəllim şeiri söyləməyə davam edir.

2

*Çıxdı buz üstə qoçaq.*

**M:** – Dinlədiyiniz hissəni müəyyənləşdirib işarə edin.

Müəllim söyləməyə davam edir.

3

*Sürüşdü birdən-birə,*

**M:** – Uşaqlar, dinlədiyiniz hissəyə uyğun hissəni tapıb işarə edin.

Müəllim söyləməyə davam edir.

4

*Düşdü üz üstə yerə.*

**M:** – Uşaqlar, şəkildə dinlədiyiniz hissəyə uyğun şəkli tapıb işarə edin.

Müəllim söyləməyə davam edir.

5

*Durdu uşaq, neylədi?*
*Buza belə söylədi*:

**M:** – Uşaqlar, məzmuna uyğun şəklin hissəni tapıb, işarə edin.

Müəllim söyləməyə davam edir.

6

*"Sən nə yamansan a buz!*
*Adam yıxansan a buz!*
*Az qalıb ömrün sənin,*
*Yaz gələr artar qəmin.*
*Əriyib suya dönərsən,*
*Axıb çaya gedərsən!"*

**II.** Müəllim uşaqlara suallarla müraciət edir: – Uşaq hansı hissləri keçirdi? Uşağın hisslərinə hansı hadisələr səbəb oldu? Siz də buna oxşar hisslər keçirmisinizmi?

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** – Kitabınızda müxtəlif emosiyalar təsvir olunmuş 4 şəkil verilib. Şəkillərə diqqətlə baxın. Emosiyalara uyğun şeirin müvafiq hissəsini söyləyin və emosiyanı öz üzünüzdə göstərin.

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**8-ci həftə | EMOSİYALAR**

## Məşğələ 3–4. SAVAD TƏLİMİNƏ HAZIRLIQ VƏ NİTQ İNKİŞAFI
**Mövzu:** B (b) SƏSİ VƏ HƏRFİ

**Standart:** 2.2.4; 2.2.5

**İnteqrasiya:** 1.1.4; 2.1.2.

| | |
|---|---|
| **Məqsəd:** | • **B (b)** səsini və hərfi fərqləndirir.<br>• **B (b)** səsinin işləndiyi sözlər söyləyir.<br>• Xətt üzrə **B (b)** hərfini yazır. |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Şəkillər, karandaşlar, marker, **A, N, Ə, T, L, M, İ, I, B** hərfləri. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Səhifənin yuxarısındakı şəklə baxaq. Şəkildə nə təsvir olunub? Tülkü nə edir? **Balina** sözü hansı səslə başlayır? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Bəli, *balina* sözü **B** hərfi ilə başlayır. **B** hərfindən də digər hərflər kimi sözləri yazanda istifadə olunur. Uşaqlar, sarı qutuya diqqətlə baxaq. Burada **B** hərfi təsvir olunub. **B** böyük hərfdir.

**M: "*1 ilə 3 birləşib, Birlikdə "B" oldular. B*akı sözün başlayıb Kita*bı* qurtardılar".**

**M:** "Uşaqlar, dinlədiyiniz şeir parçasında ***Bakı, birlikdə*** sözləri **B** səsi ilə başlayır. İndi isə **B** hərfi ilə tanış olaq. Baxın, burada böyük **B** hərfi təsvir olunub. Hərfin ətrafında isə şəkillər var. Hərfin sol tərəfində yuxarıda nə təsvir olunub? *(Uşaqların cavabları) Banan* sözü hansı səslə başlayır? *(Uşaqların cavabları)* Bəs hərfin sağında yuxarıda nə təsvir olunub? *Bayquş* sözü hansı səslə başlayır? Bu qayda ilə hər bir şəkildə nə təsvir olunduğunu söyləyin və bu sözün hansı səslə başlandığına diqqət edin. Sözlərdən hansı **B** səsi ilə başlayır?" *(Uşaqların cavabları)*

**B** hərfinin rənglənməsi.

**II.** Müəllim lövhədə böyük **B** hərfini izah edə-edə yazır. Sonra bir neçə uşaq lövhədə tapşırığı yerinə yetirir. Digər uşaqlar vəsaitdə xətt üzrə **B** hərfini çəkirlər. **M:** "**B** hərfinin ətrafında şəkillər təsvir olunub. Hər şəkildə nə təsvir olunduğunu bir-bir adlandırın. Söz **B** səsi ilə başlayırsa, həmin şəkli **B** hərfi ilə birləşdirin".

**III. M:** "Uşaqlar, vəsaitin yuxarısında xanalarda sözlər yazılıb. Sözlər sizin öyrəndiyiniz hərflərdən yazılıb. **B**, **L** və **A** hərflərini nümunəyə uyğun rəngləyin və sözü oxuyun.

**IV. M: –** Uşaqlar, oxun istiqaməti ilə xətt üzrə hərfləri və sözləri yazın. Sözləri oxuyun. "BABA", "NƏNƏ", "ATA", "ANA" sözlərində birinci hecanın hərflərini qırmızı, ikincini isə göy karandaşla çəkin.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**V. M:** "Şəkildə təsvir olunanı adlandırın. Sapa düzülmüş muncuqlar həmin sözün səslərini əvəz edir. Hər muncuğun əvəz etdiyi səsi tapın və altındakı çərçivədə uyğun hərflə birləşdirin".

Müəllim uşaqlara kəsmə əlifbada olan hərflərin içərisindən **B** hərfini götürüb lövhəyə qoymağı təklif edir. *(Uşaqlar yerinə yetirir)***B** hərfi olan sözlər söyləməyi təklif edir.

Məşğələ boyu uşaqlar rəğbətləndirilir. Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

Lövhədə böyük **B** ilə bərabər, kiçik **b** hərfi də ya asılır, ya da proyektorla ekrana salınır. Verilmiş əlifbanın hərflərinin arasından kiçik **b** hərfi götürülərək lövhəyə qoyulur. **B** səsinin birlikdə və tək-tək tələffüz edilməsi üzrə iş aparılır. Müəllim uşaqların diqqətini kiçik **b** hərfinə yönəldərək deyir:

– Uşaqlar, bilirsiniz ki, hər bir hərfin həm böyük, həm də kiçik forması var. Biz bu gün sizinlə **b** hərfinin kiçik formasını öyrənəcəyik.

**Dərketmə**

**I.** Müəllim əvvəlcə lövhədə izah edə-edə kiçik **m** hərfini yazır. Sonra uşaqlardan 2-3 nəfər lövhədə xətt üzrə hərfi çəkir. Müəllim əvvəlcə lövhədə izah edə-edə həm böyük, həm də kiçik **b** hərfini yazır. Sonra uşaqlardan 2–3 nəfər lövhədə xətt üzrə hərfi çəkir.

**M:** "Bu kiçik **b** hərfidir. İndi ardıcıllığı gözləməklə **b** hərfini xətt üzrə çəkin. **B** səsi ilə başlayan sözlər söyləyin. **B** səsi ilə bitən sözlər söyləyin. **B** səsi sözün ortasında olan sözlər söyləyin".

**II. M:** "Şəkildə nə təsvir olunub? Fiqurların üzərindəki hərflər əsasında şifrələnmiş sözü tapın və uyğun şəkillə birləşdirin. Birinci fiqura baxaq. Həmin fiqurun içərisində hansı hərf yazılıb? ***(b)*** Bəs sonrakı fiqurun eynisi olan fiqurda hansı hərf yazılıb?" ***(a)*** *(Uşaqların cavabları).* (Bu qayda ilə növbəti hərflər müəyyən edilib, söz oxunur.)"

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M: –** "Şəkildə nə təsvir olunduğunu söyləyin. Sapa düzülmüş muncuqlar həmin sözün səslərini əvəz edir. Hər muncuq hansı səsi əvəz edir?" *(Uşaqların cavabları)* Müəllim kəsmə əlifbadan kiçik **b** hərfini çıxarıb lövhəyə qoymağı uşaqlara təklif edir. Sonra sözün əvvəlində, ortasında və sonunda **b** səsi olan sözlərin söylənilməsi üzrə iş aparılır.

*Ala-bula boz keçi, Ay qoşa buynuz keçi.*

**M: –** Bu sözlərdə **B** səsi hansı sözdə işlənir? *(Uşaqların cavabları)*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| Məşğələ 5-6. RİYAZİ VƏ MƏNTİQİ TƏFƏKKÜRÜN İNKİŞAFI<br>Mövzu: RƏQƏMLƏRİ ÖYRƏNİRƏM | Standart: 2.3.1.<br>İnteqrasiya:. 2.2.6; 1.1.4. |
|---|---|
| **Məqsəd:** | • 9 və 10 ədədini adlandırır.<br>• Ədədə əsasən sayı müəyyənləşdirir. |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi. |
| **Resurslar:** | Şəkillər, rəngli karandaşlar. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Uşaqlar, vəsaitin yuxarısında nə təsvir olunub? Tülkü, barmağı ilə neçə göstərir? Sarı qutuya baxaq. Rəqəmin yanında neçə dairə var? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Bəli, rəqəmin yanında doqquz dairə var. Sayı düz müəyyənləşdirdiniz. Tapşırığa baxın. Hansı rəqəm təsvir olunub? *(Uşaqların cavabları)* **"9"** yazılmış hissələri sarı, **"3"** yazılmış hissələri yaşıl, **"6"** yazılmış hissələri isə qırmızı karandaşla rəngləyin".

**M:** "Maqnit rəqəmlərin içərisindən **"9"** ədədini ayırıb, lövhəyə qoyun." *(Müəllim müxtəlif paylayıcı vəsaitlərdən istifadə edərək **"9"** ədədinin möhkəmləndirilməsi üzrə iş aparır).*

**III. M:** "Uşaqlar, oxun istiqaməti üzrə **"9"** ədədini xətt üzrə çəkin". (*Lövhədə əvvəlcə, müəllim izah edə-edə* **"9"** *rəqəmini yazır. Sonra isə bir neçə uşaq lövhədə, digərləri yerlərində tapşırığı yerinə yetirir.*)

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "Uşaqlar çərçivədə rəqəmlər verilib. Amma onlardan bəzilərinin yeri boş buraxılıb. Siz diqqətlə baxıb, buraxılmış rəqəmi tapmalısınız. 9-dan əvvəlki ədəd hansıdır? 5 ilə 7-nin arasındakı hansı ədəddir? 7 ilə 9-un arasındakı hansı ədəddir? *(Uşaqların cavabları)* İndi isə ardıcıllığı gözləyərək, çatışmayan rəqəmi tapın və yerinə yazın".

Müəllim şeir söyləyir:

*İki əldə bir yerdə On dənədir barmağım. Bax, birini qatladım, Neçə qaldı, qoçağım?*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

Müəllim uşaqların diqqətini vəsaitin yuxarısındakı şəklə cəlb edir və şəkildə gördüklərini danışmağı təklif edir. *(Uşaqların cavabları) (Müəllim təsvir olunmuş ədəd haqqında danışmağı təklif edir).*

**Dərketmə**

**I. M:** "Uşaqlar, əllərinizi irəli uzadın və hər iki əldə olan barmaqlarınızı sayın. Cəmi neçə barmaq oldu? Siz dediyiniz sayı rəqəmlə yaza bilərsiniz? Siz 1 və 0 rəqəmlərini tanıyırsınız. 10 rəqəmini yazmaq üçün bu iki rəqəmdən istifadə etmək lazımdır. Bunun üçün əvvəlcə **1**-i, sonra isə **0**-ı yazmaq lazımdır. (*Lövhədə əvvəlcə, müəllim izah edə-edə **10** rəqəmini yazır, sonra uşaqlar yerinə yetirirlər.*) **"10"** yazılmış hissələri sarı karandaşla rəngləyin. Xətt üzrə gedərək, 10 ədədini yazın".

**II.** Vəsaitinizdə şəkillər və yanında xanalar təsvir olunub. 1-dən 10-a qədər rəqəmlərdən istifadə edərək, şəkillərdəki qeyd olunmuş hissənin sayına uyğun rəqəmi yazın. *(Nümunə: Neçə günəş təsvir olunub? (**1**) Həmin xanaya **1** rəqəmini yazmaq lazımdır. Parabüzənin neçə ayağı var? (6) Həmin xanaya **6** rəqəmini yazmaq lazımdır.)*

**III. M:** "Uşaqlar, oxun istiqaməti üzrə **10** ədədini xətt üzrə çəkin".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**IV. M:** "Vəsaitdə çoxlu karandaşlar verilib. Karandaşlardan 10 dənəsini qırmızı, 5-ni sarı, 3-nü göy, 2-sini isə yaşıl karandaşla rəngləyin".

**V. M:** "Vəsaitdə içərisində çiçəklər olan 4 dibçək təsvir olunub. Hər dibçəkdəki çiçəkləri sayın və alt hissədə olan xanaya çiçəklərin sayını bildirən rəqəmi yazın".

*İnan ki, çətin deyil, Düşünsən, asan olar. Bir əldə, bir ayaqda, Cəmi neçə barmaq var?*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**Məşğələ 7–8. TƏSVİRİ FƏALİYYƏT**
**Mövzu: MÜXTƏLİF EMOSİYALAR**

**Standart:** 3.1.4; 3.1.8.
**İnteqrasiya:**. 1.1.4; 2.2.6.

| | |
|---|---|
| **Məqsəd:** | • Rəsmetmə üsulu ilə yaradıcılıq bacarıqları nümayiş etdirir.<br>• Sadə yapma bacarıqları nümayiş etdirərək kompozisiya qurur. |
| **İş üsulları:** | Əqli hücum, suallar, süjetli-rollu oyun. |
| **İş forması:** | Kollektiv və fərdi. |
| **Resurslar:** | Şəkillər, plastilin, rəngli karandaşlar. |

**1-ci məşğələ**

**Motivasiya**
**M:** – Uşaqlar, biz indi sizinlə oyun oynayacağıq. Mən jurnalist olacağam və sizə suallar verəcəyəm. Siz də mənə cavab verəcəksiniz. Sən nəyə sevinirsən? Sən nəyə ağlaya bilərsən? Nə vaxt acıqlı olursan? Nə vaxt qəmgin olursan? Sən nədən qorxa bilərsən? *(Uşaqların cavabları)*
**Dərketmə**
**M:** "Bizim müsahibəmiz qurtardı. İndi mən vəziyyəti adlandıracam, siz isə öz əhvalınızı müəyyənləşdirəcəksiniz. Əhvalımız necə olar: işdən gələn ananı (atanı) qarşılayarkən; sürüşüb yıxılarkən; dişini çəkdirməyə gedərkən; yoldaşlarınla oynayarkən; hədiyyə alarkən; yarana yod sürtərkən? *(Müəllim sualları 1–1 verərək onlara cavab almağa çalışır.)*
**I. M:** "Uşaqlar, biz indi sizinlə söylədiyimiz əhvallarımızı düzəldəcəyik. *(Müəllim uşaqların gözü qarşısında izah edə-edə bir nümunəni düzəldir. Sonra uşaqlara işə başlamağı təklif edir)* İndi isə siz nümunədən istifadə edərək müxtəlif hissləri ifadə edən üzlər yaradın".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**
**M:** "İnsanın əhvalı həmişə şən olmur, insan acıqlı da olur. İndi mən sizə qəmginliyi özünüzdən necə qovmağı öyrədəcəyəm. Siz indi bir parça kağız götürün, onu əzin, cırın və zibil qutusuna atın. *(Uşaqlar tapşırığı yerinə yetirərkən müəllim onların acıqlı əhvalı düzgün yaratmalarına fikir verir. Uşaqlar kağız parçasını bir-birinə atmamalıdırlar. Bu oyun aqressiv uşaqlara gələcəkdə öz gərginliklərini atmağa kömək edəcək.)* Siz istərdinizmi ki, ətrafınızda olan insanların hamısının əhvalı yaxşı olsun?" *(Uşaqların cavabları)*
**II.** Müəllim plastilindən **B** hərfini düzəltməyi təklif edir. Hərfin düzəldilməsində neçə hissədən istifadə edildiyi dəqiqləşdirilir. Tərkibində **B** səsi olan sözlərin söylənilməsi üzrə iş təşkil edilir.
Məşğələ prosesində onlara istiqamət verir, uşaqların əməkdaşlıq etmələrinə imkan yaradır. Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**
**M: –** Şeirə qulaq asın:

*Hissləri ifadə edir üzümüz:*
*Sevinci, kədəri və qorxunu,*
*Həyəcanı, təəccübü, heyrəti.*

*Gəlin bu gün anlayaq:*
*Duyğularımızı biz*
*Necə ifadə edək?*

**M:** "Uşaqlar, bu şeirdə söhbət nədən gedir?" *(Uşaqların cavabları)*
**Dərketmə**
**M:** "Uşaqlar, insanlar sevinəndə üz ifadəsi necə olur? Bəs qəmgin olanda necə olur? İndi sizin əhvalınız necədir? *(Uşaqların cavabları)* Bədənin hansı üzvünün köməyi ilə biz öz emosiyalarımızı ifadə edirik? İnsanlar bir-birinin həm sözlə, həm də baxmaqla əhvallarını müəyyən edə bilirlər. Bəli, üz ifadəsinə görə digərinin əhvalını müəyyən etmək olur.
**I. M:** "Uşaqlar, indi dediklərinizə əsasən, nümunədəkinə uyğun olaraq plastilindən üz düzəldək. Hər bir üzə fərqli emosiya verək". (*Müəllim uşaqların gözü qarşısında izah edə– edə yerinə yetirir, sonra uşaqlara işə başlamağı təklif edir*).

—İdman dəqiqəsi—

**Tətbiqetmə**
**M: –** Uşaqlar, indi isə sizin əl işlərinizə baxaq.
Uşaqlarla birlikdə işlərə baxaraq emosiyaları müəyyənləşdirmələri üzrə iş aparılır.
**II. M:** "Xətt üzrə barmaqları tamamlayın".
Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| Məşğələ 9–10. FİZİKİ MƏDƏNİYYƏT<br>Mövzu: QATAR | Standart: 1.1.1.<br>İnteqrasiya:. 4.2.1; 4.2.2. |
|---|---|
| **Məqsəd:** | • Əşyalarla müxtəlif hərəkətləri yerinə yetirir.<br>• Müvazinət hərəkətlərini yerinə yetirir.<br>• Hərəkətlərində çəldlik və çeviklik nümayiş etdirir. |
| **İş üsulları:** | Müzakirə, süjetli-rollu oyunlar. |
| **İş forması:** | Kollektiv, qruplarla və fərdi iş. |
| **Resurslar:** | Uşaqların sayı qədər kiçik kubiklər, skamya, qum kisəciyi. |

**1 və 2-ci məşğələlər**

**I. İsinmə hərəkətləri** (5 dəq.)
– adi, əllər yuxarıda pəncələr üstə və əllər arxada dabanlar üzərində yeriş.
– qolları dirsəkdən bükmək, irəli-geri hərəkət etdirərək, dizləri hündürə qaldırmaqla yeriş.
– siqnala uyğun yeriş və yürüşün əvəzlənməsi.
– bir sıradan iki sıraya düzülmək.
– əlləri yanlardan yuxarı qaldıraraq, nəfəs almaq və nəfəsi ağızdan buraxmaq (4–5 dəfə).

**II. Ümuminkişafetdirici hərəkətlər** (20 dəq.)

***Kubiklərlə***

**1. “Kubikləri yuxarı qaldır və göstər”**
*ç.v.* – ayaqlar çiyin bərabəri aralı, hər əldə bir kubik tutmaqla əllər aşağıda.
*1 sayında* kubikləri irəli uzatmaq və onları göstərmək;
*2 sayında* ç.v.-ni almaq;
*3 sayında* qolları kubiklərlə yanlardan yuxarı qaldırmaq;
*4 sayında* ç.v.-nə qayıtmaq (5-6 dəfə).

**2. “Kubikləri qabağa uzat”.**
*ç.v.* – ayaqlar çiyin bərabəri aralı, hər əldə bir kubik tutmaqla əllər aşağıda.
*1 sayında* gövdəni sağa döndərib qolları irəli uzatmaq;
*2 sayında* ç.v.-ni almaq;
*3 sayında* həmin hərəkəti sol tərəfə eynilə təkrar icra etmək;
*4 sayında* ç.v.-nə qayıtmaq (5-6 dəfə).

**3. “Kubikləri toqquşdur”.**
*ç.v.* – Ayaqları azca aralı, hər əldə bir kubik tutmaqla əllər aşağıda.
*1 sayında* sağ ayağı dizdən qatlayıb yuxarı qaldırmaq və ayağın altından kubikləri bir-birinə toqquşdurmaq;
*2 sayında* ç.v.-ni almaq;
*3 sayında* hərəkəti sol ayaqla icra etmək;
*4 sayında* ç.v.-nə qayıtmaq (5-6 dəfə).

**4. “Kubiklərin dizlərin üstünə qoyun”.**
*ç.v.* – oturmaq, ayaqları çarpazlayaraq kubikləri dizlərin üstünə qoymaq.
*1 sayında* gövdəni sağa döndərərək kubiki götürüb arxaya qoymaq;
*2 sayında* ç.v.-ni almaq;
*3 sayında* həmin hərəkəti sol tərəfə təkrar icra etmək;
*4 sayında* ç.v.-nə qayıtmaq (5-6 dəfə).

**5. “Kubikləri gizlət”.**
*ç.v.* – ayaqlar bir yerdə, kubikləri əldə sərbəst tutaraq qollar yanlarda.
*1 sayında* sağ əllə kubiki irəli uzatmaq;
*2 sayında* kubiki arxada gizlətmək;
*3 sayında* kubiki sol əllə irəli uzatmaq;
*4 sayında* kubiki arxada gizlətmək (5-6 dəfə).

**Əsas hərəkətlər.**

**Hərəkətli oyun – “Qatar”.**

Oyunun qaydasına görə, uşaqlar bir-birinin ardınca sıraya düzülürlər. Sırada birinci duran uşaq “parovozu”, qalan uşaqlar isə “qatarı” təmsil edirlər.

Müəllim fit verir, “qatar” hərəkət edir (uşaqlar qollarını dirsəkdən bükərək qatarın çarxlarının hərəkətini təmsil edirlər). Uşaqlar əvvəlcə yavaş-yavaş yeriyərək “çu-çu-çu” deyib “parovozun” səsini təmsil edirlər. Sonra “qatar” sürətini artırır, uşaqlar qaçırlar. M: “Qatar stansiyaya çatdı”. Uşaqlar tədricən sürəti azaldır və dayanırlar.

Müəllimin növbəti fit verməsi ilə “qatar” yenə hərəkət edir…

Oyunda məqsəd uşaqları çevikliyə alışdırmaqdır.

**Müvazinət hərəkətləri.** Başa qum kisəciyini qoyub qolları yanlara açaraq, skamyanın üstü ilə müvazinəti düz saxlamaqla yerimək. Sonra hərəkəti qolları yuxarı qaldırmaqla təkrar icra etmək.

**III. Sakitləşdirici hərəkətlər** (5 dəq.)

***“Mən sakitəm”***

*ç.v.* – düz dayanmaq, əllər yanlarda.

1. Nəfəsalma – sağ əllə sol əli tumarlamaq.
2. Nəfəsvermə – ç.v.-nə qayıtmaq.
3. Nəfəsalma – sol əli ilə sağ əli tumarlamaq.
4. Nəfə vermə – ç.v.-nə qayıtmaq.

Müəllimin ardınca bir cərgədə sakit yeriş.

| | |
|---|---|
| | **8-ci həftə \| EMOSİYALAR** |
| **Məşğələ 11–12. MUSİQİ**<br>**Mövzu: PİNTİ KUKLAM** | **Standart:** 3.1.7; 3.1.8.<br>**İnteqrasiya:**. 4.2.1.; 4.2.2. |
| **Məqsəd:** | • Musiqinin xarakterini və tempini müəyyən edir.<br>• Xorda oxumaq bacarıqları nümayiş etdirir.<br>• Musiqinin ritminə uyğun hərəkətlər yerinə yetirir. |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Kompüter, disk, şəkillər, oyuncaqlar (kukla, toplar, halqalar və s.) |
| **Musiqi materialı:** | “Marş” (R.Rüstəmov), “Məzhəkəçilər” pyesi (D.Kabalevski), “Pinti kuklam” mahnısı (A.Sultanova / T.Elçin), “Uşaq və buz” (A.Zeynallı), “Uşaq və buz” (M.Nəsirbəyov / A.Şaiq) |
| **Alternativ material:** | **Dinləmə:** “At-at oyunu” (Ə.Abbasov), “At-at oyunu” (Q.Hüseynli), “Ovda” pyesi (F.Əmirov)<br>**Mahnı:** “Təndir çörəyi” (O.Zülfüqarov / Q. İsabəyli), “Çoban” (Azərbaycan uşaq xalq mahnısı, iş: R.Şəfəq / A.Şaiq) |

**1-ci məşğələ**

**1. Marş.** “Marş” (R. Rüstəmov)

**2. Dinləmə.** İnstrumental musiqi (pyes), haqqında məlumat yada salınır və təkrarlanır. Müəllimin izahı zamanı dinlənilən əsərə aid şəkil və illüstrasiyalar da nümayiş etdirilir. Sonra “Məzhəkəçilər” fortepiano pyesi (musiqisi D.Kabalevskinin) səsləndirilir. Əsəri dinlədikdən sonra müəllim uşaqlara suallarla müraciət edir:– Uşaqlar, sirkdə olmusunuz? Sirkdə məzhəkəçilər (klounlar) nə edirlər? Sizcə, məzhəkəçiləri təsvir edən musiqinin xarakteri və tempi necə olmalıdır?

**3. Mahnı.** “Pinti kuklam” mahnısı (musiqisi A.Sultanova, sözləri T. Elçin) şifahi yolla öyrədilir. Müəllim bəstəkar A.Sultanova haqqında qısa məlumat verir. “Pinti kuklam” mahnısının məzmunu haqqında qısa məlumat verərək onu səsləndirir. Sonra mahnı hissə-hissə öyrədilir. Tələffüzü çətin olan sözlər və melodiya (mahnının bəzi yerlərində tempin cüzi dəyişilməsi) üzərində iş aparılır. Sonda “Pinti kuklam” mahnısının öyrənilmiş hissəsi xorla ifa edilir, məzmunu və xarakteri müzakirə olunur.

**4. Musiqili-ritmik hərəkətlər.** “Məzhəkəçilər” pyesi təkrar səsləndirilir. Uşaqlar musiqinin sədaları altında musiqinin tempinə və ritminə uyğun klounların hərəkətlərini təsvir etməyə çalışırlar.

Məşğələ ümumiləşdirilərək yekunlaşdırılır.

**Musiqi materialı.**

| **“Pinti kuklam”** | | **Nəqərat** |
|---|---|---|
| Bulamısan üst-başını,<br>A kuklam, pinti kuklam.<br>Nə tökürsən göz yaşını<br>A kuklam, pinti kuklam. | Mən ki, səni döyməmişəm<br>A kuklam, pinti kuklam.<br>Mən ki, səni söyməmişəm<br>A kuklam, pinti kuklam. | Bəsdir, ağlama!<br>Gedək çimdirim səni.<br>İşdən saxlama məni,<br>İşdən saxlama! |

**2-ci məşğələ**

**Marş.** “Marş” (R.Rüstəmov) **Mahnı:** “Pinti kuklam” mahnısı (A.Sultanova / T.Elçin).

**Səhnələşdirmə.** “Uşaq və buz”.

| № | Musiqi materialı | Fəaliyyət |
|---|---|---|
| **1, 2** | “Uşaq və buz” pyesi | Uşaqlar musiqini dinləyərək dərslikdəki şəkillərin ardıcıllıqlarına baxırlar |
| **3, 4, 5, 6** | “Uşaq və buz” mahnısı | Məzmunda baş verən hadısələri sərbəst olaraq təsvir edirlər. |

# MƏŞĞƏLƏLƏR ÜZRƏ TÖVSİYƏLƏR (II KİTAB)

| | |
|---|---|
| | **9-cu həftə \| BİTKİLƏR** |
| **Məşğələ 1. ƏTRAF ALƏMLƏ TANIŞLIQ**<br>**Mövzu: İNSAN VƏ TƏBİƏT** | **Standart:** 2.1.4; 2.1.3.<br>**İnteqrasiya:** 2.2.2; 2.2.6. |

| | |
|---|---|
| **Məqsəd:** | • Bitkilər haqqında danışır.<br>• Bitkiləri adlandırır.<br>• Bitkilərin yetişdiyi yerləri düzgün müəyyən edir. |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Müxtəlif bitkilər təsvir olunmuş tablo, meyvə, tərəvəz şəkilləri, rəngli karandaşlar. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** — Uşaqlar, kitabın yuxarısındakı şəkillərə baxaq. Tülkü nə edir? *(Uşaqların cavabları)* Bəli, Tülkü ağacdan kök dərir. Sizcə, şəkildə nə düzgün təsvir edilməmişdir? Kök harada yetişir? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, siz şəkildə nə görürsünüz? *(Uşaqların cavabları)* Bəli, şəkildə meşə, meşədə müxtəlif ağaclar, meşənin kənarındakı talada kollar, otlar və kiçik göl təsvir olunub. Hamısı bir yerdə nə adlanır? *(Uşaqların cavabları)* Hamısı bir yerdə *təbiət* adlanır. Bəs təbiətə daha nələr aiddir? (*Yer, Günəş, heyvanlar, quşlar*) Bəs siz nə üçün evləri, maşınları saymadınız? *(Uşaqların cavabları)* Evlər, maşınlar təbiət deyil. Onları insanlar düzəldib. Təbiət isə insandan asılı olmayaraq mövcuddur. İnsan özü də təbiətin bir hissəsidir. İnsan bu təbiətdə yaşayır, fəsillərin – yazın, yayın, payızın və qışın gözəlliklərindən zövq alır. Ancaq insan yalnız təbiətə heyranlıqla kifayətlənmir, ondan istifadə etməyi də öyrənmişdir. *Meşə* çoxlu ağac bitmiş geniş sahədir. *Tala* isə — meşənin ortasında çox da iri olmayan ağacsız açıq sahədir. Sizcə, meşənin faydası nədir? *(Uşaqların cavabları)* Meşələr havanı çirklərdən təmizləyir və oksigen buraxır. Bu da insan orqanizmi üçün çox vacibdir. Meşələr həm də vəhşi heyvanların yaşayış məskənidir. Meşənin içərisi ilə gedərkən cığıra rast gəlinir. *Cığır* – heyvanların və insanların gediş-gəlişindən əmələ gələn ensiz, dar yoldur. Meşələrdən başqa, çəmənlik də olur. Çəmən nədir? *(Uşaqların cavabları) Çəmənlik* çoxillik otlar bitən yaşıllıq zonasıdır. Çəmənliklər sıx otlar və çiçəklərlə örtülü olur. Meşədə, çəmənlikdə bitən bütün ağaclar, kollar, otlar, güllər, çiçəklər – hamısı birlikdə *bitkilər* adlanır. Bitkilər insanlara sağlamlıq bəxş edən əsas amillərdən biridir. Havaya insan fəaliyyəti nəticəsində daim zərərli və zəhərli maddələr daxil olur. Onlarla mübarizədə də bitkilər, xüsusilə ağaclar insanların köməyinə gəlirlər. Bitkilər havanı oksigenlə zənginləşdirməklə yanaşı, həm də ətrafı gözəlləşdirirlər".

**M:** "Uşaqlar, bitki dedikdə nələr nəzərdə tutulur? *(Uşaqların cavabları)* Hər bir *bitkinin kökü, gövdəsi, budaqları* olur. Budaqlarda *yarpaq* və *tumurcuq* yetişir. Bütün bitkilərin *kökü* olur. Kök – otları, kolları, ağacları çox möhkəm şəkildə torpaqda saxlayır. Həmçinin kök bitkilərə torpaqdan lazımi qidalı maddələri çıxarmağa kömək edir. *Kök* bitkinin torpağın altında olan hissəsinə deyilir. Kökün üstündə isə bitkinin gövdəsi olur. Baxın, ağacın gövdəsi buradır (*şəkildə göstərir*). Baxın, bunlar ağacın hansı hissəsidir? (*Budaqları*) Bəli, *budaqlar* gövdədən çıxır. *Tumurcuqlar* isə budaqda olur.

—İdman dəqiqəsi—

**II.** Müəllim uşaqlara suallarla müraciət edir: – Şəkildə hansı bitkiləri görürsünüz? Bitkilərin faydası nədir? Siz bitkilərə necə qulluq edə bilərsiniz? *(Uşaqların cavabları)*

**Tətbiqetmə**

**III. M:** "Uşaqlar, kitabınızın yuxarı hissəsində müxtəlif şəkillər – çiçəklər, tərəvəzlər, meyvə və giləmeyvələr təsvir olunub. Gəlin şəkillərə bir-bir baxaq, onları adlandıraq. Birinci şəkildə nə təsvir olunub? *(Uşaqların cavabları)* Bəs sonuncu şəkildə nə təsvir olunub?" *(Uşaqların cavabları)*

Bütün şəkillər adlandırıldıqdan sonra müəllim deyir: "Mən indi bir təsvirin adını çəkəcəyəm. Siz həmin təsviri tapıb uyğun rəngli karandaşla haşiyəyə alın. Amma siz meyvələri – sarı, giləmeyvələri –qırmızı, tərəvəzləri – mavi, dənli bitkiləri – yaşıl karandaşla haşiyəyə alın" (*Bu qayda ilə bütün təsvirlər əhatə olunur*).

**IV. M:** "Şəkildə müxtəlif bitkilər təsvir olunub. Gəlin onlar haqqında danışaq *(Uşaqların cavabları dinlənilir)* Yuxarıda, sağ tərəfdə nə təsvir olunub? *(pambıq)* Sizcə, o harada yetişir? *(Uşaqların cavabları)* Uşaqlar, pambıq tarlada yetişir. Şəkildə təsvir olunanların arasından tarlanı göstərin. Şəkildə təsvir olunanlardan daha hansı tarlada yetişir? *(taxıl)* Yuxarıdan ikinci şəkildə nə təsvir olunub? (*badımcan*) Uşaqlar, badımcan bağda yetişir? *(Uşaqların cavabları)* Düzdür, uşaqlar, bağda meyvələr yetişir. Badımcan isə tərəvəz olduğu üçün bostanda yetişir". *(Bütün təsvirlər üzrə bu qayda ilə iş aparılır.)*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| **Məşğələ 2. BƏDİİ TƏFƏKKÜRÜN İNKİŞAFI**<br>**Mövzu: UÇMAQ İSTƏYƏN ÇİÇƏKLƏRİN ƏHVALATI** | **Standart:** 2.2.2; 2.2.1.<br>**İnteqrasiya:** 3.1.9. |

| | |
|---|---|
| **Məqsəd:** | • Bədii nümunə əsasında danışır.<br>• Dinlədiyi fikirləri anladığını nümayiş etdirir.<br>• Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir. |
| **İş üsulları:** | Müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Hekayənin mətni, şəkillər, rəngli karandaşlar. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** "Uşaqlar, şəkillərə diqqətlə baxın. Şəkildə nə təsvir olunub? Onları adlandırın. Sizcə, burada söhbət nədən gedə bilər?" *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Mən indi sizə şəkildə təsvir olunanlarla bağlı "Uçmaq istəyən çiçəklərin əhvalatı" adlı hekayə söyləyəcəyəm. Şəkillərə baxa-baxa hekayəni dinləyin. Hər şəkil mətnin bir hissəsini təsvir edir. Mən deyəndə, dinlədiyiniz hissəyə uyğun şəkli tapıb altındakı dairəni rəngləyin".

1

"Yaz idi. Kəpənəklər elədən-belə, belədən-elə uçuşurdular. Çiçəklər isə onlara baxıb həsəd aparırdılar. Əhvalat da elə bu zaman baş verdi. Əvvəlcə novruzçiçəyi zərif ləçəklərini açdı, başını tərpətdi, nə qədər yelləndisə də, yerindən tərpənmədi. O heç kökündən qopa bilmədi. Kökündən qopa bilməyəndən sonra daha uçmaq olardımı?"

**M:** – Dinlədiyiniz hissəni əks etdirən şəkli qeyd edin.

Müəllim oxumağa davam edir.

2

"Sonra lalə qırmızı qanadlarını tərpətdi. Başını yellədib sağa-sola əyilərək kökündən qopmaq istədi. Heç bir şey alınmadı. Daha sonra çobanyastığı ağ ləçəklərini elə fırlatdı ki, lap vertolyotun pərlərinə bənzədi. Amma nə fayda? O da digər çiçəklər kimi havaya qalxa bilmədi".

**M: –** Uşaqlar, mənim indi oxuduğum hissəni müəyyənləşdirib, işarə edin".

Müəllim oxumağa davam edir.

3

"Bir azdan bütün çəmən bu şən məşğələyə qoşuldu. Bütün çiçəklər uçmağa çalışırdılar. Amma uça bilmirdilər. Torpaq ayaqlarından tutub onları aşağı dartırdı. İşi belə görəndə çiçəklər günəşin şüalarından yapışıb köklərindən qopmağa çalışdılar. Amma günəşin şüaları sürüşkən idi, əllərindən çıxırdı".

**M: –** Uşaqlar, şəkillərə diqqətlə baxın və dinlədiyiniz hissəyə uyğun şəkli tapıb, işarə edin.

Müəllim oxumağa davam edir.

4

"Axşam oldu. Çiçəklər də yorulub bərk yuxuya getdilər. Ən maraqlısı bu oldu ki, onlar yuxularında gördülər kəpənəklər kimi uçurlar. O qədər uçurlar ki, axırda yorulub yatmaq istəyirlər. Amma harada yatsınlar? Axı bütün çiçəklər havada ora-bura uçuşurdular. Kəpənəklər isə qonmağa bir çiçək də tapmırlar".

**M:** – Uşaqlar, dinlədiyiniz hissəyə uyğun şəkli tapıb işarə edin.

5

"Yuxunun bu yerində ayıldılar. Gördülər ki, elə əvvəlki kimi torpağın üstündədirlər. Çiçəklər fikirləşdilər ki, qoy belə olsun. Əgər biz də uçası olsaq, onda kəpənəklərin dincəlməyə yeri olmaz. Qoy kəpənəklər uçsunlar, biz isə onların zərif və qəşəng qanadlarına baxıb arxalarınca əl edək..."

—İdman dəqiqəsi—

**II.** Müəllim suallarla uşaqlara müraciət edir: – Çiçəklər nə üçün uça bilmədilər? – Çiçəklərin yuxusunda nə baş verdi? – Sizcə, çiçəklər uçmaq fikrindən niyə daşındılar? *(Uşaqların cavabları)*

**Tətbiqetmə mərhələsi**

**III. M:** "Hansı çiçəklər uçmaq istəmişdi? Şəkildə təsvir olunmuş çiçəkləri adlandırın və onları haşiyəyə alın".

**IV. M:** "Şəkildə hansı çiçək təsvir olunub**?** *(zəncirotu)* Onun ləçəkləri necədir? *(Uşaqların cavabları)* Şəklə baxıb bu bitkilərin necə səyahət etdiyi haqqında danışın".

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**Məşğələ 3–4. SAVAD TƏLİMİNƏ HAZIRLIQ VƏ NİTQ İNKİŞAFI**
**Mövzu: Y (y) SƏSİ VƏ HƏRFİ**

**Standart:** 2.2.4; 2.1.2.
**İnteqrasiya:** 1.1.4.

| | |
|---|---|
| **Məqsəd:** | • Y (y) səsini və hərfi fərqləndirir.<br>• Y səsinin işləndiyi sözlər söyləyir.<br>• Xətt üzrə Y (y) hərfini yazır. |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Şəkillər, karandaşlar, marker, **Y** hərfi və digər hərflər. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Səhifənin yuxarısındakı şəklə baxaq. Şəkildə nə təsvir olunub? (*Uşaqların cavabları)* Bilirsiniz ki, söylədiyiniz hər bir söz yazılarkən hərflərdən istifadə edilir.

**Dərketmə**

**M:** "**Y** hərfindən də digər hərflər kimi sözləri yazanda istifadə olunur. Uşaqlar, sarı qutuya diqqətlə baxaq. Burada **Y y** hərfi təsvir olunub. **Y** böyük hərfdir".

*Yabını yəhərləyib Yusif mindi dalına. Yellətdi, yorğa getsin, Bərk yapışdı yalına.*

**M:** "Mənim söylədiyim şeirdə *yabı, Yusif, yəhər, yorğa* sözləri hansı səs ilə başlayır? Gəlin birlikdə bu sözləri tələffüz edək. Sözün əvvəlində hansı səsi eşitdiniz? *(Uşaqların cavabları)* Bəli, uşaqlar, **Y** səsini eşitdiniz**.** Uşaqlar**, Y** səsi olduğu kimi, **Y** hərfi də var**.** Biz sizinlə sözü söylədik və eşitdik. Eşitdiyimiz səs adlanır. **Y** hərfini yazarkən biz onu görürük. Yazarkən gördüyümüz hərf adlanır".

**M:** *"*Deməli, hərfi yazırıq və görürük, səsi isə tələffüz edirik və eşidirik". *(Müəllim bunu nümunələr üzərində xatırladır)*

**I. M:** "Şəklin orta hissəsində **Y** hərfi təsvir olunub. Hərfin kənarında isə şəkillər var. Sol tərəfdən yuxarıdakı şəkildə nə təsvir olunub? (*yemiş*) Sözü bir daha tələffüz edək. *Yemiş* sözü hansı səslə başlayır? *(Y səsi ilə)* Bəs sağ tərəfdə ikinci şəkildə nə təsvir olunub? (*yarasa*) *Yarasa* sözü hansı səslə başlayır? *(Y səsi ilə). (Şəkillərin hər biri üzrə bu qayda ilə iş aparılır).* Sözlərdən hansı **Y** səsi ilə başlayır?*" (Uşaqların cavabları)* Bəli, uşaqlar, indi isə kənara çıxmadan **Y** hərfini rəngləyin.

**II.** Müəllim lövhədə **Y** hərfini izah edə-edə yazır. 1–2 uşaq da lövhədə tapşırığı yerinə yetirir. Uşaqların hər biri öz kitabında xətt üzrə **Y** hərfini çəkir. Çəkərkən nöqtədən başlamalarına diqqət etmək lazımdır.

**M:** "Uşaqlar, **Y** hərfini xətt üzrə çəkdiniz. Hərfin ətrafında şəkillər təsvir olunub. Hərfin sol tərəfində hansı şəkillər var? Onları adlandırın *(yorğan, dolab, yataq*). **Y** səsi ilə başlayanları **Y** hərfi ilə birləşdirin. Bəs hansı söz **Y** hərfi ilə başlamır? *(dolab)* Bəs sağ tərəfdə hansı şəkillər təsvir olunub? *(dovşan, yarasa, it)*. Söz **Y** səsi ilə başlayırsa, həmin şəkilləri **Y** hərfi ilə birləşdirin. Bu sözlərdən hansılar Y səsi ilə başlamır? *(dovşan, it)*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**M:** "Uşaqlar, biz artıq sizinlə çoxlu hərflər öyrənmişik. Hərflərin içərisindən öyrəndiyiniz **İ, L, T, N, A, B** və **Y** hərfini götürüb lövhəyə qoyun". (*Uşaqlar kəsmə əlifbanın və ya maqnit hərflərin içərisindən deyilən hərfləri seçib götürür və lövhəyə yapışdırırlar*)

**III. M:** "Uşaqlar, kitabın yuxarısında söz yazılıb. Hərfləri adlandırın. Birinci hansı hərfdir? Bəs üçüncü hansı hərfdir? *(Uşaqların cavabları)* Hərfləri nümunəyə uyğun rəngləyin və axırda sözü oxuyun".

**IV. M:** – **Y** hərfi xətt üzrə verilib. I tapşırıqda göstərilən nümunəyə əsasən, hərfi nöqtədən başlayaraq, oxun istiqamətində çəkin. **Y** səsini tələffüz edin".

**V. M:** "Şəkildə nə təsvir olunub? *(Ay*) Bəs o biri şəkildə nə təsvir olunub? *(Yay)* Siz hər iki sözdəki hərfləri tanıyırsınız. İndi hərfləri xətt üzrə çəkin və sözü oxuyun". *(Uşaqların cavabları)*

**VI. M:** "Hərfləri xətlər üzrə çəkin, çəkərkən nöqtədən başlayaraq yazın, sonra hərfləri adlandırın. İndi isə əvvəlcə hərflərin yuxarı hissəsində təsvir olunmuş şəkilləri adlandırın. *(Uşaqların cavabları: bibər, yemiş, alma, limon, ərik, nar).* Bu sözlər hansı səslə başlayırsa, onu uyğun hərflə birləşdirin. İndi isə hərflərin aşağı hissəsində təsvir olunmuş şəkilləri adlandırın *(Uşaqların cavabları: yarasa , ilan, tısbağa, meymun).* Bu sözlər də hansı səslə başlayırsa, onu uyğun hərflə birləşdirin. Tısbağa şəklini hansı hərflə birləşdirmək lazımdır?" Bəs *limon* sözünü hansı hərflə birləşdirmək lazımdır?" *(Uşaqların cavabları)* "

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

Lövhədən böyük **Y** ilə bərabər, kiçik **y** hərfi də ya asılır, ya da proyektorla ekrana salınır. Verilmiş əlifbanın hərflərinin arasından böyük **Y** hərfi götürülərək lövhəyə qoyulur. **Y** səsinin birlikdə və tək-tək tələffüz edilməsi

üzrə iş aparılır. Müəllim uşaqların diqqətini kiçik **y** hərfinə yönəldərək deyir:

– Uşaqlar, bilirsiniz ki, hər bir hərfin həm böyük, həm də kiçik forması var. Bu da kiçik **y** hərfidir.

**Dərketmə**

**I. M:** "Uşaqlar, tapşırığa diqqətlə baxın. Şəkildə nə təsvir olunub? *(Uşaqların cavabları)* Bəli, hərf yazılıb. Bu, kiçik **y** hərfidir. Biz sizinlə böyük **Y** hərfini öyrənmişik. Havada əlinizlə böyük **Y** hərfini cızın. **Y** səsi ilə sözlər söyləyin. Verilmiş nümunənin qarşısında isə xətt üzrə kiçik **y** hərfləri verilib. İndi isə kiçik **y** hərflərini xətt üzrə çəkin".

**II. M:** "Burada hansı hərflər təsvir olunub? *(Uşaqların cavabları)* Böyük və kiçik hərfləri müəyyən edin. Hansının böyük **Y** və hansının kiçik **y** hərfi olduğunu söyləyin. Nümunəyə əsasən hərfləri rəngləyin."

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** "Kitabınızda qırıq xətt üzrə hərflər verilib. Hərfləri xətt üzrə çəkin və sözləri oxuyun. Çəkərkən 1-ci tapşırıqdakı ox istiqamətlərinə diqqət edin. Gəlin, birinci sözü oxuyaq. Burada hansı söz yazılıb?" *(Yay)(Digər sözlər üzrə də bu qayda ilə iş aparılır)*

**IV. M:** "Tapşırıqda şəkillər və şəkillərin üst hissəsində sözlər verilib. Hərflər qırıq xətlər üzrə çəkdikcə həmin söz oxunur. Birinci söz hansıdır? (*ayna*) Ayna şəkli neçəncidir? Onları birləşdirin. Bəs ikinci söz hansıdır? (*ay*) Ay şəkli hansıdır? Onları birləşdirin. Üçüncü söz nədir? (*taya*) Hərfləri xətt üzrə çəkin və sözləri oxuyun. Hansı şəkli birləşdirmədiniz? (*yarpaq*)"

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**9-cu həftə | BİTKİLƏR**

| **Məşğələ 5-6. RİYAZİ VƏ MƏNTİQİ TƏFƏKKÜRÜN İNKİŞAFI**<br>**Mövzu: AZ VƏ ÇOX** | **Standart:** 2.3.2.<br>**İnteqrasiya:** 2.1.5; 1.1.4. |
|---|---|
| **Məqsəd:** | • Az və çox əşyaları düzgün fərqləndirir.<br>• Əşyaları sayına görə müəyyənləşdirir. |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Şəkillər, rəngli karandaşlar. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Uşaqlar, kitabınızın yuxarısındakı şəklə diqqət yetirin. Orada nə təsvir olunub? *(Uşaqların cavabları)* – Tülkü əlində neçə konfet tutub? Bəs qarşısında nə qədər konfet var? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Birinci tapşırığa diqqət yetirin. Çərçivədə müxtəlif sayda təsvirlər verilib. Qırmızı çərçivədə sayı bir olan şəkilləri, yaşıl çərçivədə isə sayı çox olan şəkilləri haşiyəyə alın. Yuxarıda sol tərəfdən birinci çərçivədə nə təsvir olunub? (*göbələk*) Həmin çərçivədəki göbələkləri sayın. Sol tərəfdə neçə göbələk var? *(1)* Bəs onun sağında neçə göbələk təsvir olunub? *(4)* Siz sol tərəfdə hansı sayı haşiyəyə almalısınız? (sayı 1 olanı). 4 çoxdur, yoxsa 1? (Bu qayda ilə bütün şəkillər əhatə olunur.) *(Uşaqların cavabları)* Bütün çərçivələr üzrə bu qayda ilə iş aparılır.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "İkinci tapşırığa baxaq. Burada nə təsvir olunub? Bəli, rəngli dairələr təsvir olunub. Üst tərəfdəki dairələrə baxaq. Birinci dairə nə rəngdədir? *(yaşıl)* Yaşıldan sonra neçə dairənin rəngi qırmızıdır? *(3)* Yenə 1 yaşıl dairə və 3 qırmızı dairə verilib. İndi hansı rəngdə dairə olmalıdır? *(Uşaqların cavabları – yaşıl)* Bəs sonra hansı rəng olmalıdır? *(qırmızı)*. Bəli, uşaqlar, indi isə dairələri ardıcıllığa uyğun rəngləyin. Növbəti dairələri də həmin qaydada rəngləyəcəksiniz".

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

Müəllim uşaqların diqqətini kitabın yuxarısındakı şəklə cəlb edir və nə təsvir olunduğunu soruşur. *(Uşaqların cavabları)* Tülkü penaldan neçə qələm götürüb? Penalda nə qədər qələm var? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Kitabda müxtəlif sayda şəkillər təsvir edilib. Sol tərəfdə təsvir olunanları adlandırın. Qırmızı çərçivədə nə təsvir olunub? *(kök)* Sol tərəfdəki kök neçə dənədir? (3) O biri köklərin sayı neçədir? *(6)* Bunlardan hansı azdır? *(Uşaqların cavabları)* Deməli, hansını haşiyəyə alacaqsınız? *(Sayı az olanı. Yəni 3 kökü)*. Bu qayda ilə bütün təsvirlərlə işləyin.

Tapşırıqları yerinə yetirərkən uşaqların fikirlərini düzgün ifadə etmələrinə nail olmaq lazımdır.

**II. M:** "Şəkildə meşədə göbələk yığan uşaqlar təsvir olunub. Hər uşaq göbələkləri öz səbətinə yığır. Sol tərəfdəki oğlanın səbətində neçə göbələk var? Bəs qız səbətində neçə göbələk yığıb? Ortadakı oğlanın səbətində neçə göbələk var? *(Uşaqların cavabları)* Hansı uşağın neçə göbələk yığdığını sayın. Ən az göbələyi hansı uşaq yığıb? Bəs hansı uşaq ən çox göbələk yığmışdır?" *(Uşaqların cavabları)*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** "Şəkildə çoxlu kaktus təsvir olunub. Kaktuslar haqqında nə bilirsiniz? Kaktuslara diqqətlə baxın. Onların arasından iki eyni olanını tapın və xətlə birləşdirin".

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**9-cu həftə | BİTKİLƏR**

**Məşğələ 7–8. TƏSVİRİ FƏALİYYƏT**
**Mövzu: AĞAC**

**Standart:** 3.1.3; 3.1.4.
**İnteqrasiya:** 1.1.4; 2.2.6.

| | |
|---|---|
| **Məqsəd:** | • Kəsmə-yapışdırma bacarıqları nümayiş etdirir.<br>• Yapma bacarıqları nümayiş etdirir. |
| **İş üsulları:** | Əqli hücum, suallar, söz assosiasiyası, müzakirə. |
| **İş forması:** | Kollektiv və cütlərlə iş. |
| **Resurslar:** | Şəkillər, plastilin, rəngli karandaşlar. |

**1-ci məşğələ**

**Motivasiya**

**M: –** Uşaqlar, ağaclar haqqında nə bilirsiniz? Onun hissələrini sadalayın. *(Uşaqların fikirləri dinlənilir)*

**Dərketmə**

**I. M: –** "Uşaqlar, biz parkda çoxlu ağacların olmasını istəyirik. Parkımız təzə olduğu üçün hələ ağaclar azdır. Gəlin, parkımız üçün ağaclar düzəldək. Siz ağacın hissələrini sadaladınız. İndi nümunəyə diqqətlə baxaq. Ağacın hissələrini bir daha göstərərək sadalayın. (*Yerinə yetirilir)* Biz sizinlə kağızdan ağac düzəldəcəyik". *(Müəllim nümunəni göstərdikdən sonra uşaqların gözü qarşısında izah edə-edə ağacı düzəldir. Sonra uşaqlara cütlük şəklində işləyərək işə başlamağı təklif edir.)* Uşaqlar yerinə yetirirlər. Müəllim qabaqcadan böyük vatman kağızını divara bərkidir. Uşaqlar işi bitirdikdən sonra hazırladıqları ağacları həmin kağıza yapışdırırlar.

–İdman dəqiqəsi–

**Tətbiqetmə**

**II. M:** "Uşaqlar, biz sizinlə **A** və **Y** hərfini öyrənmişik. Onları karandaşla yaza bilirsiniz. Havada əlinizlə **A** və **Y** hərflərini cızın. İndi isə **Y** və **A** hərflərindən istifadə edərək plastilindən **YAY** sözünü yazın. **YAY** sözündə neçə hərfdən istifadə etdiniz? *(Uşaqların cavabları)* **Y** səsi ilə başlayan sözlər söyləyək".

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M:** – Vəsaitin yuxarısındakı şəklə baxın. Orada plastilindən nə düzəldilib? Bəli, kaktus təsvir olunub. Kaktus nədir? Digər bitkilərdən nə ilə fərqlənir? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, siz də plastilindən kaktus düzəldin". *(Müəllim bir nümunəni uşaqlara göstərir. Sonra onların gözü qarşısında izah edə-edə yerinə yetirir və uşaqlara da yerinə yetirməyi təklif edir. Kaktusun tikanlarını kiçik plastilin parçalarından və ya kibrit çöplərindən düzəltmək olar.)*

Bitirdikdən sonra hər bir uşaq öz işi əsasında məlumat verir.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "Vəsaitdə yarpaqlar və xətt üzrə onların saplaqları təsvir olunub. Yarpaqların saplaqlarını xətt üzrə çəkərək yarpağı tamamlayın. Sonra isə yarpaqları rəngləyin".

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| **Məşğələ 9–10. FİZİKİ MƏDƏNİYYƏT**<br>**Mövzu: GÜLLƏRİN DƏRİLMƏSİ** | **Standart:** 1.1.1.<br>**İnteqrasiya:** 4.2.2; 4.1.2. |

| | |
|---|---|
| **Məqsəd:** | • Sərbəst hərəkətlər göstərir.<br>• Hərəki fəallıq nümayiş etdirir. |
| **İş üsulları:** | Müzakirə, süjetli-rollu oyunlar. |
| **İş forması:** | Kollektiv, qruplarla və fərdi iş. |
| **Resurslar:** | Toplar, 1 ədəd ip, stullar, dəf (II məşğələ üçün uşaqların sayı qədər yarpaqlar). |

**1 və 2-ci məşğələ**

**I. İsinmə hərəkətləri** (5 dəq.)

– bir-birinin ardınca yeriş və qaçış;

– qolları yanlarda yuxarı-aşağı yelləməklə pəncə üstə yeriş;

– qollar yanlarda, barmaqları açıb-bükmək və daban üstə yeriş;

– əlləri yuxarı qaldıraraq, nəfəs almaq və nəfəsi buraxmaq (4–5 dəfə).

**II. Ümuminkişafetdirici hərəkətlər** (20 dəq.)

**1. "Gülləri sulayaq"**

ç.v. – qaməti düz saxlamaqla ayaqlar çiyin bərabəri aralı, əllər beldə.

*1–2 sayında* müəllimin *"gülləri sulayaq"* işarəsi ilə sağ qolu dirsəkdən bükülmüş vəziyyətdə sol tərəfə, *3–4 sayında isə* həmin hərəkəti sağ tərəfə təkrar icra etmək (4-5 dəfə).

**2. "Güllər açıb"**

ç.v. – qaməti düz saxlamaqla ayaqlar çiyin bərabəri aralı, qollar yanlarda.

*1 sayında* sallağı oturaraq başı aşağı salınmış vəziyyətdə dizə toxundurmaq, qolları yanlara açmaq; *2–3 sayında* müəllimin "güllər açıb" sözü ilə başı yuxarı qaldırmaq, qolları yanlara açmaq;

*4 sayında* yenidən çıxış vəziyyətinə qayıtmaq (4-5 dəfə).

**3. "Gülləri dərək"**

ç.v. – qaməti düz saxlamaqla ayaqlar çiyin bərabərində aralı qoyub, əlləri beldə saxlamaq.

*1–2 sayında* müəllimin "*dərək"* sözü ilə qolları qabaqdan aşağı endirmək;

*3 sayında* ayağa durub əlləri belə qoymaq;

*4 sayında* çıxış vəziyyətinə qayıtmaq (4-5 dəfə).

**4. "Gülləri göstərək"**

ç.v. – qaməti düz saxlamaqla ayaqlar bir yerdə, əllər yanlarda.

*1 sayında* müəllimin "*güllərimizi göstərək"* işarəsi ilə pəncələr üstə qalxıb "gülləri" yuxarı qaldıraraq onlara baxmaq;

*2 sayında* gövdəni sağ tərəfə döndərib "gülləri" yuxarı qaldırmaq;

*3 sayında* həmin hərəkəti eynilə sol tərəfə icra etmək;

*4 sayında* çıxış vəziyyətinə qayıtmaq (4-5 dəfə).

**5. "Güllərlə qaçaq"**

ç.v. – qaməti düz saxlamaqla ayaqlar çiyin bərabəri aralı, əllər aşağıda. Müəllimin "*qaçaq*" sözü ilə "gülləri" yuxarı tutaraq istiqaməti dəyişməklə bir-birinin ardınca dairə boyunca qaçmaq (4 dəfə).

**Əsas hərəkətlər.**

**Hərəkətli oyun: "Toyuqlar bostanda"**

Otağın bir tərəfində "bostan" müəyyən edilir. Yerə kvadrat şəklində 4 stul qoyulur, ətrafına ip bağlanır. İpi elə bağlamaq lazımdır ki, uşaqlar onun altından keçə bilsinlər. "Bostan"ın yaxınlığında "gözətçinin evi" müəyyən edilir. Müəllim "gözətçini", uşaqlar isə "toyuqları" təmsil edirlər. Müəllim – "bostan gözətçisi" öz evində yaşayır. Uşaqlar – "toyuqlar" isə yavaş-yavaş ipin altından keçib "bostana" girirlər. "Toyuqlar" "bostanda" olan "toxumları eşələyib dənləyir" və qaqqıldaşırlar. Bu zaman "bostan gözətçisi" yuxudan oyanır və "kiş-kiş" edərək əl çalır. "Toyuqlar" "gözətçinin" səsini eşidib meydançanın müxtəlif yerlərinə qaçırlar. "Gözətçi" tutduğu "toyuqları" evinə aparır.

***"Ara qoyaq"***

*ç.v.* – ayaqlar aralı, əllər beldə, dirsəklər arxaya doğru.

*1.* Nəfəsalma – sağ qolu yuxarı qaldıraraq, gövdəni sol tərəfə əymək.

*2.* Nəfəsvermə.

*3.* Nəfəsalma – sol qolu yuxarı qaldıraraq, gövdəni sol tərəfə əymək.

*4.* Nəfəsvermə – çıxış vəziyyətinə qayıtmaq və s.

| Məşğələ 11–12. MUSİQİ<br>Mövzu: BƏNÖVŞƏ | Standart: 3.1.6; 3.1.7; 3.1.8.<br>İnteqrasiya: 2.1.2; 2.2.1; 2.2.2. |
|---|---|
| **Məqsəd:** | • Musiqinin xarakterini və tempini müəyyən edir.<br>• Xorda oxumaq bacarıqları nümayiş etdirir.<br>• Musiqinin ritminə uyğun hərəkətlər yerinə yetirir.<br>• Musiqinin ritminə uyğun zərb musiqi alətlərində və əl çalmaqla müşayiət yaradır. |
| **İş üsulları**: | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması**: | Kollektiv və fərdi iş. |
| **Resurslar** | Kompüter, disk, şəkillər, zərb oyuncaq musiqi alətləri |
| **Musiqi materialı:** | “Marş” (M.Əhmədov), “Lalələr” mahnısı (T.Hacıyev/A.Aslanov), “Bənövşə” mahnısı (S.Rüstəmov/A.Şaiq), “Göbələklər” (Ə.Əzizov/R.Zəka), “Kəpənəyim” (S.Rüstəmov/ M.Seyidzadə), “Kəpənək” (R.Mirişli/T.Mütəllibov), “Güllər” (R.Mustafayev/T.Mütəllibov), “Baharın qızıyam” (Ə.Tağıyev/Z.Ağayeva), ”Çiçəklərin rəqsi” (“Şelkunçik” baleti, P.İ.Çaykovski) |
| **Alternativ material:** | **Dinləmə:** “Qərənfil” (S.Rüstəmov/M.Seyidzadə), “Tapmaca mahnı” (Q.Hüseynli/A.Şaiq)<br>**Mahnı:** “Qərənfil” (O.Zülfüqarov/A.Şaiq), “Çiyələk” (O.Zülfüqarov/T.Mütəllibov), “Ağ kəpənək” (S. Rüstəmov/H. Arif) |

### 1-ci məşğələ

**1. Marş.** M.Əhmədov. “Marş” Uşaqlar musiqinin sədaları altında yerlərində addımlayırlar. Əvvəl ritmik yerişlə yeriyir, sonra yüngül gimnastika hərəkətləri edirlər. Sonda yenidən ritmik yeriməklə yerlərində addımlayırlar və dayanırlar.

**2. Dinləmə.** Müəllim bitkilər aləminin, güllərin musiqidə tərənnüm olunması və bəstəkarların bu mövzuda yazdığı mahnılar haqqında sadə və qısa məlumat verir. Sonra bəstəkar T.Hacıyevin şair A.Aslanovun sözlərinə bəstələdiyi “Lalələr” mahnısını səsləndirir. Bu zaman təbiət, güllər, lalələr mövzusunda şəkil, illüstrasiyalar (videoçarx da olar) nümayiş olunur. Əsəri dinlədikdən sonra müəllim uşaqlara suallarla müraciət edir: – Uşaqlar, dinlədiyiniz mahnı nədən bəhs edirdi? – Mahnı hansı tempdə səsləndi ? – Mahnının tempini dəyişsək, bu, mahnının xarakterinə necə təsir edər? *(Uşaqların cavabları)*

**3. Mahnı.** “Bənövşə” mahnısı (musiqisi S.Rüstəmovun, sözləri A.Şaiqin) şifahi yolla öyrədilir. Müəllim bəstəkar S.Rüstəmov haqqında qısa məlumat verir, onun uşaqlar üçün bəstələdiyi mahnıların adını söyləyir. Sonra “Bənövşə” mahnısının məzmunu haqqında məlumat verərək onu səsləndirir. Uşaqlar dinlədikdən sonra mahnının əvvəl sözləri (şeir mətni) izah olunur, sonra melodiyası hissə-hissə, frazalarla öyrədilir. Tələffüzü çətin olan sözlər (“ç”, “ş”, “z” hərflərinin tələffüzü) və melodiya üzərində iş aparılır. Sonda “Bənövşə” mahnısının öyrənilmiş hissəsi xorla ifa edilir, məzmunu və xarakteri müzakirə olunur.

**4. Musiqili-ritmik hərəkətlər.** “Göbələklər” (mus. Ə.Əzizovun, sözləri R.Zəkanın) mahnısı səsləndirilir. Bir qrup uşaqlar mahnının məzmununu mahnının ritminə uyğun hərəkətləri ilə təsvir etməyə (səhnələşdirməyə) çalışırlar. Bu zaman bəzi uşaqlar mahnının ritmini tutmaqla zərb oyuncaq musiqi alətlərində, qalanları isə əl çalmaqla müşayiət yaradırlar.

Məşğələ ümumiləşdirilərək yekunlaşdırılır.

**Musiqi materialı: “Bənövşə”**

| | | *Nəqarət:* |
|---|---|---|
| Bahar olsa, açaram,<br>Qar-soyuqdan qaçaram.<br>Başqa güllər açanda<br>Mən quş olub uçaram. | Məni dondurmaz ayaz,<br>Ömr edərəm bircə yaz.<br>Ətrim, rəngim gözəldir,<br>Əl vurmayın, ömrüm az. | Bənövşəyəm, bənövşə,<br>Düşmüşəm dilə, dişə.<br>Məni qızlar, oğlanlar,<br>Dərib taxarlar döşə. |

### 2-ci məşğələ

**Marş.** “Marş (M.Əhmədov)
**Mahnı.** “Bənövşə” mahnısı (S.. Rüstəmov/A.Şaiq)
**Səhnələşdirmə.** “Uçmaq istəyən çiçələrin əhvalatı” (resurs: kartondan kəsilmiş müxtəlif güllər)

| № | Musiqi materialı | Fəaliyyət |
|---|---|---|
| 1 | “Kəpənəyim” | Kəpənəklər güllərin arasında “uçuşurlar”. Novruzçiçəyi başını tərpədir. |
| 2, 3 | “Baharın qızıyam” | Lalə qanadlarını tərpədir. Çobanyastığı ləçəklərini fırladır. |
| 4 | “Güllər” | Bütün çiçəklər uçmağa çalışırlar. |
| 5 | “Kəpənək” | Güllər yatırlar. Yuxuda (gözləri bağlı) kəpənəklər kimi uçuşurlar. |
| 6 | “Çiçəklərin rəqsi” | Yuxudan ayılırlar, ətraflarına baxırlar və sevinclə rəqs edirlər. |

| Məşğələ 1. ƏTRAF ALƏMLƏ TANIŞLIQ<br>Mövzu: ZOOPARKDA | Standart: 2.1.4; 2.1.2.<br>İnteqrasiya: 2.2.1; 1.1.4. |
|---|---|
| **Məqsəd:** | • Heyvanlar haqqında danışır.<br>• Heyvanları həyat tərzinə görə fərqləndirir.<br>• Ətyeyən və otyeyən heyvanları sadalayır.<br>• Heyvanların bədən üzvlərini sadalayır. |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Müxtəlif heyvanlar təsvir olunmuş tablo, iş dəftəri və rəngli karandaşlar. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, vəsaitin yuxarısındakı şəkillərə baxaq. Orada nə təsvir olunub? Qəfəsdən hansı heyvanlar buraxılır? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Bəli, bunlar hamısı *heyvan* adlanır. Uşaqlar, heyvanlar dedikdə nə başa düşülür? *(Uşaqların cavabları)* Heyvanlar aləmi çox müxtəlif və zəngindir. Heyvanlar həm xarici və daxili quruluşuna, çoxalma və inkişafına, həm də davranışına görə müxtəlifdir. Bütün heyvanlar hər yerdə – quruda, suda, havada yaşamağa və yaşadıqları mühitə uyğunlaşmışdır. Hava həyat tərzi (uçmaq həyatı) ilə əlaqədar quşlarda, yarasalarda, cücülərdə qanadlar inkişaf etmişdir. Suda yaşayan heyvanlarda isə sürüşkən bədən forması, üzgəcləri (balıqlarda) olur. Ona görə də heyvanın xarici quruluşuna görə onun hansı mühitdə yaşadığını, necə hərəkət etdiyini və qidasını necə tapdığını müəyyən etmək mümkündür.

Yer üzündə müxtəlif növ heyvan yaşayır. Onların bir qismi bitki, digər qismi isə ətlə qidalanır. Bir qismi suda, digəri quruda yaşayır; məsələn, balıqlar suda yaşayır. Onlar qəlsəmələri ilə tənəffüs edirlər. Dərilərinin üzəri, adətən, pulcuqlarla örtülü olur. Bədən forması çox müxtəlifdir. Quşların bədəni isə tüklə örtülü olur. Onların dimdiyi və lələkləri olur. Ayaqlarında olan dırnaqlarına caynaq deyilir. Quşların qanadları olur. Onlar qanadları vasitəsilə uçurlar. Yırtıcı heyvanlar ətlə qidalanırlar. Onların pəncələri çox güclü olur. Onlar pəncələrinin köməyi ilə həm möhkəm qaçır, həm də ovunu parçalayır. Elə vəhşi heyvanlar var ki, onlar otyeyən heyvanlardır. Hansı otyeyən vəhşi heyvan tanıyırsınız? *(Uşaqların cavabları)* Siz heç fil görmüsünüz? *(Uşaqların cavabları)* Uşaqlar, fillər də bitkilərlə qidalanırlar. Onlar yeməyi xortumları vasitəsilə götürüb ağızlarına qoyurlar. Quruda yaşayan heyvanların bəzisinin qısa, bəzisinin isə uzun quyruqları olur. Cücülər – planetimizdə ən çox, saysız-hesabsız olan canlılardır. Həşəratlar torpaqda, otların içində, ağaclarda, evlərdə və s. kimi yerlərdə yaşayırlar. Bir çox heyvan və quşlar onları qida kimi yeyirlər."

**II. M:** – Şəkildə hansı heyvanlar təsvir olunub?

– Hansı heyvanları canlı görmüsünüz? Ən çox sevdiyiniz heyvan hansıdır? *(Uşaqların cavabları)*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** "Şəkildə müxtəlif heyvan və cücü şəkilləri təsvir olunub. Mən təsvirlərdən birinin adını çəkəcəyəm. Siz adı çəkilən təsviri tapıb, uyğun rəngli karandaşla haşiyəyə alın. Dəniz heyvanlarını mavi, quşları qırmızı, həşəratları sarı, quruda yaşayan heyvanları isə yaşıl karandaşla haşiyəyə alın. Bir daha dəqiqləşdirək. Suda yaşayan heyvanlar hansılardır? Quşlar hansılardır? və s."

**IV. M:** "Şəkildə uçan, qaçan, sürünən və üzən heyvanlar təsvir olunub. Hər birini adlandırın və onların necə hərəkət etdiklərini, harada yaşadıqlarını söyləyin".

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| | **10-cu həftə \| HEYVANLAR** |
| **Məşğələ 2. BƏDİİ TƏFƏKKÜRÜN İNKİŞAFI**<br>**Mövzu: ŞİR VƏ SİÇAN** | **Standart:** 2.2.2; 2.2.1.<br>**İnteqrasiya:** 2.1.3; 1.1.4. |
| **Məqsəd:** | • Bədii nümunə əsasında danışır.<br>• Dinlədiyi fikirləri anladığını nümayiş etdirir.<br>• Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir. |
| **İş üsulları**: | Nağıletmə, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Hekayənin mətni, şəkillər, rəngli karandaşlar. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, şəkillərə diqqətlə baxın. Şəkildə təsvir olunanlara diqqət yetirin və onları adlandırın. *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Mən indi sizə şəkildə təsvir olunan personajlarla bağlı "Şir və Siçan" nağılını söyləyəcəyəm. Şəkillərə baxa-baxa nağılı dinləyin. Hər şəkil mətnin bir hissəsini təsvir edir. Mən deyəndə dinlədiyiniz hissəyə uyğun şəkli tapın və altındakı dairəni rəngləyin".

1

"Günlərin bir günü qoca Şir ağacın altında yatmışdı. Bir Siçan onun üstünə çıxıb oyan-buyana qaçmağa başladı".

**M:** – "Dinlədiyiniz hissəyə uyğun şəkli tapıb işarə edin. Müəllim oxumağa davam edir.

2

"Şir oyanıb Siçanı tutdu. Siçan yalvarmağa başladı. O, Şirə dedi:

– Əgər məni buraxsan, sənə yaxşılığım dəyər.

Şir Siçanın sözlərinə gülüb dedi:

– Bu balaca canınla mənə necə kömək edəcəksən?

Amma Siçana yazığı gəldi, ona dəyməyib azadlığa buraxdı".

**M:** – "Uşaqlar, oxuduğum hissəni müəyyənləşdirib işarə edin".

Müəllim oxumağa davam edir.

3

"Bir gün Şir tələyə düşdü. Nə qədər çalışdısa, torun iplərini qıra bilmədi. Acıqlanmış Şir var gücü ilə nərildədi. Şirin səsi bütün meşəyə yayıldı".

**M:** – "Uşaqlar, oxuduğum hissəni müəyyənləşdirib işarə edin".

Müəllim oxumağa davam edir.

4

"Şirin nəriltisini eşidən Siçan özünü ona yetirdi. Torun iplərini gəmirməyə başladı".

**M:** – Uşaqlar, dinlədiyiniz hissəyə uyğun şəkli tapıb işarə edin."

Müəllim oxumağa davam edir.

5

"Nəhayət, Şir canını tordan qurtarıb Siçana dedi: – O vaxt mən sənin sözlərinə güldüm. Ancaq, sən demə, Siçanın da Şirə köməyi dəyərmiş".

**M:** – *"Uşaqlar, şəkillərə diqqətlə baxıb, dinlədiyiniz hissəyə uyğun şəkli tapıb işarə edin".*

—İdman dəqiqəsi—

**II.** Müəllim uşaqlara suallarla müraciət edir: – Şir siçanı niyə buraxdı? – Siçan Şirə necə kömək etdi? – Kiçiklər böyüklərə necə kömək edə bilər?

**Tətbiqetmə**

**III. M:** – Uşaqlar, şəkillərə diqqətlə baxın. Ardıcıllığı müəyyən edərək uyğun rəqəmləri yazın. Sonra həmin ardıcıllığa əsasən nağılı söyləyin.

**IV. M:** – Şəkillərə diqqətlə baxın, başqa hansı heyvanların bir-birinə necə kömək etdiyi haqqında danışın.

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| Məşğələ 3–4. SAVAD TƏLİMİNƏ HAZIRLIQ VƏ NİTQ İNKİŞAFI<br>Mövzu: S (s) Ş (ş) SƏSİ VƏ HƏRFİ | Standart: 2.2.4.<br>İnteqrasiya: 1.1.4. |
|---|---|

| | |
|---|---|
| **Məqsəd:** | • **S** (**s**) və **Ş** (**ş**) səsini və hərfi fərqləndirir.<br>• **S** (**s**) və **Ş** (**ş**) səsinin işləndiyi sözlər söyləyir.<br>• Xətt üzrə **S** (**s**) və **Ş** (**ş**) hərfini çəkir. |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi. |
| **Resurslar:** | Şəkillər, karandaşlar, marker, **S** (**s**) və **Ş** (**ş**) hərfi. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** "Səhifənin yuxarısındakı şəklə baxaq. Şəkildə nə təsvir olunub? *(Uşaqların cavabları)*

– Bilirsiniz ki, söylədiyimiz hər bir söz yazılarkən hərflərdən istifadə edilir. Mən sizə bir şeir deyəcəyəm. Dinləyin:

*Saatsaz saatları, Aşıq sazı sazladı. Saatlar işləməyə, Aşıq sözə başladı".*

**M: –** *Uşaqlar, şeirdə* **saatsaz, saat, saz, söz, sazlamaq** sözlərindən istifadə edilib. Gəlin bu sözləri birlikdə bir daha təkrar edək. Bu sözlər hansı səslə başlayır?" *(Uşaqların cavabları)*

**Dərketmə**

**M:** "**S** hərfindən də digər hərflər kimi sözləri yazanda istifadə olunur. Uşaqlar, sarı qutuya diqqətlə baxaq. Burada **Ss** hərfi təsvir olunub. **S** hərfi nəyə bənzəyir?" *(Uşaqların cavabları) (Qarmağa)*

**M:** "Gəlin bir daha xatırlayaq. Hərfi yazırıq və görürük. Səsi isə tələffüz edirik və eşidirik." Məsələn, biz sizinlə keçən məşğələmizdə **Y** səsini və hərfini öyrənmişik. Mən indi deyirəm **Y**, siz eşidirsiniz. Bu, **Y** səsi olur. İndi isə lövhədə yazıram. Bu, hansı hərfdir? Bəli, bu **Y** hərfidir. Hərfi yazırıq, görürük, eşidirik. *(Müəllim bunu nümunələr üzərində izah edir)*

**I. M:** "Burada böyük və kiçik **S** hərfi təsvir olunub. Hərfin kənarında isə şəkillər var. Sol tərəfdə yuxarıda nə təsvir olunub? *(Uşaqların cavabları) Saat* sözü hansı səslə başlayır? Bəs sağda yuxarıda nə təsvir olunub? *Siçan* sözü hansı səslə başlayır? *(Uşaqların cavabları)* Hər şəkildə nə təsvir olunduğunu adlandırın, bu sözün hansı səslə başlandığına diqqət edin".

**S hərfinin rənglənməsi.**

**II.** Müəllim lövhədə **S** hərfini izah edə-edə yazır. Bir neçə uşaq da lövhədə tapşırığı yerinə yetirir.

**M:** "Kənara çıxmadan **S** hərfini xətt üzrə çəkin. Oxun istiqamətinə diqqət edin. Həm böyük, həm də kiçik **s** hərfinin yazılışı eynidir."

Uşaqlar vəsaitdə xətt üzrə **S** hərfini çəkirlər.

**M:** "Uşaqlar, **S** hərfinin ətrafında şəkillər təsvir olunub. **S** hərfinin hər tərəfində neçə şəkil təsvir olunub? Sol tərəfdəki şəkildə təsvir olunanları adlandırın. Sağ tərəfdə təsvir olunanları bir-bir adlandırın. Söz **S** səsi ilə başlayırsa, həmin şəkli **S** hərfi ilə birləşdirin"

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**M:** "Uşaqlar, biz keçən məşğələmizdə hansı hərfi öyrənmişdik? *(Uşaqların cavabları)* Bu gün hansı hərfi və səsi öyrəndik? Hərflərin içərisindən **S** hərfini götürüb lövhəyə qoyun". *(Uşaqlar yerinə yetirir.)*

**III. M:** "Uşaqlar, kitabınızın yuxarısında sözlər yazılıb. Yazılan sözlər nədən ibarət olur? *(hərflərdən)* Diqqətlə baxıb həmin hərfləri adlandırın və yerləşdiyi xananı nümunəyə uyğun rəngləyin. Rənglədikdən sonra sözü oxuyun. Nə yazılıb? *(saat)* Saat sözü hansı səslə başlayır? Bəs ikinci sətirdə hansı söz yazılıb? *(səməni)* Səməni sözündə birinci hansı hərf yazılıb?" *(Uşaqların cavabları)*

**IV. M:** "Burada hərfin həm böyük, həm də kiçik forması verilib. İndi isə kənara çıxmadan hərfləri xətt üzrə çəkin. I tapşırıqdakı oxun istiqamətinə diqqət edin".

**V. M:** "Şəkildə nə təsvir olunduğunu söyləyin. Şəklin üst tərəfində sözlər yazılıb. Hərfləri nöqtədən başlayaraq, xətt üzrə çəkin və sözləri oxuyun. Sözləri uyğun şəkillə birləşdirin. Birinci hansı şəkildir? Nə təsvir olunub? Onu hansı sözlə birləşdirmək lazımdır? *(səbət sözü ilə)*. İndi isə ikinci sözü oxuyun. Nə yazılıb? *(saat)* Onu hansı şəkillə birləşdirmək lazımdır?" *(saat şəkli ilə) (Uşaqların cavabları)*

**VI. M:** "Hər şəkildə nə təsvir olunduğunu bir-bir söyləyin. Birinci şəkildə nə təsvir olunub? *(moruq)* Sözün hansı səslə başlandığını müəyyən edin, həmin hərfi altında yazın. *Moruq* sözü hansı səslə başlayır? *(M səsi ilə)* Biz indi həmin şəklin altında həmin hərfi yazmalıyıq. Hansı hərfi yazırıq? *(M) (Bu qayda ilə bütün hərflər müəyyənləşdirilir.)* Alınmış sözü oxuyun. Hansı söz alındı? *(masa) (Uşaqların cavabları). (Bu qayda ilə dörd şəkil üzrə iş aparılır.)*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M:** "Səhifənin yuxarısındakı şəklə baxaq. Şəkildə nə təsvir olunub? *(Uşaqların cavabları)*

Lövhədə böyük **S** hərfi ilə bərabər, **Ş** hərfi də ya asılır, ya da proyektorla ekrana salınır. Verilmiş əlifbanın hərflərinin arasından **S** hərfi götürülərək, lövhəyə qoyulur. **S** səsinin birlikdə və tək-tək tələffüz edilməsi üzrə iş aparılır. Müəllim uşaqların diqqətini **Ş** hərfinə yönəldərək deyir:

– Uşaqlar, biz sizinlə **S** hərfinin də həm böyük, həm də kiçik formasını öyrənmişik.

**Dərketmə**

**I. M:** "Bu gün biz sizinlə yeni səs və hərflə tanış olacağıq. Əvvəlcə səslə hərfin fərqini xatırlayaq. *(Səsi tələffüz edirik və eşidirik. Hərfi isə yazırıq, görürük və oxuyuruq.)* Mən indi sizə şeir söyləyəcəyəm. Dinləyin.

*Şamil şamları*
*Qoydu şamdana.*
*Çərşənbə günü*
*Qalsın axşama.*

**M:** "Uşaqlar, şeirdə *Şamil, şam, şamdan* sözlərini eşitdiniz. Mən bir daha tələffüz edirəm. Bu sözlər hansı səslə başlayır? *(Uşaqların cavabları)* Bəli, **ş** səsi ilə. Bu gün sizinlə **Ş** səsi ilə tanış olacağıq. **Ş** səsi fışıltı ilə tələffüz olunur. Gəlin birlikdə **Ş** səsini tələffüz edək *(Uşaqlar tələffüz edirlər).*

**M:** – Külək yavaş-yavaş əsəndə ağacların yarpaqları necə səslənir? *(Ş... Ş... Ş.)* – Süd daşanda da fışıldayır**: Ş… Ş…Ş.** – Bəs kənddə meşədən axan kiçik çay necə səslənir? *(Şırıldayır: şşş)* – Siz **ş** səsi ilə sözlər söyləyə bilərsiniz? " *(Uşaqların cavabları)* (*Müəllim hərflərin arasından **Ş** hərfini çıxarıb, lövhəyə qoyur.*)" Uşaqlar, bu, **Ş** hərfidir. **Ş** hərfinın yazılışı **S** hərfinə oxşayır. Ancaq aşağıda kiçik xəttin olması onları fərqləndirir. **Ş** hərfinin də böyük və kiçik formasının yazılışı **S** hərfində olduğu kimi eynidir. Kitabınızda **Ş** hərfi və onun sağında şəkillər təsvir olunub. Şəkilləri adlandırın *(şəkərbura, şam, şir).* Bu sözlərdən hansı **Ş** səsi ilə başlayır?" *(Uşaqların cavabları)*"

**II. M:** "Şəkildə hərflər yazılmış pazllar təsvir olunub, hərfləri adlandırıb pazlları nümunəyə uyğun rəngləyin. Böyük və kiçik hərfləri göstərin. *(Uşaqların cavabları)*

**M:** "Uşaqlar, **S** hərfi kimi **Ş** hərfinin kiçik formasının yazılışı da böyük hərflə eynidir".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** "Oxun istiqamətinə diqqət edin. Xətt üzrə **Ş** və S hərflərinin həm böyük, həm də kiçik formasını yazın. Hərflərin solunda və sağında şəkillər təsvir olunub. Şəkillərdə nə təsvir olunduğunu söyləyin. Birinci şəkildə nə təsvir olunub? *(sincab)* Həmin şəkli hansı hərflə birləşdirmək lazımdır? *(**S** hərfi ilə).* Bəs ikinci şəkildə nə təsvir olunub? *(şəkərbura)* Şəkərbura şəklini hansı hərflə birləşdirmək lazımdır?" *(**Ş** hərfi ilə) (Uşaqların cavabları)* Digər şəkillər üzrə iş də bu qayda ilə aparılır.

**M:** "Burada həm böyük, həm də kiçik hərflər yazılıb. Yazılışından asılı olmayaraq, sözün mənası dəyişmir". Müəllim **Ş** səsi ilə başlayan sözlər söyləməyi uşaqlara təklif edir. *(Uşaqların cavabları)*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| | **10-cu həftə \| HEYVANLAR** |
| **Məşğələ 5-6. RİYAZİ VƏ MƏNTİQİ TƏFƏKKÜRÜN İNKİŞAFI**<br>**Mövzu: İLK, NÖVBƏTİ, SONUNCU** | **Standart:** 2.3.2; 2.3.4.<br>**İnteqrasiya:** 2.2.2; 1.1.4. |

| | |
|---|---|
| **Məqsəd:** | • 10 dairəsində say bacarıqları nümayiş etdirir.<br>• Sağ və sol tərəfləri müəyyən edir.<br>• Saya görə ardıcıllığı müəyyənləşdirir. |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Şəkillər, rəngli karandaşlar. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Səhifənin yuxarısındakı şəklə baxaq. Orada nə təsvir olunub? Növbədə hansı heyvanlar dayanıb? Onlardan kim dondurmanı birinci, kim sonuncu alacaq? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** “Bəli, Tülkü sonuncu alacaq. Kitabınızda birinci tapşırığa diqqət yetirin. Kitabda dağa dırmaşan alpinistlər təsvir olunub. Onlar neçə nəfərdirlər? *(Uşaqların cavabları)* Alpinistlərdən hansının birinci olduğunu tapın və qırmızı karandaşla haşiyəyə alın. İndi isə sonuncu olanı tapın və göy karandaşla haşiyəyə alın. Dağa birinci dırmaşanla sonuncu dırmaşanın arasında olanları müəyyənləşdirin.”

**II. M:** “Şəklin 1-ci sırasında begemotlar təsvir olunmuşdur. Burada neçə begemot təsvir olunub? *(Uşaqların cavabları)* Birinci və sonuncu begemotu müəyyənləşdirin və rəngləyin. Birinci ilə sonuncu begemotun arasında neçə begemot var? *(Uşaqların cavabları)* Bəs 2-ci sırada neçə tısbağa təsvir olunmuşdur? *(Uşaqların cavabları)* (4) Birinci və sonuncu gedən tısbağaları müəyyənləşdirib rəngləyin.”

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** “Bu tapşırığımızda şarlar təsvir olunub. Neçə şar təsvir olunub? *(6)* Bəzi şarlar rənglənməyib. Neçə şar rənglənməyib? *(2)* Ardıcıllığı müəyyən edin və onları ardıcıllığa uyğun rəngləyin”.

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

Müəllim uşaqlara saymacanı söyləməyi təklif edir:

*1–2: bizimki, 3–4: Qapını ört. 5-6: Daşaltı, 7–8: Firəngiz. 9–10: Qırmızı don.*

**M:** – Uşaqlar, saymacada neçəyə qədər sayılır? Gəlin 10-a qədər sayaq. *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** “Birinci tapşırıqda yol ilə maşınlar ardıcıllıqla gedir. Neçə maşın gedir? *(Uşaqların cavabları)* Birinci maşını sarı, sonuncu maşını yaşıl, sondan ikinci maşını qırmızı karandaşla rəngləyin (*Uşaqlar icra etdikdən sonra suallar verilir*) Qırmızı maşın neçəncidir? Yaşıl maşın neçəncidir? *(Uşaqların cavabları)*

**II.** M: “Ördəklər sıra ilə düzülərək gölə gedirlər. Əlində çətir tutan ördək neçəncidir? Tüklərinə iki lent bağlamış ördək neçəncidir? Əlində zənbil tutan ördək neçəncidir? Ördəklərdən hansı gölə birinci çatacaqdır? Bəs ən axırıncı hansı ördək çatacaqdır?” *(Uşaqların cavabları)*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** “Adamlar kassada növbəyə dayanıblar. Növbədə kim birincidir? Hər kəsin növbəsini söyləyə bilərsinizmi? Kassaya sonuncu kimin növbəsidir?” *Bütün tapşırıqlar bu şəkildə işlənilir.*

**IV. M**: “Uşaqlar, ayı ilə tısbağa yarışa giriblər. Onlardan hansı finiş xəttinə birinci, hansı sonuncu çatacaq? Nə üçün?” *(Uşaqların cavabları)* Bu zaman ayının tısbağaya nisbətən daha tez qaça biləcəyi də müzakirə oluna bilər.

**V.** M: “Şəkildə şarlar təsvir olunub. Birinci sıradakı şarlardan neçəsi rənglənməyib? Şarlar hansı rənglə rənglənmişdır? Bəs ikinci sırada neçə şar təsvir olunub? Burada hansı rənglərdən istifadə olunub? Rənglərin ardıcıllığını müəyyən edin və növbəti şarı ona uyğun rəngləyin”.

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| | **10-cu həftə \| HEYVANLAR** |
| **Məşğələ 7–8. TƏSVİRİ FƏALİYYƏT**<br>**Mövzu: HEYVANLARI ÇƏKƏK** | **Standart:** 3.1.4; 3.1.2.<br>**İnteqrasiya:** 1.1.4; 2.2.6. |

| | |
|---|---|
| **Məqsəd:** | • Rəsmetmə və yapma bacarıqları nümayiş etdirir.<br>• Heyvanın bədən hissələrini düzgün yerləşdirir.<br>• Nitqində əlamət bildirən sözlərdən istifadə edir. |
| **İş üsulları**: | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Kağızlar, plastilin, rəngli karandaşlar. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Uşaqlar, heyvanlar haqqında nə deyə bilərsiniz? Heyvanların bədən hissələrini sadalayın. *(Uşaqların fikirləri dinlənilir).*

**Dərketmə**

**I. M:** “Uşaqlar, biz sizinlə müxtəlif heyvanlar və quşlar haqqında danışmışıq. Gəlin bildiklərimizi bir daha xatırlayaq. (*Yerinə yetirilir)* Heyvanlar hansı bədən üzvləri vasitəsilə hərəkət edirlər? *(Uşaqların cavabları*) Biz sizinlə tırtıl şəkli çəkəcəyik”. Müəllim uşaqlara hazır nümunəni göstərir, ardınca izah edə-edə tırtılın hissələrini çəkir və sonra rəngləyir.

Sonra da uşaqlara nümunəyə əsasən işə başlamağı təklif edir. Müəllim uşaqlara tırtılın bədən hissələrini ardıcıllığı gözləməklə, çəkməyi tapşırır. Belə ki, əvvəlcə heyvanın başını, sonra bədənini, başında gözlərini və digər hissələrini çəkməyi və sonda rəngləməyi təklif edir. Müəllim məşğələ prosesində uşaqlara fərdi yanaşmalı, zərurət yaranarsa, istiqamətləndirməlidir.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "Uşaqlar, biz sizinlə **Ş** hərfini öyrənmişik. Onu karandaşla yaza bilirsiniz. Havada əlinizlə **Ş** hərfini cızın. **Ş** hərfi nəyə bənzəyir? *(Uşaqların cavabları)* İndi isə plastilindən **ŞAM** sözünü düzəldin. Siz əvvəlki məşğələlərimizdə digər hərfləri öyrənmisiniz". Müəllim uşaqlara **Ş** səsi ilə sözlər söyləməyi təklif edir.

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M:** – Uşaqlar, siz keçən məşğələmizdə nə çəkmişdiniz? *(Uşaqların cavabları)* İndi isə siçan şəkli çəkəcəyik. Siçan bədəninin hissələrini söyləyin. Heyvanların qanadı var? Onlar uça bilirmi? *(Uşaqların cavabları dinlənilir.)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, siçanlar harada yaşayırlar? Onlara nə üçün gəmirici deyirlər? *(Uşaqların cavabları)* Biz sizinlə siçan şəkli çəkəcəyik". Müəllim uşaqlara hazır nümunəni göstərir, ardınca izah edə-edə siçanın hissələrini çəkir və sonra rəngləyir. Düzəldərkən uşaqlara suallarla müraciət edir. Bütün uşaqların əhatə olunmasını təmin etməlidir. İzahdan sonra nümunəyə əsasən işə başlamağı uşaqlara təklif edir.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "Siçanın quyruğunu çəkin və siçanı rəngləyin.

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**10-cu həftə | HEYVANLAR**

| | |
|---|---|
| **Məşğələ 9–10. FİZİKİ MƏDƏNİYYƏT**<br>**Mövzu:** BOZ QURD | **Standart:** 1.1.1; 1.1.2.<br>**İnteqrasiya:**. 4.2.2. |

| | |
|---|---|
| **Məqsəd:** | • Yerində, uzununa doğru tullanır.<br>• Topu yerə vuraraq irəliləyir.<br>• Hərəkətlərin koordinasiyasını nümayiş etdirir. |
| **İş üsulları**: | Müzakirə, süjetli-rollu oyunlar. |
| **İş forması**: | Kollektiv, qruplarla və fərdi iş. |
| **Resurslar:** | Toplar, qaval, tir. |

**1 və 2-ci məşğələlər**

**I. İsinmə hərəkətləri** (5 dəq.)
– bir-birinin ardınca yeriş;
– ayaqlar çiyin bərabərində aralı, əllər beldə, çiyinləri qulaqlara doğru qaldırıb-salmaq;
– ayaqlar çiyin bərabərində aralı, əllər beldə, qolları əvvəlcə sağa, sonra isə sola doğru dönərək yanlara açmaq;
– ayaqlar çiyin bərabərində aralı, əllər beldə qolları yanlara açmaq və sinə qarşısında əl çalmaq;
– ayaqlar bir yerdə, əllər beldə, qolları yuxarı qaldıraraq nəfəs almaq və nəfəsi buraxmaq (4–5 dəfə).

**II. Ümuminkişafetdirici hərəkətlər** (20 dəq.)
***(Əşyalarsız)***

**1. "Qolları irəliyə-geriyə hərlət".**
ç.v. – ayaqlar çiyin bərabəri aralı, qollar yanlarda.
*1 sayında* sol əl beldə, sağ qolu dirsəkdən bükmədən dairəvi hərlətmək;
*2 sayında* çıxış vəziyyətini almaq.
*3 sayında* isə sağ əl beldə, sol qolu dirsəkdən bükmədən dairəvi hərlətmək.
*4 sayında* çıxış vəziyyətinə qayıtmaq (5-6 dəfə).

**2. "Əl çalmaq"**
ç.v. – ayaqlar çiyin bərabəri aralı, qollar yanlarda.
*1 sayında* qolları yanlardan qabağa gətirərək əl çalmaq;
*2 sayında* çıxış vəziyyətini almaq.
*3 sayında* qolları dirsəkdən bükmədən yuxarıda əl çalmaq;
*4 sayında* çıxış vəziyyətinə qayıtmaq (5-6 dəfə).

**3. "Başı döndərmək".**
ç.v. – ayaqlar çiyin bərabəri aralı, əllər boyun arxasında.

*1 sayında* əlləri boyun arxasında çarpazlayaraq başı gövdə ilə birlikdə sağ tərəfə döndərmək;
*2 sayında* çıxış vəziyyətini almaq.
*3 sayında* hərəkəti sol tərəfə eynilə təkrar icra etmək;
*4 sayında* çıxış vəziyyətinə qayıtmaq (5-6 dəfə).

**4. "Ayağını qucaqla".**

***ç.v.*** – yerə oturmaq. Ayaqları irəli uzadaraq çiyin bərabəri aralı, əllər yanlarda.
*1 sayında* sağ ayağı dizdən büküb sinə qarşısında saxlamaqla onu iki əllə qucaqlamaq;
*2 sayında* çıxış vəziyyətini almaq.
*3 sayında* sol ayağı dizdən büküb sinə qarşısında saxlamaqla onu iki əllə qucaqlamaq;
*4 sayında* çıxış vəziyyətinə qayıtmaq (5-6 dəfə).

**5. "Qoy və götür".**

ç.v. **–** oturub ayaqları irəli uzadaraq, azca aralı qoymaq.
*1 sayında* əyilərək əlləri sağ ayağın barmaqlarına çatdırmaq;
*2 sayında* əyilərək çıxış vəziyyətini almaq.
*3 sayında* əlləri sol ayağın barmaqlarına çatdırmaq;
*4 sayında* çıxış vəziyyətinə qayıtmaq (5-6 dəfə).

**6. "Hoppanma".**

ç.v. – Ayaqlar bir yerdə, əllər boyun arxasında. Sallağı oturaraq yerində hoppanmaq. Hoppanmanı yerişlə əvəz etmək (2 dəfə).

**Əsas hərəkətlər.**

**Hərəkətli oyun: "Boz qurd"**

Çəmənliyin bir tərəfində "qurdun" yuvası, başqa bir tərəfində isə "keçi balalarının evi" təyin edilir. Uşaqlardan biri "qurdu" təmsil edərək öz "yuvasında" oturur. Qalan uşaqlar isə "keçi balalarını" təmsil edirlər. "Keçi balaları" çəmənlikdə otlayır. Müəllimin "keçi balaları çəmənlikdə otlayır" deməsində sonra "qurd" "keçi balalarının" üstünə atılıb, onları tutmağa başlayır. "Keçi balaları" evlərinə qaçırlar. "Qurd" tutduğu "keçi balasını" yuvasına aparır. Tutulan "keçi balaları" oyun qurtarana kimi, "qurdun" yuvasında qalırlar. "Qurd" 23 "keçi balasını" tutduqdan sonra oyun qurtarır. Yeni "qurdun" seçilməsi ilə oyun yenidən təkrar edilir.

**III. Sakitləşdirici hərəkətlər** (5 dəq.)

**"Delfin üzür"**

ç.v. – Ayaqlar aralı, qollar yanlarda aşağı salınmış vəziyyətdə.
*1.* Nəfəsalma – qabağa əyilmək, sağ yumruqla sol dizə toxunmaq;
*2.* Nəfəsvermə – çıxış vəziyyətini almaq.
*3.* Nəfəsalma – qabağa əyilmək, sol yumruqla sağ dizə toxunmaq;
*4.* Nəfəsvermə – çıxış vəziyyətinə qayıtmaq.

**10-cu həftə | HEYVANLAR**

| | |
|---|---|
| **Məşğələ 11–12. MUSİQİ**<br>**Mövzu: AYI** | **Standart**: 3.1.7; 3.1.8; 3.1.9.<br>**İnteqrasiya:** 2.2.2; 4.2.2. |

| | |
|---|---|
| **Məqsəd:** | • Musiqinin xarakterini və tempini müəyyən edir.<br>• Xorda oxumaq bacarıqları nümayiş etdirir.<br>• Musiqinin ritminə uyğun əl və ayaq hərəkətləri yerinə yetirir. |
| **İş üsulları**: | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması**: | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Kompüter, disk, şəkillər. |
| **Musiqi materialları:** | "Marş" (M.Əhmədov), "Kəpənək" mahnısı (R.Mirişli/R.Zəka), "Ayı" mahnısı (M.Əhmədov/C.Məmmədov)**,** "Dağ Kralının mağarasında ("Per Günt" süitası, E.Qriq), "Ot ulibki" mahnısı, V.Şainski. |
| **Alternativ material** | **Dinləmə:** "Kəpənək və güllər" (R.Şəfəq/M.Namaz), "Kəpənəyim" (S.Rüstəmov /M Seyidzadə), "Ağ kəpənək" (S.Rüstəmov/H. Arif), "Sərçə"(O.Zülfüqaov/ T.Elçin)<br>**Mahnı:** "Maral" (S. Rüstəmov/M. Seyidzadə), "Dələ" (O. Zülfüqarov/Z.Xəlil), "Mənim dovşanım" (Q.Hüseynli/Y.Həsənbəy) |

**1-ci məşğələ**

**1. Marş.** M. Əhmədov. "Marş".

**2. Dinləmə.** Müəllim "Kəpənək" mahnısı (musiqisi R.Mirişlinin, sözləri R.Zəkanın), onun müəllifləri, məzmunu, xarakteri və s. haqqında qısa məlumat verir. Onun izahı zamanı dinləniləcək əsərə aid şəkil və illüstrasiyalar da nümayiş etdirilir. Sonra "Kəpənək" mahnısı səsləndirilir. Əsəri dinlədikdən sonra müəllim

uşaqlara suallarla müraciət edir: – Uşaqlar, mahnıda nədən bəhs olundu?

– Mahnı hansı xarakterdə və tempdə idi? – Mahnı vəhşi heyvanlardan bəhs edə bilər?

**3. Mahnı.** "Ayı" mahnısı (musiqisi M.Əhmədovun, sözləri C.Məmmədovun) şifahi yolla öyrədilir. Müəllim bəstəkar M.Əhmədov haqqında qısa məlumat verir, onun uşaqlar üçün bəstələdiyi mahnıların adını söyləyir. Sonra "Ayı" mahnısının məzmunu haqqında qısa məlumat verərək onu səsləndirir. Uşaqlar dinlədikdən sonra mahnı hissə-hissə, frazalarla öyrədilir. Tələffüzü çətin olan sözlər və melodiya üzərində iş aparılır. Sonda "Ayı" mahnısının öyrənilmiş hissəsi xorla ifa edilir, məzmunu və xarakteri müzakirə olunur.

**4. Musiqili-ritmik hərəkətlər.** "Kəpənək" mahnısı təkrar səsləndirilir. Uşaqlar musiqinin sədaları altında musiqinin tempinə və ritminə uyğun əl və ayaq hərəkətləri yerinə yetirirlər. Mahnının bəndlərində birinci misranın ("Yenə də uçursan hayana?") ritmi əl çalmaqla göstərilir. "Hayana" sözü təkrarlananda isə uşaqlar ayaqları ilə yerində ritmə uyğun addımlayırlar. Qalan misralarda da musiqinin ritmi əl və ayaqla tutulur.

Məşğələ ümumiləşdirilərək yekunlaşdırılır.

**Musiqi materialı: "Ayı"**

| | | |
|---|---|---|
| Yol verin, ayı gəlir,<br>Qocalmış dayı gəlir.<br>Qıztək örtmüş başına<br>Ağ kəlağayı gəlir. | Əlində var çomağı,<br>Qarşılayaq qonağı.<br>Başlayaq onunla biz<br>Oynayıb oxumağı. | Mənim ayım; öz ayım,<br>Sən, ey qaragöz ayım,<br>Nə yaxşı oynayırsan,<br>Olmaz sənə söz, ayım. |

**2-ci məşğələ**

**Marş.** "Marş (M.Əhmədov)
**Mahnı.** "Ayı" mahnısı (M.Əhmədov/C.Məmmədov)
**Səhnələşdirmə.** "Şir və Siçan" (resurs: şir, siçan maskası, tor parçası, kol və ya budaq).

| № | Musiqi materialı | Fəaliyyət |
|---|---|---|
| 1 | "Dağ kralının mağarasında" | Şir yatır, Siçan astaca ona yaxınlaşır və onun ətrafına firlanır. |
| 2 | "—" | Şir Siçanın quyruğundan tutur. Siçan çapalayır və yalvarır. Şir Siçanı buraxır. |
| 3 | "—" | Şir tor içində çapalayır və ondan qurtulmağa çalışır, nərildəyir. |
| 4 | "—" | Siçan nəriltini eşidir, qaçaraq toru gəmirir və Şiri tordan azad edir. |
| 5 | "Ot ulıbki" | Şir və Siçan əl-ələ tutub gedirlər. |

**11-ci həftə | MÜHİTLƏR**

**Məşğələ 1. ƏTRAF ALƏMLƏ TANIŞLIQ**
**Mövzu: NƏ HARADA YAŞAYIR**

**Standart:** 2.1.2; 2.1.5.
**İnteqrasiya:**. 2.2.2; 4.2.3.

| | |
|---|---|
| **Məqsəd:** | • Dinlədiyi məlumatı anladığını nümayiş etdirir.<br>• Səbəb-nəticə əlaqələrini müəyyənləşdirir.<br>• Obyektlər haqqında topladığı məlumatı müzakirə edir. |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Fərqli mühitdə yaşayan heyvan şəkilləri, rəngli karandaşlar. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, vəsaitin yuxarısındakı şəkillərə baxaq. Tülkü nə edir? *(Uşaqların cavabları*) Tülkü akvalanq paltarını nə üçün axtarır? O, hara getməlidir? Nədən bildiniz? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, düz müəyyənləşdirdiniz. *Akvalanq* su altında nəfəs almağa imkan yaradan fərdi dalğıc aparatıdır. Akvalanq dalğıcın kürəyinə qayışla bağlanır. Akvalanqdan *okeanda, dənizdə, göldə* suyun altına düşmək üçün istifadə edilir. Ondan istifadə etməklə su altında müəyyən müddət qalmaq olur. *Okean* dünyanın böyük bir hissəsini təşkil edən böyük su obyektidir. *Dənizlər* okeanın bir parçasıdır. Dəniz və okeanların suyu şor olur. *Göl* – Yer səthində, çökəklikdə yerləşən su hövzəsidir. Göllərin suyu, əsasən, şirin olur. Göllərə, dənizlərə *çaylar* tökülür. Çayın başladığı yerə *çayın mənbəyi* deyilir. Deyə bilərsinizmi, suda hansı heyvanlar yaşayır? *(Uşaqların cavabları*)

Heyvanlar aləmi çox müxtəlif və zəngindir. Bütün heyvanlar hər yerdə yaşadıqları mühit şəraitinə (torpaq, su və havada) uyğunlaşmışdır. Həyat tərzi ilə bağlı olaraq quşlar, yarasalar və cücülərdə qanadlar inkişaf etmiş, su həyatı ilə əlaqədar sürüşkən bədən forması – üzgəclər (balıqlarda) və ya kürəkşəkilli ətraf (balinada, suitidə)

formalaşmışdır. Ona görə də, heyvanların xarici quruluşlarına görə onların hansı mühitdə yaşadığını, necə hərəkət etdiyini və qidasını necə tapdığını müəyyən etmək mümkündür. Meşədə hansı heyvanlar yaşayır? *(Uşaqların cavabları*) Uşaqlar, quruda yaşayan heyvanların bəziləri səhralarda yaşayır. Səhra nədir? Çox quraqlıq, isti havası olması ilə fərqlənən, daimi axan çayları olmayan, çox seyrək bitki örtüyü olan ərazilər *səhra* adlanır. Səhralarda susuzluğa dözümlü dəvələr, ilanlar, səhra siçanları kimi heyvanlar yaşayır. Uşaqlar, bunlardan başqa hər tərəfi qarla, buzla örtülü soyuq ərazilər də var. Orada ağ ayı, morjlar, marallar yaşayır.

**M. –** “Uşaqlar, sizin qarşınızdakı kitabda müxtəlif mühitlər təsvir olunub. Mən danışdıqca, siz şəkildə həmin mühiti tapın: – “Tapın görək, birinci hansı mühitdir? Nədən bildiniz?” *(Uşaqların cavabları*) Səhranı təsvir edin; məsələn, hər tərəf qumdur, ağaclar yoxdur. Orada dəvə dayanıb. Həmin yer haradır?”) və s. *(Uşaqların cavabları)*

**II.** Müəllim uşaqlara suallarla müraciət edir: “Hansı heyvanlar harada yaşayır? – Öz mühitində yaşamağa onlara nə kömək edir? – Heyvanlar fərqli mühitlərdə yaşaya bilərmi? *(yardımçı suallar:* – Balina meşədə yaşaya bilərmi? – Nə üçün? – Ayı suda yaşaya bilərmi?”) *(Uşaqların cavabları)*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** “Şəkildə müxtəlif heyvanlar təsvir olunub. Ən böyük hansı heyvandır? *(Dəvə)* Dəvə harada yaşayır? *(Uşaqların cavabları*) Şimal ayısı hansıdır? Nədən bildiniz? O, harada yaşayır? *(Uşaqların cavabları*) Mən hər hansı heyvanın adını çəkəcəyəm. Adı çəkilən təsviri tapın, onların harada yaşadığına uyğun: səhrada yaşayanları – sarı, Şimal qütbündə yaşayanları – qırmızı, suda yaşayanları – mavi, meşədə yaşayanları isə yaşıl rəngli karandaşla haşiyəyə alın”. Təsvir olunmuş hər bir heyvanla bu qayda ilə iş aparın.

**IV. M:** “Şəkildə müxtəlif 3 heyvan təsvir olunub. Onları adlandırın. Şəkillərin üst tərəfində isə yuvalar təsvir olunub Birinci şəkildə hansı heyvan təsvir olunub? (sincab) O, hansı yuvada yaşayır? Nə üçün belə düşünürsünüz? *(Uşaqların cavabları*) Bəs ikinci şəkildə nə təsvir olunub? *(quş)* Onun yuvası hansı ola bilər? Nə üçün belə düşünürsünüz? *(Uşaqların cavabları*) Üçüncü şəkildə nə təsvir olunub? *(tülkü)* Bəs tülkünün yuvası hansı ola bilər? İndi isə həmin heyvanları karandaşla uyğun yuva ilə birləşdirin”.

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | | |
|---|---|---|
| | | **11-ci həftə \| MÜHİTLƏR** |
| **Məşğələ 2. BƏDİİ TƏFƏKKÜRÜN İNKİŞAFI**<br>**Mövzu: GÜZGÜ** | | **Standart:** 2.2.2; 2.2.1.<br>**İnteqrasiya:** 3.1.9. |
| **Məqsəd:** | • Bədii nümunə əsasında danışır.<br>• Dinlədiyi fikirləri anladığını nümayiş etdirir.<br>• Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir. | |
| **İş üsulları**: | Müzakirə, suallar. | |
| **İş forması:** | Kollektiv və fərdi iş. | |
| **Resurslar:** | Hekayənin mətni, şəkillər, rəngli karandaşlar. | |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, vəsaitdəki şəkillərə diqqətlə baxın. Şəkildə hansı heyvan təsvir olunub? O nə edir? Sizcə, burada nədən söhbət gedə bilər? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** “Mən indi sizə şəkillərlə bağlı hekayə söyləyəcəyəm. Hekayənin adı “Güzgü” adlanır. Şəkillərə baxa-baxa hekayəni dinləyin. Hər şəkil mətnin bir hissəsini təsvir edir. Mən deyəndə dinlədiyiniz hissəyə uyğun şəkli tapın və altındakı dairəni rəngləyin”.

1

“Dovşan meşədən bir güzgü tapdı. Güzgüdə özünü gördü. Elə bildi ki, şəkildir.

– Qəşəng şəkil tapmışam! – dedi. – Nə uzun qulaqları var. Sonra da öz qulaqlarını tərpədib təəccüblə dedi: – Lap mənim qulaqlarıma oxşayır”.

**M:** – Uşaqlar, dinlədiyiniz hissəyə uyğun şəkli tapıb altındakı dairəni işarə edin.

Müəllim oxumağa davam edir.

2

“Ceyran güzgünü alıb baxdı:

– Doğrudan da, gözəldir. Bir onun gözlərinə baxın. Mənim gözlərim kimi qapqaradır”.

3

“Canavar kobudluqla güzgünü onun əlindən aldı.

– Bəri ver görüm, – deyə Ceyranın üstünə qışqırdı.
Canavar güzgüyə xeyli baxıb dedi: – Gözəl olmağına sözüm yoxdur. Amma yırtıcıya oxşayır. Siz bir onun dişlərinə baxın! ”
**M:** – “Uşaqlar, mənim indi oxuduğum hissəni müəyyənləşdirib işarə edin.”
Müəllim oxumağa davam edir.

4

“Sincab budaqdan-budağa tullana-tullana düz onların qarşısına düşdü:
– Siz nəyə belə maraqla baxırsınız? Qoyun mən də baxım.
Sincab güzgünü əlinə alan kimi mehribanlıqla gülümsündü:
– Oy, nə şirindir. Quyruğuna bir bax!
Sonra da heyrətlə öz quyruğuna baxdı: – Lap mənim quyruğuma oxşayır ki?!”
**M:** “Dinlədiyiniz hissəyə uyğun şəkli tapıb, işarə edin.”
Müəllim oxumağa davam edir.

5

“İlan sürünə-sürünə onlara yaxınlaşdı. Fısıldayıb dedi:
– Deyəsən, maraqlı nə isə tapmısınız?
Canavar güzgünü ona uzatdı. İlan baxıb dedi:
– Ay aman, məgər siz onun dişlərinin dibindəki zəhəri görmürsünüz? O, hamını çala bilər”.
**M:** – “Uşaqlar, dinlədiyiniz hissəyə uyğun şəkli tapıb işarə edin”.
Müəllim oxumağa davam edir.

6

“Meymun da heyvanları bir yerdə görüb onlara yaxınlaşdı:
– Kimin şəklinə baxırsınız? Verin mən də baxım.
O, şəkli diqqətlə nəzərdən keçirib dedi:
– Vay, vay! Belə çirkin heyvanın şəklini hələ əlinizə də alırsınız? – deyib güzgünü dərəyə tulladı.
Güzgü sındı, nağıl da qurtardı”.
**M:** – “Uşaqlar, məzmuna uyğun şəkli tapıb, işarə edin.”

—İdman dəqiqəsi—

**II.** Müəllim suallarla uşaqlara müraciət edir:
— Meymun nəyi səhv dedi? – Güzgü səhv göstərə bilərmi? – İnsan öz nöqsanlarını qəbul etməlidirmi? *(Uşaqların cavabları)*

**Tətbiqetmə**

**III. M:** “Divarda güzgüdə əks olunan heyvanların şəkilləri təsvir olunub. Bunlar hansı heyvanların şəkilləridir? Bu heyvanlar güzgüyə baxarkən nə dedilər? Onlardan hansı öz əksini bəyənmədi? *(Uşaqların cavabları)* – Uşaqlar, bilirsiniz ki, buna uyğun bir atalar məsəli də var: Meymun baxar güzgüyə, adını qoyar özgəyə”. Siz bu atalar sözünü necə başa düşürsünüz? *(Uşaqların cavabları)*
**IV. M:** – “Uşaqlar, şəkildə nə təsvir olunub? *(Uşaqların cavabları)* Əgər timsah güzgüyə baxsa idi, nə deyərdi?” *(Uşaqların cavabları)*
Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**11-ci həftə | MÜHİTLƏR**

**Məşğələ 3–4. SAVAD TƏLİMİNƏ HAZIRLIQ VƏ NİTQ İNKİŞAFI**
**Mövzu: F (f) SƏSİ VƏ HƏRFİ**

**Standart:** 2.2.4; 2.2.5
**İnteqrasiya:** 1.1.4.

| | |
|---|---|
| **Məqsəd:** | • **F** (**f**) səsini və hərfi fərqləndirir.<br>• **F** səsinin işləndiyi sözlər söyləyir.<br>• Xətt üzrə **F** (**f**) hərfini yazır.<br>• Sözdə səsin yerini müəyyən edir. |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Şəkillər, karandaşlar, marker, flaneloqraf, öyrəndikləri hərflər və **F** hərfi. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** “Uşaqlar, siz futbolu sevirsiniz?” *(Uşaqların cavabları)* Müəllim uşaqlara “*Hansı idman növlərini bilirsiniz?”– “Hansı idmanla məşğul olmaq istərdin?” – “Kim idmançı olmaq istəyir?”* kimi suallarla müraciət

edir və dolğun cavablar almağa çalışır.

**M:** – İdman sağlamlığın rəhnidir. İdmanla məşğul olan heç vaxt xəstələnməz, möhkəm olar. Gəlin idmanla bağlı mahnını yada salaq:

*Kim sevirsə, idmanı, 1-2, 3-4!* *İdmanı sevirik biz! 1-2, 3-4!*
*Polad tək olar canı 1-2, 3-4!* *Bərkiyir bədənimiz! 1-2, 3-4!*

Uşaqlar müəllimlə birlikdə oxuyur və hərəkətləri yerinə yetirirlər. Müəllim *futbol* sözünü tələffüz edir və deyir: – Bu söz **F** səsi ilə başlanır. O, sözün əvvəlində, ortasında, axırında işlənə bilir.

Fərmanla, Fuad futbol oynadı.
Fuad qapıdan keçməyə bircə
Top da qoymadı. *(R.İbadova)*

**Dərketmə**

**M:** "**F** hərfindən də digər hərflər kimi sözləri yazanda istifadə olunur. Şeirdə istifadə edilən *Fərman, Fuad, futbol* sözləri **F** səsi ilə başlayır. Uşaqlar, sarı qutuya diqqətlə baxaq. Burada **F f** hərfi təsvir olunub. **F** böyük hərfdir *(Müəllim **F** hərfini lövhəyə yapışdırır).*

**M: –** "Gəlin bir daha xatırlayaq. Hərfi yazırıq və görürük. Səsi isə tələffüz edirik və eşidirik; məsələn, biz sizinlə **A, N, Ə, T, L, M, İ, I, B, Y, S, Ş** səslərini və hərflərini öyrənmişik. Mən indi deyirəm **S** və ya **Ş**, siz eşidirsiniz. Bu **S, Ş** səsi olur. İndi isə lövhədə yazıram. Bu hansı hərfdir? Bəli, bu **S** və **Ş** hərfidir. Hərfi yazırıq, görürük və oxuyuruq". *(Müəllim bunu nümunələr üzərində təkrar edir)*

**I. M:** – "Uşaqlar, kitabınızda böyük **F** hərfi təsvir olunub. Hərfin ətrafında isə şəkillər var. Sol tərəfdə yuxarıda nə təsvir olunub? *Fırça* sözü hansı səslə başlayır? Bəs hərfin sağında yuxarıda nə təsvir olunub? *(Uşaqların cavabları) Fəvvarə* sözü hansı səslə başlayır?" (Bu qayda ilə hər şəkildə nə təsvir olunduğunu adlandırın və bu sözün hansı səslə başlandığına diqqət edin".

**F hərfinin rənglənməsi.**

**II.** Müəllim lövhədə **F** hərfini izah edə-edə yazır. Bir neçə uşaq da lövhədə tapşırığı yerinə yetirir. **M:** – "Kənara çıxmadan nöqtədən başlayaraq, **F** hərfini xətt üzrə çəkin, yuxarıda göstərildiyi kimi oxun istiqamətinə diqqət edin". Uşaqlar kitablarında xətt üzrə **F** hərfini çəkirlər.

**M: –** "Uşaqlar, **F** hərfinin ətrafında şəkillər təsvir olunub. **F** hərfinin hər tərəfində neçə şəkil var? Sol tərəfdəki şəkildə təsvir olunanları adlandırın. (fil, yarpaq, fındıq) Sağ tərəfdə təsvir olunanları bir-bir adlandırın *(balina, moruq, fənər).* Söz **F** səsi ilə başlayırsa, həmin şəkli **F** hərfi ilə birləşdirin".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**M:** – "Uşaqlar, biz keçən məşğələmizdə hansı hərfləri öyrənmişdik? *(Uşaqların cavabları)* Hərflərin içərisindən **S** və **Ş** hərfini götürüb lövhəyə qoyun. İndi hansı hərfi öyrəndik?" *(**F** hərfini)* Müəllim uşaqlara kəsmə əlifbada olan hərflərin içərisindən **F** hərfini çıxarıb lövhəyə qoymağı təklif edir. *(Uşaqlar yerinə yetirir).*

**III. M:** "Uşaqlar, kitabınızın yuxarısında pazllarda söz yazılıb. Yazılan sözlər nədən ibarət olur? *(Hərflərdən)* Diqqətlə baxıb sözdəki bütün hərfləri adlandırın və yerləşdiyi xananı nümunəyə uyğun rəngləyin. Birinci hansı hərfdir? Bəs ikinci hansı hərfdir? və s. Alınmış sözü oxuyun".

**IV. M:** "Uşaqlar, F hərfi xətt üzrə verilib. Siz nöqtədən başlayaraq, xətt üzrə gedərək, böyük F hərfini çəkin. F hərfi neçə hissədən ibarət oldu?" *(Uşaqların cavabları)*

**V. M:** "Şəkildə nə təsvir olunduğunu söyləyin *(şaftalı, fil, fənər).* Şəkillərdən yuxarıda isə hərflər xətt üzrə çəkilib. Hərfləri çəkin, indi isə hərfləri bir-bir adlandırın. Uşaqlar, burada söz yazılıb. Gəlin, hərfləri bir daha təkrar edək və nə yazıldığını öyrənək. Nə oldu? *(fil), (şaftalı)* İndi isə sözləri uyğun şəkillə birləşdirin". *(Uşaqlar yerinə yetirirlər)*

**VI. M:** – "Hər şəkildə nə təsvir olunduğunu bir-bir söyləyin. Birinci şəkildə nə təsvir olunub? *(Uşaqların cavabları) Əncir* sözü hansı hərflə başlayır? *(Uşaqların cavabları)* İndi həmin hərfi şəklin altındakı xanaya çəkək. Bəs ikinci şəkildə nə təsvir olunub? *Fındıq* sözü hansı hərflə başlayır? *(Uşaqların cavabları)* F hərfini də şəklin altındakı xanaya çəkək. *(Bu qayda ilə hər bir şəkil üzrə iş aparılır)* Burada hərflərdən söz alındı. Uşaqlar, indi yazdığınız hərfləri oxuyun. Nə alındı? *(əfsanə)*

Məşğələ boyu uşaqlar rəğbətləndirilir. Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

Flaneloqrafda böyük **F** ilə bərabər, kiçik **f** hərfi də ya asılır, ya da proyektorla ekrana salınır. Verilmiş əlifbanın hərflərinin arasından **f** hərfi götürülərək lövhəyə qoyulur. **F** səsinin birlikdə və tək-tək tələffüz edilməsi üzrə iş aparılır.

Müəllim uşaqların diqqətini kiçik **f** hərfinə yönəldərək, deyir:—Uşaqlar, bilirsiniz ki, hər bir hərfin həm böyük, həm də kiçik forması var. Biz sizinlə öyrəndiyimiz bütün hərflərin də həm böyük, həm də kiçik formasını öyrənmişik. **F** hərfinin də böyük çap formasını öyrənmişik.

**Dərketmə**

**I. M**: "İndi isə kiçik **f** hərfi ilə tanış olacağıq. Kitabınızda kiçik **f** hərfini nöqtədən başlayaraq, xətt üzrə çəkin".

—İdman dəqiqəsi—

**II. M**:— Burada pazllarda həm böyük, həm də kiçik **f** hərfi yazılıb. Hərfləri adlandırın. Böyük və ya kiçik hərf olduğunu müəyyənləşdirin. Pazlları nümunəyə uyğun rəngləyin. *(Uşaqlar yerinə yetirirlər)*

**Tətbiqetmə**

**III. M**: – Kitabda xətt üzrə hərflərdən ibarət söz yazılıb. Birinci sözdəki hərfləri xətt üzrə çəkin. İndi sözü oxuyun. Nə oldu? *(fil)* İndi həmin sözü uyğun şəkillə birləşdirin. Hansı şəkillə birləşdirmək lazımdır? *(fil şəkli ilə)*. İkinci sözün hərflərini xətt üzrə çəkin. İndi isə sözü oxuyun. Nə oldu? *(şaftalı)* İndi isə şəkillərə baxıb, sözü hansı şəkillə birləşdirəcəyinizi müəyyənləşdirin. Hansı şəkillə birləşdirmək lazımdır? *(Bu qayda ilə digər şəkillər üzrə də iş aparılır)* Müəllim **F** səsi ilə başlayan sözlər söyləməyi uşaqlara təklif edir: "Sözləri cümlədə işlədin". *(Uşaqlar yerinə yetirirlər)*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| | **11-ci həftə \| MÜHİTLƏR** |
| **Məşğələ 5-6. RİYAZİ VƏ MƏNTİQİ TƏFƏKKÜRÜN İNKİŞAFI** | **Standart:** 2.3.1; 2.3.2. |
| **Mövzu:** SIRA SAYLARI | **İnteqrasiya:**. 2.2.6; 1.1.4. |

| | |
|---|---|
| **Məqsəd:** | • 10 dairəsində say bacarıqları nümayiş etdirir.<br>• Ardıcıllığı düzgün müəyyənləşdirir.<br>• Verilmiş rəqəmə görə əşyanın sayını uyğunlaşdırır. |
| **İş üsulları**: | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması**: | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Şəkillər, rəngli karandaşlar. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – "Uşaqlar, səhifənin yuxarısındakı şəkildə tülkü nə axtarır? Onun əlindəki kağızda hansı ədəd yazılıb? Sizcə, bu kağız nədir? *(Uşaqların cavabları)*

**Dərketmə**

"Bəli, Tülkü orada öz yerini axtarır. Onun yerinin nömrəsi neçədir? (*3*).

**I. M:** "Uşaqlar, şəkildə it damı və onların yemək yemələri üçün qablar təsvir olunub. – Neçə it damı var? *(Uşaqların cavabları)* – Bəs rənglənmiş it damı neçəncidir? *(Uşaqların cavabları)* – Rənglənmiş qab neçəncidir? Onların yanındakı xanaya uyğun rəqəmi yazın. – Rənglənmiş yem qabı neçənci damın yanındadır? – Bəs rənglənmiş it damının qarşısındakı yem qabı neçəncidir?" *(Uşaqların cavabları)*

Müəllim uşaqlara suallar verir: – Neçə rənglənməmiş it damı qaldı? – Bəs rənglənməmiş yem qabının sayı neçədir?

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "İkinci tapşırığa baxaq. Burada müxtəlif şəkillər təsvir olunub. Stəkanları sayın. *(5)* Neçə it damı təsvir olunub? *(5)* Göbələklərin sayı nə qədərdir? *(10) (Uşaqların cavabları)* Şəkillərin yanında isə müxtəlif rəngli dairələrin içində rəqəmlər yazılıb. Hər şəklin yanındakı dairədə verilmiş rəqəmə görə sıradakı əşyanı tapın və dairənin rənginə uyğun rəngləyin".

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

Müəllim şeir-tapmaca söyləyir:

*İnan ki, çətin deyil, Düşünsən, asan olar. Bir əldə, bir ayaqda Cəmi neçə barmaq var?*

**M:** "Uşaqlar, cavabı söyləyin. Gəlin hər iki əllərimizi açaq. Bəs əllərinizdə neçə barmaq var? Hər ayaqda neçə barmaq var?" *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Birinci tapşırığa baxın: – Nə təsvir olunub? – Hansı heyvanlar təsvir olunub? – Bu heyvanların dayandıqları pillələr nəyi göstərir? – Hansı heyvanın neçənci yeri tutduğunu söyləyin. – Nədən bildiniz? Onların medallarına yazılan rəqəmi oxuyun".

Tapşırıqları yerinə yetirərkən uşaqların fikirlərini əhatəli izah etmələrinə nail olmaq lazımdır.

**II. M: –** "Bu şəkildə itlər təsvir olunub. Onların sayı neçədir? *(5)* Birinci, üçüncü və beşinci itləri rəngləyin. Siz neçə it şəklini rənglədiniz? *(3)* Bəs neçə şəkil rənglənmədi?

**III. M: –** "Şəkildə quş evcikləri təsvir olunub**.** Evcikləri sayın. Neçə oldu? ***(10)*** Quş evciklərinin ardıcıl sıra nömrələrini yazın. Neçə rəqəm yazdınız? *(Uşaqların cavabları)*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**IV. M:** – "Şəkildə stullar təsvir olunub. Neçə stul var? ***(8)*** *(Uşaqların cavabları)* Onlardan bəzilərinin ayağı sınıqdır. Sınıq stulları müəyyənləşdirin və altındakı xanaya onların sıra nömrəsini yazın. Bəs neçə stəkan təsvir olunub? ***(10)*** Onların arasından boş olan stəkanları tapın və onların sıra nömrələrini yazın".

**V. M: –** "Şəkildə uşaqlar qaçaraq yarışırlar. Neçə uşaq qaçır? ***(5)*** Birinci, ikinci və sonuncu olanı tapın, rəngləyin".

**VI. M: –** "Şəkildə cəmi neçə muncuq var? Sarı muncuq birincidirsə, ikinci muncuq hansıdır? Beşinci və sonuncu muncuqlar hansılardır? Onları tapıb qırmızı karandaşla rəngləyin"

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.



| **Məşğələ 7–8. TƏSVİRİ FƏALİYYƏT**<br>**Mövzu: MEŞƏ** | **Standart:** 3.1.2; 3.1.4; 3.1.3.<br>**İnteqrasiya:** 1.1.4; 2.2.6; 3.1.8. |
|---|---|
| **Məqsəd:** | • Yapma bacarıqları nümayiş etdirir.<br>• Kəsib-yapışdırma bacarıqları nümayiş etdirir.<br>• Kompozisiya qurur. |
| **İş üsulları**: | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması**: | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Şəkillər, kağızlar, plastilin, rəngli karandaşlar. |

### 1-ci məşğələ

**Motivasiya**

**M:** – Uşaqlar, meşə deyəndə nə başa düşürsünüz? Meşədə olmusunuzmu? Orada hansı ağacları görmüsünüz? *(Uşaqların fikirləri dinlənilir)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, düz dediniz, meşə çoxlu ağac və kollar olan yerdir. Meşədə ağaclar sıx bitir. Meşənin bəzi yerlərində tala da olur. İndi isə biz sizinlə plastilindən meşə düzəldəcəyik". Uşaqlar işə başlamazdan əvvəl müəllim onlara qabaqcadan hazırladığı nümunəni göstərir, sonra isə onların gözü qarşısında izah edə-edə yapma vasitəsilə meşə düzəldir. Əvvəlcə kağızda torpağı təsvir edən hissəni düzəldir. Orada yaxmadan istifadə edir. Sonra isə ağacın hissələri haqqında bildiklərini bir daha xatırladaraq budaqları düzəldir, gövdə vasitəsilə yaxma plastilinə yapışdırır. Talanın və cığırın fərqlənməsi üçün göy plastilindən istifadə edir. Sonra isə uşaqlara işə başlamağı təklif edir. Uşaqlar işləyərkən onlara fərdi yanaşaraq istiqamət verir, uşaqların əməkdaşlıq etmələrinə imkan yaradır.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "Uşaqlar, biz sizinlə **F** hərfini öyrənmişik. Onu karandaşla çəkə bilirsiniz. Gəlin birlikdə əlimizlə havada **F** hərfini cızaq. **F** səsi ilə başlayan hansı sözləri deyə bilərsiniz? *(Uşaqların cavabları)* Siz **FİL** sözünü dediniz. **FİL** sözündə daha hansı səsləri eşidirsiniz? *(**İ** və **L**)* Düzdür! İndi isə böyük hərflərdən istifadə edərək, **FİL** sözünü düzəldin. Neçə hərfdən istifadə etdiniz? Hansı hərflərdir?" *(Uşaqların cavabları)* Uşaqlar yerinə yetirdikdən sonra müəllim onlara kiçik şeir söyləyir.

*Filə bir bax, sən filə! Gör ki, fil nə boydadır. Bapbalaca fit ilə Filbaz fili oynadır. (Fikrət Sadıq)*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

### 2-ci məşğələ

**Motivasiya**

**M:** – Uşaqlar, suda yaşayan heyvanlardan hansının adını söyləyə bilərsiniz? *(Uşaqların cavabları)* Uşaqlar, siz balıqları sevirsiniz? Akvariumda balıqların yaşaması üçün oraya daha nə qoymaq lazımdır? (*yosun*)

**Dərketmə**

**I. M:** "Uşaqlar, şəklə diqqətlə baxın. Orada nə təsvir olunub? *(Uşaqların cavabları)* Bəli, akvariumda balıqlar və yosun təsvir olunub. İndi isə işə başlayıb biz də akvariumda balıqlar hazırlayaq". *Müəllim uşaqlara qabaqcadan hazırladığı nümunəni göstərir. Sonra uşaqlar işə başlamazdan əvvəl plastilini yumşaltmağı, ovuclar arasında yumrulayaraq ona forma verməyi bir daha göstərir, daha sonra isə izah edə-edə balıqları və yosunu düzəldir.*

Sonda hər bir uşaq düzəltdiyi akvarium haqqında məlumat verir.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "Uşaqlar, bu tapşırıqda nə təsvir olunub? *(Uşaqların cavabları)* Bəli, fırçaya bənzəyir. Uşaqlar, *fırça* sözü hansı səslə başlayır? *(Uşaqların cavabları)* Siz xətt üzrə təsvir olunmuş fırça şəkillərini tamamlayın və sonra uyğun karandaşla rəngləyin.

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**11-ci həftə | MÜHİTLƏR**

| | |
|---|---|
| **Məşğələ 9–10. FİZİKİ MƏDƏNİYYƏT**<br>**Mövzu: DOVŞANLAR VƏ İTLƏR** | **Standart:** 1.1.1; 1.1.2.<br>**İnteqrasiya:** 4.1.2; 4.2.2. |

| | |
|---|---|
| **Məqsəd:** | • Yeriş və dağınıq halda yürüş yerinə yetirir.<br>• Hoppanma, tullanma (1 və 2 ayaqla) bacarığı nümayiş etdirir.<br>• Yeriyərkən müvazinətini saxlayır. |
| **İş üsulları**: | Müzakirə, süjetli-rollu oyunlar. |
| **İş forması:** | Kollektiv, qruplarla və fərdi iş. |
| **Resurslar:** | 10 sm hündürlükdə ədəd gimnastika skamyası. |

**1 və 2-ci məşğələ**

**I. İsinmə hərəkətləri** (5 dəq.)

– bir-birinin ardınca yeriş və qaçış;
– qollar yuxarıda, barmaqları açıb-bükmək və pəncə üstə yeriş;
– qollar yanlarda, barmaqları açıb-bükmək və daban üstə yeriş;
– bir sıradan iki sıraya düzülmək;
– əlləri yuxarı qaldıraraq, nəfəs almaq və nəfəsi buraxmaq (4–5 dəfə).

**II. Ümuminkişafetdirici hərəkətlər (əşyalarsız)** (20 dəq.)

**1. "Bax budur".**

*ç.v.* – ayaqları çiyin bərabərində aralı, qolları yanlardan aşağı sallamaq;
*1–2 sayında* qolları irəli uzadaraq "ovucun içini açıb göstərmək – "bax budur" demək;
*3–4 sayında* çıxış vəziyyətinə qayıtmaq.

**2. "Dizini göstər".**

*ç.v.*- ayaqlar çiyin bərabəri aralı, əllər isə beldə.
*1–2 sayında* qabağa əyilmək və ovucu dizin üstünə qoyaraq "dizləri göstərib – "bax budur" demək;
*3–4 sayında* çıxış vəziyyətinə qayıtmaq.

**3. "Səhv eləmə".**

*ç.v.* – Ayaqlar çiyin bərabəri aralı, əllər isə arxada.
*1–2 sayında* əlləri dizlərə dayamaq, başı aşağı əyilmiş vəziyyətdə sallağı oturmaq;
*3–4 sayında* çıxış vəziyyətinə qayıtmaq.

**4. "Yuxarı-aşağı".**

*ç.v.* – Ayaqlar çiyin bərabər aralı, qollar isə yanlarda.
*1–2 sayında* qolları növbə ilə yuxarı qaldırıb aşağı salmaq;
*3–4 sayında* çıxış vəziyyətinə qayıtmaq.

**5. "Qoy və götür".**

– *ç.v.* – düz dayanmaq, ayaqları azca aralı qoymaq.
*1 sayında* əyilərək əlləri sağ ayağın barmaqlarına çatdırmaq;
*2 sayında* çıxış vəziyyətini almaq;
*3 sayında* əlləri sol ayağın barmaqlarına çatdırmaq;
*4 sayında* çıxış vəziyyətinə qayıtmaq (5-6 dəfə).

**6. "Hoppanma".**

*ç.v.* – ayaqlar bir qədər aralı, qollar aşağıda.
2 ayaq üstə hoppanmanı yerişlə əvəz edib yerində addımlamaq (3 dəfə).

**Əsas hərəkətlər.**

**Hərəkətli oyun: "Dovşanlar və itlər".**

Meydançanın bir tərəfində "dovşanlar" üçün "yuva", o biri tərəfində isə "itlər" üçün koma müəyyən edilir. Uşaqlardan biri "ovçunu", ikisi "iti", qalanları isə "dovşanları" təmsil edirlər. "Ovçu" ağac və ya stul dalında gizlənir. Müəllimin işarəsi ilə "dovşanlar" yuvadan çıxıb hoppana-hoppana gəzirlər. Bu zaman "itlər" komalarında yatmış olurlar. Müəllimin "ovçu gəlir" deməsi ilə "ovçu" və "itlər" "dovşanları" tutmağa başlayırlar. "Dovşanlar" isə yuvalarına qaçırlar.

**III. Sakitləşdirici hərəkətlər** (5 dəq.)
***"Dəniz necə də böyükdür"***
*ç.v.* – ayaqlar aralı, əllər yanlarda aşağı salınmış vəziyyətdə.
*1.* Nəfəsalma – pəncə üstə qalxaraq, qolları qabağa və yuxarı uzatmaq.
*2.* Nəfəsvermə – əlləri aşağı salmaqla çıxış vəziyyətinə qayıtmaq.
*3.* Nəfəsalma – qolları yanlara açaraq, başını yuxarı qaldırmaqla, pəncələri üstə qalxmaq.
*4.* Nəfəsvermə – *ç.v.*-nə qayıtmaq.
Müəllimin ardınca bir cərgədə sakit yeriş.

| | |
|---|---|
| | **11-ci həftə \| MÜHİTLƏR** |
| **Məşğələ 11–12. MUSİQİ** | **Standart**: 3.1.6; 3.1.7; 3.1.8. |
| **Mövzu: CANLI GUŞƏMİZ** | **İnteqrasiya:** 2.2.1; 2.2.2. |
| **Məqsəd:** | • Musiqinin xarakterini və tempini müəyyən edir.<br>• Xorda oxumaq bacarıqları nümayiş etdirir.<br>• Musiqinin ritminə uyğun rəqs elementlərini yerinə yetirir.<br>• Musiqiyə zərb musiqi alətlərində ritmik müşayiət yaradır. |
| **İş üsulları**: | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması**: | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Kompüter, disk, şəkillər, nəlbəki, üskük, zərb oyuncaq musiqi alətləri |
| **Musiqi materialları:** | "Marş" (M.Əhmədov), "Gəzinti" pyesi (F.Əmirov), "Canlı guşəmiz" mahnısı (M.Əhmədov/ T.Mütəllibov), "Ayı" mahnısı (M.Əhmədov/C.Məmmədov), "Nəlbəki" (Azərbaycan xalq rəqsi), "Kiçik vals" ("6 uşaq pyesi" silsiləsi, Q.Qarayev), "Çernamorun marşı" ("Ruslan və Lyudmila" operası, M. Qlinka), "Dələ" (O.Zülfüqarov/Z. Xəlil), "Mauqli" cizgi filmi, musiqi, I hissə, giriş və meymunlar olan hissə (S.Qubaydulina) |
| **Alternativ material:** | **Dinləmə:** "Cəsur atlılar" (S.Rüstəmov), "At-at oyunu"(Ə.Abbasov), "At-at oyunu" (Q.Hüseynli)<br>**Mahnı:** "Qaranquş" (A.Rzayeva/.T. Elçin), "Sərçə" (O.Zülfüarov/T. Elçin), "Quşlar" F.Əmirov/ Z.Cabbarzadə) |

**1-ci məşğələ**

**1. Marş.** M.Əhmədov. "Marş".

**2. Dinləmə.** İnstrumental musiqi (pyes) haqqında məlumat yada salınır və təkrarlanır. Müəllim bəstəkar F.Əmirov və onun uşaqlar üçün yazdığı fortepiano pyesləri haqqında qısa izahat verir. Sonra "Gəzinti" fortepiano pyesi səsləndirilir. Əsəri dinlədikdən sonra müəllim uşaqlara suallarla müraciət edir: – Dinlədiyiniz musiqi hansı xarakterdə və tempdə idi? – Uşaqlar, gəzintidə olmusunuz? – Bu musiqi sizə hansı gəzintini xatırlatdı*? (Uşaqların cavabları)*

**3. Mahnı.** "Canlı guşəmiz" mahnısı (musiqisi M.Əhmədovun, sözləri T.Mütəllibovun) şifahi yolla öyrədilir. Müəllim bəstəkar M.Əhmədov haqqında qısa məlumat verir, onun uşaqlar üçün bəstələdiyi mahnıların adını söyləyir və yada salır. Sonra "Canlı guşəmiz" mahnısının məzmunu haqqında qısa məlumat verərək onu səsləndirir. Uşaqlar dinlədikdən sonra mahnı hissə-hissə, frazalarla öyrədilir. Tələffüzü çətin olan sözlər və melodiya üzərində iş aparılır. Sonda "Canlı guşəmiz" mahnısının öyrənilmiş hissəsi xorla ifa edilir, məzmunu və xarakteri müzakirə olunur.

**4. Musiqili-ritmik hərəkətlər.** "Nəlbəki" Azərbaycan xalq rəqsi səsləndirilir. Uşaqlar iki qrupa (qızlar və oğlanlar) bölünürlər. Qızlara üskük və nəlbəki, oğlanlara isə zərb musiqi alətləri (taxta qaşıq, metallofon, oyuncaq fortepiano və s.) paylanılır. "Nəlbəki" rəqsi səslənəndə qızlar üsküyü nəlbəkiyə ritmik vuraraq müəllimin göstərişi ilə rəqs elementlərini yerinə yetirirlər. Oğlanlar bu zaman zərb musiqi alətlərində ritmik müşayiət yaradırlar.

Məşğələ ümumiləşdirilərək yekunlaşdırılır.

**Musiqi materialı.**

**"Canlı guşəmiz"**

Guşəmizdə göyərçin,
Toyuq, kəklik, qaz da var.
Onlara yemək verib
Qulluq edir uşaqlar.
Bizim canlı guşədə
Vardır dovşan, var tülkü.

Toyuqlara hey baxır,
Yenə hiyləgər tülkü.
Hey baxır, hey baxır...
Yenə hiyləgər tülkü.
Hey baxır, hey baxır..

*Nəqarət:*
Guşəmizdə göyərçin,
Toyuq, kəklik, qaz da var.
Onlara yemək verib
Qulluq edir uşaqlar.

**2-ci məşğələ**

**Marş.** "Marş" (M.Əhmədov)
**Mahnı.** "Canlı guşəmiz" mahnısı (M.Əhmədov/ T.Mütəllibov)
**Səhnələşdirmə.** "Güzgü" (Resurs: güzgü; dovşan, ceyran, canavar, ilan, dələ və meymun maskaları)

| № | Musiqi materialı | Fəaliyyət |
|---|---|---|
| 1 | **“Vals”** | Dovşan meşədə oynaya-oynaya gəzir və yerdə bir güzgü tapır. O, güzgünü yerdən götürür və güzgüyə baxır, qulaqlarını tərpədir. |
| 2 | **“—“** | Ceyran dovşana yaxınlaşır və güzgünü alır, ona baxır, gözlərini göstərir. |
| 3 | **“Çernomorun marşı”** | Canavar güzgünü Ceyranın əlindən qapır, güzgüyə baxır, hirsli halda dişlərini qıcıdır. |
| 4 | **Giriş (“Mauqli”)** | İlan sürünərək gəlir və güzgünü Canavardan alır. Güzgüyə baxır, fısıldaya-fısıldaya dilini çıxarır və dişlərinin altını göstərir. |
| 5 | **“Dələ”** | Dələ hoppana-hoppana gəlir, güzgünü İlandan alır, güzgüyə baxır və quyruğunu göstərir. |
| 6 | **“Mauqli”** | Meymun güzgünü Dələdən alıb ona baxır, narazı halda başını yelləyir, güzgünü atır. |

**12-ci həftə | EV HEYVANLARI**

**Məşğələ 1. ƏTRAF ALƏMLƏ TANIŞLIQ**
**Mövzu: NƏ HARADA YAŞAYIR**

**Standart:** 2.1.3; 2.1.4.
**İnteqrasiya:** 2.2.2; 2.2.1; 2.2.6.

| | |
|---|---|
| **Məqsəd:** | • Ev heyvanlarını və onların balalarını adlandırır.<br>• Ev heyvanlarının faydasını söyləyir.<br>• Heyvanları qruplaşdırır. |
| **İş üsulları**: | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması**: | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Müxtəlif ev heyvanları və quşları təsvir olunmuş şəkil, rəngli karandaşlar. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, vəsaitin yuxarısındakı şəkillərə baxaq. Tülkü haradadır? Bu yerin adı nədir? Xoruzla tülkü nə yeyir? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** – “Uşaqlar, düzdür. Onlar *ev quşları* adlanır. Ev quşları və ev heyvanları – əhliləşdirilmiş, evdə və ya təsərrüfatda insanlara xeyir verən heyvanlar. İnsan ev heyvanları olmadan keçinə bilməz. Onlar insana qida, isti əşyaların hazırlanması üçün yun verirlər. Bəzi heyvanlar insanla birlikdə yaşayır və onların sadiq dostlarına çevrilirlər. Ev heyvanlarının da həmçinin insana ehtiyacı olur. İnsanlar ev heyvanlarına su və yemək verir, onlar üçün isti sığınacaq düzəldir, soyuq hava və baş verə biləcək təhlükələrdən qoruyurlar. Ev heyvanları da nə vaxtsa vəhşi olublar, amma insanlar onları əhliləşdirib və belə heyvanlar tədricən vəhşi təbiətdə yaşamalarına kömək edən instinktlərini itiriblər.

Ev heyvanları tövlələrdə yaşayırlar. Onlar xüsusi yemlə qidalanırlar. İnsanların başlıca qidası ət, süd, yumurta və yağ heyvanlardan alınmaqla təmin edilir. Geyindiyimiz paltarların da bir hissəsi heyvanların dərisi, yun və quş tüklərindən hazırlanır. İnsan sağlamlığı üçün lazım olan peyvənd və serum da heyvanlardan alınır. Əvvəllər heyvanları yalnız qida və nəqliyyat vasitəsi kimi istifadə edən insanların zamanla dünyagörüşləri dəyişdi, onlara şəfqət göstərməyə, təlim verməyə, ram etməyə və onlarla dostluq qurmağa başladılar. İnsanlar ilk dövrlər pişik, it, at, qoyun, inək və keçi kimi heyvanları əhliləşdirib ev heyvanı ediblər. İtin balası *küçük* adlanır. Qoyunun balası *quzu*, dəvənin balası *köşək,* keçinin balası *çəpiş,* donuzun balası isə *çoşqa* adlanır. Ev heyvanları insanların köməkçisi olub. Pişik evdə zərərli böcək və siçanları tutur. İt evi və digər ev heyvanlarını qoruyur, gözətçilik edir. Toyuğun ət və yumurtalarından, xoruzun tüklərindən, ətindən və banlamasından faydalanırıq. At, eşşək və dəvə kimi heyvanlar yükləri daşımaqda istifadə edilir. İnək və qoyunlar insanlara süd və ət verir. Öküzlər tarlanı şumlayır. Qəfəsdəki bülbülün cəh-cəhini dinləyirik. Akvariumdaki balıqların seyri isə bizi sakitləşdirir. Yəni, ətrafımızdakı heyvanlardan birbaşa və ya bilavasitə istifadə edirik. İnsanlar çəkdikləri şəkillərdə belə onları əks etdirməyə çalışırlar.

Heyvanlar kimi quşlar da vəhşi və ev quşları qruplarına bölünürlər. Təbiətdə yaşayan vəhşi quşlar haqqında biz artıq bilirik. Ev quşlarını 2 (iki) böyük qrupa ayırmaq olar: ***1. İnsanın evində yaşayan quşlar; 2. Kənddə və yaxud da xüsusi quşçuluq fermalarında yaşayan quşlar.***

Tutuquşu həm meşədə yaşayır, həm də evdə saxlanılır. O, alabəzək quşdur. Tutuquşunun bəzi növləri insan kimi danışa bilir. Onlar xüsusi yemlə, dənli bitkilərlə və meyvələrlə qidalanır.

Ev quşları hinlərdə yaşayır. Toyuq – evdə saxlanılan quş növüdür. Ev quşları siyahısına daxildir. Əti və yumurtası insanların əsas qida növlərindəndir. Tükündən məişətdə istifadə edilir. Toyuqlar uça bilməyən quşlardandır. Yumurtadan cücə çıxarırlar. Toyuğun balası cücə adlanır. Bundan başqa ev quşlarına qaz, ördək və hinduşka da aiddir. Ev quşlarının əsas qidasını buğda təşkil edir. Ev quşlarının çöl quşlarından fərqi onların uça bilməmələridir. Heyvanları qoruyaq, sevək. Onlara əziyyət verməyək, bu, həm də günahdır. Heyvanlara kömək edək. Yəni, çətin vəziyyətdə qalmış heyvanları qoruyaq.

**M:** "Uşaqlar, sizin qarşınızdakı vəsaitdə ev heyvanları və ev quşları təsvir olunub. Orada hansı heyvanlar təsvir olunub? Heyvanların yaşadığı yer nə adlanır? Bəs ev quşlarının yaşadığı yer nə adlanır? və s. *(Uşaqların cavabları)*

**II.** Müəllim uşaqlara suallarla müraciət edir: "Ev heyvanları çöl heyvanlarından nə ilə fərqlənir? – Ev heyvanlarının faydası nədir? – Siz hansı ev heyvanını bəsləmək istəyərdiniz? *(Uşaqların cavabları)*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** "Şəkildə müxtəlif heyvanlar təsvir olunub. Mən sizə onların adını bir-bir çəkəcəyəm. Adı çəkilən heyvan evdə yaşayırsa sarı, tövlədə yaşayırsa qırmızı, hində yaşayırsa yaşıl karandaşla haşiyəyə almaq lazımdır.

**IV. M:** "Şəkildə hansı heyvanlar təsvir olunub? İnsanlara verdikləri fayda haqqında danışın, heyvan təsvirlərini hər birinə uyğun şəkillə birləşdirin".

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**12-ci həftə | EV HEYVANLARI**

**Məşğələ 2. BƏDİİ TƏFƏKKÜRÜN İNKİŞAFI**
**Mövzu: İTLƏ İNSAN NECƏ DOST OLDULAR**

**Standart:** 2.2.1; 2.2.2.

**İnteqrasiya:** 3.1.5; 3.1.9.

| | |
|---|---|
| **Məqsəd:** | • Mövzu əsasında danışır.<br>• Dinlədiyi fikirləri anladığını nümayiş etdirir.<br>• Müstəqil yaradıcılıq qabiliyyətləri nümayiş etdirir. |
| **İş üsulları**: | Müzakirə, suallar, nağıletmə. |
| **İş forması**: | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Hekayənin mətni, şəkillər. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, vəsaitinizdə şəkillərə diqqətlə baxın. Şəkildə nə təsvir olunub? Sizcə, burada nə baş verir? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** – "Uşaqlar, mən sizə şəkildə təsvir olunanlara aid **"İtlə insan necə dost oldular**" adlı hekayə söyləyəcəyəm. Mətni dinləyin. Kitabınızdakı hər şəkil mətnin bir hissəsini təsvir edir. Mən deyəndə, dinlədiyiniz hissəyə uyğun şəkli tapın və altındakı dairəni rəngləyin".

1

"İt meşədə tək yaşayırdı. Təklikdən ürəyi sıxılırdı. O, özünə dost tapmaq istədi. Özü də elə dost ki, heç kimdən qorxmasın".

**M:** – "Uşaqlar, dinlədiyiniz hissəyə uyğun şəkli tapıb, altındakı dairəni işarə edin".

Müəllim oxumağa davam edir.

2

"Bu fikirlə meşədə gəzirdi ki, Canavara rast gəldi. İt dedi:

– Ay Canavar, gəl dost olaq. Bir yerdə yaşayarıq.

Canavar İtin təklifini qəbul etdi. Onlar birlikdə yaşamağa başladılar."

**M:** – "Uşaqlar, sizcə, onlar dost ola bilərlərmi? *(Uşaqların cavabları)* İndi isə dinlədiyiniz hissəni müəyyənləşdirib işarə edin".

Müəllim oxumağa davam edir.

3

"Bir gecə onların yanından qurbağa keçirdi. İt bərkdən hürdü. Canavar qorxa-qorxa dedi:

– Hürmə, Ayı eşidər, bizi parçalayar.

Canavar qorxaqdır, – deyə İt düşündü."

**M:** "Uşaqlar, dinlədiyiniz hissəyə uyğun şəkli tapıb, işarə edin."

4

"İt fikirləşdi: " Əgər Canavar Ayıdan qorxursa, deməli, Ayı güclüdür." Yaxşısı budur, gedim Ayını tapım. O, Ayının yanına yollandı. Onunla dost oldu".

**M:** – "Uşaqlar, şəkildə dinlədiyiniz hissəyə uyğun şəkli tapıb, işarə edin."

Müəllim oxumağa davam edir.

5

"Gecə Ayının mağarasının yanından bir ilan sürünüb keçirdi. Təhlükəni hiss edən it hürməyə başladı. Ayı donquldandı. "Bəsdir, insan eşidib gələr. Dərimizi soyar".

İt fikirləşdi: "Bu da qorxaqdır".

**M:** – "Uşaqlar, məzmuna uyğun hissəni tapıb işarə edin".

6

"Ayıdan qaçıb insanın yanına gəldi:

– İnsan, gəl dostluq edək. Bir yerdə yaşayaq.

İnsan razılaşdı. İtə yem verdi. Evinin yanında ona yuva düzəltdi. Gecə təhlükə hiss edən it hürür, evi qoruyurdu. İnsan isə buna görə onu danlamırdı. Hətta ona "afərin" deyirdi. Nəhayət ki, İt özünə əsl dost tapmışdı".

—İdman dəqiqəsi—

**II.** Müəllim uşaqlara suallarla müraciət edir: – İt niyə insanla qalmağı seçdi? – Dostluqda hansı heyvan daha vəfalıdır? – Siz hansı heyvanla dost olmaq istərdiniz? *(Uşaqların cavabları)*

**Tətbiqetmə**

**III. M:** – "Şəkildə heyvanlar təsvir olunub. – Siz orada hansı heyvanları görürsünüz? – İt niyə Canavarla dost olmadı? – Bəs Ayı ilə niyə dost olmadı? – Bəs İnsanla niyə dost oldu?" *(Uşaqların cavabları)*

**IV. M: –** "Şəklə diqqətlə baxın. Burada müxtəlif heyvanlar təsvir olunub. Heyvanları adlandırın və insanla hansı heyvanların dostluq etdiyini söyləyin. *(Uşaqların fikirləri dinlənilir)*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**12-ci həftə | EV HEYVANLARI**

| Məşğələ 3–4. SAVAD TƏLİMİNƏ HAZIRLIQ VƏ NİTQ İNKİŞAFI<br>Mövzu: O (o), Ö (ö) SƏSİ VƏ HƏRFİ | Standart: 2.2.4; 2.2.5.<br>İnteqrasiya: 1.1.4; 2.1.2. |
|---|---|
| **Məqsəd:** | • **O (o), Ö (ö)** səsini və hərfini fərqləndirir.<br>• **O** və **Ö** səsinin işləndiyi sözlər söyləyir.<br>• Xətt üzrə **O (o)** və **Ö (ö)** hərfini yazır. |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Şəkillər, karandaşlar, marker, öyrəndikləri və **O, Ö** hərfləri. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Səhifənin yuxarısındakı şəklə baxaq. Şəkildə nə təsvir olunub? *(Uşaqların cavabları)* – Söylədiyiniz hər bir söz yazılarkən hərflərdən istifadə edilir.

**Dərketmə**

**M:** – "**O** hərfindən də digər hərflər kimi sözləri yazanda istifadə olunur. Uşaqlar, sarı qutuya diqqətlə baxaq. Burada **O (o)** hərfi təsvir olunub".

*O yumru hərfdir, Oxşayır yumurtaya. Yazmağı lap asandı, Qələmi kim fırlaya.*

**M:** – Eşitdiyiniz şeirdə söhbət **O** hərfi haqqındadır. Şeirdəki ***oxşayır*** sözü hansı səslə başlayır? *(Uşaqların cavabları)*

**I. M:** – Burada böyük **O** hərfi təsvir olunub. **O** hərfi nəyə oxşayır? Hərfin kənarında şəkillər təsvir olunub. Sol tərəfdə yuxarıda nə var? *(Uşaqların cavabları) Ox* sözü hansı səslə başlayır? *(Uşaqların cavabları)* Bəs hərfin sağında aşağıda nə təsvir olunub? *Od* sözü hansı səslə başlayır?

Bəli, *Od* sözü **o** səsi ilə başlanır. Bu gün biz sizinlə yeni bir hərf və səslə tanış olacağıq. Bu, **o** səsi, **o** hərfidir. Bu, o-dur (hərfi əlifbanın hərflərinin arasından götürüb, lövhəyə qoyur və uşaqların diqqətini ona cəlb edir). Gəlin, birlikdə **O** səsini deyək: – ooooooo…

**M: –** "Bu səsi tələffüz edərkən, dodaqları azacıq irəli uzatmaq lazımdır. Onu istədiyimiz qədər uzada bilərik". *Uşaqlar **O** səsinin tələffüzü üzrə məşq edirlər. Müəllim bir daha **O** hərfini göstərib nəyə oxşatdıqlarını soruşur. (Uşaqların cavabları – yumurtaya)*

**M: –** "Bu qayda ilə hər şəkildə nə təsvir olunduğunu adlandırın və bu sözün hansı səslə başlandığına diqqət edin".

**O hərfinin rənglənməsi.**

**II.** Müəllim lövhədə **O** hərfini izah edə-edə yazır. Bir neçə uşaq da lövhədə tapşırığı yerinə yetirir.

**M:** – "Kitabınızda kənara çıxmadan **O** hərfini xətt üzrə çəkin. Oxun istiqamətinə diqqət edin".

Uşaqlar vəsaitdə xətt üzrə **O** hərfini çəkirlər.

**M: –** "Uşaqlar, **O** hərfinin həm böyük, həm də kiçik forması eyni cür yazılır. Kiçik **o** bir qədər kiçik yazılır. **O** hərfinin ətrafında şəkillər təsvir olunub. **O** hərfinin hər tərəfində neçə şəkil var? Sol tərəfdə şəkildə təsvir olunanları və sağ tərəfdə təsvir olunanları bir-bir sadalayın. Söz **O** səsi ilə başlayırsa, həmin şəkli **O** hərfi ilə birləşdirin".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** "Uşaqlar, vəsaitin yuxarısında xanalarda hərflər yazılıb. Diqqətlə baxıb həmin hərflərin içərisindən böyük və kiçik **O** hərflərini tapıb həmin xanaları nümunəyə uyğun rəngləyin".

**IV. M:** "Kənara çıxmadan xətt üzrə böyük və kiçik **O** hərflərini çəkin. Çəkərkən oxun istiqamətinə diqqət

yetirin".

**V. M:** "Tapşırıqda qırıq xətlə sözlər yazılıb. Birinci sözdəki hərflər xətt üzrə çəkilir və söz oxunur. Bu, hansı sözdür? *(ot)* Hansı şəkillə birləşdirmək lazımdır? *(ot şəkli ilə)* İkinci sözün hərfləri xətt üzrə çəkilir və bu söz də oxunur. Bu, hansı sözdür? *(limon)* İndi də şəkillərə baxıb, sözü hansı şəkillə birləşdirəcəyinizi müəyyənləşdirin".

**VI. M:** "Bu tapşırıqda dörd şəkil təsvir olunub və dörd hərf xətt üzrə yazılıb. Hərfləri oxun istiqamətinə diqqət edərək xətt üzrə çəkin. Hər şəkildə nə təsvir olunduğunu bir-bir söyləyin, hansı səslə başladığına diqqət edib, şəkli uyğun hərflə birləşdirin."

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M:** – Səhifənin yuxarısındakı şəklə baxaq. Şəkildə nə təsvir olunub? *(Uşaqların cavabları)*

Bəli, Tülkü mətbəxdə xörək bişirir. Özü də önlük geyinib. Biz bilirik ki, söylədiyiniz hər bir söz yazılarkən hərflərdən istifadə edilir.

Müəllim uşaqların şeir oxuyur:

*Suda baxıb əksinə, Özünü öydü ördək. Göldə məndən gözəli Varmı, bir deyin görək!?*

**M: –** "Uşaqlar, dinlədiyiniz bu şeirdə *özünü öymək, ördək*, həm də tülkünün geyindiyi *önlük* sözləri hansı səslə başlayır? Gəlin bir daha birlikdə təkrar edək. Birinci hansı səsi eşitdiniz? *(Uşaqların cavabları)*

**Dərketmə**

**M: –** "Gəlin *ördək* sözünü bir daha tələffüz edək. Ördək sözü **Ö** səsi ilə başlanır. **Ö** səsini tələffüz etmək üçün dodaqları azacıq irəli uzatmaq və tələffüz etmək lazımdır. Gəlin, birlikdə tələffüz edək. *(Uşaqlar tələffüz edirlər)* öööööö…..

**I. M: –** "Uşaqlar, birinci tapşırığa baxaq. Orada nə təsvir olunub? *(ördək və öküz) (Uşaqların cavabları) –* Ördək və öküz sözləri hansı səslə başlayır? (**Ö** səsi ilə) – Uşaqlar, bilirsiniz ki, hər bir hərfin həm böyük, həm də kiçik forması var".

Müəllim lövhədə böyük **Ö** hərfini izah edə-edə yazır. Bir neçə uşaq da lövhədə tapşırığı yerinə yetirir. *(Müəllim hərflərin içərisindən **Ö** hərfini çıxararaq, lövhəyə qoyur)* – Bu isə kiçik **ö** hərfidir. Onların yazılışında fərq yoxdur. İndi ardıcıllığı gözləməklə, nümunəyə əsasən **ö** hərfini xətt üzrə çəkin. Çəkərkən oxun istiqamətinə diqqət yetirin."

**M: –** "Uşaqlar, indi də tərkibində **Ö** səsi olan sözlər söyləyin. Əlinizlə havada Ö hərfini cızın. *(Uşaqlar yerinə yetirirlər).*

—İdman dəqiqəsi—

**II. M:** "İkinci tapşırıqda pazllarla hərflər verilib. Hansı hərflər verilib? *(**O** və **Ö**)* Hərfləri nümunəyə əsasən rəngləyin".

**Tətbiqetmə**

**III. – M:** "Şəkildə hərflər verilib. Onları xətt üzrə çəkin. İndi də hər birini adlandırın. Hansı hərflərdir? ***(O** və **Ö)*** İndi isə hərflərin alt tərəfində təsvir olunmuş şəkillərə baxın. Nə təsvir olunub? *(Uşaqların cavabları)* Həmin təsvirlərin hansı səslə başladığını müəyyən edin və uyğun hərflə birləşdirin".

**M:** "Uşaqlar, sizə bir şeir söyləyəcəyəm. Tərkibində **Ö** səsi olan sözləri tapın".

Ördək üzürdü göldə,
Ceyran qaçırdı çöldə.
Bir axşam görüşdülər,
Tay-dəyişik düşdülər.

Ördək üz tutdu çölə,
Ceyran baş vurdu gölə.
Çöl elə bil təndirdi,
Ördək qaçdı, təngidi.

Göl soyuqdu, dərindi,
Ceyran neyləsin indi?
Səhvi başa düşdülər,
Bir daha görüşdülər.
Ördək qayıtdı gölə,
Ceyran qayıtdı çölə.

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**12-ci həftə | EV HEYVANLARI**

| | |
|---|---|
| **Məşğələ 5-6. RİYAZİ VƏ MƏNTİQİ TƏFƏKKÜRÜN İNKİŞAFI**<br>**Mövzu: ƏVVƏL, SONRA** | **Standart:** 2.3.1; 2.3.2.<br>**İnteqrasiya:** 2.2.6; 1.1.4. |
| **Məqsəd:** | • Rəqəmlərin özündən əvvəl və sonra olanını adlandırır.<br>• Hadisələri başvermə zamanına görə müəyyən edir.<br>• Əvvəlki, sonuncu ifadələrinə əsasən işi düzgün icra edir. |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi. |
| **Resurslar:** | Şəkillər, rəngli karandaşlar, plastilin. |

**1-ci məşğələ**

**Motivasiya**

**M: –** Uşaqlar, Tülkü nə edir? Düzəltdiyi qüllənin fiqurları əvvəl harada idi? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Bəli, uşaqlar. Bu fiqurlar əvvəlcə stolun üstündə dağınıq halda idi, sonra onlardan qüllə düzəltdi. İndi birinci tapşırığa baxın. Burada nələr təsvir olunub? *(Uşaqların cavabları)* Yuxarıda verilən şəkillərin digər cütü aşağıda da var. Amma onlar bir qədər fərqlidir. Şəkildə təsvir olunanların əvvəl və sonrakı vəziyyətini tapın və birləşdirin. Sonra isə cütlərdə olan fərqi söyləyin; məsələn, sol tərəfdəki birinci şəkildə nə təsvir olunub? *(dayça)* Onun cütü hansıdır? *(at)* Bəs onların arasındakı fərq nədir? *(Dayça baladır. O biri at isə artıq böyüyüb)* Bəs sağ tərəfdəki axırıncı şəkildə nə təsvir olunub? *(dondurma)* Onun cütü hansı şəkil ola bilər? *(dondurma)* Bəs onların arasında nə fərq var? *(ikincinin bir hissəsi yeyilib.)* Onda bu dondurmaların hansı əvvəl olub? *(bütöv)* Bəs sonrakı hansıdır? *(yarımçıq olan)"* Bu qayda ilə digər şəkillər üzrə də iş aparılır.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "İkinci tapşırıqda şəkillər təsvir olunub. Hər sırada nə təsvir olunub? *(Uşaqların cavabları)* Birinci sıradakı şəkillərin ardıcıllığı düzdürmü? Nə üçün? Ardıcıllıqda olan səhvi tapın və rəqəmlə göstərməklə düzəldin. Bəs ikinci sırada nə təsvir olunub? (*Evin tikilməsi*) Şəkildə hadisələrin ardıcıllığı düz verilibmi? Nə üçün? *(Uşaqların cavabları)* Səhvi rəqəmlərlə düzgün göstərməklə düzəldin.

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M:** "Uşaqlar, mən sizə tanış olan nağıldan kiçik şeir söyləyəcəyəm:
*Undum, qoğal olmuşam, Süd ilə yoğrulmuşam. Qızarmışam yağda mən,*
*Mən qaçmışam nənədən, Babadan da qaçmışam".*

**M: –** Uşaqlar, şeirə əsasən burada hansı hadisə əvvəl baş verib? – Bəs sonra nə olub? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Birinci tapşırığa baxın. Sarı çərçivələrdə nə təsvir olunub? (*yumurta və ağac toxumu*) Sarı çərçivədəki şəklin sonrakı vəziyyəti nə ola bilər? Onları uyğun şəkillə birləşdirin; məsələn, yumurta şəklini hansı şəkillə birləşdirmək olar? *(cücə şəkli ilə)* Nə üçün? *(Uşaqların cavabları).* Bəs toxumu hansı şəkillə birləşdirmək olar? *(ağacla)*

**II. M:** "Sonuncu çərçivədə nəticə təsvir olunub. Ona uyğun olan əvvəlki mərhələni tapın və qeyd edin".

**III. M:** "Soldakı çərçivədə əvvəli, sağdakı çərçivədə nəticə göstərilir. Ortadakı çərçivədə isə vasitə verilir. Uyğun olanları birləşdirin".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**IV. M:** "Ardıcıllıqda çatışmayan bir ədədi tapın və yerinə yazın. Sağ tərəfdən yuxarıdan birinci hansı rəqəmlər yazılıb? *(5 və 6)* Sizcə, 5-dən əvvəl hansı rəqəm olmalıdır? *(4)* Nə üçün? *Digər tapşırıqlar da bu qayda ilə yerinə yetirilir.*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**12-ci həftə | EV HEYVANLARI**

| | |
|---|---|
| **Məşğələ 7–8. TƏSVİRİ FƏALİYYƏT**<br>**Mövzu: QUZUNUN DÜZƏLDİLMƏSİ** | **Standart:** 3.1.3; 3.1.5.<br>**İnteqrasiya:** 1.1.4; 2.2.6; 4.2.3. |
| **Məqsəd:** | • Kəsib-yapışdırma bacarıqları nümayiş etdirir.<br>• Sadə quraşdırma bacarıqları nümayiş etdirir.<br>• Yapma bacarıqları nümayiş etdirir. |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Şəkillər, kağızlar, plastilin, rəngli karandaşlar, pambıq, qayçı, yapışqan, rəngli kağız, fırça. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Uşaqlar, biz sizinlə ev heyvanları haqqında öyrənmişik. Ev heyvanları hansılardır? *(Uşaqların fikirləri dinlənilir.)* Qoyunun balası necə adlanır? *(quzu)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, düz dediniz, *quzu* adlanır. Biz bu gün sizinlə quzu düzəldəcəyik. Siz quzu görmüsünüzmü? Quzunu təsvir edin. *(Uşaqların cavabları)* İndi isə biz sizinlə kəsib-yapışdırma üsulu ilə quzu düzəldək". Müəllim uşaqlara əvvəldən düzəltdiyi nümunəni göstərir, sonra uşaqların gözü qarşısında izah edə-edə kəsib-yapışdırmaqla quzu düzəldir. Sonra da pambıqdan istifadə edərək, quzuya yununu əlavə edir. Düzəltdikdən sonra uşaqlara işləməyi təklif edir. Məşğələ prosesində onlara istiqamət verir, uşaqların əməkdaşlıq etmələrinə imkan yaradır.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "Uşaqlar, biz sizinlə artıq bir çox hərfləri öyrənmişik. İndi həmin hərflərdən istifadə edərək OTYEYƏN sözünü düzəldəcəyik. Siz onu karandaşla çəkə bilirsiniz". Uşaqlar yerinə yetirdikdən sonra müəllim soruşur: "Neçə hərfdən istifadə etdiniz? Hansı hərflərdən istifadə edərək sözü düzəltdiniz? *(Uşaqların cavabları)* Hansı otyeyən heyvanları sadalaya bilərsiniz?" *(Uşaqların cavabları)*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M:** "Uşaqlar, hansı vəhşi heyvanların adını çəkə bilərsiniz? Bəs hansı ev heyvanlarının adını çəkə bilərsiniz? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** – Uşaqlar, biz keçən məşğələmizdə quzu düzəltmişdik. Bu gün isə kağızdan pişik düzəldəcəyik".

İşə başlamazdan əvvəl müəllim uşaqlara əvvəlcədən hazırladığı nümunəni göstərir, sonra isə uşaqların gözü qarşısında izah edə-edə yerinə yetirir. Materiallardan istifadə qaydasını göstərir.

İşi bitirdikdən sonra hər bir uşaq öz işi haqqında danışır.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "Uşaqlar, bu tapşırıqda xətlə çəkilmiş öküz başları təsvir olunub. Xətt üzrə gedərək öküzün başını çəkin və şəkli rəngləyərək tamamlayın".

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**12-ci həftə | EV HEYVANLARI**

| Məşğələ 9–10. FİZİKİ MƏDƏNİYYƏT<br>Mövzu: TOYUQLAR BOSTANDA | Standart: 1.1.1.<br>İnteqrasiya:. 4.2.1; 4.2.2. |
|---|---|
| **Məqsəd:** | • Adi, pəncələr və daban üstə yeriş nümayiş etdirir.<br>• Hərəkətlərini koordinasiya edir.<br>• Hərəkətlərində cəldlik və çeviklik nümayiş etdirir. |
| **İş üsulları:** | Müzakirə, süjetli-rollu oyunlar. |
| **İş forması:** | Kollektiv, qruplarla və fərdi iş. |
| **Resurslar:** | Toplar. |

**1 və 2-ci məşğələ**

**I. İsinmə hərəkətləri** (5 dəq.)

– adi, əllər yuxarıda pəncələr üstə və əllər arxada dabanlar üzərində yeriş.
– qolları dirsəkdən bükmək, irəli-geri hərəkət etdirərək dizləri hündürə qaldırmaqla yeriş;
– siqnala uyğun yeriş və yürüşün əvəzlənməsi;
– bir sıradan iki sıraya düzülmək;
– əlləri yanlardan yuxarı qaldıraraq, nəfəs almaq və nəfəsi ağızdan buraxmaq (4–5 dəfə).

**II. Ümuminkişafetdirici hərəkətlər** (20 dəq.)

**1. "İrəli-geri"**

ç.v. – ayaqlar çiyin bərabəri aralı, əllər boyunun arxasında daraqlanmış, qollar yanlarda.
*1 sayında* sağ qolu irəli-geri hərəkət etdirmək;
*2 sayında* çıxış vəziyyətini almaq.
*3 sayında* həmin hərəkəti sol qolla yerinə yetirmək;
*4 sayında* çıxış vəziyyətinə qayıtmaq (5-6 dəfə).

**2. "Ətrafa dön"**

ç.v. – ayaqlar çiyin bərabəri aralı, əllər boynun arxasında.
*1 sayında* əlləri boynun arxasına qoyaraq sağ tərəfə dönmək;
*2 sayında* çıxış vəziyyətini almaq.
*3 sayında* həmin hərəkəti sol tərəfə icra etmək;
*4 sayında* çıxış vəziyyətinə qayıtmaq (5-6 dəfə).

**3. “Əllər beldə”**
ç.v. – əlləri belə düz dayanmaq.
*1–2 sayında* çömələrək, 2 əllə dizləri qucaqlamaq;
*3–4 sayında* çıxış vəziyyətinə qayıtmaq (5-6 dəfə).
**4. “Qoy və götür”**
ç.v. – düz dayanmaq, əllər yanlarda, ayaqlar azca aralı.
*1 sayında* əyilərək əlləri sağ ayağın barmaqlarına çatdırmaq;
*2 sayında* çıxış vəziyyətini almaq.
*3 sayında* əlləri sol ayağın barmaqlarına çatdırmaq;
*4 sayında* çıxış vəziyyətinə qayıtmaq (5-6 dəfə).
**5. “Əllər yanlarda”**
ç.v. – qaməti düz saxlamaqla ayaqlar bir yerdə, əllər beldə.
*1–2 sayında* əlləri yanlara salmaq və ayaqları bir qədər aralı qoyaraq yerində hoppanmaq;
*3–4 sayında* çıxış vəziyyətinə qayıtmaq (5-6 dəfə).

**6. “Hoppanma”.** ç.v. – Qaməti düz saxlamaqla ayaqları birləşdirib əlləri belə qoymaq. Müvazinəti düz saxlamaqla pəncələr üstə yüngül hoppanmaq. Hoppanmanı yerişlə növbələşdirmək (3 dəfə).

**Əsas hərəkətlər.**

**Atıb-tutma hərəkətləri.** Topu 2 əllə yuxarı atıb-tutmaq.

Müəllim 3–4 uşağa top verir. Həmin uşaqlar topları iki əllə yuxarı atıb-tutmalıdırlar. Uşaqlar topları elə atmalıdırlar ki, top yerə düşməsin.

Müəllim uşaqların topun düşəcəyi yerin istiqamətini düzgün təyin etmələrinə nəzarət etməlidir. Bütün uşaqlar növbə ilə hərəkəti icra etməlidirlər.

**Hərəkətli oyun: “Toyuqlar bostanda”.**

Otağın bir tərəfində “bostan” müəyyən edilir. Yerə kvadrat şəklində 4 ağac basdırılır, ətrafına ip bağlanır. İpi elə bağlamaq lazımdır ki, uşaqlar onun altından keçə bilsinlər. “Bostan”ın yaxınlığında gözətçinin evi müəyyən edilir. Müəllim “gözətçi”ni, uşaqlar isə “toyuqlar”ı təmsil edirlər. Müəllim – “bostan gözətçisi” evində yaşayır. Uşaqlar – “toyuqlar” isə yavaş-yavaş ipin altından keçib “bostan”a girirlər. “Toyuqlar” “bostanda” olan “toxumları eşələyib dənləyir” və qaqqıldaşırlar. Bu zaman “bostan gözətçisi” yuxudan oyanır və “kiş-kiş” edərək əl çalır. “Toyuqlar” “gözətçi”nin səsini eşidib meydançanın müxtəlif yerlərinə qaçırlar. “Gözətçi” tutduğu “toyuqlar”ı evinə aparır.

**III. Sakitləşdirici hərəkətlər** (5 dəq.)
***“Üzgüçülər”***
***Çıxış vəziyyəti:*** ayaqlar aralı, qollar aşağı salınmış vəziyyətdə.
*1.* Nəfəsalma – sol əli qaldırmaq.
*2.* Nəfəsvermə – sol əli qabağa, aşağı hərəkət etdirmək.
*3.* Nəfəsalma – sağ əli qaldırmaq.
*4.* Nəfəsvermə – sağ əli irəli, aşağı hərəkət etdirmək və ç.v.-nə qayıtmaq.

| | | |
|---|---|---|
| | | **12-ci həftə \| EV HEYVANLARI** |
| **Məşğələ 11–12. MUSİQİ**<br>**Mövzu: CÜCƏLƏRİM** | | **Standart:** 3.1.7; 3.1.8.<br>**İnteqrasiya:** 2.2.1; 4.2.2. |
| **Məqsəd:** | • Musiqinin xarakterini və tempini müəyyən edir.<br>• Xorda oxumaq bacarıqları nümayiş etdirir.<br>• Musiqinin ritminə və məzmununa uyğun hərəkətlər yerinə yetirir. | |
| **İş üsulları**: | Əqli hücum, müzakirə, suallar. | |
| **İş forması**: | Kollektiv və fərdi iş. | |
| **Resurslar:** | Kompüter, disk, şəkillər, videoçarx (“Cücələrim”) | |
| **Musiqi materialları:** | “Marş” (M.Əhmədov), “Torağay” (M.İ.Qlinka), “Cücələrim” mahnısı (Q.Hüseynli /T.Mütəllibov), “Turacı”(Azərbaycan xalq rəqsi), “Türksayağı marş” (Rondo) (V.A. Motsart) | |
| **Alternativ material:** | **Dinləmə:** “Köhlən atım” (C.Cahangirov/A.Aslanov), “Keçi” (O.Zülfüqarov/ Z.Cabbarzadə), “Çəpişim” (O.Zülfüqarov/Z.Cabbarzadə)<br>**Mahnı:** “Pişiyim” (M.Nəsirbəyov/M.Seyidzadə), “Mənim dəcəl buzovum” (A.Rzayeva/ C.Məmmədov), “Xoruz (O.Zülfüqarov/A.Şaiq), “Quzum” (F.Əmirov, Z.Cabbarzadə) | |

**1-ci məşğələ**

**1. Marş.** M. Əhmədov. "Marş"

**2. Dinləmə.** Müəllim Azərbaycan xalq musiqisi və digər xalqların musiqisi barədə qısa məlumat verir. Əvvəl görkəmli rus bəstəkarı M. Qlinkanın "Torağay" əsəri haqqında danışır. Sonra onlara tanış "Turacı" Azərbaycan xalq rəqsini səsləndirir. Hər iki əsəri dinlədikdən sonra müəllim uşaqlara suallarla müraciət edir: – Uşaqlar, dinlədiyiniz birinci əsərin xarakteri və tempi necə idi? – "Turacı" xalq rəqsi hansı xarakter və tempdədir? – Hər iki əsərin temp və xarakterində hansı oxşar cəhətləri eşitdiniz? *(Uşaqların cavabları)*

**3. Mahnı.** "Cücələrim" mahnısı (musiqisi Q.Hüseylinin, sözləri T.Mütəllibovun) şifahi yolla öyrədilir. Müəllim "solo" və "xor" anlayışı, bəstəkar Q. Hüseynli haqqında qısa məlumat verir, şəklini göstərir və "Cücələrim" mahnısının tarixindən danışır. Bu zaman həmin mahnının videoçarxını da nümayiş etdirə bilər. Uşaqlar mahnını dinlədikdən (və ya videoçarxa baxdıqdan) sonra mahnı hissə-hissə, frazalarla öyrədilir. Tələffüzü çətin olan sözlər və melodiya üzərində iş aparılır. Sonda "Cücələrim" mahnısının öyrənilmiş hissəsi xorla ifa edilir, məzmunu və xarakteri müzakirə olunur.

**4. Musiqili-ritmik hərəkətlər.** "Cücələrim" mahnısı təkrar səsləndirilir və ifa olunur. Uşaqlar musiqinin sədaları altında musiqinin tempinə və ritminə uyğun mahnının məzmununu səhnələşdirirlər.

Məşğələ ümumiləşdirilərək yekunlaşdırılır.

**Musiqi materialı:**

**"Cücələrim"**

| | | |
|---|---|---|
| ***Xor:*** *Cip, cip, cücələrim*<br>*Cip, cip, cip, cip cücələrim.*<br>*Mənim qəşəng cücələrim,*<br>*Tükü ipək cücələrim.*<br>***Solo:*** *Gözləyirəm tez gəliniz*<br>*Göy çəməndə dincəliniz.*<br>***Solo:*** *Ay mənim*<br>***Xor:*** *Cücələrim,*<br>***Solo:*** *Ay mənim*<br>***Xor:*** *Cücələrim,*<br>*Mənim qəşəng cücələrim.* | ***Xor:*** *Cip, cip, cücələrim*<br>*Cip,cip, cip, cip, cücələrim.*<br>*Mənim qəşəng cücələrim,*<br>*Tükü ipək cücələrim.*<br>***Solo:*** *Nə yesəniz, mən verərəm*<br>*Su verərəm, dən verərəm.*<br>***Solo:*** *Ay mənim*<br>***Xor:*** *Cücələrim,*<br>***Solo:*** *Ay mənim*<br>***Xor:*** *Cücələrim,*<br>*Mənim qəşəng cücələrim.* | ***Xor:*** *Cip, cip, cücələrim,*<br>*Cip,cip, cip, cip, cücələrim.*<br>*Mənim qəşəng cücələrim,*<br>*Tükü ipək cücələrim.*<br>***Solo:*** *Arzum budur boy atasız,*<br>*Ananıza tez çatasız.*<br>***Solo:*** *Ay mənim*<br>***Xor:*** *Cücələrim,*<br>***Solo:*** *Ay mənim*<br>***Xor:*** *Cücələrim,*<br>*Mənim qəşəng cücələrim.* |

**2-ci məşğələ**

**Marş.** "Marş" (M.Əhmədov)

**Mahnı.** "Cücələrim" mahnısı (Q.Hüseynli /T.Mütəllibov)

**Səhnələşdirmə.** "İtlə insan necə dost oldular" (resurs: oyuncaq it, canavar, qurbağa, ayı maskaları)

| № | Musiqi materialı | Fəaliyyət |
|---|---|---|
| **1, 2, 3, 4, 5, 6** | "Türksayağı marş" | İt narahat halda gəzişir. Canavar ona yaxınlaşır. İtlə canavar əl-ələ verib-oynayırlar, bir qabdan yemək yeyirlər. Qurbağa hoppana-hoppana onların yanından keçir, it hürür, canavar qorxur. İt fikirləşir və Canavarı tərk edir.<br>İt Ayının yanına gəlir. Əl-ələ verib-oynayırlar, bir yerdə yemək yeyirlər. İlan İt və Ayının yanından sürünüb keçir. İt hürür, ayı diksinir, oyana-buyana baxaraq qorxur. İt fikirləşir və ayını tərk edir. İnsan gəlir. İnsan itə yemək verir, ona yuva qurur, onu tumarlayır. İnsan gedir, it də onun yanında addımlayır. |

**13-cü həftə | GÜNƏŞ VƏ PLANETLƏR**

| **Məşğələ 1. ƏTRAF ALƏMLƏ TANIŞLIQ**<br>**Mövzu: GÜNƏŞ SİSTEMİ** | **Standart:** 2.1.5; 2.1.6.<br>**İnteqrasiya:** 2.2.1; 2.2.6. |
|---|---|

| | |
|---|---|
| **Məqsəd:** | • Səma cisimlərini adlandırır.<br>• Günəş və ulduzların əhəmiyyətini söyləyir.<br>• Kosmosla bağlı sadə məlumatlara malik olduğunu nümayiş etdirir. |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Günəş və planetlər təsvir olunmuş şəkil, qlobus, karandaşlar. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, kitabınızın yuxarısında nə təsvir olunub? (*qlobus, teleskop*) Bunlar nə üçündür? *(Uşaqların*

*fikirləri dinlənilir.)*

**Dərketmə**

**I. M: –** Uşaqlar, siz səyahət etməyi sevirsiniz? *(Uşaqların cavabları)* Əlbəttə, biz hamımız müxtəlif yerlərə səyahət etməyi sevirik. Bu gün mən sizinlə sizə məlum olmayan yerə səyahət edəcəyik. Sizcə, haraya səyahət edəcəyik? Sizə tapmacalar söyləyəcəyəm. Bu tapmacalar hara səyahət edəcəyimizi tapmaqda sizə kömək edəcək.

*Axşam gedər, səhər gələr. Hər tərəfə işıq saçar (Uşaqların cavabları – Günəş)*

**M:** – İndi isə növbəti tapmacaya qulaq asın".

*Qaranlıq göydə durar, Parıldayıb sayrışar. Səhər açılan kimi, Gözdən itib, yox olar (Uşaqların cavabları – Ulduzlar)*

**M:** "Uşaqlar, mən sizə şəkillər göstərəcəyəm. Burada həm gündüz, həm də gecə səması təsvir olunub. Bu şəkillərə baxın. Onlar arasında nə fərq var?" *(Uşaqların cavabları) (Gündüz səmada günəş, gecə isə ulduzlar yaxşı görünür)*

**M:** "Afərin, uşaqlar! Siz öz fikirlərinizi söylədiniz. Çox-çox illər bundan əvvəl alimlər bu sual ətrafında düşünüblər və buna cavab axtarmağa çalışıblar. Bu işdə onlara xüsusi cihaz kömək edib. Sizcə, bu hansı cihaz ola bilər? (*Uşaqların fərziyyələri dinlənilir*) *(teleskop)* Bəli, teleskopun köməyi ilə alimlər səmanı öyrəniblər və öz suallarına cavab tapıblar. Məlum olub ki, Günəş də gecələr göydə gördüyümüz ulduzlar kimi ulduzdur. Günəş ulduzu – çox nəhəng isti şardır. Bu şar bütün canlılar – insanlar, heyvanlar, bitkilər üçün çox vacib olan istilik və işıq saçır. Günəş ulduzunun da öz ailəsi var, bunlar planetlərdir. Planetləri səmada görmək olar. Çünki Günəş onları işıqlandırır. Günəş şüaları planetdən əks olunduğu üçün onları Yer planetindən görmək mümkündür. Onlar parlaq ulduzlar kimi işıq saldıqlarına görə gecələr yaxşı görünür. Onlar ölçülərinə görə müxtəlif olub Günəşdən kiçikdir. Bu planetlərin sayı 9-dur. Mən indi onları ardıcıl sadalayıb tabloda göstərəcəyəm: *Merkuri, Venera, Yer, Mars, Yupiter, Saturn, Uran, Neptun, Pluton.* Bunlara başqa sözlə, *Günəş sistemi* də deyirlər".

**M:** "Bəs niyə Günəş sistemi adlandırılır? *(Çünki bütün planetlər Günəşin ətrafında fırlanır.)* Bəs necə olur ki, onlar biri-biri ilə toqquşmur? Çünki onların hər birinin öz yolu vardır ki, bu yolla Günəşin ətrafında fırlanır. Planetlərin hərəkət etdiyi yol *orbit* adlanır. Bizim yaşadığımız planet Günəşin ətrafında fırlanan planetlərin üçüncüsüdür. Bu, bizim haqqında çox şey bildiyimiz Yer planetidir. Bizim planet digərlərindən nə ilə fərqlənir?" *(Uşaqların cavabları)*

Müəllim qlobusu nümayiş etdirir: "Bu nədir? Bizim planet necə adlanır? *(Uşaqların cavabları)* Bizim planetimiz çox gözəldir. Yer kosmosdan parıldayan mavi şar kimi görünür. Ona görə mavi görünür ki, bizim planetin çox hissəsi okean və dənizlərdən ibarətdir. Kosmosdan baxdıqda, Yerdəki yüksək dağlar, yamyaşıl meşələr və sarı səhralar da görünür. Yer yeganə planetdir ki, orada həyat vardır. Yerdə olanları adlandırın. *(Uşaqların fikirləri dinlənilir)* Yerdə təkcə dağlar deyil, *hava, oksigen* var ki, onunla nəfəs alırıq; *su* var ki, bundan bütün canlılar istifadə edirlər. Yer bizim evimizdir".

**M:** "Uşaqlar, şəklə diqqətlə baxın. Bizim planetin peyki var. Uşaqlar, sizcə, peyk nədir? Bizim planetin peyki necə adlanır? *(Peyk – planet ətrafında əyri trayektoriya boyunca hərəkət edən hər hansı bir obyektdir. Ay – Yerin təbii peykidir.)* Uşaqlar, Ayın forması necədir? *(Uşaqların cavabları)* Düzdür, Ay gah dairəvi, gah da yarımdairəvi olur. Sizcə, Ay böyükdür, yoxsa Yer? Bəs niyə ölçüsü kiçik olan Ay bizə ulduzlardan daha böyük görünür? *(Çünki Yerə daha yaxındır)* Ay Yerin ətrafında fırlanır".

**M:** "Yer kürəsindən *kosmosu* öyrənmək üçün teleskopdan istifadə edilir. Kosmosa nə ilə uçmaq olar? *(raketlə)* Bəli, raketlə kosmosa uçanlar *kosmonavt* adlanır. Onlar uçarkən xüsusi paltar – *skafandr* geyinirlər. Bu paltar onları xarici təsirlərdən qoruyur, rahat nəfəs almalarını təmin edir. Bütün insanları kosmosda nə olduğunu bilmək çox maraqlandırırdı. Belə bir cəsur adam tapıldı. O, kosmosa, ulduzlara doğru uçdu. Bu kosmonavtın adı Yuri Qaqarin idi".

—İdman dəqiqəsi—

**II.** Müəllim uşaqlara suallarla müraciət edir: – Biz hansı planetdə yaşayırıq? – Günəş nədir? – Günəş olmasa, nə baş verər? (*Uşaqların cavabları*) (*yardımçı suallar:* – Ay böyükdür, yoxsa ulduzlar? Nə üçün?) (*Uşaqların cavabları*)

**Tətbiqetmə**

**III. M:** "Şəkildə müxtəlif şəkillər təsvir olunub. Mən həmin təsvirlərin bir-bir adını çəkəcəyəm. Adı çəkilən təsviri tapın və haşiyəyə alın."

**IV. M:** "Bu tapşırıqda dörd çərçivədə şəkillər və şəkillərə uyğun suallar təqdim olunur. Mən sualları verəcəyəm, siz isə həmin suallara cavab verib uyğun şəkli haşiyəyə alın".

**M:** "Beləliklə, biz Günəş sistemi ilə tanış olduq və öyrəndik ki, doqquz planet Günəş ətrafında fırlanır. Günəş planetlərə istilik və işıq verir. Günəş sayəsində Yer üzündə həyat var."

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| Məşğələ 2. BƏDİİ TƏFƏKKÜRÜN İNKİŞAFI<br>Mövzu: AY NİYƏ İTİR | Standart: 2.2.2; 2.2.6.<br>İnteqrasiya: 2.1.2; 2.1.6. |
|---|---|

| | |
|---|---|
| **Məqsəd:** | • Mövzu əsasında danışır.<br>• Şəkil əsasında fikrini sadə şəkildə ifadə edir.<br>• Nitqində əlamət bildirən sözlərdən istifadə edir. |
| **İş üsulları:** | Müzakirə, suallar, nağıletmə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Hekayənin mətni, şəkillər. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M: –** Uşaqlar, vəsaitinizdə şəkillərə diqqətlə baxın. Şəkildə nə təsvir olunub? Sizcə, burada söhbət nədən gedə bilər? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M: "**Uşaqlar, mən sizə şəkildə təsvir olunanlara aid **"Ay niyə itir**" hekayəsini söyləyəcəyəm. Siz isə şəkillərə baxaraq mətni dinləyin. Hər şəkil mətnin bir hissəsini əks etdirir. Mən deyəndə dairəni rəngləməklə dinlədiyiniz məlumatları əks etdirən şəkli qeyd edin".

1

"Son günlər Sincab çox həyəcanlı idi. Maral soruşdu:

– Nə olub, Sincab qardaş? Niyə ora-bura vurnuxursan?

– Gecə üçün ərzaq tədarükü görmək lazımdır, – deyə Sincab cavab verdi. – Sən heç fikir verməmisən? *Ay gündən-günə kiçilir.* Belə getsə, bir neçə gündən sonra Ay yoxa çıxacaq, meşə zil qaranlıq olacaq. Göz gözü görməyəcək. Gecələr necə yemək tapacağıq?!

Maral cavab verdi: – Yox, heç fikir verməmişəm. Məncə, sən uydurursan".

**M: –** Eşitdiyinizə əsasən şəkildə uyğun hissəni qeyd edin.

2

"Üç gündən sonra qaranlıq düşən vaxt onlar yenə görüşdülər. Sincab Marala dedi:

– *Bir Aya bax; az qala yarısı qalıb.* Gördün? Mən deyən düz çıxır."

**M:** – Bu məlumata əsasən şəkildə uyğun hissəni qeyd edin.

3

"Maral gördü ki, Sincab doğru deyir. Tez Tülkünün yanına qaçdı:

– Tülkü lələ, Ay yoxa çıxır. Gecə üçün yemək tədarükü görmək lazımdır.

– Hanı? – Tülkü göyə baxdı. Ay yerindədir ki...

– Hə yerindədir. Ancaq o kiçilir. *Üç gün bundan qabaq böyük idi.* Özüm görmüşdüm".

**M:** – Məzmuna uyğun hissəni qeyd edin.

4

"Bir azdan bütün meşəyə xəbər yayıldı: "Ay yoxa çıxır!" Hamı iclasa toplaşdı. Bütün heyvanlar göyə baxırdı. Qaranlıq səmada Ayın kiçik bir hissəsi qalmışdı. Ayı dedi:

– Məgər Ay belə olmur?

Çaqqal cır səslə çığırdı:

– Yox, yox. Ay dəyirmi olur.

Şir dedi:

– Yaxşı, sakit olun! Gəlin gedək Bayquşun yanına. Ağıllıdır, bir məsləhət verər".

**M:** – Məzmuna uyğun hissəni qeyd edin.

5

"Heyvanlar Bayquşun yanına gəldilər. Bayquşa əhvalatı danışdılar. Bayquş dedi:

– Sizin heç dünyadan xəbəriniz yoxdur ki!... Yaxşı, mən sizə Ayın nəyə görə kiçildiyini başa salaram".

**M:** – Uyğun hissəni qeyd edin.

6

"Bayquş üç alma göstərib onları budaqdan yanaşı asdı. Sağ tərəfdəki almanı göstərib dedi:

– Baxın, bu Günəşdir, ortadakı Yerdir, sağ tərəfdəki də Aydır. Biz indi Yerin Aya tərəf olan hissəsindəyik. *Günəş əks tərəfdə olduğuna görə bura qaranlıqdır.* Ancaq Günəşin şüaları Ayın bir hissəsini işıqlandıra bilir. Qalan hissəsinə isə Yerin kölgəsi düşür. Ona görə də bizə elə gəlir ki, Ay kiçilib".

**M:** – Məzmuna uyğun hissəni qeyd edin.

**II.** Müəllim uşaqlara suallarla müraciət edir:

– Sincab niyə narahat oldu?

– Bayquş Ayın itməsini necə izah etdi?

– Siz Ayın formasının dəyişməsini görmüsünüzmü? *(Uşaqların cavabları) (yardımçı suallar: – Ay Yerin nəyidir? – Ayın forması niyə dəyişir? – Ay böyükdür, yoxsa ulduzlar?)*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** "Hekayənin ardıcıllığını tapın və və şəkillər üzrə danışın. Danışdıqca uyğun rəqəmləri qoyun". *(Uşaqların cavabları)*

**IV. M:** "Şəkillərə baxın və suallara cavab verin. Heyvanlardan hansı Ayın itməsini birinci gördü? Ayın itməsinin səbəbini onlara kim izah etdi?"

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | 13-cü həftə \|GÜNƏŞ VƏ PLANETLƏR |
|---|---|
| **Məşğələ 3–4. SAVAD TƏLİMİNƏ HAZIRLIQ VƏ NİTQ İNKİŞAFI**<br>**Mövzu: E(e) SƏSİ VƏ HƏRFİ** | **Standart:** 2.2.4; 2.2.5.<br>**İnteqrasiya:** 1.1.4; 2.1.2. |

| | |
|---|---|
| **Məqsəd:** | • Mövzu əsasında danışır.<br>• Şəkil əsasında fikrini sadə şəkildə ifadə edir.<br>• Nitqində əlamət bildirən sözlərdən istifadə edir. |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Şəkillər, karandaşlar, marker, lövhə və əlifbanın hərfləri. |

**1-ci məşğələ**

**Motivasiya M:** – Səhifənin yuxarısındakı şəklə baxaq. Şəkildə nə təsvir olunub? Sizcə, burada söhbət nədən gedə bilər? Uşaqlar, sinfimizdə kimin adı **E** səsi ilə başlayır? *(Uşaqların cavabları)*

– Bilirsiniz ki, söylədiyiniz hər bir söz yazılarkən hərflərdən istifadə edilir.

**Dərketmə**

**I. M:** "**E** hərfindən də digər hərflər kimi sözləri yazanda istifadə olunur. Uşaqlar, sarı qutuya diqqətlə baxaq. Burada həm böyük **E,** həm də kiçik **e** hərfi təsvir olunub. **E** böyük hərfdir".

*E darağa oxşayır, Dişi tökülüb. Amma üççə dişi qalıbdı, Onunla çox oynama!"*

**M:** "Uşaqlar, **E** hərfi ilə tanış olaq. Baxın, burada böyük **E** hərfi təsvir olunub. Hərfin ətrafında isə şəkillər var. Sol tərəfdə yuxarıda nə təsvir olunub? *(Uşaqların cavabları) – Ev* sözü hansı səslə başlayır? *(Uşaqların cavabları)* – Bəs hərfin sağında yuxarıda nə təsvir olunub? – *Eynək* sözü hansı səslə başlayır? (**E**) Bu qayda ilə hər şəkildə nə təsvir olunduğunu söyləyin və bu sözün hansı səslə başlandığına diqqət edin. *(Uşaqların cavabları)* Sözlər hansı səs ilə başlayır? *(Uşaqların cavabları)* Bu gün biz sizinlə yeni bir hərf və səslə tanış olacağıq. Bu, **E** səsi, **E** hərfidir. Bu, **E**-dir. (hərfi əlifbanın hərflərinin arasından götürüb, lövhəyə qoyur və uşaqların diqqətini ona cəlb edir). Gəlin birlikdə **E** səsini tələffüz edək: – eeeeeeee. "**E**" hərfini rəngləyin.

**II.** Müəllim lövhədə **E** hərfini izah edə-edə yazır. Sonra bir neçə uşaq lövhədə tapşırığı yerinə yetirir. Digər uşaqlar vəsaitdə xətt üzrə **E** hərfini çəkirlər.

**M:** "Kənara çıxmadan **E** hərfini xətt üzrə çəkin. Çəkərkən birinci tapşırıqdakı oxun istiqamətinə diqqət edin".

**M:** "Uşaqlar, **E** hərfinin ətrafında şəkillər təsvir olunub. **E**-nin hər tərəfində neçə şəkil var? Sol tərəfdəki şəkildə təsvir olunanları adlandırın. Birinci şəkil nədir? *(elan)* **Elan** sözü hansı hərflə başlayır? *(**E** səsi ilə)* Onu **E** hərfi ilə birləşdirmək olar? *(Uşaqların cavabları)* Sağ tərəfdə ikinci şəkildə təsvir olunanı adlandırın. *(Ərik)* Söz hansı səslə başlayır? *(**Ə** səsi ilə)* Bu şəkli **E** hərfi ilə birləşdirmək olarmı? *(Uşaqların cavabları)* Nə üçün?".

Digər şəkillər də bu qayda ilə işlənilir. Müəllim uşaqlara havada **E** hərfini cızmağı təklif edir. *(Uşaqlar yerinə yetirir)*

**III. M:** "Uşaqlar, vəsaitin yuxarısında xanalarda sizin öyrəndiyiniz hərflərdən sözlər yazılıb. Hərfləri adlandırın. **E, Y, N, Ə** və **K** hərflərini nümunəyə uyğun rəngləyin. Sonra isə sözü oxuyun".

—İdman dəqiqəsi—

**IV. M:** "Kənara çıxmadan xətt üzrə hərfləri çəkin. Birinci tapşırıqdakı oxun istiqamətinə bir daha diqqət edin".

**Tətbiqetmə**

**V. M:** "Kitabınızda xətlər üzrə sözlər yazılıb. Sözlərdəki birinci hecanın hərflərini qırmızı, ikincini isə göy karandaşla çəkin. Çəkdikdən sonra sözləri oxuyun. Sözlərin aşağı hissəsində təsvir olunmuş şəkilləri uyğun sözlə birləşdirin". *(Bitirdikdən sonra sözlərin oxunması)*

**VI. M:** “Şəkildə nə təsvir olunub? *(beşik)* Sapa düzülmüş muncuqlar həmin sözün səslərini əvəz edir. Gəlin birinci səsi tələffüz edək. Hansı səsdir? *(B)*. Deməli, yaşıl muncuq hansı səsi əvəz edir? *(B səsini)* Bəs ikinci hansı səs hansıdır? *(E)* Sarı muncuq hansı səsi əvəz edir? *(E səsini). Bu qayda ilə sözün bütün hərflərini tələffüz edib tapşırığı yerinə yetirin.)* Müəllim uşaqlara **e** səsi ilə başlayan sözlər söyləməyi təklif edir. Məşğələ boyu uşaqlar rəğbətləndirilir. Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M:** – *El bilir ki, sən mənimsən,*
*Yurdum, yuvam, məskənimsən!*

Uşaqlar, *El* sözü hansı səslə başlayır? *(Uşaqların cavabları)*

Verilmiş əlifbanın hərflərinin arasından böyük **E** hərfi götürülərək, lövhəyə qoyulur. **E** səsinin birlikdə və tək-tək tələffüz edilməsi üzrə iş aparılır. Müəllim uşaqların diqqətini kiçik **e** hərfinə yönəldərək deyir: – Uşaqlar, bilirsiniz ki, hər bir hərfin həm böyük, həm də kiçik forması var.

**Dərketmə**

**I. M:** “Uşaqlar, şəklə diqqətlə baxın. Şəkildə nə təsvir olunub? *(Uşaqların cavabları)*

– Bu, kiçik **e** hərfidir. İndi nöqtədən başlayaraq, oxun istiqamətini gözləməklə, nümunəyə əsasən kiçik **e** hərfini xətt üzrə çəkin”. Müəllim lövhədə kiçik **e** hərfini izah edə-edə yazır. Sonra bir neçə uşaq lövhədə tapşırığı yerinə yetirir. Digər uşaqlar vəsaitdə xətt üzrə hərfin kiçik formasını yazırlar.

**M:** “**E** səsi ilə başlayan sözlər söyləyin. Sözün ortasında **e** səsi işlənən sözlər söyləyin”. *(Uşaqların cavabları)*

**M:** “Sözlər həm böyük hərflərlə, həm də kiçik hərflərlə yazılır. Həm böyük, həm də kiçik hərflə yazılarkən sözün mənası dəyişmir”.

**II. M:** “Burada pazllarda kiçik **a, ə** və **e** hərfləri təsvir olunub. Hərfləri adlandırın və hərflərin yerləşdiyi xanaları nümunəyə əsasən rəngləyin. Rənglədikdən sonra bir daha oxuyun”.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** “Kitabda 4 çərçivədə sözlər yazılıb. Bunlar müəyyən ədədlərin sözlə yazılışıdır. Gəlin birinci çərçivədəki sözü oxuyaq. Birinci hansı hərfdir? *(İ)* Bəs ikinci hansı hərfdir? *(K)* Üçüncü hərf hansıdır? *(İ)* İndi bu hərfləri birlikdə tələffüz edək. Hansı söz yazılıb? *(iki)* Həmin sözün altında hansı rəqəm yazılmalıdır? *(2)*. Bəli, orada sözlə iki yazıldığı üçün, rəqəmlə də 2 yazırıq”. *(Digər çərçivələr üzrə də iş bu qayda ilə aparılır)*

**IV. M:** “Şəkildə hərflər verilib. Neçə hərf verilib? *(4)* Həmin hərflərin bir hissəsi təsvir olunmayıb. Əvvəlcə birinci hərfi tamamlayaq. Hansı hərf oldu? Adlandırın *(**ə**)*. İndi ikinci hərfi tamamlayaq. Hansı hərf oldu? *(**e**)*. Növbəti hərfi tamamlayaq. Nə oldu? *(**ö**)*. Sonuncu hərfi tamamlayaq. Hansı hərf oldu? Adlandırın *(**a**)*. Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| | **13-cü həftə \|GÜNƏŞ VƏ PLANETLƏR** |
| **Məşğələ 5-6. RİYAZİ VƏ MƏNTİQİ TƏFƏKKÜRÜN İNKİŞAFI**<br>**Mövzu: 11 VƏ 12 ƏDƏDLƏRİ, GÜNÜN HİSSƏLƏRİ** | **Standart:** 2.3.1.<br>**İnteqrasiya:** 2.2.6; 4.2.3. |

| | |
|---|---|
| **Məqsəd:** | • 11 və 12 rəqəmini adlandırır.<br>• Rəqəmə əsasən sayı müəyyənləşdirir. |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Şəkillər, karandaşlar. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, vəsaitin yuxarısında nə təsvir olunub? *(Uşaqların cavabları)* – Hansı rəqəmlər təsvir olunub? – Sarı qutuya baxaq. Rəqəmin altında neçə dairə var? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** “Bəli, say ifadə olunmuşdur. Tapşırığa baxın. Hansı rəqəmlər təsvir olunub? *(Uşaqların cavabları)* Birinci çərçivədə verilmiş rəqəmləri xətt üzrə çəkin. Hansı ədədləri çəkdiniz? *(1 və 0)* 1 ilə 0 birlikdə 10 olur. Neçə olur? *(10)* İki əlimizdə birlikdə neçə barmaq var? Gəlin sayaq *(10)*. İndi ikinci çərçivədə verilmiş rəqəmləri xətt üzrə çəkin. Hansı ədədləri çəkdiniz? *(1* və *1)* 1 ilə 1 birlikdə 11 olur. Gəlin bir daha təkrar edək *(11)* Üçüncü çərçivədə verilmiş rəqəmləri çəkin. Hansı ədədləri çəkdiniz? *(1* və *2)* 1 ilə 2 birlikdə 12 olur. Gəlin bir daha təkrar edək *(12)*. İndi isə rəqəmlərin üst

tərəfində verilmiş dairələri sayaq. Birinci şəkildə neçə dairə oldu? *(11)* Onu hansı rəqəmlə birləşdirmək lazımdır? *(11 rəqəmi ilə)* İkinci şəkildə neçə dairə var? *(10)* Onu hansı rəqəmlə birləşdirmək lazımdır? *(10 rəqəmi ilə)* İndi isə üçüncü şəkildəki dairələri sayaq. Neçə dairə oldu? *(12)* Onu hansı rəqəmlə birləşdirmək lazımdır? *(12 rəqəmi ilə) (Uşaqların cavabları)*"

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "Şəkildə xanalarında müxtəlif rəqəmlər yazılmış cədvəl təsvir olunub. Tülkü bu yolu elə getməlidir ki, rəqəmlərin ardıcıllığı pozulmasın. Ardıcıllığı müəyyən edərək, xanaları sarı karandaşla rəngləmək lazımdır. Şəkildə 1, 2, 3 yazılmış xanalar sarı karandaşla rənglənib. Növbəti hansı rəqəm olmalıdır? *(4)* Düzdür. Siz hansı damanı rəngləməlisiniz? *(4 yazılmış xananı)* 12-dək ədədlər bu qayda ilə müəyyənləşdirilir və sarı karandaşla rənglənir". Müəllim başqa nümunələr üzrə də bu qayda ilə möhkəmləndirmə aparır. Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

Müəllim uşaqların diqqətini kitabın yuxarısındakı şəkillərə cəlb edir və nə təsvir olunduğunu soruşur. *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, günün müxtəlif vaxtlarını əks etdirən şəkillər verilmişdir. Şəkillərin məzmununa əsasən günün vaxtını müəyyən edin və ardıcıllığı rəqəmlərlə işarə etməklə göstərin".

**II. M:** "Şəkildə evciklər təsvir olunub. Neçə evcik təsvir olunub? Ardıcıllığı müəyyən edin və növbəti evcikləri ona uyğun rəngləyin".

**III. M:** "Uşaqlar, I tapşırığa baxın. Hansı şəklin yeri düz deyil? Düzgün ardıcıllıq necə olmalıdır? Şəkillərin belə yerləşməsi ardıcıllığı nə üçün pozur?

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**IV. M:** "Kitabınızda günün vaxtlarını əks etdirən təsvirlər verilmişdir. Şəkillərin məzmununa əsasən ardıcıllığı müəyyən edin və rəqəmlə göstərin. Birinci şəkildə günün hansı vaxtı təsvir olunub? *(Səhər)* Nədən bildiniz? Bəs dördüncü şəkildə günün hansı vaxtı təsvir olunub? Nəyə əsasən belə düşünürsünüz? *(Uşaqların cavabları)* Digər şəkilləri də belə təhlil edərək, günün ardıcıllığını müəyyən edin.

**V. M:** "Bu tapşırıqda üç-üç ayrılaraq dairələr və dairələrin bəzilərində rəqəmlər yazılıb. Amma bəzilərində rəqəmlər buraxılıb. Həmin ədədlərə əsasən buraxılmış rəqəmi müəyyən edin və yerinə yazın. Məsələn, birinci şəkildə dairənin əvvəlində 1 rəqəmi, sonuncu dairədə isə 3 rəqəmi yazılıb. Ortadakı dairənin içi boşdur. Burada hansı rəqəm olmalıdır? *(2) (Uşaqların cavabları)* Sonuncu üç dairədə ortadakı dairədə 11 yazılıb. Əvvəlki və sonuncu dairələr isə boşdur. Sizcə, həmin dairələrdə hansı rəqəm yazılmalıdır? *(Əvvəlki dairədə 10, sonuncu dairədə isə 12)* Bu qayda ilə digər tapşırıqlar üzrə iş aparılır.

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**13-cü həftə | GÜNƏŞ VƏ PLANETLƏR**

**Məşğələ 7–8. TƏSVİRİ FƏALİYYƏT**
**Mövzu: RAKET VƏ GÜNƏŞİN DÜZƏLDİLMƏSİ**

**Standart:** 3.1.3; 3.1.4; 3.1.5.

**İnteqrasiya:** 1.1.4; 2.2.6; 4.2.3.

| | |
|---|---|
| **Məqsəd:** | • Kəsmə üsulu ilə yaradıcılıq bacarıqları nümayiş etdirir.<br>• Sadə yapma bacarıqları nümayiş etdirir. |
| **İş üsulları**: | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Şəkillər, kağızlar, plastilin, rəngli karandaşlar, qayçı, yapışqan, rəngli kağız, fırça və s.) |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Uşaqlar, biz sizinlə kosmos haqqında danışmışıq. *Kosmos* deyəndə, nə başa düşürsünüz? *(Uşaqların cavabları)* Şəkillərə diqqət edin. Bəs kosmosa hansı nəqliyyat vasitəsilə uçmaq olar? *(Raketlə) (Uşaqların fikirləri dinlənilir)*

**Dərketmə**

**I. M:** "Bəli, uşaqlar! Kosmosa ancaq raket ilə getmək olar. Biz bu gün sizinlə raket düzəldəcəyik. Siz raket şəkli görmüsünüz? Onun forması necə olur? *(Uşaqların fikirləri dinlənilir)* Biz nümunəyə əsasən raket fiqurunu

düzəldəcəyik. Bunun üçün rəngli kağızlardan istifadə edəcəyik”. *(Əvvəlcə müəllim hazır nümunəni göstərir, sonra isə uşaqların gözü qarşısında izah edə-edə işi yerinə yetirir. Sonra uşaqlara işə başlamağı təklif edir.) Uşaqlar raketi düzəldəndən sonra onun hissələri haqqında danışırlar. Sonra isə hazırladıqları raketləri karton lövhənin üstünə düzürlər.*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** “Uşaqlar, siz keçən məşğələmizdə E hərfini öyrənmisiniz. İndi isə əvvəl öyrəndiyimiz hərflərdən də istifadə edərək, TELEFON sözünü plastilindən düzəldin. Telefon sözünü birlikdə tələffüz edək. Birinci hansı səsi eşidirsiniz? (**T** səsini) Deməli əvvəlcə hansı hərfi düzəltməlisiniz? (**T** səsini) Bəs ikinci hansı səsi eşidirsiniz? **(E)** (*Bu qayda ilə sözdəki bütün hərflər təkrar edilir və sonra düzəldilir.)* Neçə hərfdən istifadə edildi? Hansı hərflərdir?” *(Uşaqların cavabları)*

Məşğələ prosesində müəllim uşaqlara istiqamət verir, uşaqların əməkdaşlıq etmələrinə imkan yaradır. Uşaqlar yerinə yetirdikdən sonra, müəllim onlara kiçik şeir söyləyir.

*Allo, allo, kimdi, Gülzar?*
*Allo, mənəm, dostun Nigar.*
*Köçmüşük biz təzə evə, allo,*
*İndi bizdə telefon var, allo.*

**E** hərfinin möhkəmləndirilməsi üçün sözlər söylənilir.

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M: –** Uşaqlar, biz sizinlə Günəş və planetlər haqqında danışmışıq. Günəşin ətrafında neçə planet dolanır? (9) Günəş böyükdür, yoxsa planetlər? Günəş olmasa, nə baş verər? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** “Uşaqlar, düzdür, Günəşin ətrafında 9 planet var. Planetlər Günəşdən çox kiçikdir. Günəş olmasa, bizim yaşadığımız Yer planetində həyat dayanardı”. – Günəşi nə rəngdə düzəltsək, doğru olar? – Niyə belə düşünürsünüz? İndi biz plastilindən istifadə edərək, günəş və planetləri düzəldəcəyik. *(Müəllim əvvəlcədən hazırladığı nümunəni göstərir, sonra onların gözü qarşısında izah edə-edə işi yerinə yetirir və sonra uşaqlara işə başlamağı təklif edir).* Rəngli plastilinlərdən istifadə qaydasını göstərir. Planetləri isə kibrit çöplərindən istifadə edərək, günəşə birləşdirir.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** “Uşaqlar, bu tapşırıqda nə təsvir olunub? *(Uşaqların cavabları)* Bəli, eynəklər qırıq xətlərlə təqdim olunur. Nümunəyə əsasən, qırıq xətləri birləşdirin və eynəkləri tamamlayın.

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| | **13-cü həftə \|GÜNƏŞ VƏ PLANETLƏR** |
| **Məşğələ 9–10. FİZİKİ MƏDƏNİYYƏT**<br>**Mövzu: KOSMOSA UÇURUQ** | **Standart:** 1.1.1.<br>**İnteqrasiya:** 4.2.1; 4.2.2. |

| | |
|---|---|
| **Məqsəd:** | • Dizləri yuxarı qaldırmaqla yeriş nümayiş etdirir.<br>• Hərəkətlərini koordinasiya edir.<br>• Hərəkətlərində cəldlik və çeviklik nümayiş etdirir. |
| **İş üsulları:** | Müzakirə, süjetli-rollu oyunlar. |
| **İş forması:** | Kollektiv, qruplarla və fərdi iş. |
| **Resurslar:** | Raket şəkli, 2 top |

**1 və 2-ci məşğələlər**

**I. İsinmə hərəkətləri** (5 dəq.)
– əlləri sərbəst hərəkət etdirərək ayaqları dizdən yuxarı qaldırmaqla yerində addımlamaq.
– qolları dirsəkdən bükməklə irəli-geri hərəkət etdirmək, dizləri hündürə qaldırmaqla yeriş.
– əllər beldə dairə boyunca qaçış.
– bir sıradan iki sıraya düzülmək.
– əlləri yanlardan yuxarı qaldıraraq, nəfəs almaq və nəfəsi ağızdan buraxmaq (4–5 dəfə).
**II. Ümuminkişafetdirici hərəkətlər** (20 dəq.)
**1. “Uçuşa hazırlaşırıq”.**
ç.v. – ayaqlar bir yerdə, qollar yanlarda aşağı salınmış vəziyyətdə.

*1 sayında* qolları yanlardan yuxarı qaldırmaq;
*2 sayında* pəncələr üstə qalxmaq.
*3–4 sayında* "Uçuşa hazırıq!" işarəsi ilə qolları aşağı salmaq və ç.v.-ni almaq (7–8 dəfə).

**2. "Düymələri yoxlayırıq"**

ç.v. – diz üstə oturmaq, əlləri dizin üstünə qoymaq.
*1 sayında* bir əlin barmaqlarını geniş açmaq, digər əlin baş barmağı ilə qarşı tərəfin hər barmağının yastıqlarını basmaqla "düymələri yoxlamaq";
*2 sayında* həmin hərəkətləri digər əllə yerinə yetirmək.
*3–4 sayında* "düymələr işləyir!" işarəsi ilə qolları aşağı salmaq və ç.v.-ni almaq (hər əllə 2 dəfə).

**3. "Mühərriki üfürürük"**

ç.v. – diz üstə oturmaq, əlləri diz üstünə qoymaq.
*1 sayında* burunun bir dəliyini bağlamaq, digəri ilə tədricən nəfəs almaq, havanı ağızla buraxmaq.
*2 sayında* həmin hərəkətləri digər burun dəliyi ilə yerinə yetirmək.
*3–4 sayında* qolları aşağı salmaq və ç.v.-ni almaq (hər əllə 2 dəfə).

**4. "Uçuşa hazırlıq"**

ç.v. – düz dayanmaq, ayaqlar çiyin bərabərində aralı, qollar yanlarda.
*1–2–3–4 sayında* "Mühərrik uçuşa hazırdır!" işarəsi ilə qolları irəli doğru dairəvi fırlatmaq.
*1–2–3–4 sayında* qolları geri doğru dairəvi fırlatmaq.

**5. "Mühərriki işə salırıq"**

ç.v. – düz dayanmaq, ayaqlar bir yerdə, qollar yanlarda.
*1–2 sayında* "Pilot mühərriki qızdırdı, mühərrik guruldadı" deyib baş üzərində əl çalmaq.
*3–4 sayında* ayaqların arxasında əl çalmaq və fit vermək. (7-8 dəfə).

**6. "Uçuruq"**

ç.v. – dabanlar bir yerdə, pəncələr aralı, qollar yuxarıda düz dayanmaq, qollar yanlarda "raketi təsvir etmək.
*1–2 sayında* "ulduzlara və planetlərə uçuruq!" işarəsi ilə yarıyadək oturaraq, qolları irəli uzatmaq.
*3–4 sayında* c.v-ni almaq (7–8 dəfə).

**Əsas hərəkətlər. Hərəkətli oyun:** "Planetlər".

Oyunda iki komanda iştirak edir. Komanda üzvləri bir-birinin ardınca sıra ilə düzülürlər. Uşaqlar planet və ulduzları təsvir edirlər. Hər komandada ən qabaqda dayanan uşağa 1 top verilir. Uşaqlar topu başlarının üzərinə qaldıraraq arxadakı yoldaşına ötürürlər. Axırıncı uşaq topu götürərək, sıranın qarşısına qaçır və topu başı üzərinə qaldırır.

**M:** – Uşaqlar, biz sizinlə kosmosda olduq. Xoşunuza gəldi? Biz indi Yerə qayıtmalıyıq. Raketdə öz yerlərinizi tutun. Gözlərinizi yumun. 4, 3, 2, 1 getdik *(musiqi səslənir)*

– Gözlərinizi açın, biz sizinlə artıq Yerdəyik. İndi dairədə dayanıb əl-ələ verək. Bu, bizim planetimiz Yerdir.

**III. Sakitləşdirici hərəkətlər** (5 dəq.)

***"Raket yerə qayıdır"***

ç.v. – qaməti düz saxlamaqla ayaqlar çiyin bərabəri aralı, qollar yanlarda.
*1 sayında* gövdəni düzəldərək pəncə üstə qalxıb qolları yanlardan yuxarı qaldırmaq;
*2 sayında* çıxış vəziyyətini almaq;
*3 sayında* "Raket Yerə qayıdır" işarəsi ilə ayaqları cütləşdirərək yerində addımlamaq;
*4 sayında* yenidən çıxış vəziyyətinə qayıtmaq (4–5 dəfə).
Müəllimin ardınca bir cərgədə sakit yeriş.

**Məşğələ 11–12. MUSİQİ**
**Mövzu: GÜNƏŞ**

**Standart:** 3.1.7; 3.1.8.
**İnteqrasiya:** 2.2.1; 4.1.2.

| | |
|---|---|
| **Məqsəd:** | • Musiqinin xarakterini və tempini müəyyən edir.<br>• Xorda oxumaq bacarıqları nümayiş etdirir.<br>• Musiqinin ritminə uyğun hərəkətlər yerinə yetirir.<br>• Musiqinin ritminə uyğun zərb musiqi alətlərində və əl çalmaqla müşayiət yaradır. |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Kompüter, disk, şəkillər, zərb oyuncaq musiqi alətləri, top. |
| **Musiqi materialı:** | "Marş" (D.Şostakoviç), "Sarı top" mahnısı (O. Rəcəbov/N. Xəzri), "Günəş" mahnısı (T.Bakıxanov/A İbrahimov), Prelüd və fuqa do minor, İ.S.Bax. |
| **Alternativ material:** | **Dinləmə:** "Ulduzlar" (H.Nəcəfova/Ə.Əlibəyli), "Ay nəğməsi" (A.Rzayeva/ H.Ziya), "Gün çıx" (S.Rüstəmov/M.Seyidzadə), "Bip-bipin nəğməsi" (F.Əmirov/T. Elçin).<br>**Mahnı:** "Günəş olaram mən də" (H.Nəcəfova/X.Əlibəyli) |

### 1-ci məşğələ

**1. Marş.** D.Şostakoviç "Marş" əsəri. Uşaqlar musiqinin sədaları altında yerlərində addımlayırlar. Əvvəl ritmik yerişlə yeriyir, sonra yüngül qaçış hərəkətləri edirlər. Sonda yenidən ritmik yeriməklə yerlərində addımlayırlar və dayanırlar.

**2. Dinləmə.** Müəllim Günəş və planetlər sisteminin (Günəş, Ay, ulduzlar, kosmos, kosmonavtlar, və s. haqqında) musiqidə tərənnüm olunması və bəstəkarların bu mövzuda yazılan mahnılar haqqında sadə, qısa məlumat verir. Sonra bəstəkar O.Rəcəbovun şair N.Xəzrinin sözlərinə bəstələdiyi "Sarı top" mahnısını səsləndirir. Əsəri dinlədikdən sonra müəllim uşaqlara suallarla müraciət edir:

– Uşaqlar, dinlədiyiniz mahnı hansı tempdə və xarakterdə idi?
– Bu mahnıda nədən bəhs olunurdu?
– Bəs nə üçün Günəşi sarı topa bənzədirlər? *(Uşaqların cavabları)*

**3. Mahnı.** "Günəş" mahnısı (musiqisi T.Bakıxanovun, sözləri A.İbrahimovun) şifahi yolla öyrədilir.

Müəllim bəstəkar T.Bakıxanov haqqında qısa məlumat verir, onun uşaqlar üçün bəstələdiyi mahnıların adını söyləyir. Sonra "Günəş" mahnısının məzmunu barədə məlumat verərək onu səsləndirir. Uşaqlar dinlədikdən sonra mahnının mətni və melodiyası hissə-hissə, frazalarla öyrədilir. Tələffüzü çətin olan sözlər və melodiya üzərində iş aparılır.

Sonda "Günəş" mahnısının öyrənilmiş hissəsi xorla ifa edilir, məzmunu və xarakteri müzakirə olunur.

**4. Musiqili-ritmik hərəkətlər.** "Sarı top" mahnısı təkrar səsləndirilir. Bir qrup uşaqlar mahnının məzmununu mahnının ritminə uyğun hərəkətləri ilə təsvir etməyə (səhnələşdirməyə) çalışırlar. Bu zaman bəzi uşaqlar mahnının ritmini tutmaqla zərb oyuncaq musiqi alətlərində, qalanları isə əl çalmaqla müşayiət yaradırlar.

Məşğələ ümumiləşdirilərək yekunlaşdırılır.

**Musiqi materialı: "Ağca dovşan və Tülkü".**

| | | |
|---|---|---|
| Ağca dovşana bax bir,<br>Qulağını tərpədir.<br>Bax belə, bax belə<br>Qulağını tərpədir. | Ağca dovşan oturmuş,<br>Əllərini isidir.<br>Bax belə, bax belə<br>Əllərini isidir. | Tülkü çox fağır-fağır<br>Dovşanları axtarır.<br>Bax belə, bax belə<br>Dovşanları axtarır. |

### 2-ci məşğələ

**Marş.** "Marş", (D.Şostakoviç).
**Mahnı.** "Günəş" mahnısı (T. Bakıxanov/A. İbrahimov)
**Səhnələşdirmə. "Ay niyə itir?"** (resurs: sincab, maral, tülkü, şir, bayquş maskaları; üç alma və qlobus).

| № | Musiqi materialı | Fəaliyyət |
|---|---|---|
| 1, 2, 3, 4 | Prelüd do minor | Sincab narahat halda, başını yelləyə-yelləyə gəzişir. Maral yaxınlaşır Sincaba, onlar söhbətləşirlər. Sincab əllərini göyə qaldırıb Ayı göstərir. Maral Aya baxır, əlləri ilə başını tutur və Tülkünün yanına qaçır.<br>Tülkü ilə Maral Aya baxıb söhbət edirlər. Uzaqdan bir səs: – "Eheyyy... Hamı meşəyə yığışsın!" – deyə, heyvanları çağırır. Bir anda heyvanlar yığışırlar və onlar da göyə baxırlar. Onlar Ayı göstərib, başlarını yelləyirlər. |
| 5, 6 | Fuqa do minor | Bayquş heyvanları sakitləşdirir və otuzdurur. 3 almanı ağacdan asır, əlindəki çubuqla qlobusu və almaları göstərməklə heyvanlara Ayın niyə itdiyini başa salır. |

**Məşğələ 1. ƏTRAF ALƏMLƏ TANIŞLIQ**
**Mövzu: ZAMANLA TANIŞLIQ**

**Standart:** 2.1.4; 2.1.5; 2.1.6.
**İnteqrasiya:** 2.2.6; 2.3.4.

| | |
|---|---|
| **Məqsəd:** | • Günün vaxtlarını sadalayır.<br>• Saatın nə üçün lazım olduğunu söyləyir.<br>• Saatların fərqini söyləyir.<br>• Nitqində əlamət bildirən sözlərdən istifadə edir. |
| **İş üsulları**: | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Qlobus, fənər, günün müxtəlif vaxtlarını əks etdirən şəkillər, saat şəkilləri, karandaşlar. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, sizə şeir söyləyəcəyəm. Qulaq asın:

*Səhər-axşam sən*
*Hara gedirsən?!*
*Çık-çık edirsən,*
*Çık-çık edirsən.*

*Balacayam mən,*
*Beş olub yaşım.*
*Yazılarından*
*Çıxmayır başım.*

*6 zəngini*
*Eşidəndə mən*
*Hər axşam atam*
*Qayıdır işdən.*

**M: –** Uşaqlar, şeirdə söhbət nədən getdi? *(Uşaqların cavabları)* – Kitabınızın yuxarısındakı şəkildə nə təsvir olunub? – Ondan nə üçün istifadə edilir? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Düzdür, uşaqlar! Uşaqlar, Cırtdan bizə qonaq gəlib. O, elə-belə gəlməyib. Gəlib bizdən öyrənsin ki, nə üçün hava gah işıqlı, gah da qaranlıq olur. Gəlin ona söyləyək ki, nəyə görə belə olur?!

– Biz öyrənmişik ki, Yer Günəş ətrafında fırlanır və Günəş şüaları Yeri işıqlandırır. Amma Yerin hər tərəfi eynidirmi? Gəlin yoxlayaq. Baxın, bu qlobus və fənərdən istifadə edərək bunu yoxlayaq.

– Əvvəlcə deyin görüm, qlobus nədir? *(Uşaqların cavabları)* Düzdür, bu Yer kürəsinin modelidir. Günəşi isə fənərlə əvəz edək. Biz indi "Günəşlə" qlobusun bu tərəfini işıqlandırıb görəcəyik ki, günəş şüaları onu işıqlandırır. Bəs əks tərəfində nə olur? Bu tərəfdə qaranlıqdır. Bizim planetin də işıqlandırılmayan tərəfində gecə, işıqlı hissəsində isə gündüz olur. Yer planeti daim Günəş ətrafında fırlandığı üçün gecə və gündüz biri-birini əvəz edir.

– İndi günün hansı vaxtıdır? *(Uşaqların cavabları)* Düzdür, indi səhərdir. Bəs nədən bildiniz ki, indi səhərdir? Günün daha hansı vaxtları haqqında bilirsiniz? *(Uşaqların cavabları – səhər, günorta, axşam və gecə).* Gəlin, Cırtdana günün vaxtları haqqında daha ətraflı danışaq. Sizə bir tapmaca söyləyəcəyəm:

*Xoruz şəfəqlə oyanıb,*
*Hər tərəfə səs salır.*
*İnsanları oyadır,*
*İşinə yola salır.*

– Bu nə vaxt olur? *(Uşaqların cavabları)*

**M:** "Düzdür, səhər tezdən olur. Günəş çıxan kimi hər tərəfi işıqlandırır və səhər başlayır. Heyvanlar, quşlar, bitkilər, insanlar yuxudan oyanırlar. Deyin görək, biz səhərlər nə edirik? *(Uşaqların cavabları)* Afərin! İndi başqa bir tapmacanı dinləyin:

*Günəş göydə yüksəkdədir,*
*Gecəyə hələ çox var.*
*Ağacların kölgəsi qısa,*
*Günün hansı saatıdır?*

– Afərin! Günortadır.

Bu vaxtlar bəzi uşaqlar oynayır, məktəblilər oxuyur:

*Gün keçdi,*
*Günəş batır.*
*Qaranlıq astaca gəlir*
*İşıqları yandırın,*
*– Axı qaranlıq gəlir..."*

**M:** "Düzdür, uşaqlar! Axşamlar uşaqlar bağçadan evlərinə gedir, böyüklər işdən qayıdırlar. Axşamlar biz günəşin batmasını müşahidə edirik. Günəş asta-asta aşağı düşür və üfüqdə gözdən itir. Deyin görək, siz axşamlar nə ilə məşğul olursunuz? *(Uşaqların cavabları)*

– Uşaqlar, bu tapmacanı da dinləyin.

*Günəş batdı,*
*İşıq söndü.*
*Daha gecdir,*
*Yataq daha. (Uşaqların cavabları)*
– Bəli, uşaqlar. Bu, gecədir. Bütün insanlar, heyvanlar, bitkilər hamısı gecələr istirahət edir”.

**M:** “Uşaqlar, gəlin, bir daha günün hissələrini təkrar edək. ***Səhər, günorta, axşam, gecə.***

– İndi isə sizə bir sirr açım. Bütün günü əhvalınızın xoş olması üçün səhəri təbəssümlə qarşılamaq lazımdır.”

**M:** “Bizim həyatımız saatlar üzrə keçir. Görüşmək üçün vaxt müəyyən etmək, televizorda sevimli verilişə baxmaq, məktəbə, bağçaya getmək və s. hamısı zamanla müəyyən edilir. İndi bunları etmək çox sadədir. Bunun üçün sadəcə saata baxmaq kifayətdir. Hamının evində saat vardır. – Bəs saat nədir? ***Saat*** *– bir sutkadan az olan müddətdə verilmiş vaxt anını ölçmək üçün istifadə edilən cihazdır.* Saatın köməyi ilə işləri planlaşdırmaq, müxtəlif hadisələrin uzunluğunu ölçmək, vaxt fərqini təyin etmək mümkündür.

*Saat növlərinə* nəzər salaq: ***küçədə qüllə saatları, divar, masaüstü, qum, elektron*** və ***qol saatları***. Bütün saatların siferblatı var. ***Siferblat*** – üzərində rəqəmlər olan lövhəcikdir. Siferblatdakı rəqəmlərin sayı 12-dir. Rəqəmlərdən başqa, saatı göstərmək üçün siferblatın üzərində ***böyük*** və ***kiçik əqrəblər*** yerləşir. Kiçik əqrəb saatı, böyük əqrəb isə dəqiqələri göstərir. Kiçik əqrəb bir rəqəmdən digərinə keçənə qədər böyük əqrəb bir dairə vurur: bu da 1 saat edir. Böyük əqrəb 12-nin üzərində dayanarsa, kiçik əqrəb saatın tam olduğunu göstərir.

—İdman dəqiqəsi—

**II.** Müəllim uşaqlara suallarla müraciət edir:— Günün hansı vaxtları var? – Saat nə üçün lazımdır? –Neçə cür saat növü bilirsiniz? – Siz günün müxtəlif vaxtlarında nə edirsiniz?

**Tətbiqetmə**

**III. M:** “Şəkildə müxtəlif cür saatlar təsvir olunub. Saatlara diqqətlə bax, onların arasında olan fərqi tapın və söyləyin”.

**IV. M:** “Şəkildə müxtəlif əşyalar təsvir olunub. – Yuxarıdan solda birinci şəkildə nə təsvir olunub? *(Uşaqların cavabları)* – Ondan nə üçün istifadə olunur? *(Uşaqların cavabları)* – Verilmiş əşyalardan zamanı müəyyən etmək üçün istifadə olunanları haşiyəyə alın”. Bütün şəkillər üzrə bu qayda ilə iş aparılır.

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | **14-cü həftə \| ZAMAN** |
|---|---|
| **Məşğələ 2. BƏDİİ TƏFƏKKÜRÜN İNKİŞAFI**<br>**Mövzu: DƏQİQ OLMALIYIQ** | **Standart:** 2.2.2; 2.2.6.<br>**İnteqrasiya:** 2.1.2; 2.1.6. |

| | |
|---|---|
| **Məqsəd:** | • Mövzu əsasında danışır.<br>• Şəkil əsasında fikrini sadə şəkildə ifadə edir.<br>• Nitqində əlamət bildirən sözlərdən istifadə edir. |
| **İş üsulları**: | Müzakirə, suallar, nağıletmə. |
| **İş forması**: | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Hekayənin mətni, şəkillər. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M: –** Uşaqlar, vəsaitinizdə şəkillərə diqqətlə baxın. Şəkillərdə nə təsvir olunub? Sizcə, burada söhbət nədən gedə bilər? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** “Uşaqlar, mən sizə təsvir olunanlara aid **“Dəqiq olmalıyıq**” hekayəsini söyləyəcəyəm. Siz isə şəkillərə baxaraq mətni dinləyin. Hər şəkil mətnin bir hissəsini əks etdirir. Mən deyəndə dairəni rəngləməklə dinlədiyiniz məlumatları əks etdirən şəkli qeyd edin”.

1

“Bu gün Dadaş anası ilə teatra gedəcəkdi. Anası teatr biletini ona göstərib dedi:

– Dadaş, teatr saat 5:00-da başlayır. Elə etmək lazımdır ki, gecikməyək. Vaxta nəzarət etmək üçün saatdan istifadə etmək lazımdır. Bu işi sənə tapşırıram.

Dadaş artıq tam saatları öyrənmişdi. Yaxşı bilirdi ki, kiçik əqrəb 5 rəqəminin və böyük əqrəb 12 rəqəminin üzərindədirsə, deməli, saat 5-dir. Həm də Dadaşgilin saatının içində balaca bir quş var idi. Hər saatın tamamında cikkildəyir, evdəkilərə xəbər verirdi”.

**M: –** Eşitdiyinizə əsasən şəkildə uyğun hissəni qeyd edin.

2

"Birdən saatın içindəki quş yuvasından bayıra çıxıb 1 dəfə cikkildədi. Dadaş saata baxdı. Kiçik əqrəb 1 rəqəminin, böyük əqrəb isə 12-nin üzərində idi. Deməli, saat 1 tamamdır. Dadaş öz-özünə dedi:

– Hələ vaxta çox var. Bu vaxt ərzində nə qədər oynamaq olar?!

Dadaş sevimli oyuncaqlarını balaca xalçanın üzərinə yığıb oynamağa başladı. Arada gözucu saata da baxırdı. Sonra yenə oynamağa davam edirdi".

**M:** – Bu məlumata əsasən şəkildə uyğun hissəni qeyd edin.

3

"Birdən quşcuğaz yenə yuvasından çıxdı, iki dəfə cikkildədi. Dadaş çevrilib saata baxdı. Kiçik əqrəb 2 rəqəminin, böyük əqrəb isə 12-nin üzərində idi. Deməli, saat 2 tamamdır. Dadaş öz-özünə dedi:

– Hələ vaxta çox var. Bu vaxt ərzində nahar da etmək olar.

Dadaş mətbəxə keçdi. Anası onun üçün nahar hazırlayıb masanın üzərinə qoymuşdu. Dadaş əllərini yuyub masa arxasında əyləşdi. Tələsmədən naharını etdi. Anasına təşəkkür etdi:

– Çox sağ ol, ana.

Anası Dadaşın başını sığallayıb dedi:

– Nuş olsun, oğlum".

**M:** – Məzmuna uyğun hissəni qeyd edin.

4

"Nahardan sonra Dadaş televizoru qoşdu. Telekanalların birində onun sevdiyi cizgi filmi nümayiş olunurdu. Dadaş divanda yerini rahatladı və maraqla cizgi filmini seyr etməyə başladı. Birdən quşcuğazın səsi eşidildi: o, üç dəfə cikkildədi. Dadaş saata nəzər saldı. Kiçik əqrəb 3 rəqəminin, böyük əqrəb isə 12-nin üzərində idi. Deməli, saat 3 tamamdır. Dadaş öz-özünə dedi:

– Teatrın başlamasına 2 saat qalıb. Deməli, yavaş-yavaş hazırlaşmaq lazımdır.

Düzdür, sevimli cizgi filminə sonacan baxmaq istəyirdi. Amma anasının sözləri yadına düşdü: "Gedəcəyin yerə gecikmə. Vaxtını düzgün tənzimlə".

**M:** – Uyğun hissəni qeyd edin.

5

"Dadaş televizoru söndürüb otağına keçdi. Anası teatra geyinəcəyi paltarları ütüləyib stolun üzərinə qoymuşdu. Ev paltarlarını soyundu. Səliqə ilə qatlayıb kənara qoydu. Anasının onun üçün hazırladığı paltarları geyindi. Saçlarını səliqəyə saldı".

**M:** – Uyğun hissəni qeyd edin.

6

"Dadaş artıq hazır idi. Anası da hazırlşmışdı. Anası Dadaşı qucaqlayıb dedi:

– Əhsən mənim ağıllı oğluma. Həmişə belə dəqiq və məsuliyyətli ol.

Dadaş da anasını qucaqlayıb dedi:

– Anacan, əsl təşəkkür balaca quşcuğaza düşür.

Anası çevrilib divardakı saata baxdı. Bu zaman quşcuğaz yuvasından çıxıb 4 dəfə cikkildədi. Ana gülümsəyib Dadaşa dedi:

– Getmək vaxtıdır."

**M:** – Məzmuna uyğun hissəni qeyd edin.

**II.** Müəllim uşaqlara suallarla müraciət edir: – Dadaş teatra gedənə kimi nə işlə məşğul oldu? – Saatı bilməsi Dadaşa necə kömək etdi? – Sən dəqiq olmaq üçün nə edirsən? *(Uşaqların cavabları)*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** "Hekayənin ardıcıllığını tapın və şəkillər üzrə danışın. Danışdıqca uyğun rəqəmləri qoyun". *(Uşaqlar yerinə yetirir)*

**IV. M:** "Şəkillərə baxın və suallara cavab verin. Əgər saat işləməsə, sən vaxtı necə müəyyən edə bilərsən? Saatın işləmədiyini necə bilmək olar?"

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| Məşğələ 3–4. SAVAD TƏLİMİNƏ HAZIRLIQ VƏ NİTQ İNKİŞAFI<br>Mövzu: D(d) SƏSİ VƏ HƏRFİ | Standart: 2.2.4; 2.2.5.<br>İnteqrasiya: 1.1.4; 2.1.2. |
|---|---|
| **Məqsəd:** | • **D (d)** səsini və hərfi fərqləndirir.<br>• **D** səsinin işləndiyi sözlər söyləyir.<br>• Xətt üzrə **D (d)** hərfini yazır. |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Şəkillər, karandaşlar, marker, lövhə və əlifbanın hərfləri. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Uşaqlar, sizə bir şeir söyləyəcəyəm. Qulaq asın.

*Dəvənin damı damdı,*
*Durdu, damı dağıtdı.*
*Dəvətikanı dərib*
*Dammayan dam düzəltdi.*

– Uşaqlar, *dəvə, dam, dəvətikanı, dammaq* sözlərini bir daha təkrar edirəm. Bu sözlər hansı səslə başlayır? *(Uşaqların cavabları)*

**Dərketmə**

**M:** – "**D** hərfindən də digər hərflər kimi sözləri yazanda istifadə olunur. Uşaqlar, sarı qutuya diqqətlə baxaq. Burada həm böyük, həm də kiçik **D** hərfi təsvir olunub. **D** böyük hərfdir.

**M: –** "Uşaqlar, dinlədiyiniz şeir parçasında – ***dəvə, dam, dəvətikanı, dammaq*** sözlərinin **D** səsi ilə başladığını söylədiniz".

**I. M: –** "Uşaqlar, **D** hərfi ilə tanış olaq. Baxın, burada böyük **D** hərfi təsvir olunub. Hərfin ətrafında isə şəkillər var. Hərfin sol tərəfində yuxarıda nə təsvir olunub? *(Uşaqların cavabları)* *Dondurma* sözü hansı səslə başlayır? *(Uşaqların cavabları)* Düzdür, dondurma sözü **D** səsi ilə başlanır, bu gün siz bu səslə tanış olacaqsınız".

Müəllim hərfi göstərərək, lövhəyə qoyur, hərfi əvvəlcə özü tələffüz edir, sonra uşaqlara tələffüz etməyi təklif edir. Uşaqlar tələffüz edirlər. – Bəs hərfin sağında yuxarıda nə təsvir olunub? – Dəftər sözü hansı səslə başlayır? – Düzdür, dəftər sözü **D** səsi ilə başlanır. **D** Çox zaman **D** səsini T səsi kimi tələffüz edirlər. Gəlin, **D** səsi ilə açıq hecalar tələffüz edək: ***Da, do, du, di, də, dı***". – Hər bir şəkildə nə təsvir olunduğunu söyləyin və bu sözün hansı səslə başlandığına diqqət edin. *(Uşaqların cavabları)* – Sözlərdən hansı **D** səsi ilə başlayır?" *(Uşaqların cavabları)*

**D hərfinin rənglənməsi.**

**II.** Müəllim lövhədə **D** hərfini izah edə-edə yazır. Sonra bir neçə uşaq lövhədə tapşırığı yerinə yetirir. Digər uşaqlar vəsaitdə xətt üzrə **D** hərfini yazırlar.

**M:** "**D** hərfinin ətrafında şəkillər təsvir olunub. Hər şəkildə nə təsvir olunduğunu bir-bir söyləyin: – Birinci şəkildə nə təsvir olunub? *(Dəbilqə)* – Söz **D** səsi ilə başlayırsa, həmin şəkli **D** hərfi ilə birləşdirin. – Bəs ikinci şəkildə nə təsvir olunub? *(qapı)* – Bu söz hansı səslə başlayır? *(Uşaqların cavabları)* – Həmin şəkli **D** hərfi ilə birləşdirmək olar? *(Uşaqların cavabları)* – Bəs üçüncü şəkildə nə təsvir olunub?" *(dovşan) (Digər şəkillər də həmin qayda ilə təhlil olunur.)*

**III. M:** "Uşaqlar, səhifənin yuxarısında pazllarda söz yazılıb. Diqqətlə baxıb həmin hərfləri adlandırın və nümunəyə uyğun rəngləyin. Sözü oxuyun".

—İdman dəqiqəsi—

**IV. M:** – Kənara çıxmadan xətt üzrə hərfləri çəkin. Alınan iki sözü oxuyun *(alma, mala)*.

**Tətbiqetmə**

**V. M:** – "Şəkildə xətt üzrə hərflərlə sözlər yazılıb. Hərfləri xətt üzrə birləşdirin. Sonra hərfləri adlandıraraq sözü oxuyun. Birinci hansı söz yazılıb? *(don)* Onu hansı şəkillə birləşdirmək lazımdır? *(Uşaqların cavabları) (don şəkli ilə)* Sözü qarşı tərəfdə təsvir olunmuş uyğun şəkillə birləşdirin". *(Digər sözlərlə də bu qayda ilə işlənilir.)*

Müəllim uşaqlara kəsmə əlifbada olan hərflərin içərisindən **D** hərfini götürüb lövhəyə qoymağı təklif edir. **D** hərfi ilə sözlər söyləməyi uşaqlara təklif edir. *(Uşaqlar yerinə yetirir).*

Məşğələ boyu uşaqlar rəğbətləndirilir Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M:** – *Dərsə gedən bir uşaq,*

*Çıxdı buz üstə qoçaq.*
*Uşaq durub, neylədi,*
*Buza belə söylədi.*

**M:** – Uşaqlar, ***dərs, durub*** sözləri hansı səslə başlayır? *(Uşaqların cavabları)*

**D** səsi ilə başlayan daha hansı sözləri deyə bilərsiniz?

**Dərketmə**

Verilmiş əlifbanın hərflərinin arasından **D** hərfi götürülərək, lövhəyə qoyulur. **D** səsinin birlikdə və tək-tək tələffüz edilməsi üzrə iş aparılır. Müəllim uşaqların diqqətini kiçik **d** hərfinə yönəldərək, deyir:

– Uşaqlar, bilirsiniz ki, hər bir hərfin həm böyük, həm də kiçik forması var.

**I. M:** "Bu, kiçik **d** hərfidir". Müəllim əvvəlcə lövhədə izah edə-edə kiçik **d** hərfini yazır. Sonra uşaqlardan 2–3 nəfər lövhədə xətt üzrə hərfi çəkir.

**M:** "İndi ardıcıllığı gözləməklə nümunəyə əsasən kiçik **d** hərfini xətt üzrə çəkin. **D** səsi ilə başlayan sözlər söyləyin. **D** səsi ilə bitən sözlər söyləyin. **D** səsi sözün ortasında olan sözlər söyləyin".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "Vəsaitdə pazllarda kiçik **a** və **d** hərfləri verilib. Bu hərflərin yazılışı bir-birinə bir qədər bənzəyir. Hərfləri adlandırın və xanaları nümunəyə uyğun rəngləyin".

**III. M:** "Şəkildə xətt üzrə hərflərlə sözlər yazılıb. Hərfləri xətt üzrə birləşdirin. Sonra hərfləri adlandıraraq sözü oxuyun. – Birinci hansı söz yazılıb? **(ada)** – Ada nə deməkdir? – Onu hansı şəkillə birləşdirmək lazımdır? *(ada şəkli ilə) (Uşaqların cavabları)* Sözü qarşı tərəfdə təsvir olunmuş uyğun şəkillə birləşdirin. Digər sözləri də xətt üzrə çəkin və uyğun şəkillə birləşdirin". *(Digər sözlərlə də bu qayda ilə işlənilir)*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| | **14-cü həftə \| ZAMAN** |
| **Məşğələ 5-6. RİYAZİ VƏ MƏNTİQİ TƏFƏKKÜRÜN İNKİŞAFI**<br>**Mövzu: SAAT** | **Standart:** 2.3.4. |
| | **İnteqrasiya:** 2.1.5; 2.1.6; 4.2.3 |

| | |
|---|---|
| **Məqsəd:** | • 12 dairəsində ədədləri adlandırır.<br>• Rəqəmə əsasən zamanı müəyyən edir.<br>• Nitqində əlamət bildirən sözlərdən istifadə edir. |
| **İş forması:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Saat şəkilləri, günün müxtəlif hissələri əks olunmuş şəkillər, rəngli karandaşlar. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Uşaqlar, sizə bir şeir söyləyəcəyəm.
*Səhər durunca,*
*Əlimdə firça.*
*Sildim dişimi,*
*Bildim işimi.*

– Uşaqlar, bu fəaliyyəti nə vaxt yerinə yetirirlər? *(Uşaqların cavabları)*

*6 zəngini eşidəndə mən, Hər axşam atam qayıdır işdən.*

Bəs burada günün hansı hissəsi təsvir olunur? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Bəli, uşaqlar! Səhər və axşam təsvir edilir. Burada saat 6-nı göstərir. Şəkildə rəqəmlərinin bəziləri buraxılmış saat təsvir olunub. Saata diqqətlə baxıb buraxılmış rəqəmləri müəyyən edin və öz yerinə qoyun. Saata baxaq: 12 ilə 2-nin arasında hansı rəqəm olmalıdır? *(1 rəqəmi)* Bəs altıdan sonra hansı rəqəm olmalıdır? *(7) (Uşaqların cavabları)* Digər rəqəmlər üzrə də iş aparın".

**II. M:** "Kitabınızda oğlanın gün boyu müxtəlif fəaliyyətini əks etdirən şəkillər təsvir edilmişdir. Bu fəaliyyətlərə əsasən zamanı müəyyənləşdirin. Oğlanın gün ərzində hansı saatda nə etdiyinə uyğun olaraq saatların əqrəbini düzəldin".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**
**III. M:** – "Kitabınızda saatlar təsvir olunub. Onlar müxtəlif zamanı göstərir. Birinci saat neçəni göstərir? Neçə saat eyni zamanı göstərir? Cütü olmayan saat neçəni göstərir?" *(Uşaqların cavabları)*
Saatla tanışlıq üzrə nümunələr əsasında möhkəmləndirmə işi aparılır.
Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**
**M:** "Uşaqlar, biz saatlar haqqında öyrənmişik. Hansı saatları tanıyırsınız? Saatın hissələrini adlandırın. *(Uşaqların cavabları – siferblat, əqrəblər, rəqəmlər)*
**Dərketmə**
**I. M:** "Uşaqlar, bu tapşırıqda kiçik əqrəbləri təsvir olunmayan 6 saat verilib. Saatların üst tərəfində saatın neçə olması sözlə yazılıb. Sözlə yazılan vaxtı oxuyun və saatda əksini tapmayan kiçik əqrəbi ona uyğun çəkin; məsələn, birinci saatın yanında nə yazılıb? *(saat altı)* Siz bir kiçik əqrəb çəkməklə, saat 6-nı göstərin. Digər saatlar üzrə də bu qayda ilə tapşırığı yerinə yetirin".
**II. M:** "Şəkildə 3 saat təsvir edilib. Birinci saatda əqrəblərlə zaman göstərilib. Birinci saat neçəni göstərir? Saatın birində əqrəbi bir saat irəli çəkin. İkinci saatda isə zamanı bir saat geri çəkin.
—İdman dəqiqəsi—
**Tətbiqetmə**
**III. M:** "Kitabınızda 4 fəaliyyət təsvir edilib: – Birinci fəaliyyətdə nə təsvir olunub? – Bu, günün hansı vaxtıdır? *(səhər)* – Bəs ikinci şəkildə nə təsvir olunub? – Bu günün hansı vaxtıdır? *(günorta) (Digər şəkillər üzrə də iş aparılır)* – Bu şəkillərdə təsvir olunanları sən saat necədə edirsən? – Ona uyğun saatda kiçik əqrəb çəkin".
Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| **Məşğələ 7–8. TƏSVİRİ FƏALİYYƏT**<br>**Mövzu:** SAAT | **14-cü həftə \| ZAMAN**<br>**Standart:** 3.1.3; 3.1.4.<br>**İnteqrasiya:** 1.1.4; 2.2.6. |
| **Məqsəd:** | • Kəsib-yapışdırma üsulu ilə yaradıcılıq bacarıqları nümayiş etdirir.<br>• Sadə yapma bacarıqları nümayiş etdirir. |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Şəkillər, kağızlar, plastilin, rəngli karandaşlar, qayçı, yapışqan, rəngli kağız, fırça və s. |

**1-ci məşğələ**

**Motivasiya**
**M:** – Uşaqlar, şəkillərə diqqət edin. Nə təsvir olunub? Saat fiqurunun hansı hissələrini sadalaya bilərsiniz? *(Uşaqların fikirləri dinlənilir.)*
**Dərketmə**
**I. M:** "Uşaqlar, şəkildə saat fiquru verilib. Siz saat fiqurunun hissələrini sadaladınız. Saatın hansı hissələri olur? Onlar nə üçündür? *(Uşaqların cavabları)* İndi isə biz sizinlə kağızdan saatın siferblatını düzəldəcəyik. Rəqəmlərin yerinə plastilindən kiçik dairələr yapışdıracağıq". *(Müəllim əvvəlcə hazır nümunəni göstərir, sonra uşaqların gözü qarşısında izah edə-edə işi yerinə yetirir və uşaqlara işə başlamağı təklif edir).* İş zamanı müəllim uşaqların siferblatda rəqəmləri və əqrəbləri düzgün yerləşdirmələrinə nəzarət edir.
—İdman dəqiqəsi—
**Tətbiqetmə**
**II.** Müəllim yenicə öyrəndikləri **D** hərfini bir daha təkrarladaraq əvvəl öyrəndikləri hərflərdən də istifadə edərək **ADAM** sözünü düzəltməyi təklif edir. Sözdə neçə hərfdən istifadə edildiyi dəqiqləşdirilir.
**M:** "**D** səsi ilə daha hansı sözləri deyə bilərsiniz?" *(Uşaqların cavabları)*
Məşğələ prosesində onlara istiqamət verir, uşaqların əməkdaşlıq etmələrinə imkan yaradır.
Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M:** – Uşaqlar, siz saatın hissələrini adlandırdınız. Rəqəmlər nə üçündür? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, nümunəyə baxın. Siferblatın kənarlarında nə təsvir olunub? *(Rəqəmlər)* Neçəyə qədər rəqəm yazılıb? *(12-dək)* Əqrəblər nə üçündür? Bu gün sizinlə kağızdan saat düzəldəcəyik. *(Müəllim əvvəlcə hazır nümunəni göstərir, sonra uşaqların gözü qarşısında izah edə-edə işi yerinə yetirir və uşaqlara işə başlamağı təklif edir).*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M**: "Bu tapşırıqda nə təsvir olunub? Hansı hərfə bənzəyir? *(Uşaqların cavabları)* İndi isə düymə və iynələri xətt üzrə çəkin və rəngləyin".

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | | |
|---|---|---|
| | | **14-cü həftə \| ZAMAN** |
| **Məşğələ 9–10. FİZİKİ MƏDƏNİYYƏT**<br>**Mövzu: XİLASEDİCİLƏR** | | **Standart:** 1.1.1.<br>**İnteqrasiya:** 4.2.1; 4.2.2. |
| **Məqsəd:** | • Müvazinət hərəkətləri nümayiş etdirir.<br>• Hərəkətlərini koordinasiya edir.<br>• Hərəkətlərində cəldlik və çeviklik nümayiş etdirir. | |
| **İş üsulları**: | Müzakirə, süjetli-rollu oyunlar. | |
| **İş forması**: | Kollektiv, qruplarla və fərdi iş. | |
| **Resurslar:** | Diyircək, toplar. | |

**1 və 2-ci məşğələlər**

**I. İsinmə hərəkətləri** (5 dəq.)

– əllər yuxarıda, adi və pəncələr üstə yeriş (sağ və sol əldəki barmaqlar bir-biri ilə daraqlanır);

– dirsəkdən bükməklə qolları sinə qarşısında irəli-geri hərəkət etdirmək, növbə ilə sağ və sol tərəfə yanlara açmaq;

– əllər beldə iki ayaqla 4 addım irəli, 4 addım geri hoppanmaq;

– əllər beldə dizləri yuxarı qaldırmaqla, 1–1,5 dəqiqəlik yürüş və tədricən yerişə keçmək (4–5 dəfə).

**II. Ümuminkişafetdirici hərəkətlər** (20 dəq.)

**1. "Müvazinətini saxla**" hər tərəfə 2 dəfə təkrar etmək.

ç.v. – diyircək açıq əldə aşağıda.

*1 sayında* başı sağa və sola döndərmək,

*2 sayında* ç.v.-ni almaq.

*3 sayında* başı irəli və geri hərəkət etdirmək;

*4 sayında* ç.v.-nə qayıtmaq.

*Hərəkət zamanı çənəni düz tutmaq və diyircəyi əldən salmamaq.*

**2. "Diyircəyi başın üstündən ötür"** (6–7 dəfə)

ç.v. – Düz dayanmaq, ayaqlar qayçı formasında, diyircək sağ əldə.

*1–2 sayında* diyircəyi başın üzərindən sol ələ ötürmək, yuxarı baxmaq və nəfəs almaq.

*3–4 sayında* nəfəs verərək, ç.v.-nə qayıtmaq.

**3. "Dönmə-diyircək irəli"** (6–8 dəfə).

ç.v. – düz dayanmaq, ayaqlar aralı, qolları sinə qarşısında qatlamaq, diyircək açıq əldə.

*1 sayında* sağa dönmək;

*2 sayında ç.v.*-ni almaq.

*3 sayında* sola dönmək;

*4 sayında ç.v.*-nə qayıtmaq.

**4. "Qəhrəman"** (6 dəfə).

ç.v. – düz dayanmaq, diyircək əllərdə aşağıda.

*1 sayında* bədəni irəli əyməklə diyircək əldə, yuxarı dartılmaq,

*2 sayında* irəli əyilmək, başı yuxarı qaldıraraq nəfəs almaq.

*3–4 sayında* nəfəs verərək, ç.v.-nə qayıtmaq.

**5. “Diyircəyi diyirlədək əllərimizi möhkəmlədək”** (5-6 dəfə).
ç.v. – düzlər üstə dayanmaq, baş aşağı, diyircək əldə.
*1 sayında* diyircəyi soldan sağa diyirlətmək;
*2 sayında* ç.v.-ni almaq.
*3 sayında* diyircəyi sağdan sola diyirlətmək,
*4 sayında* ç.v.-nə qayıtmaq.
**Əsas hərəkətlər.**
**Hərəkətli oyun: “Dairəyə düş”.**
Uşaqlar əl-ələ tutaraq dairə üzrə gedir və bu zaman aşağıdakı sözləri deyirlər:
*Gəlin verək əl-ələ,*
*Düzülək dairəyə.*
*İndi Lətifə gəlsin,*
*Nə etməyi göstərsin.*
Adı çəkilən uşaq dairənin mərkəzinə gəlib müəyyən bir hərəkət göstərir. Qalan uşaqlar onu təkrar edirlər. Sonra yenidən hamı dairə üzrə hərəkət edir və başqa uşağın adını mətnə uyğunlaşdırıb deyirlər.
**III. Sakitləşdirici hərəkətlər** (5 dəq.)
***“Üzgüçülər”***
ç.v. – ayaqlar aralı, qollar aşağı salınmış vəziyyətdə.
*1.* Nəfəsalma – sol əli qaldırmaq;
*2.* Nəfəsvermə – sol əli qabağa, aşağı hərəkət etdirmək;
*3.* Nəfəsalma – sağ əli qaldırmaq;
*4.* Nəfəsvermə – sağ əli irəli, aşağı hərəkət etdirmək.

| | |
|---|---|
| | **14-cü həftə \| ZAMAN** |
| **Məşğələ 11–12. MUSİQİ**<br>**Mövzu:** SAAT | **Standart**: 3.1.7; 3.1.8.<br>**İnteqrasiya:** 2.2.6; 4.2.2. |
| **Məqsəd:** | • Musiqinin xarakterini və tempini müəyyən edir.<br>• Xorda oxumaq bacarıqları nümayiş etdirir.<br>• Musiqini xarakter, temp və məzmununa görə müqayisə edir.<br>• Müstəqil yaradıcılıq qabiliyyətini nümayiş etdirir. |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Kompüter, disk, şəkillər, müxtəlif xarakterli musiqi parçaları |
| **Musiqi materialları:** | “Marş”(D.Şostakoviç), “Axşam oldu” (Ü.Hacıbəyli), “Səhər nəğməsi” (Ə.Abbasov/Y.Əzimzadə), “Saat” mahnısı (O.Zülfüqarov/Ş.Hacıqızı), “Qar yağır” (Ş.Axundova/M.Seyidzadə), “Qartopu” (S.Rüstəmov/M.Seyidzadə), “Polka” (M.İ.Qlinka) |
| **Alternativ material:** | **Dinləmə:** “Gəl Bahar” (Ə.Cavanşirov/T.Elçin)<br>**Mahnı:** “Səhər nəğməsi” (Ə.Abbasov/Y.Əzimzadə) |

**1-ci məşğələ**

**1. Marş.** “Marş” (D.Şostakoviç).
**2. Dinləmə.** Müəllim zamanın, vaxtın musiqidə tərənnüm olunması və bəstəkarların bu mövzuda yazdığı mahnılar haqqında sadə və qısa məlumat verir. Sonra bəstəkar Ü.Hacıbəylinin “Axşam oldu” musiqisinin fortepianoda ifa olunan variantını (yəni, tək melodiyanı – musiqinin sözsüz variantını) səsləndirir. Bu zaman musiqinin adını açıqlayır və məzmununa uyğun şəkil, illüstrasiyalar nümayiş etdirir. Sonra bəstəkar Ə.Abbasovun şair Y.Əzimzadənin sözlərinə bəstələdiyi “Səhər nəğməsi” mahnısını səsləndirir. Əsərin səslənməsi zamanı məzmuna aid bir neçə şəkil də göstərir. Hər iki əsəri dinlədikdən sonra müəllim uşaqlara suallarla müraciət edir: Uşaqlar, dinlədiyiniz birinci əsərin xarakteri və tempi necə idi? İkinci əsərin xarakter və tempini təyin edə bildiniz ? Hər iki əsərin musiqisində oxşar və fərqli cəhətlər hansılar idi?” *(Uşaqların cavabları)*
**3. Mahnı.** “Saat” mahnısı (musiqisi O. Zülfüqarovun sözləri O.Zülfüqarovun və Ş.Hacıqızının) şifahi yolla öyrədilir. Müəllim “Saat” mahnısının məzmunu haqqında qısa məlumat verərək onu səsləndirir. Uşaqlar dinlədikdən sonra mahnının əvvəl sözləri (şeir mətni) izah olunur, sonra melodiyası hissə-hissə, frazalarla öyrədilir. Tələffüzü çətin olan sözlər və melodiya üzərində iş aparılır. Sonda “Saat” mahnısının öyrənilmiş hissəsi xorla ifa edilir, məzmunu və xarakteri müzakirə olunur.
**4. Musiqili-ritmik hərəkətlər.** “Mən vaxtımı necə keçirirəm?” musiqili-didaktik oyun keçirilir. Müəllim uşaqları

3–4 nəfər olmaqla bir neçə komandaya bölür. Hər komandaya günün bir vaxtı elan olunur: məsələn, "Səhər", "Günorta, "Axşam, "Gecə" və s. Müxtəlif xarakterli musiqi parçaları səsləndirilir. Hər komanda ardıcıl olaraq ona tapşırılan vaxtda gördüyü işləri bədən, əl və ayaq hərəkətləri ilə təsvir etməyə çalışır: məsələn, səhər "Şəfəq sökülərkən" mahnısı (Azərbaycan xalq mahnısı – nota köçürəni Ü.Hacıbəyli) səslənir. Bu zaman uşaqlar əl-üzünü yuyur, dişlərini təmizləyir, yatağını yığışdırır, gimnastika edir, səhər yeməyini yeyir, paltar geyinir və s. hərəkətlərini musiqinin sədaları altında təsvir edirlər.

Məşğələ ümumiləşdirilərək yekunlaşdırılır.

**Musiqi materialı: "Saat".**

| | | | |
|---|---|---|---|
| 1. Çık, çık, çık, çık,<br>Saat işləyir.<br>Çık, çık, çık, çık,<br>Vaxtı göstərir.<br>*Nəqərat:*<br>Bom, bom, bom, bom,<br>Saat işləyir,<br>Vaxtı göstərir. | 2. Çık, çık, çık, çık,<br>Səhər yuxudan<br>Çık, çık, çık, çık,<br>Məni oyadır.<br>*Nəqərat:*<br>Bom, bom, bom, bom,<br>Səhər yuxudan<br>Məni oyadır. | 3. Çık, çık, çık, çık,<br>Deyir ki, mənə<br>Çık, çık, çık, çık,<br>Sən əbəs yerə.<br>*Nəqərat:*<br>Bom, bom, bom, bom,<br>Vaxtı itirmə.<br>Vaxtı itirmə. | 4. Çık, çık, çık, çık,<br>Saat işləyir.<br>Çık, çık, çık, çık,<br>Vaxtı göstərir.<br>*Nəqərat:*<br>Bom, bom, bom, bom,<br>Saat işləyir,<br>Vaxtı göstərir. |

**2-ci məşğələ**

**Marş.** "Marş" (D.Şostakoviç).
**Mahnı.** "Saat" mahnısı (O.Zülfüqarov, Ş.Hacıqızı).
**Səhnələşdirmə. "Fəsillər"** (resurs: məktub, "şəkillər").

| № | Musiqi materialı | Fəaliyyət |
|---|---|---|
| **1** | "Qar yağır"<br>(I bənd) | Bir oğlan kürkünü geyinir, papaq taxır, əlcək geyinir. Başqa uşaqlarla bayırda qartopu oynayır. |
| **2, 3, 4, 5** | "Polka" | Evə gəlir, anası masaya – nahara dəvət edir. İsti çay içir. Qapı döyülür. Ana qapıya gedir və məktubla qayıdır. Oğlan məktubu oxuyur. Ana ilə oğul şəkillərə baxır.<br>Onlar bir-birinə paltarlarını göstərir.<br>Günəşə baxır, ağacın kölgəsində gizlənirlər, dənizdə üzmək, qayıqda gəzmək, günəş vannası qəbul etmək, topla oynamaq və s. hərəkətləri göstərirlər. |
| **6** | "Qartopu" | Oğlan ana ilə söhbət edir. Ana qlobusu göstərir və izah edir. |

**15-ci həftə |HAVA**

**Məşğələ 1. ƏTRAF ALƏMLƏ TANIŞLIQ**
**Mövzu: TƏBİƏT HADİSƏLƏRİ**

**Standart:** 2.1.3; 2.1.6.
**İnteqrasiya:** 1.3.2; 2.2.6.

| | |
|---|---|
| **Məqsəd:** | • Havanı müəyyən edən əsas təbiət hadisələrini adlandırır.<br>• İlin müxtəlif vaxtlarında təbiətdə baş verən dəyişiklikləri söyləyir.<br>• Havanı müəyyən edən cihazı adlandırır. |
| **İş üsulları**: | Əqli hücum, müzakirə, problemli situasiya, suallar. |
| **İş forması**: | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Müxtəlif təbiət hadisələri təsvir olunmuş şəkil və illüstrasiyalar, termometr, bədii nümunələr, karandaşlar. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, bizim otağımızda təbiət təqvimi var. Bu gün hava necədir? *(Uşaqların cavabları)* Gəlin bugünkü havanı uyğun işarə ilə qeyd edək. Baxın, biz hər gün havanı qeyd etmişik. Dünən hava necə idi? Bəs ondan əvvəlki gün necə idi? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, pəncərəyə baxın! Sizcə, bu gün hava necədir? *(Uşaqların cavabları)* – Havanı necə adlandırmaq olar? (*Uşaqların cavabları – tutqun, soyuq, şaxtalı...*) Gəlin biz sizinlə xatırlayaq: daha necə hava olur?.. Müəllim uşaqların diqqətini müxtəlif hava növləri təsvir olunmuş şəklə cəlb edir. *(Uşaqların cavabları:*

*günəşli, yağışlı, küləkli, dumanlı, şaxtalı, qarlı)* – Afərin, uşaqlar! Havanın necə olacağını biz ***hava proqnozundan*** bilirik. Hava proqnozunu xüsusi adamlar söyləyirlər. – Bəs onlar bunu necə öyrənirlər? *(Xüsusi cihazlarla)* – Uşaqlar, bəs siz havanı müəyyən etmək üçün daha hansı cihazları tanıyırsınız? – Müəllim uşaqların diqqətini termometr təsvir olunmuş şəklə cəlb edir". *(Uşaqların cavabları)*

**M:** – "Uşaqlar, termometr nə üçündür? (*Uşaqların cavabları: havanın hərarətini ölçmək üçün*) Uşaqlar, gəlin düşünək görək, sabah havanın necə olacağını bilmək bizə nə üçün lazımdır? (*Uşaqların cavabları: sabah necə geyinmək, çətir götürmək lazım olduğunu və s. bilmək üçün)* – Uşaqlar, bəs hansı təbiət hadisələrini havaya görə ehtimal etmək olar? – Müəllim uşaqların diqqətini müxtəlif təbiət hadisələri təsvir olunmuş şəkilə cəlb edir". *(Uşaqların cavabları: yağış, qar, dolu, duman, bulud, külək, buz, çovğun)* havanın necəliyi günəş, külək və sudan asılıdır".

**M:** "Mən sizə tapmaca deyəcəyəm, diqqətlə qulaq asın: *(Müəllim uyğun bildiyi tapmacanı söyləyir)*

*Ayağı yoxdur, o qaçır,*
*Qanadı yoxdur, o uçur.*
*Göydə gəzər qalaq-qalaq,*
*Gah tutqundur, gah da ki ağ. (Uşaqların cavabları: – bulud)*

**M:** – "Buludlar necə olur? *(Uşaqların cavabları: Buludlar həm ağ, həm qara, həm də boz olur)*. Bu zaman həmin buludlar yağıntının olacağını bildirir. Dənizlərdə, göllərdə su buxarlanıb havaya qalxarsa, yağış əmələ gələr. İndi başqa bir tapmacaya qulaq asın.

*Göydən gələ-gələ*
*Düşür gilə-gilə,*
*Bunun adı nədir –*
*Gərək hamı bilə.*

*və ya*

*Göy üzü damar-damar,*
*Göydən yerə nur damar."*
*(Uşaqların cavabları: yağış)*

**M: –** "Yağışlar necə olur? *(Uşaqların cavabları)* Leysan, çiskin yağışlar olur. Uşaqlar, siz göyqurşağı görmüsünüz? *(Uşaqların cavabları)* **Göyqurşağı** təbiətin ən gözəl hadisələrindəndir. Qırmızı, narıncı, sarı, yaşıl, mavi, göy və bənövşəyi kimi müxtəlif rənglərdən ibarətdir. Rənglər qövs və ya çevrə şəklində olan göyqurşağının ən aşağı pilləsində bənövşəyi, ən yuxarı pilləsində isə qırmızı olmaqla sıralanır. Günəş şüası su damcılarının içindən keçdikdə bu rənglər yaranır. – Uşaqlar, bəs qışda havalar necə olur? – Qışda nə yağır?" *(Uşaqların cavabları)*

*Həyətdə dağdır,*
*Pambıqdan ağdır.*
*Evə gələr,*
*Suya dönər. (Qar)*

– Uşaqlar, mən sizə bir tapmaca deyəcəyəm. Sizcə, bu nədir?

*Göydən yerə buz yağır,*
*Görün necə düz yağır.*
*Fındıq boyda, qoz boyda,*
*Görmədim qarpız boyda. (Uşaqların cavabları: dolu)*

– Uşaqlar, deyə bilərsinizmi, qışda hava soyuq olanda, qar yağanda Yer necə olur? – Sular donub nə olur? *(Uşaqların cavabları: buz)*

*Odda yanmaz, Suda batmaz" (Uşaqların cavabları: buz)*

**M:** "Uşaqlar, külək əsəndə nə olur? Küləyi gözlə görmək mümkündür? Bəs onu tutmaq, ələ götürmək olar? *(Uşaqların cavabları)*

*Əl ilə tutmaq olmaz,*
*Göz ilə görmək olmaz. (Külək)*

– Bilirik ki, külək güclü olarsa, ağacları aşıra bilər.

**M:** – "Uşaqlar, siz heç ildırım görmüsünüz? İldırım nədir? *(Uşaqların cavabları: ildırım – göy gurultusu və şimşəkdən ibarət, səma ilə Yer arasındakı elektrik boşalmasıdır.)*

—İdman dəqiqəsi—

**II.** Müəllim uşaqlara suallarla müraciət edir:– Hansı təbiət hadisələrini tanıyırsınız?— Hava proqnozunu bilmək niyə vacibdir? — Hava şəraitinə görə sizin geyiminiz necə dəyişir? *(Uşaqların cavabları)*

**Tətbiqetmə**

**III. M:** – "Kitabınızda müxtəlif şəkillər var. Birinci şəklə baxaq. – Nə təsvir olunub? *(Uşaqların cavabları)* – Hansı termometrlə birləşdirilməlidir? *(Uşaqların cavabları)* Digər şəkillərə baxın. Soyuq və isti hava ilə bağlı şəkilləri müəyyən edin və uyğun termometrlə birləşdirin".

**IV. M:** – " Bu tapşırıqda isə həmin şəkillərdə olan fərqləri tapın və söyləyin".

**V. M:** "Bu tapşırıqda həftənin günləri və hər bir günün qarşısında havanın necə olacağı göstərilib. Aşağı tərəfdə isə müxtəlif əşyalar təsvir olunub. Siz hava ilə bağlı işarələrə baxın, onlara uyğun əşyaları tapın və birləşdirin."

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| | **15-ci həftə \|HAVA** |
| **Məşğələ 2. BƏDİİ TƏFƏKKÜRÜN İNKİŞAFI** | **Standart:** 2.2.2; 2.2.6. |
| **Mövzu:** HAVA HAQQINDA | **İnteqrasiya:** 2.1.2; 2.1.6. |

| | |
|---|---|
| **Məqsəd:** | • Mövzu əsasında danışır.<br>• Şəkil əsasında fikrini sadə şəkildə ifadə edir.<br>• Nitqində əlamət bildirən sözlərdən istifadə edir. |
| **İş üsulları:** | Müzakirə, suallar, nağıletmə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Hekayənin mətni, şəkillər. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M: –** Uşaqlar, səhifənin yuxarısındakı şəkillərə diqqətlə baxın. Şəkildə nə təsvir olunub? Tülkü termometrə niyə baxır? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** – “Uşaqlar, mən sizə şəkildə təsvir olunanlara aid “Hava haqqında” hekayəsini söyləyəcəyəm. Siz isə şəkillərə baxaraq mətni dinləyin. Hər şəkil mətnin bir hissəsini əks etdirir. Mən deyəndə dairəni rəngləməklə dinlədiyiniz məlumatları əks etdirən şəkli qeyd edin”.

1

”Çinarə anasına ev işlərində kömək edirdi. Birdən telefon zəng çaldı. O, dəstəyi qaldırdı. Danışan rəfiqəsi Cəmalə idi. Qızlar sabahkı gəzinti haqqında danışdılar. Sabah bütün sinif İçərişəhərə ekskursiyaya gedəcəkdi. Onlar nə geyinəcəkləri haqda bir xeyli danışdılar”.

**M:** – Eşitdiyinizə əsasən şəkildə uyğun hissəni qeyd edin.

2

“Axşam Çinarə televizorda hava proqnozunu dinlədi. Aparıcı sabah havanın yağmurlu olacağını söyləyirdi. “Deməli, sabah yağış yağacaq. Hazırlıqlı olmaq lazımdır”, – deyə Çinarə düşündü”.

**M:** – Bu məlumata əsasən şəkildə uyğun hissəni qeyd edin.

3

“Səhər açıldı. Çinarə yatağından qalxıb pəncərədən baxdı. Hava yaman tutulmuşdu. Göyün üzünü qara buludlar almışdı. Doğrudan da, yağış yağacaqdı. Çinarə şkafını açdı. Dünəndən planlaşdırdığı paltarına baxdı:

– Çox heyf, mən təzə paltarımı geyinmək istəyirdim. Amma çox nazikdir. İslanaram.

Çinarə nə isə xatırlayıb gülümsündü:

– Bəs sukeçirməz plaş nə üçündür?! Paltarımın üstündən onu geyinərəm”.

**M:** – Məzmuna uyğun hissəni qeyd edin.

4

“Çinarə qapıya doğru getdi. Qapının yanındakı çətir qabına baxdı. Hələ keçən il anası ona rəngli bir çətir almışdı. Lap göyqurşağını xatırladırdı. Üzərindəki rənglərdən biri sukeçirməz plaşı ilə eyni idi.”

**M:** – Uyğun hissəni qeyd edin.

5

“Bir azdan bütün sinif uşaqları Qoşa qala qapılarının yanında toplaşdılar. Ekskursiya başladı. Bələdçi maraqlı məlumatlar verirdi. Uşaqlar onu həvəslə dinləyirdilər. Hər şey çox gözəl idi. Birdən yağış başladı. Cəmalə yavaşca pıçıldadı:

– Vay, vay, indi islanacağam”.

**M:** – Uyğun hissəni qeyd edin.

6

“Çinarə rəfiqəsinə dedi:

– Mənim çətirim var. Gəl çətirin altında dayan. Çətirim böyükdür, ikimizi də yağışdan qoruyar.

Cəmalə soruşdu:

– Nə yaxşı çətir götürmüsən? Yağış yağacağını haradan bilirdin?

– Axşam hava proqnozunu dinlədim. Anam həmişə deyir ki, havaya uyğun geyinmək, hazırlıqlı olmaq üçün hava proqnozunu dinləmək vacibdir”.

**M:** – Məzmuna uyğun hissəni qeyd edin.

**II.** Müəllim uşaqlara suallarla müraciət edir: – Çinarə havanın pisləşəcəyini necə bildi? – Hava proqnozunu bilmək nə üçün vacibdir? – Siz fərqli hava üçün necə hazırlıq görürsünüz?*(Uşaqların cavabları)*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III.** – **M**: "Tapşırıqdakı şəkillərə diqqətlə baxın. Şəkillərə əsasən hekayənin ardıcıllığını tapın və şəkillər üzrə danışın. Danışdıqca uyğun rəqəmləri qoyun". *(Uşaqlar yerinə yetirirlər)*

**IV.** – **M:** "Şəkillərə baxın və suallara cavab verin. Şəkillərdə Cəmilə niyə fərqli geyinmişdir? – Sizcə, Cəmilə hava proqnozunda nə eşidib ki, belə geyinib?"

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| **Məşğələ 3–4. SAVAD TƏLİMİNƏ HAZIQLIQ VƏ NİTQ İNKİŞAFI**<br>**Mövzu: C (c), Ç (ç) SƏSİ VƏ HƏRFİ** | **15-ci həftə \|HAVA**<br>**Standart: 2.2.4; 2.2.5**<br>**İnteqrasiya: 1.1.4; 2.1.2.** |
|---|---|
| **Məqsəd:** | • **C(c)** və **Ç (ç)** səsini və hərfi fərqləndirir.<br>• **C** və **Ç** səsinin işləndiyi sözlər söyləyir.<br>• Xətt üzrə **C (c)** və **Ç (ç)** hərfini yazır. |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Şəkillər, karandaşlar, marker, lövhə, **C, Ç** və əlifbanın digər hərfləri.<br>"Cücə və cücü" yanıltmacı. |

### 1-ci məşğələ

**Motivasiya**

Müəllim uşaqlara yanıltmac söyləyir:

*"Cücü baxdı cücəyə,*
*Cücə qovdu cücünü.*
*Qaçdı cücü,*
*Qovdu cücə: cü-cü-cü".*

**M:** – "Uşaqlar, gəlin birlikdə bir daha yanıltmacı söyləyək. *Cücə nədir? Bəs cücü nədir? (Uşaqların cavabları)* Mən bir daha tələffüz edirəm: *Cü-cə, cü-cü*. Bu sözlər hansı səs ilə başlayır? (C səsi ilə) *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "**C** hərfindən də digər hərflər kimi sözləri yazanda istifadə olunur. Uşaqlar, sarı qutuya diqqətlə baxaq. Burada həm böyük, həm də kiçik **C** hərfi təsvir olunub. Həm böyük, həm də kiçik **C** hərfi eyni cür yazılır. Böyük **C** bir qədər böyük yazılır".

**M:** Uşaqlar, dinlədiyiniz yanıltmacda *cücə və cücü* sözlərini tələffüz edərkən birinci hansı səsi eşitdiniz? (**C**) – Bəli, bu sözlər **C** səsi ilə başlayır. Gəlin, birlikdə **C** səsini tələffüz edək".

**M:** "Uşaqlar, indi isə **C** hərfi ilə tanış olaq. Baxın, burada böyük **C** hərfi təsvir olunub. Hərfin ətrafında isə şəkillər var. Hərfin sol tərəfində yuxarıda nə təsvir olunub? *(Uşaqların cavabları)* – Cəftə nədir? *Cəftə* sözü hansı səslə başlayır? *(Uşaqların cavabları)* – Bəs hərfin sağında yuxarıda nə təsvir olunub? *Canavar* sözü hansı səslə başlayır?". Bu qayda ilə hər şəkildə nə təsvir olunduğunu adlandırın və bu sözün hansı səslə başlandığına diqqət edin *(Uşaqların cavabları)* – Sözlərdən hansı **C** səsi ilə başlayır?" *(Uşaqların cavabları) (Digər şəkillər üzrə də bu qayda ilə iş aparılır).*

**C hərfinin rənglənməsi.**

**II.** Müəllim lövhədə həm böyük **C** hərfini, həm də kiçik **c** hərfini izah edə-edə yazır. Sonra bir neçə uşaq lövhədə tapşırığı yerinə yetirir. Digər uşaqlar vəsaitdə xətt üzrə **C** hərfini çəkirlər.

**M:** – "**C** hərfinin ətrafında şəkillər təsvir olunub. Hər şəkildə nə təsvir olunduğunu bir-bir söyləyin. Söz **C** səsi ilə başlayırsa, həmin şəkli **C** hərfi ilə birləşdirin. Sol tərəfdə nə təsvir olunub?" *(cəftə, corab, cəfəri) "*Bu şəkilləri **C** hərfi ilə birləşdirməliyik. Sizcə, nə üçün? Sağ tərəfdə nə təsvir olunub?" (*canavar, cüyür, cücə*). Digər şəkillər də bu qayda ilə birləşdirilir.

**III. M:** – "Uşaqlar, vəsaitin yuxarısında xanalarda hərflər yazılıb. Siz o hərfləri öyrənmisiniz. Verilmiş hərflərin içərisindən **C** hərfini tapın. Digər hərfləri adlandırın. Xanaları nümunəyə uyğun rəngləyin. Sonra sözü oxuyun. Nə oldu?" *(ceyran)*

**IV. M:** "Uşaqlar, söylədiyim kimi, həm böyük, həm də kiçik **C** hərfinin yazılışı eynidir. Böyük hərf bir qədər böyük yazılır. Kənara çıxmadan xətt üzrə gedərək hərfləri çəkin. İndi isə kiçik hərfi çəkin".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**V. M:** – "Şəkildə xətlər üzrə hərflər yazılıb. Sözlərdəki birinci hecanın hərflərini qırmızı, ikincini isə göy karandaşla çəkin. Sözləri oxuyun. Nə yazılıb? *(canlı)* Bəli, bu söz həm böyük, həm də kiçik hərflərlə yazılıb. Yazılışından asılı olmayaraq məna dəyişmir. Sözü uyğun şəkillə birləşdirin".

**VI. M:** "Hər şəkildə nə təsvir olunduğunu bir-bir söyləyin. Bu sözlərdə **C** səsinin sözün əvvəlində, ortasında

və sonunda işlənməsini müəyyən edin və həmin şəkli uyğun çərçivə ilə birləşdirin" (*yaxmac, cücə, corab, ağac, baca, canavar)* .

Müəllim uşaqlara kəsmə əlifbada olan hərflərin içərisindən **C** hərfini götürüb, lövhəyə qoymağı təklif edir. *(Uşaqlar yerinə yetirir).*

Müəllim uşaqlara şeir söyləyir:

*Cücələrim birər-birər,*
*Suyu görüb yaxın gələr.*
*İçər, gedər eşələnər,*
*Yeyər, içər cücələrim,*
*Doyub qaçar cücələrim.*

Məşğələ boyu uşaqlar rəğbətləndirilir. Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M:** – Səhifənin yuxarısındakı şəklə baxaq. Şəkildə nə təsvir olunub? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "**Ç** hərfindən də digər hərflər kimi sözləri yazanda istifadə olunur. Uşaqlar, sarı qutuya diqqətlə baxaq. Burada həm böyük **Ç** hərfi, həm də kiçik **ç** hərfi təsvir olunub. Hər ikisi eyni cür yazılır. **Ç** hərfi **C** hərfinə oxşayır. Amma **Ç** hərfinin aşağısında kiçik xətt olur."

Verilmiş əlifbanın hərflərinin arasından **Ç** hərfi götürülərək, lövhəyə qoyulur. Müəllim əvvəlcə lövhədə izah edə-edə həm böyük, həm də kiçik **ç** hərfini yazır. Sonra uşaqlardan 2–3 nəfər lövhədə xətt üzrə hərfi çəkir. **Ç** səsinin birlikdə və tək-tək tələffüz edilməsi üzrə iş aparılır. Müəllim uşaqların diqqətini kiçik **ç** hərfinə yönəldərək deyir: – "Uşaqlar, bilirsiniz ki, hər bir hərfin həm böyük, həm də kiçik forması var. Uşaqlar, şəklə diqqətlə baxın. Şəkildə nə təsvir olunub? *(Uşaqların cavabları: Bu, kiçik **ç** hərfidir)*

"Uşaqlar, birinci tapşırıqda böyük **Ç** hərfi təsvir olunub. Hərfin ətrafında isə şəkillər təsvir olunub. Hərfin sol tərəfində yuxarıda nə təsvir olunub? *(Uşaqların cavabları) Çəkic, çiyələk, çərpələng* təsvir olunub. Bu sözlər hansı səslə başlayır? *(Uşaqların cavabları)* Bəs hərfin sağında nə təsvir olunub? (*çətir, çəngəl, çamadan*) Bu sözlər hansı səslə başlayır? *(Uşaqların cavabları)* " Bu qayda ilə hər bir şəkildə nə təsvir olunduğunu adlandırın və bu sözün hansı səslə başlandığına diqqət edin. *(Uşaqların cavabları)* Sözlərdən hansı **Ç** səsi ilə başlayır?" *(Uşaqların cavabları) (Digər şəkillər üzrə də bu qayda ilə iş aparılır).*

**Ç hərfinin rənglənməsi**

**II. M:** "Uşaqlar, bu tapşırıqda xanalarda hərflər yazılıb. Siz o hərfləri öyrənmisiniz. Hansı hərflər yazılıb? *(Uşaqların cavabları: **C, Ç, S, Ş** hərfləri)* Verilmiş hərflərin içərisindən **Ç** hərfini tapın. Digər hərfləri adlandırın. **C** ilə **Ç**-nin yazılışında fərq nədədir? Bəs **S** ilə **Ş** hərfinin yazılşında fərq nədir? *(Uşaqların cavabları)* Xanaları nümunəyə uyğun rəngləyin."

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** "Bu tapşırıqda xətt üzrə sözlər yazılıb. Sözlərin sağ və sol tərəfində isə çəkic, çəngəl, çamadan, çətir və çaydan şəkilləri təsvir olunub. Xətt üzrə hərfləri yazın. İndi isə sözləri oxuyun. Birinci söz hansıdır? *(Uşaqların cavabları: çaydan)* Bu sözü hansı şəkillə birləşdirmək lazımdır? *(Uşaqların cavabları: çaydan şəkli ilə).* Bəs ikinci söz hansıdır? *(Uşaqların cavabları: çamadan)* – Bu sözü hansı şəkillə birləşdirmək lazımdır?" *(çamadan şəkli ilə).*

*Müəllim uşaqlara **Ç** səsi ilə başlayan sözlər söyləməyi təklif edir.*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| **Məşğələ 5-6. RİYAZİ VƏ MƏNTİQİ TƏFƏKKÜRÜN İNKİŞAFI**<br>**Mövzu: HƏFTƏNİN GÜNLƏRİ** | **15-ci həftə \| HAVA**<br>**Standart:** 2.3.2; 2.3.4.<br>**İnteqrasiya:** 2.1.6; 1.1.4. |

| | |
|---|---|
| **Məqsəd:** | • Həftənin günlərini adlandırır.<br>• Həftənin günlərinin ardıcıllığını düzgün müəyyənləşdirir.<br>• Həftənin günlərinin düzgün ardıcıllığını rəqəmlərlə yazır. |
| **İş üsulları**: | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması**: | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Şəkillər, rəngli karandaşlar. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, vəsaitin yuxarısında nə təsvir olunub? Burada söhbət nədən gedə bilər? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, bu gün biz sizinlə həftənin günləri haqqında danışacağıq. Kim deyə bilər, bir həftədə neçə gün var? *(Uşaqların cavabları)* Düzdür! Həftə yeddi gündən ibarətdir. Qulaq asın!

| | | |
|---|---|---|
| *Birinci gün – bazar ertəsi.* | *Ondan sonrakı günə* | *Altıncı gün şənbədir,* |
| *Onun ardınca gəlir* | *Cümə axşamı deyilir.* | *Yeddinci gün – bazardır.* |
| *Çərşənbə axşamı,* | *Növbədə gəlir cümə,* | *Biz bu iki günləri* |
| *Sonra olur çərşənbə.* | *İş günləri qurtarır.* | *İstirahət edirik!"* |

Müəllim uşaqlarla həftənin günləri təsvir olunmuş şəkil üzrə iş aparır. Ardıcıllığı bir daha xatırladır.

**M:** "Uşaqlar, mən sizə suallar verəcəyəm, siz cavab verin:

– Çərşənbə axşamı əvvəldir, yoxsa çərşənbə?
– Şənbə əvvəldir, yoxsa bazar ertəsi?
– Cümə axşamı əvvəldir, yoxsa cümə günü?
– Cümədən sonra hansı gün gəlir?
– Çərşənbə günü ilə cümənin arasında hansı gün olmalıdır? *(Uşaqların cavabları)*

**M:** "Afərin, uşaqlar! Düzgün müəyyən etdiniz. Həftənin günləri biri-birini əvəz edir. Yeddi gün birlikdə həftəni təşkil edir. Biz öyrəndik ki, hər günün öz adı var. Həftənin günlərinin ardıcıllığı həmişə eyni cür olur. Həftə bazar ertəsindən başlayıb, bazar günü bitir. Həftənin beş günü iş günüdür. Biz bağçaya, məktəbə və işə gedirik. Şənbə və bazar günləri isə istirahət edirik".

**M:** "Bu tapşırıqda vərəqlər təsvir olunub. – Neçə vərəq təsvir olunub? *(Uşaqların cavabları)* Vərəqlər həftənin yeddi gününü göstərir. – İkinci vərəqdə neçə nöqtə çəkilib? *(Uşaqların cavabları)* – İki nöqtə qoyulubsa, həftənin neçənci günüdür? *(Uşaqların cavabları: ikinci)* Bəs onda həmin vərəqdən əvvəlki vərəqdə neçə nöqtə olmalıdır?*(Uşaqların cavabları: bir)* Vərəqlərdə günlərin ardıcıllığına uyğun nöqtələri çəkin".

**II. M:** "Kitabınızda nə təsvir olunub? *(Uşaqların cavabları)* – Bəli, həftənin günləri təsvir olunub. Günlər ardıcıl olaraq rəqəmlə yazılıb. Həftənin 2 günü qırmızı rənglə verilib. Sizcə, nə üçün belə verilib? *(Uşaqların cavabları)* Bəli, şənbə və bazar istirahət günləri olduğu üçün qırmızı rənglə verilib. Biz bilirik ki, hər günün öz adı var. Siz artıq bir çox hərfləri öyrənmisiniz. Vərəqdə həftənin günlərinin adının 1-ci hərfləri yazılıb. Siz həmin hərflərə baxaraq həftənin günlərini ardıcıl adlandırın".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** "Bu tapşırıqda isə həftənin günlərinin adları hərflə göstərilib. Həftənin günlərinin düzgün ardıcıllığını rəqəmləri yazaraq göstərin. – **B.e** hərfləri həftənin hansı gününün adıdır? *(Uşaqların cavabları)* Həmin vərəqə hansı rəqəm yazılmalıdır?" *(Uşaqların cavabları:1) (Həftənin hər bir günü üzrə bu qayda ilə iş aparılır.)*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

Müəllim uşaqlara şeir söyləyir:

| | | |
|---|---|---|
| *"Birinci gün – bazar ertəsi.* | *Ondan sonrakı günə* | *Altıncı gün şənbədir,* |
| *Onun ardınca gəlir* | *Cümə axşamı deyilir.* | *Yeddinci gün – bazardır.* |
| *Çərşənbə axşamı,* | *Növbədə gəlir cümə,* | *Biz bu iki günləri* |
| *Sonra olur çərşənbə.* | *İş günləri qurtarır.* | *İstirahət edirik!"* |

**M:** – "Şeirdə söhbət nədən gedir?" *(Uşaqların cavabları dinlənilir)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, kitabınızda müxtəlif məzmunlu şəkillər təsvir olunub. Hava proqnozunun işarələrinə baxın və onların nəyi bildirdiyini söyləyin. Birinci şəkildə nə təsvir olunub? *(Uşaqların cavabları)* Nədən bildiniz? Bəs növbəti şəkildə nə təsvir olunub? Necə havanı bildirir?" *(Uşaqların cavabları)*

**II. M:** "Vəsaitinizdə həftənin günlərini bildirən **7** vərəq verilib. Hər bir vərəqdə həftənin günləri rəqəmlə göstərilib. Həftənin günlərini adlandırın və ilk hərfləri yazın".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** "Şəkildə həftənin günləri verilib. Hər günün qarşısında havanı bildirən şəkillər təsvir olunub. Həftənin günlərini adlandırın. Hər bir gün havanın necə olacağını söyləyin. Sonra həmin havanı ona uyğun şəkillə birləşdirin.

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| | **15-ci həftə \| HAVA** |
| **Məşğələ 7–8. TƏSVİRİ FƏALİYYƏT**<br>**Mövzu: HAVA İŞARƏLƏRİ** | **Standart:** 3.1.3; 3.1.4; 3.1.5.<br>**İnteqrasiya:** 2.2.6; 2.3.2. |

| | |
|---|---|
| **Məqsəd:** | • Kəsib-yapışdırma ilə sadə yaradıcılıq bacarıqları nümayiş etdirir.<br>• Sadə yapma bacarıqları nümayiş etdirərək kompozisiya qurur. |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Şəkillər, plastilin, rəngli kağızlar, qayçı, yapışqan. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Uşaqlar, bu gün həftənin hansı günüdür? Bu gün hava necədir? Bəs dünən necə idi? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Bəli, uşaqlar, düz tapdınız. Biz sizinlə kağızdan hava işarələri düzəldəcəyik. *(Müəllim nümunəni uşaqlara göstərir. Sonra isə onların gözü qarşısında düzəldir. Sonra da uşaqlara işə başlamağı təklif edir.)* Boz kağızdan əvvəlcə buludları, ağ kağızdan qar dənəciklərini kəsməyi təklif edir. Sonra uşaqlar qar dənəciklərini buluda birləşdirirlər". Bitirdikdən sonra uşaqlar öz işlərində təsvir etdikləri haqqında danışırlar.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II.** Müəllim plastilindən həftənin günlərinin adlarını düzəltməyi təklif edir. Bunun üçün əvvəlcə həftənin günləri bir daha təkrarlanır. B.e, **Ç.a, Ç., C.a, C, Ş, B** hərfləri düzəldilir. Hərflər əsasında həftənin günləri bir daha adlandırılır. Müəllim məşğələ prosesində onlara istiqamət verir, uşaqların əməkdaşlıq etmələrinə imkan yaradır.

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

Müəllim uşaqlara tapşırıqdakı şəkillərə baxmağı təklif edir və soruşur: – "Şəkillərdə necə hava təsvir olunub?" *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Bəli, uşaqlar, düz tapdınız. Biz sizinlə kağızdan hava işarələri düzəldəcəyik". *(Müəllim nümunəni uşaqlara göstərir. Sonra isə onların gözü qarşısında düzəldir. Sonra da uşaqlara işə başlamağı təklif edir.)* Uşaqlar sarı kağızdan əvvəlcə günəşin dairəsini, sonra isə günəş şüalarının kənarlarını kəsir, kəsdikdən sonra onları yapışdırırlar". Bitirdikdən sonra uşaqlar öz işlərində təsvir etdikləri haqqında danışır.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "Uşaqlar, bu tapşırıqda nələr təsvir olunub? *(çərpələnglər)* Onların hər biri hansı hərfə bənzəyir? *(Uşaqların cavabları)* İndi isə çərpələngləri xətt üzrə çəkin". Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| | **15-ci həftə \| HAVA** |
| **Məşğələ 9-10. FİZİKİ MƏDƏNİYYƏT**<br>**Mövzu: ŞAXTA** | **Standart:** 1.1.1; 1.1.2.<br>**İnteqrasiya:** 4.1.2; 4.2.2. |

| | |
|---|---|
| **Məqsəd:** | • Uzununa hoppanma hərəkətlərini yerinə yetirir.<br>• Hərəkətlərini koordinasiya edir.<br>• Hərəkətlərində cəldlik və çeviklik nümayiş etdirir. |
| **İş üsulları:** | Müzakirə, süjetli-rollu oyunlar. |
| **İş forması:** | Kollektiv, qruplarla və fərdi iş. |
| **Resurslar:** | Kiçik kubiklər, 1 m uzunluqda taxta |

**1-ci və 2-ci məşğələ**

**I. İsinmə hərəkətləri** (5 dəq.)

– bir-birinin ardınca adi, sonra isə əllər yuxarıda pəncə üstə yeriş;
– daban üzərində yeriş, əllər arxada;
– pəncələr üstə yüngül qaçış;
– əllər beldə hoppanma;
– tənəffüsün bərpası üzrə yeriş.

**II. Ümuminkişafetdirici hərəkətlər** (20 dəq.)
**1. "Kubikləri göstərin"** (5-6 dəfə).
ç.v. – Ayaqlar çiyin bərabəri aralı, əllər kubiklərlə aşağı salınmış vəziyyətdə.
*1 sayında* kubikləri yuxarı qaldırmaq və göstərmək;
*2 sayında* çıxış vəziyyətini almaq.
*3 sayında* kubikləri yuxarı uzadaraq onları bir-birinə toqquşdurmaq;
*4 sayında* çıxış vəziyyətinə qayıtmaq.
**2. "Kubikləri toqquşdurun"** (5-6 dəfə).
ç.v. – ayaqlar çiyin bərabəri aralı, əllər kubiklə aşağı salınmış vəziyyətdə.
*1 sayında* gövdəni sağ tərəfə döndərib, qolları bir qədər irəli uzatmaq və kubikləri bir-birinə toqquşdurmaq;
*2 sayında* çıxış vəziyyətini almaq.
*3 sayında* həmin hərəkəti sol tərəfə eynilə təkrar icra etmək;
*4 sayında* çıxış vəziyyətinə qayıtmaq.
**3. "Kubikləri dizin üstünə qoyun"** (4 dəfə).
ç.v. – çöməlmək, kubikləri dizlərin üstünə qoymaq.
*1 sayında* gövdəni sağa döndərərək kubiki götürüb qolları yana açmaq;
*2 sayında* çıxış vəziyyətini almaq.
*3 sayında* həmin hərəkəti eynilə sol tərəfə təkrar icra etmək:
*4 sayında* çıxış vəziyyətinə qayıtmaq.
**4. "Kubikləri gizlət"** (5-6 dəfə).
ç.v. – düz dayanmaq, əllər yanlarda.
*1 sayında* sağ əllə kubiki irəli uzatmaq;
*2 sayında* kubiki arxada gizlətmək;
*3 sayında* kubiki sol əllə irəli uzatmaq;
*4 sayında* kubiki arxada gizlətmək.
**5. "Kubiklərin ətrafında hoppanın"** (2 dəfə).
ç.v. – qaməti düz saxlamaqla ayaqlar bir yerdə, qollar yanlarda. Kubiki yerə qoymaq.
*1 sayında* sol tərəfdən kubikin ətrafında hoppanmaq;
*2 sayında* hoppanmanı yerişlə əvəz etmək;
*3 sayında* hərəkəti sağ tərəfə hoppanmaqla eynilə icra etmək;
*4 sayında* hoppanmanı yerişlə növbələşdirmək.
**6. "Kubikə toxun"** (3–4 dəfə).
ç.v. – qaməti düz saxlamaqla ayaqlar bir yerdə, qollar yanlarda. Kubiki qarşısında yerə qoymaq.
*1 sayında* əyilib, sol əli kubikə toxundurmaq;
*2 sayında* çıxış vəziyyətini almaq.
*3 sayında* hərəkəti sağ əllə icra etmək;
*4 sayında* – çıxış vəziyyətinə qayıtmaq.
**Əsas hərəkətlər.**

**Hoppanma hərəkətləri. Yerindən uzununa hoppanmaq.** Müəllim uşaqları bir cərgəyə düzür. Cərgədən 20 sm aralı o, bir taxta parçası qoyur. Uşaqlar növbə ilə gəlib durduqları yerdən taxta qoyulan məsafəyədək iki ayaq üstə uzununa hoppanmalıdırlar. Hoppanarkən müəllim uşaqların başlarını dik saxlamalarına, qollarını arxaya verməklə güclü təkanla irəli hoppanmalarına diqqət etməlidir.

**Hərəkətli oyun: "Şaxta".**

Oyunun qaydasına görə, uşaqların arasından bir uşaq seçilir. Onun vəzifəsi mümkün qədər çox iştirakçını tutmaq və "dondurmaq"dır. Seçilmiş uşaq digər oyunçunu qovur və ona toxunan kimi o biri oyunçu dayanmalı və yerində "donmalıdır". Bu zaman köməyə ehtiyacı olduğunu bildirmək üçün qollarını yanlara açmalıdır. Digər oyunçular "donduran" uşağı keçməyə çalışaraq "donmuş" yoldaşına toxunmaqla, onu azad etməyə çalışmalıdırlar. Bu halda həmin "donmuş" oyunçu yenidən oyuna qayıdır.

*Oyunun məqsədi* oyunun bütün iştirakçılarını "dondurmaqdır". Əgər bu, 3–5 dəqiqə ərzində alınmasa, seçilmiş uşaq başqası ilə əvəzlənir və oyun davam etdirilir.

**III. Sakitləşdirici hərəkətlər** (5 dəq.)
***"Göyqurşağı, məni qucaqla".***
ç.v. – düz dayanmaq, əllər yanlarda.
*1.* Nəfəsalma – qolları yanlara açaraq, dərindən burunla nəfəs almaq.
*2.* Nəfəsvermə – ç.v.-ni almaq.
*3.* Nəfəsalma – Qolları əvvəlcə qabağa atmaq, sonra sinə qarşısında çarpazlamaq.
*4.* Nəfəsvermə – ç.v.-nə qayıtmaq.
"Asta, sakit və sərbəst halda nəfəs" deməklə hərəkəti 3–5 dəfə təkrar etmək.

| | | |
|---|---|---|
| | | **15-ci həftə \| HAVA** |
| **Məşğələ. 11-12 Musiqi**<br>**Mövzu: QARTOPU** | | **Standart: 3.1.7; 3.1.8.**<br>**İnteqrasiya: 2.2.1.; 2.2.2** |
| **Məqsəd:** | • Musiqinin xarakterini və tempini müəyyən edir.<br>• Xorda oxumaq bacarıqları nümayiş etdirir.<br>• Musiqinin kiçik melodiyasını oyuncaq musiqi alətində çalır.<br>• Musiqinin məzmununu hərəkətləri ilə təsvir edir. | |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar. | |
| **İş forması:** | Kollektiv və fərdi iş. | |
| **Resurslar:** | Kompüter, disk, şəkillər, metallofon musiqi aləti | |
| **Musiqi materialları:** | "Marş" (D.Şostakoviç), "Axşam oldu" (Ü.Hacıbəyli), "Yağdı yağışlar" (M.Nəsirbəyov/ A.Şaiq), "Qartopu" mahnısı (S.Rüstəmov/M.Seyidzadə), "Vals" ("7 gözəl" baletindən, Q.Qarayev), "Feya Drajenin rəqsi" ("Şelkunçik" baleti, P.İ.Çaykovski), "Bakı" (T.Quliyev/Z.Cabbarzadə) | |
| **Alternativ material:** | **Dinləmə:** "Payız" (M.Əhmədov/M.Seyidzadə), "Yazda" (R.Şəfəq/T.Elçin, H.Arif)<br>**Mahnı:** "Qış mahnısı" (M.Əlibəyli) | |

**1-ci məşğələ**

**1. Marş.** D.Şostakoviç. "Marş".

**2. Dinləmə:** Müəllim uşaqlara hava, müxtəlif fəsillərdə havanın dəyişilməsi və bu hadisələrin musiqidə tərənnüm olunması haqqında sadə və qısa məlumat verir. Sonra "**Yağdı yağışlar**" mahnısını səsləndirir. Bu zaman mövzuya uyğun şəkil, illüstrasiyalar nümayiş olunur. Sonra uşaqlara suallarla müraciət edir: – Uşaqlar, dinlədiyiniz mahnı nədən bəhs edirdi? – Mahnı hansı xarakteri və tempi necə idi? – Havada olan dəyişikliyi musiqiyə köçürsək, musiqinin xarakteri necə dəyişər?

**3. Mahnı:** "**Qartopu**" mahnısı şifahi yolla öyrədilir. Müəllim bəstəkar S.Rüstəmov haqqında qısa məlumat verir, onun uşaqlar üçün bəstələdiyi mahnılar yada salınır. Sonra "Qartopu" mahnısının məzmunu haqqında məlumat verərək onu səsləndirir. Əvvəl mahnının şeir mətni izah olunur, sonra isə melodiyası ilə hissə-hissə – frazalarla öyrədilir. Tələffüzü çətin olan sözlər və melodiya üzərində iş aparılır. Sonda "Qartopu" mahnısının öyrənilmiş hissəsi xorla ifa edilir, məzmunu və xarakteri müzakirə olunur.

**4. Musiqili-ritmik hərəkətlər: 1.** "**Qartopu**" mahnısı ifa olunur. Uşaqlar mahnı ifa edərkən məzmununu əl və bədən hərəkətləri ilə təsvir etməyə çalışırlar. **2.** Uşaqlara metallafon zərb aləti paylanılır. "Yağdı yağışlar" mahnısı səsləndirilir. Müəllimin göstərişi ilə uşaqlar həmin alətlərdə 2 not yüksəkliyini ritmə uyğun ifa edirlər. Məşğələ ümumiləşdirilərək yekunlaşdırılır.

**Musiqi materialı: "Qartopu".**

| | | |
|---|---|---|
| | | *Nəqərat:* |
| Dağlar qoyub ağ papaq,<br>Yerlər olub ağappaq.<br>Ağ don geyib düzənlər<br>Qara bax, ay qara bax. | Dolubdur göydə ulduz,<br>Çaylar bağlayıbdır buz.<br>Bahar kimi qışda da<br>Səfalıdır yurdumuz. | Hamımızın var topu,<br>Atsın uşaqlar topu.<br>Gəlin bu meydançada<br>Biz oynayaq qartopu. |

**2-ci məşğələ**

**Marş.** "Marş" (D.Şostakoviç)
**Mahnı.** "Qartopu" mahnısı (S.Rüstəmov/M.Seyidzadə)
**Səhnələşdirmə. "Hava haqqında"** (resurs: oyuncaq telefonlar, televizor maketi, çətir, plaş).

| № | Musiqi materialı | Fəaliyyət |
|---|---|---|
| **1** | Feya Drajenin rəqsi | Bir qız telefonla zəngləşir və danışır. O biri qız xəttə onu dinləyir |
| **2, 3, 4** | "Vals" | Qız televizoru yandırır və baxır. Televizorun ekranında yağış və qar təsvir olunub. Televizoru dinləyib çətiri axtarır və əlinə götürür, plaşını da geyinir |
| **5, 6** | "Bakı" | Çətirli və plaşlı qız o biri qızla birləşib gəzişirlər. Plaşsız və çətirsiz qız üşüyür, saçları da islanır. O biri qız çətirini hər ikisinin başı üzərinə tutur və plaşının bir tərəfi ilə rəfiqəsinin çiynini örtür. |

| Məşğələ 1. ƏTRAF ALƏMLƏ TANIŞLIQ<br>Mövzu: İLİN FƏSİLLƏRİ | Standart: 2.1.3; 2.1.6.<br>İnteqrasiya: 2.2.1; 2.2.6. |
|---|---|
| **Məqsəd:** | • Fəsilləri adlandırır.<br>• İlin fəsillərində olan dəyişikliklərdə fərqli və oxşar cəhətləri müəyyən edir.<br>• Səbəb-nəticə əlaqələrini izah edir və məntiqi nəticələr çıxarır. |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Uşaqların sayı qədər həftənin günləri qeyd edilmiş rəngli vərəqlər. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, kitabın yuxarısındakı şəklə baxın. Nə görürsünüz? Burada nə düz deyil? *(Uşaqların cavabları) (Uşaqların fikirləri dinlənilir.)*

**Dərketmə**

**I. M:** "İnsan və onu əhatə edən hər şey *təbiət* adlanır. Uşaqlar, biz bu gün sizinlə təbiətə gəzintiyə çıxacağıq. "Təbiət" sözü sizə tanışdır. O nə deməkdir? *(bitkilər, quşlar, heyvanlar)* Bəs nəyə təbiət demək olmaz? *(İnsan əli ilə düzələnə)* – Bu gün biz sizinlə ilin müxtəlif vaxtlarında təbiətdə baş verən dəyişikliklər haqqında danışacağıq. Mən sizə tapmaca söyləyəcəyəm.

*Bir kişinin 4 evi var,*
*Biri yaşıldır, o biri al.*
*Biri sarıdır, o biri ağ. (Fəsillər) (Uşaqların cavabları)*

– Yer üzündə fəsillər bir-birini əvəz edir. Belə ki, qışdan sonra yaz, sonra yay, onun ardınca isə payız gəlir. Gələn hər bir fəsil də bizə nə isə maraqlı və xoş bir yenilik gətirir. Yazda qış yuxusuna getmiş təbiət oyanır. Ərimiş qarın suyu çaylara axıb gedir, quşlar şən səslə öz nəğmələrini oxuyur, günəşin ilk şəfəqlərinin qızdırdığı təpəciklərdə isə yazın ilk çiçəkləri görünməyə başlayır. Qış yuxusuna getmiş heyvanlar oyanır. Yay isə öz istisi, rəngarəng çiçəkləri və dadlı giləmeyvələri ilə gəlir. Payızda təbiət al-əlvan rəngə bürünür və gözəlliyi ilə bizi valeh edir. Qış isə bizi yumşaq qarlı, çox sevimli Yeni il bayramı ilə sevindirir. İndi mən sizə tapmacalar söyləyəcəyəm. Qulaq asın.

*Hamı palto, pencəkdə,*
*Əllər isti əlcəkdə,*
*Gecə uzun, gün gödək,*
*Nə fəsildir, tap görək?*
*(Qış)*

*Deyin: nə vaxt*
*Əriyir qar.*
*Baş qaldırır*
*Yaşıl otlar?*
*(Yaz)*

*Deyin, nə vaxt*
*Isti olur.*
*Anbarlara*
*Taxıl dolur?*
*(Yay)*

*Deyin, nə vaxt*
*Bağlar solur.*
*Yarpaqları*
*Yellər yolur?*
*(Payız)*

*Deyin, nə vaxt*
*Sular donur.*
*Yerə ağ-ağ*
*Qarlar donur?*
*(Qış)*

– Bunlar hamısı birlikdə *ilin fəsilləri* adlanır.

– Təbiətdə daim dəyişikliklər baş verir: gah külək əsir, gah yağış və ya qar yağır, bəzən də göydə göyqurşağı görünür. Yazda ağaclarda yarpaqlar yaranır, payızda isə tökülür. Bunlar təbiət hadisələri adlanır. Çox dəyişikliklər ilin fəsillərinin növbələşməsi ilə əlaqədardır. *Payızda* tez-tez yağışlar yağır, havalar soyumağa başlayır, yarpaqlar saralır və xəzəl olub tökülür. Gündüzlər qısalmağa başlayır. Bir çox meyvə və tərəvəzlər payızda yetişir. Payızdan sonra *qış* fəsli gəlir. Qışda gündüzlər daha qısa olur. Havalar soyuyur, şaxtalar olur. Tez-tez qar yağır, çovğun olur. Yeni il bayramı qışda olur. Uşaqlar qar adam düzəldir, xizəkdə sürüşürlər. *Yazda* səma mavi olur, səmada ağ-ağ yüngül buludlar üzür. Havalar istiləşməyə başlayır, qarlar əriyir. Çayların suyu artır. Ağaclar tumurcuqlanır, qarın altından ilk çiçəklər boy atıb açır. *Yayda* günəş daha yüksəkdə olduğu üçün havalar istiləşir. Hər tərəf yaşıllaşır. Çiçəklər açır, kəpənəklər, arılar uçur. Giləmeyvələr yetişir. İnsanlar çimərliklərə gedirlər.

—İdman dəqiqəsi—

**II.** Müəllim uşaqlara suallar verir: — Hansı fəsilləri tanıyırsınız? — Fəsillər necə dəyişir? — Fəsillərin dəyişməsi canlıların davranışlarına necə təsir göstərir? *(Uşaqların cavabları)*

**Tətbiqetmə**

**III. M:** "Vəsaitinizdə 4 fəsil üzrə şəkillər təsvir olunub. Təsvir olunanları adlandırın və haqqında danışın".

**IV. M:** "Tapşırıqda şəkillər və həmin şəkillərə uyğun fəaliyyətlər təsvir olunub. Fəaliyyətin hansı fəslə uyğun olduğunu müəyyənləşdirin və onları xətlə birləşdirin. "

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| Məşğələ 2. BƏDİİ TƏFƏKKÜRÜN İNKİŞAFI<br>Mövzu: İLİN FƏSİLLƏRİ | Standart: 2.2.1; 2.2.2; 2.2.6.<br>İnteqrasiya: 2.1.2; 2.1.4. |
|---|---|
| **Məqsəd:** | • Eşitdiyini anladığını nümayiş etdirir.<br>• Nağılın məzmununu sadə şəkildə izah edir.<br>• Nitqində əlamət bildirən sözlərdən istifadə edir. |
| **İş üsulları:** | Müzakirə, suallar, nağıletmə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Hekayənin mətni, şəkillər. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, vəsaitinizdəki şəkillərə diqqətlə baxın. Şəkillərdə nələr təsvir olunub? Sizcə, burada söhbət nədən gedə bilər? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, mən sizə şəkillərdə təsvir olunanlara aid "İlin fəsilləri" hekayəsini söyləyəcəyəm. Siz isə şəkillərə baxaraq mətni dinləyin. Hər şəkil mətnin bir hissəsini əks etdirir. Mən deyəndə dairəni rəngləməklə dinlədiyiniz məlumatları əks etdirən şəkli qeyd edin".

1

"Qış idi. Hər tərəf ağappaq qarla örtülmüşdü. Möhkəm şaxta var idi. Ülvi kürkünü geyinib papağını başına qoydu. Nənəsinin toxuduğu əlcəklər isə lap yerinə düşdü. Əlləri şaxtadan donmayacaqdı. Bütün hazırlıqdan sonra Ülvi bayıra çıxdı. O, dostları ilə qartopu oynayıb buz üstə sürüşdü. Soyuqdan uşaqların yanaqları qıpqırmızı olmuşdu. Şaxta axşama doğru daha da şiddətləndi".

**M:** – Eşitdiyinizə əsasən şəkildə uyğun hissəni qeyd edin.

2

"Soyuqdan yanaqları qızarmış Ülvi evə gəldi. Anası onun üçün süfrə hazırlamışdı. Bayırdakı soyuqdan sonra isti çay Ülviyə ləzzət edirdi. Təmiz, şaxtalı hava Ülvini iştaha gətirmişdi".

**M:** – Bu məlumata əsasən şəkildə uyğun hissəni qeyd edin.

3

"Bir azdan qapı döyüldü. Anası qapını açdı. Gələn poçtalyon idi, məktub gətirmişdi. Məktub Ülvinin dostu Uilyamdan idi. Uilyam Avstraliyada yaşayırdı. Onlar tez-tez məktublaşırdılar. Ülvi sobanın yanındakı kresloda əyləşdi. Məktubu açıb oxumağa başladı".

**M:** – Məzmuna uyğun hissəni qeyd edin.

4

"Uilyam yazırdı: "Salam, əziz dostum Ülvi. Necəsən? Mən bilirəm ki, indi sizdə qış fəslidir. Həm də bilirəm ki, oralarda tez-tez qar yağır. Yəqin ki, dostlarınla qartopu oynayır, qar adamı düzəldirsən. Avstraliyada isə yaydır, çox istidir. Havanın istiliyi 35 dərəcəyə qədər yüksəlir".

**M:** – Uyğun hissəni qeyd edin.

5

"Sərinlənmək üçün biz çimərliyə gedirik. Bu cür isti havada dənizin sərin suları adama xoş gəlir. Sahildə voleybol, futbol da oynayırıq. Günəşin parlaq şüaları dərimizi qaraldır, bədənimizi möhkəmləndirir".

**M:** – Uyğun hissəni qeyd edin.

6

"Uilyamın məktubunu oxuyan Ülvi yaman təəccübləndi. Xeyli düşündükdən sonra anasına yaxınlaşdı:

– Ana, nə qəribədir?! Bax, bizdə qışdır, amma Avstraliyada yay? Axı niyə belə olur?

Ana qlobusu göstərib ded:

– Ülvi, bizim planet Günəş ətrafında dövr edir. Yaşadığımız planet gah Günəşə yaxınlaşır, gah da ondan uzaqlaşır. İndi Uilyamın vətəni Günəşə daha yaxındır. Ona görə də orada istidir. Biz isə Günəşdən uzaqdayıq, ona görə də burada soyuqdur".

**M:** – Məzmuna uyğun hissəni qeyd edin.

**II.** Müəllim uşaqlara suallarla müraciət edir: – Ulvi kimdən məktub almışdı? – Uilyam məktubunda nə yazırdı? – Ülvi niyə təəccübləndi? – Anası havanın fərqini Ülviyə necə izah etdi?

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M**: "Tapşırıqdakı şəkillərə diqqətlə baxın. Şəkillərə əsasən hekayənin ardıcıllığını tapın və şəkillər üzrə

danışın. Danışdıqca uyğun rəqəmləri qoyun". *(Uşaqlar yerinə yetirirlər.)*

**M**: – Uşaqlar, Ülvi fərqli fəsillərdə hava haqqında Uilyama nə yazırdı?

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| **Məşğələ 3–4. SAVAD TƏLİMİNƏ HAZIQLIQ VƏ NİTQ İNKİŞAFI**<br>**Mövzu: U (u), Ü(ü) SƏSİ VƏ HƏRFİ** | | **16-cı həftə \| FƏSİLLƏR**<br>**Standart:** 2.2.4; 2.2.5<br>**İnteqrasiya:** 1.1.4; 2.1.2. |
|---|---|---|
| **Məqsəd:** | • **U (u), Ü (ü)** səsini və hərfini fərqləndirir.<br>• **U** və **Ü** səsinin işləndiyi sözlər söyləyir.<br>• Xətt üzrə **U** və **Ü** hərfini yazır. | |
| **İş üsulları**: | Əqli hücum, suallar, müzakirə. | |
| **İş forması**: | Kollektiv və fərdi iş. | |
| **Resurslar:** | Şəkillər, karandaşlar, marker, əlifbanın hərfləri. | |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Səhifənin yuxarısındakı şəklə baxaq. Şəkildə nə təsvir olunub? Tülkü nə edir? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Bəli, **U** hərfindən də digər hərflər kimi sözləri yazanda istifadə olunur. Uşaqlar, sarı qutuya diqqətlə baxaq. Burada **U** hərfi təsvir olunub. **U** böyük hərfdir.

**M:** "*Uğur baxıb göylərə,*
*Dedi, usta olacam!*
*Uca bir qüllə tikib,*
*Ulduzlara çatacam!"*

**M:** "Uşaqlar, dinlədiyiniz şeir parçasında *Uğur, uca, ulduz* sözləri **U** səsi ilə başlayır".

**M:** "İndi isə **U** hərfi ilə tanış olaq. Baxın, burada böyük **U** hərfi təsvir olunub. Həm böyük, həm də kiçik **U** hərfi eyni cür yazılır. Böyük **U** bir qədər böyük yazılır. Hərfin ətrafında isə şəkillər var. Hərfin sol tərəfində nə təsvir olunub? *(Uşaqların cavabları) Ulduz* sözü hansı səslə başlayır? *(Uşaqların cavabları)* Bəs hərfin sağında yuxarıda nə təsvir olunub? *Uşaq* sözü hansı səslə başlayır? (Bu qayda ilə hər şəkildə nə təsvir olunduğunu adlandırın və bu sözün hansı səslə başlandığına diqqət edin. Hər bir şəkildə nə təsvir olunduğunu söyləyin və bu sözün hansı səslə başlandığına diqqət edin. *(Uşaqların cavabları)* – Sözlərdən hansı **U** səsi ilə başlayır?" *(Uşaqların cavabları)* Gəlin birlikdə **U** səsini tələffüz edək". *(Bir neçə dəfə ucadan tələffüz etməklə bu səsin artikulyasiyasını göstərir.)* Uşaqlara başa salır ki, **u** səsini tələffüz etmək üçün dodaqlar qabağa uzanmalıdır *(sonra uşaqlar **u** səsini tələffüz edirlər. Onlar bunu stol üzərindəki nazik kəsilmiş vərəqləri ağızlarına yaxın tutub deyirlər, vərəq yellənir).* Sonra canavarın necə ulaması yada salınır: "Uu – uu – u…"

**U** hərfinin rənglənməsi.

**II.** Müəllim lövhədə həm böyük **U** hərfini, həm də kiçik **u** hərfini izah edə-edə yazır. Sonra bir neçə uşaq lövhədə tapşırığı yerinə yetirir. Digər uşaqlar vəsaitdə xətt üzrə **U** hərfini çəkirlər.

**M:** "**U** hərfinin ətrafında şəkillər təsvir olunub. Hərfin sol tərəfində hansı şəkil təsvir olunub? *(tum)* U səsi sözün hansı hissəsində yerləşir? (ortasında) Həmin şəkli **U** səsi ilə birləşdirmək olar? *(Uşaqların cavabları)* Nə üçün? *(Digər şəkillər də bu qayda ilə təhlil edilir.)* Hər şəkildə nə təsvir olunduğunu bir-bir adlandırın. Söz "**U**" səsi ilə başlayırsa, həmin şəkli "**U**" hərfi ilə birləşdirin".

**III. M:** "Sözdəki ilk 4 hərfi tapın və yerləşdiyi xananı nümunəyə uyğun rəngləyin".

—İdman dəqiqəsi—

**IV. M:** "Böyük və kiçik **U** hərfləri xətt üzrə verilib. Hərfləri xətt üzrə çəkin".

**Tətbiqetmə**

**V. M:** "Bu tapşırıqda şəkillər təsvir olunub. Şəkilləri adlandırın. Sözləri xətt üzrə çəkin və uyğun şəkillə birləşdirin".

**VI. M:** "Şəkillərdə nə təsvir olunub? (*usta, uşaq, tum, boru)* Şəkilləri adlandırın, hansı səslə başladığını müəyyənləşdirin və uyğun çərçivə ilə birləşdirin".

Məşğələ boyu uşaqlar rəğbətləndirilir. Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdirilir.

**2-ci məşğələ**

**Motivasiya**

Lövhədə böyük **Ü** ilə bərabər kiçik **ü** hərfi də ya asılır, ya da proyektorla ekrana salınır. Verilmiş əlifbanın hərflərinin arasından kiçik **ü** hərfi götürülərək lövhəyə qoyulur. **Ü** səsinin birlikdə və tək-tək tələffüz edilməsi üzrə iş aparılır. Müəllim uşaqların diqqətini kiçik **ü** hərfinə yönəldərək deyir:

– Uşaqlar, bilirsiniz ki, hər bir hərfin həm böyük, həm də kiçik forması var. Biz bu gün sizinlə **Ü** hərfinin həm böyük, həm də kiçik formasını öyrənəcəyik.

**Dərketmə**

**I. M:** "Ü hərfindən də digər hərflər kimi sözləri yazanda istifadə olunur. Uşaqlar, sarı qutuya diqqətlə baxaq. Burada həm böyük **Ü** hərfi, həm də kiçik **ü** hərfi təsvir olunub. Hər ikisi eyni cür yazılır. **Ü** hərfi **U** hərfinə oxşayır. Amma **Ü** hərfinin başında iki nöqtə olur. Bu tapşırıqda Ü hərfi təsvir olunub. Hərfin solunda isə şəkillər təsvir olunub. Hərfin sağında hansı şəkillər təsvir olunub? *(Uşaqların cavabları) (üzüm, üzük, ütü, ürək) Üzüm* sözü hansı səslə başlayır? *(Uşaqların cavabları)* Bəs digər şəkildə nə təsvir olunub? *Üzük* sözü hansı səslə başlayır? Bu qayda ilə hər şəkildə nə təsvir olunduğunu adlandırın və bu sözün hansı səslə başlandığına diqqət edin. *(Uşaqların cavabları)* – Sözlərdən hansı **Ü** səsi ilə başlayır? *(Uşaqların cavabları)* Gəlin birlikdə **Ü** səsini tələffüz edək". *(Bir neçə dəfə ucadan tələffüz etməklə bu səsin artikulyasiyasını göstərir.)* Uşaqlara başa salır ki, **ü** səsini də tələffüz edərkən dodaqlar qabağa doğru uzanır *(sonra uşaqlar **ü** səsini tələffüz edirlər).* Müəllim əvvəlcə lövhədə izah edə-edə **Ü** hərfini yazır. Sonra uşaqlardan 2–3 nəfər lövhədə xətt üzrə hərfi çəkir.

**II. M:** "Uşaqlar, bu tapşırıqda xanalarda hərflər yazılıb. Siz həmin hərfləri öyrənmisiniz. Hansı hərflər yazılıb? ***(U,Ü,O,Ö** hərfləri) (Uşaqların cavabları)* Verilmiş hərflərin içərisindən **Ü** hərfini tapın. Digər hərfləri adlandırın. Ü ilə U-nın yazılışında fərq nədədir? Bəs O ilə Ö hərfinin yazılışında fərq nədir? *(Uşaqların cavabları)* Xanaları nümunəyə uyğun rəngləyin."

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** "Bu tapşırıqda xətt üzrə sözlər yazılıb. Sözlərin alt tərəfində isə ütü, üzüm, usta, un şəkilləri təsvir olunub. Xətt üzrə hərfləri yazın. İndi isə sözləri oxuyun. Birinci söz hansıdır? *(ütü) (Uşaqların cavabları)* Bu sözü hansı şəkillə birləşdirmək lazımdır? *(Uşaqların cavabları) (ütü şəkli ilə).* – Bəs ikinci söz hansıdır? *(usta) (Uşaqların cavabları)* Bu sözü hansı şəkillə birləşdirmək lazımdır? *(usta şəkli ilə).*

*Sonra şeir söyləyir:*

| | |
|---|---|
| *"Üzdüm üzümü,* | *Üzüm qurusu* |
| *Üzdüm özümə!* | *Üzümdən dadlı,* |
| *İstəyirsənsə,* | *Qaldıqca olur* |
| *Gəl, üz özünə!* | *Daha faydalı!"* |

**M: –** Bu sözlərdə **Ü** səsi hansı sözdə işlənir? *(Uşaqların cavabları)*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| **Məşğələ 5-6. RİYAZİ VƏ MƏNTİQİ TƏFƏKKÜRÜN İNKİŞAFI**<br>**Mövzu: FƏSİLLƏR VƏ AYLAR** | **16-cı həftə \| FƏSİLLƏR**<br>**Standart:** 2.3.4.<br>**İnteqrasiya:** 2.2.2; 2.2.6. |
|---|---|
| **Məqsəd:** | • 12 ədədini adlandırır.<br>• Həftənin günlərini adlandırır.<br>• Ayları adlandırır və ardıcıllığını müəyyən edir. |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Ayların adları yazılmış tablo, təqvim, karandaşlar. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, vəsaitin yuxarısında nə təsvir olunub? Sizcə, burada söhbət nədən gedə bilər? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, biz sizinlə həftə haqqında öyrənmişik. Gəlin həftənin günlərinin nömrəsini və adlarını təkrar edək. (Birinci gün – bazar ertəsi, ikinci gün – çərşənbə axşamı və s.) Həftədə neçə gün var? *(Yeddi)* Gəlin bunu yoxlayaq. *(Müəllimlə uşaqlar divar təqvimində bunu sayırlar.)* Həftənin günlərini sadalayın". *(Uşaqların cavabları: bazar ertəsi, çərşənbə axşamı, çərşənbə, cümə axşamı, cümə, şənbə, bazar)*

**M:** – "Uşaqlar, həftənin günləri qeyd edilmiş rəngli vərəqləri ardıcıl stolun üzərinə düzün.

– Deyin görək, istirahət günləri necə adlanır? *(şənbə, bazar)* – Bəs iş günləri necə adlanır? *(bazar ertəsi, çərşənbə axşamı, çərşənbə, cümə axşamı, cümə)*– İlin fəsillərini sadalaya bilərsiniz? *(Uşaqların cavabları)* Afərin, indi isə aylarla tanış olacağıq. İndi hansı aydır? *(Uşaqların cavabları)* – Bəs hansı fəsildir? – Havalar necə keçir? İndi isə gəlin, ayları sadalayaq. *(Uşaqların cavabları)*

– Bəli, *payız, qış, yaz, yay* – ilin fəsilləridir.

Dekabr, yanvar, fevral – qış aylarıdır. Mart, aprel, may – yaz aylarıdır.

İyun, iyul, avqust – yay aylarıdır. Sentyabr, oktyabr, noyabr – payız fəslinin aylarıdır”.

**M:** “Mən kömək edəcəyəm, gəlin ayları ardıcıl sayaq. Yanvar – birinci aydır, ilin əvvəlidir. Sizcə, yanvardan sonra hansı ay gəlir? *(Uşaqların cavabları: fevral).* Deməli, fevral ikinci aydır. Bəs üçüncü ay hansıdır? Həmin ayda baharın gəlişini, Novruz bayramını qeyd edirik. *(Uşaqların cavabları: mart)* (Bütün ayların öyrədilməsi üzrə iş aparılır.)

**M:** “Uşaqlar, kitabda birinci tapşırığa baxaq. Sol tərəfdə boş qutular təsvir olunmuşdur. Onların hər birinin yanında isə 12 ayın adı yazılmışdır. Yanvar ayının nümunəsində olduğu kimi, hər ayın sıra nömrəsini müəyyənləşdirib, boş qutuya yazmaq lazımdır.”

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** “Birinci tapşırıqda verilmiş ayları sağ qutudakı nömrələrə əsasən uyğun rəqəmlə birləşdirmək lazımdır. Uşaqlar, 12-dək sayın. İldə neçə ay var? İndi hər bir ayın sıra nömrəsini söyləyin və ayı uyğun rəqəmlə birləşdirin”.

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M:** “Uşaqlar, biz sizinlə ilin fəsillərini öyrənmişik. Fəsilləri saya bilərsiniz? *(Uşaqların cavabları)* Mən sizə bir tapmaca söyləyəcəyəm.

*Bir kişinin 4 evi var*
*Biri yaşıldır, o biri al;*
*Biri sarıdır, o biri ağ. (Fəsillər) (Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** “Uşaqlar, düzdür! Tapmacanın cavabı fəsillərdir. Neçə fəsil var? *(4)* Hansılardır? *(yaz, yay, payız, qış)* Bəs ildə neçə ay var? *(12)* Hansılardır? *(Uşaqların cavabları: yanvar, fevral, mart, aprel, may, iyun, iyul, avqust, sentyabr, oktyabr, noyabr, dekabr)* Uşaqlar, biz bilirik ki, hər fəsil 3 aydan ibarətdir. Hansılardir? *(Uşaqların cavabları)* Gəlin bir daha xatırlayaq:

*Dekabr, yanvar, fevral* – qış aylarıdır. *Mart, aprel, may* – yaz aylarıdır.
*İyun, iyul, avqust* – yay aylarıdır. *Sentyabr, oktyabr, noyabr* – payız fəslinin aylarıdır”.

**M:** “Uşaqlar, birinci tapşırıqda dairə və dairənin kənarlarında 12-dək rəqəm yazılıb. Həmin dairə 12 hissəyə bölünüb. Kiçik dairələrdə rəqəmlər yazılıb. Hər rəqəmin yanında fəslə uyğun ayın adı yazılıb. Diqqətlə baxın, hər 4 hissə müxtəlif rəngdədir. Hansı rənglər verilib? (*mavi, yaşıl, sarı, qırmızı) (Uşaqların cavabları)* – Sizcə, bu rənglər nəyi bildirir? Qış ayları hansılardır? *(Uşaqların cavabları)* Baxın, bu aylar mavi rənglə verilib. Yəni, qışdır, hər tərəf qar, bəyazlıqdır. Qış ayları da mavi rəngdə yazılıb. – Bəs yaz ayları hansılardır? Nə üçün yaz ayları yaşıl rəngdə verilib? *(Uşaqların cavabları)* Bəli, çünki, yazda təbiət oyanır, hər tərəf yaşıllaşmağa başlayır. (*Digər fəsillər üzrə də bu qayda ilə iş aparılır*.) Dairənin kənarlarında qeyd edilmiş rəqəmlərdən bəzilərinin yeri boşdur. Həmin fəslə aid uyğun rəqəmi boş dairəyə yazın”.

**II. M:** “İkinci tapşırıqda sarı çərçivələrdə 1-dən 12-dək ədədlər verilib. Mavi çərçivələrdə ayların bəzi hərfləri yazılıb. Gəlin, ay adlarını oxuyaq.” Ayın adları oxunduqca bu ayın neçənci olduğunu göstərən uyğun ədədlərlə birləşdirilir.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** “Bu tapşırıqda sol və sağ çərçivələrdə ayların adları verilib. Ayların baş hərfləri və eyni hərflə başlayan ikinci ay olduqda, həmin ayın sonuncu hərfi də verilib. Bunlara əsasən ayı adlandırın. Ayların ətrafında isə 12 dairəsində müxtəlif rəqəmlər yazılıb. Ayın sırasına uyğun rəqəmi müəyyən edib, ayla birləşdirin”.

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| | **16-cı həftə \| FƏSİLLƏR** |
| **Məşğələ 7–8. TƏSVİRİ FƏALİYYƏT** | **Standart:** 3.1.4; 3.1.3. 3.1.8. |
| **Mövzu:** QAR DƏNƏCİKLƏRİ | **İnteqrasiya:** 1.1.4; 2.2.6. |
| **Məqsəd:** | • Kəsib-yapışdırma üsulu ilə sadə yaradıcılıq bacarıqları nümayiş etdirir.<br>• Sadə yapma bacarıqları nümayiş etdirərək kompozisiya qurur. |
| **İş üsulları:** | Əqli hücum, suallar, süjetli-rollu oyun. |
| **İş forması:** | Kollektiv və fərdi. |
| **Resurslar:** | Şəkillər, plastilin, rəngli karandaşlar, pambıq. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Uşaqlar, bu gün həftənin hansı günüdür? Bu gün hava necədir? Bəs dünən necə idi? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I.** Müəllim uşaqlara şəkillərə baxmağı təklif edir.

**M:** "Uşaqlar, bu şəkildə nə təsvir olunub? *(Uşaqların cavabları: (qarlı hava)* – Necə düşünürsünüz, burada ilin hansı fəsli təsvir olunub? *(Uşaqların cavabları: qış).* Düzdür. Qış fəslidir, qar yağır. Biz bu gün sizinlə pambıqdan bulud və kağızdan qar dənəcikləri düzəldəcəyik. Sonra qar dənəciklərini buludla birləşdirəcəyik". (*Müəllim uşaqlara nümunəni göstərir, sonra isə izah edə-edə düzəldir.*)

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II.** Müəllim plastilindən **BULUD** sözünü düzəltməyi təklif edir. Müəllim məşğələ prosesində onlara istiqamət verir, uşaqların əməkdaşlıq etmələrinə imkan yaradır.

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M:** – Uşaqlar, qar hansı fəsildə yağır? Bəs yayda havalar necə olur? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, indi dediklərinizə əsasən, biz sizinlə plastilindən qar dənəciklər düzəldəcəyik". (*Müəllim uşaqlara nümunəni göstərir, sonra isə izah edə-edə düzəldir. İzahdan sonra uşaqlara işə başlamağı təklif edir.)* İşi tamamladıqdan sonra uşaqlar həmin işarələrə əsasən hava proqnozu verirlər.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**M:** "Uşaqlar, indi isə sizin əl işlərinizə baxaq. *(Uşaqlarla birlikdə işlərə baxaraq, hava haqqında məlumat vermələri üzrə iş aparılır)*

**II. M:** "Xətt üzrə buludu tamamlayın və rəngləyin".

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**16-cı həftə | FƏSİLLƏR**

**Məşğələ 9–10. FİZİKİ MƏDƏNİYYƏT**
**Mövzu: GÜNƏŞ VƏ YAĞIŞ**

**Standart:** 1.1.1.; 1.1.2.
**İnteqrasiya:**. 4.1.2.; 4.2.2.

| | |
|---|---|
| **Məqsəd:** | • Çubuqlarla müxtəlif hərəkətləri yerinə yetirir.<br>• Müvazinət hərəkətlərini yerinə yetirir.<br>• Hərəkətlərində cəldlik və çeviklik nümayiş etdirir. |
| **İş üsulları:** | Müzakirə, süjetli-rollu oyunlar. |
| **İş forması:** | Kollektiv, qruplarla və fərdi iş. |
| **Resurslar:** | Qaytan, gimnastika skamyası, uşaqların sayı qədər çubuq. |

**1 və 2-ci məşğələlər**

**I. İsinmə hərəkətləri** (5 dəq.)
– bir-birinin ardınca adi və əllər yuxarıda pəncə üstə yeriş;
– əllər arxada daban üzərində yeriş, sonra isə pəncələr üstə yüngül qaçış;
– əllər beldə hoppanaraq irəli getmək;
– tənəffüsün bərpası üzrə yeriş.

**II. Ümuminkişafetdirici hərəkətlər** (20 dəq.)

***Çubuqlarla***

**1. "Çubuqları yuxarı qaldır və ona bax".**
ç.v. – düz dayanmaq, ayaqlar çiyin bərabərində aralı, çubuğu aşağıda əldə tutmaq.
*1 sayında* çubuğu yuxarı qaldıraraq ona baxmaq, sağ ayağı pəncə üstə geri qoymaq;
*2 sayında* çıxış vəziyyətini almaq.
*3 sayında* həmin hərəkəti sol ayaqla icra etmək;
*4 sayında* çıxış vəziyyətinə qayıtmaq (6–8 dəfə).

**2. "Çubuqlarla əyilmək"**
ç.v. – düz dayanmaq, ayaqlar çiyin bərabərində aralı, çubuğu aşağıda əldə tutmaq.
*1 sayında* bədəni sağ tərəfə əymək, çubuğu da sağ tərəfə əymək;

*2 sayında* çıxış vəziyyətini almaq.
*3 sayında* həmin hərəkəti sol tərəfə eynilə təkrar icra etmək;
*4 sayında* çıxış vəziyyətinə qayıtmaq (5-6 dəfə).
**3. “Ayağı çubuğa çatdıraq”**
ç.v. – düz dayanmaq, ayaqlar çiyin bərabərində aralı, çubuğu sinə qarşısında tutmaq.
*1 sayında* çubuğu irəli uzatmaqla, sol ayağı çubuğa doğru qaldırmaq;
*2 sayında* çıxış vəziyyətini almaq;
*3 sayında* hərəkəti sağ ayaqla icra etmək;
*4 sayında* çıxış vəziyyətinə qayıtmaq. (5-6 dəfə).
**4. “Çubuqlarla hoppanaq”**
ç.v. – düz dayanmaq çubuğun kənarlarından tutmaqla kürəkdə saxlamaq.
*1 sayında* tullanaraq ayaqları aralı qoymaq;
*2 sayında* hoppanaraq ayaqları birləşdirmək.
*3 sayında* hoppanaraq çubuğu yuxarı qaldırmaq;
*4 sayında* çıxış vəziyyətinə qayıtmaq. (5-6 dəfə).
**5. “Çubuğu gizlət”.**
ç.v. – ayaqlar bir yerdə, çubuq əldə qabaqda aşağıda.
*1 sayında* çöməlmək, çubuğu irəli uzatmaq;
*2 sayında* çıxış vəziyyətini almaq.
*3 sayında* çöməlmək və çubuğu yuxarı qaldırmaq;
*4 sayında* çıxış vəziyyətinə qayıtmaq (5-6 dəfə).
**Əsas hərəkətlər.**
1. Gimnastika skamyasının üzəri ilə iməkləmək.
2. Qollar yanlarda, gimnastika skamyasının üzəri ilə müvazinətini saxlamaqla yerimək.

**Hərəkətli oyun: “Günəş və yağış”.**

Oyunun qaydasına görə, uşaqlar otağın bir tərəfində stullarda əyləşirlər. Stullar onların “evidir”. Müəllimin “Yaxşı havadır, gedin gəzin!” sözlərindən sonra uşaqlar yerlərindən qalxıb, otağın müxtəlif tərəflərində gəzirlər. Müəllimin “Yağış yağır, evə qaçın!” sözündən sonra uşaqlar stullara tərəf qaçaraq, öz yerlərində otururlar. Tədricən yağış sakitləşir və müəllim deyir: “Yağış kəsildi. Gedin gəzin!”. Uşaqlar yenidən müxtəlif tərəflərdə gəzirlər.

**III. Sakitləşdirici hərəkətlər** (5 dəq.)
***“Mən sakitəm”.***
ç.v. – düz dayanmaq, əllər yanlarda.
1. Nəfəsalma – sağ əllə sol əli tumarlamaq;
2. Nəfəsvermə – ç.v.-ni almaq.
3. Nəfəsalma – sol əli ilə sağ əli tumarlamaq;
4. Nəfəsvermə – ç.v.-nə qayıtmaq.
Müəllimin ardınca bir cərgədə sakit yeriş.

| | |
|---|---|
| | **16-cı həftə \| FƏSİLLƏR** |
| **Məşğələ 11-12. MUSIQİ**<br>**Mövzu: FƏSİLLƏR** | **Standart**: 3.1.7; 3.1.8.<br>**İnteqrasiya:** 2.2.2; 4.1.2. |
| **Məqsəd:** | • Musiqinin xarakterini və tempini müəyyən edir.<br>• Xorda oxumaq bacarıqları nümayiş etdirir.<br>• Musiqinin məzmununu ritminə uyğun hərəkətlərlə təsvir edir. |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Kompüter, disk, şəkillər |
| **Musiqi materialları:** | “Marş” (D.Şostakoviç), “Fevral” (“İlin fəsilləri” silsiləsi, P.İ.Çaykovski), “Fəsillər” mahnısı (C.Abbasov/R.Yusifoğlu), “Qar yağır” (Ş.Axundova/M.Seyidzadə), “Nağıl” (“Uşaq lövhələri”, fortepiano silsiləsi, F. Əmirov), “Bahar gəlir” (F.Əmirov/ Z.Cabbarzadə), “Qış mahnısı” (Ə.Cavanşirov/T.Mütəllibov), “Mahnı və rəqs” (C.Cahangirov/M.Seyidzadə),”Qızıl payız” (S.Rüstəmov/M. Seyidzadə) |
| **Alternativ material:** | **Dinləmə:** “Qaranquş” (A.Rzayeva/T.Elçin), “Qaranquşlar gəldilər” (S.Rüstəmov/H.Ziya), “Şaxta baba” (S.Rüstəmov/M.Seyidzadə), “Payız” (R.Şəfəq/Ə.Ağayev)<br>**Mahnı:** “Uşaq və buz” (S.Rüstəmov/M.Ə.Sabir), “Yazda” (R.Şəfəq/T.Elçin) |

## 1-ci məşğələ

**1. Marş.** D.Şostakoviç. “Marş”.

**2. Dinləmə.** Müəllim ilin fəsillərini yada salır, fəsillərin musiqidə tərənnüm olunması və bəstəkarların bu mövzuda yazdıqları musiqi əsərləri haqqında sadə və qısa məlumat verir. Sonra uşaqlara görkəmli rus bəstəkarı P.İ.Çaykovski haqqında danışaraq şəklini göstərir. O, “İlin fəsilləri” silsiləsindən “Fevral” nömrəsini səsləndirir. Bu zaman fevral ayında təbiətdə başverənləri şəkillərdə nümayiş etdirir. Əsəri dinlədikdən sonra müəllim uşaqlara suallarla müraciət edir:

– Uşaqlar, dinlədiyiniz musiqi hansı xarakterdə idi? – Pyes hansı tempdə səsləndi? – Sizcə, musiqi payız fəslini tərənnüm etsəydi, bu musiqinin xarakteri necə olardı? *(Uşaqların cavabları)*

**3. Mahnı.** “Fəsillər” mahnısı (musiqisi C.Abbasovun, sözləri R.Yusifoğlunun) şifahi yolla öyrədilir.

Müəllim mahnının məzmunu haqqında qısa məlumat verir və onu səsləndirir. Uşaqlar dinlədikdən sonra mahnının əvvəl sözləri (şeir mətni) izah olunur, sonra melodiyası hissə-hissə, frazalarla öyrədilir. Tələffüzü çətin olan sözlər və melodiya üzərində iş aparılır. Sonda “Fəsillər” mahnısının öyrənilmiş hissəsi xorla ifa edilir, məzmunu və xarakteri müzakirə olunur.

**4. Musiqili-ritmik hərəkətlər.** “Qar yağır” mahnısı (mus. Ş.Axundovanın, sözləri M.Seyidzadənin) səsləndirilir. Uşaqlar mahnının məzmununu mahnının ritminə uyğun hərəkətləri ilə təsvir etməyə (səhnələşdirməyə) çalışırlar.

Məşğələ ümumiləşdirilərək yekunlaşdırılır.

**Musiqi materialı: “Fəsillər”.**

| | | | |
|---|---|---|---|
| 1. A daşdı, daşdı, daşdı,<br>Qar əridi, su daşdı.<br>Tumurcuqlandı meşə,<br>Baş qaldırdı bənövşə.<br>Yaz gəlir, ay, yaz gəlir,<br>Baş qaldırdı bənövşə. | 2. A yandı, yandı, yandı,<br>Çöllər nura boyandı.<br>Az qalır ki, od yağa,<br>Gərək köçək yaylağa.<br>Yay gəlir, ay, yay gəlir,<br>Gərək köçək yaylağa. | 3. A düşdü, düşdü, düşdü,<br>Yarpaqlar düşdü, düşdü.<br>Soldu çöllər, yamaclar<br>Çılpaqlandı ağaclar.<br>Payız gəldi, a, gəldi,<br>Çılpaqlandı ağaclar. | 4. A dondu, dondu, dondu,<br>Şaxta gəldi, su dondu.<br>Yağış dönüb oldu qar,<br>Düzlər geydi ağ paltar.<br>Qış gəlir, a, qış gəlir,<br>Düzlər geydi ağ paltar. |

## 2-ci məşğələ

**Marş.** “Marş” (D.Şostakoviç).
**Mahnı.** “Fəsillər” mahnısı (C.Abbasov/R.Yusifoğlu)
**Səhnələşdirmə. “İlin fəsilləri”** (resurs: hər fəsilə aid atributlar).

| № | Musiqi materialı | Fəaliyyət |
|---|---|---|
| 1 | “Nağıl” | Baba ətrafında uşaqlar oturub söhbət edir. |
| 2 | “Bahar gəlir” | Baba qollarını yelləndir, 4 quş uçur, uşaqlar yaz fəslində təbiətdə baş verən hadisələri hərəkətləri ilə təsvir edirlər: quşlar uçur, güllər açır, kəpənəklər güllərin ətrafında fırlanırlar və s. |
| 3 | “Mahnı və rəqs” | Baba qollarını yelləndir, 4 quş uçur, uşaqlar yay fəslində təbiətdə baş verən hadisələri hərəkətləri ilə təsvir edirlər. |
| 4 | “Qızıl payız” | Baba qollarını yelləndir, 4 quş uçur, uşaqlar payız fəslində təbiətdə baş verən hadisələri hərəkətləri ilə təsvir edirlər. |
| 5 | “Qış mahnısı” | Baba qollarını yelləndir, 4 quş uçur, uşaqlar qış fəslində təbiətdə baş verən hadisələri hərəkətləri ilə təsvir edirlər. |

*BURAXILIŞ MƏLUMATLARI*

*“Məktəbə hazırlaşırıq” məktəbəhazırlıq qrupları üçün dərsliyin metodik vəsaiti (1-ci hissə)*

**Tərtibçi heyət:**

Müəlliflər: **Laləzar Cəfərova**
**Kamran Salayev**
**Ülkər Nurullayeva**
**Şəhla Quliyeva**

Layihə rəhbəri **Zaur İsayev**

Bədii redaktor **Taleh Məlikov**
Texniki redaktor **Zeynal İsayev**
Dizayner **Taleh Məlikov**
Rəssamlar **Elmir Məmmədov**
Korrektor **Aqşin Ələddinoğlu**

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi (2019-130)**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi 14,7. Fiziki çap vərəqi 16,5. Səhifə sayı 132.
Kağız formatı 57x82 1/8. Tiraj 4829. Pulsuz. Bakı – 2019

“Çaşıoğlu” mətbəəsi
Bakı ş. M.Müşfiq küç., 2 A.